ISSN 2410-4108

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI
AZƏRBAYCAN ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏR AKADEMİYASI

# ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR

## Elmi-praktik jurnal

# № 1 (11)

BAKI – 2019

**BAŞ REDAKTOR:**
**Hüseyn Qaraşov,** *sosiologiya üzrə elmlər doktoru, professor*

**BAŞ REDAKTORUN MÜAVİNİ:**
**Fəhrad Möhbalıyev,** *iqtisad üzrə fəlsəfə doktoru, dosent*

**MƏSUL KATİB:**
**Zeynəddin Şabanov,** *fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*

**REDAKSİYA HEYƏTİ:**

i.e.d., professor Səttar Möhbalıyev - Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri

sos.e.d., professor Hüseyn Qaraşov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru, baş redaktor

i.e.d., professor Ramiz İsgəndərov - Azərbaycan Texniki Universitetinin "Sənaye iqtisadiyyatı və menecment" kafedrasının müdiri

i.e.d., professor Tərbiz Əliyev - AMEA İqtisadiyyat İnstitutunun "Sahibkarlıq və inhisarçılığın tənzimlənməsi problemləri" şöbəsinin müdiri

fəl.e.d., professor İlham Məmmədzadə - AMEA Fəlsəfə İnstitutunun direktoru

tarix e.d., professor Vəkil Həsənov - Azərbaycan Dövlət İqtisad Universitetinin "Ümumi humanitar fənlər" kafedrasının müdiri

sos.e.d., professor Rafael Həsənov – Bakı Dövlət Universitetinin "Sosiologiya" kafedrasının müdiri

i.f.d., dosent Fəhrad Möhbalıyev - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Tədris və elmi işlər üzrə prorektoru, baş redaktorun müavini

i.f.d., dosent Əsgər Əliyev - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "İqtisadiyyat" fakültəsinin dekanı

i.f.d., dosent Hicran Mirzəyeva - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Maliyyə" fakültəsinin dekanı

i.e.d. Vilayət İsmayılov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "İqtisadiyyat və idarəetmə" kafedrasının müdiri

fəl.f.d., dosent Zeynəddin Şabanov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Sosial tərəfdaşlıq, Həmkarlar ittifaqı hərəkatı və humanitar fənlər" kafedrasının müdiri, məsul katib

i.f.d., dosent Raziyyə Maniyeva - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Həmkarlar ittifaqları kadr və fəallarının ixtisasartırma və yenidən hazırlanması" şöbəsinin müdiri

*Azərbaycan Respublikası, Bakı şəhəri, Azadlıq pr.181,*
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası*
*Tel.: (050)631-57-90; e-mail: jurnal@aesma.edu.az*
*Jurnal Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının*
*Elmi Şurasının qərarı ilə çap olunur (№11, 28.06.2019).*
*Jurnal Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Qeydiyyat № 3883. 07.05.2014*

# MÜNDƏRİCAT

## HUMANİTAR VƏ SOSİAL ELMLƏR


**Hüseyn Qaraşov**

Davamlı inkişaf məqsədlərinin həyata keçirilməsinə doğru ………… 5

**Ağasəlim Həsənov**

Fərd – cəmiyyət münasibətlərinə dair ……………………………... 12

**Zeynəddin Şabanov**

İdarəetmə cəmiyyətin mənafelərinin həyata keçirilməsi mexanizmi kimi …………………………………………………………………... 18

**İlham Soltanov**

Şəxsiyyət azadlığı və humanizm …………………………………….. 44

**Həcər Abdallı**

Azərbaycan cəmiyyətində ailə dəyərləri …………………………... 53

**Mahrux Abbas**

Hanna Arendtin müasirlik konsepsiyası …………………………... 61

**Könül Şəkiyeva**

Elektron hökümətin nəzəri əsasları ………………………………... 69


## İQTİSADİYYAT VƏ İDARƏETMƏ


**Fəhrad Möhbalıyev**

Bazar iqtisadiyyatı şəraitində iqtisadi artımın təmin edilməsində dayanıqlı inkişafın sosial-iqtisadi amillərinin rolu …………………... 77

**Vilayət İsmayılov**

Azərbaycanda beynəlxalq turizmin reytinqi və inkişaf perspektivləri 85

**Zakir Əlizadə**

Kənd təsərrüfatı məhsullarının istehsalının şaxələndirilməsi problemləri ………………………………………………………… 93

**Tahir Baxşəliyev**

Sığorta müəssisəsində auditin spesifik xüsusiyyətləri ……………….. 100

**Təranə Vəliyeva**

İKT-nin rəqəmsal iqtisadiyyata tətbiqi ………………………………. 106

**Nicat Musayev**

Müalicə-sağlamlıq turizminin inkişaf etdirilməsi istiqamətləri ……… 113

**Təranə Əhmədova**

Kommersiya banklarında maliyyə nəticələrinin təhlili ………………. 122

# HUMANİTAR VƏ SOSİAL ELMLƏR

**UOT-316.35**

**Hüseyn Qaraşov**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,**
**sosiologiya elmləri doktoru, professor**
**jurnal@aesma.edu.az**

## DAVAMLI İNKİŞAF MƏQSƏDLƏRİNİN HƏYATA KEÇİRİLMƏSİNƏ DOĞRU

*Məqalədə davamlı inkişafın məqsədləri barədə ətraflı məlumat verilir, bu məqsədlərə çatmaq üçün Azərbaycanda həyata keçirilən islahatlar geniş təhlil olunur. Bildirilir ki, həmin məqsədlərə nail olmaq üçün ölkəmizdə həm dövlət, həm də qeyri-hökumət təşkilatları səviyyəsində sanballı işlər görülür, insanların rifahının daha da yaxşılaşması üçün beynəlxalq təcrübəyə müraciət olunur.*

***Məqsəd*** **-** davamlı inkişaf məqsədlərinin həyata keçirliməsi yollarının təhlili

***Metodologiya*** **-** tarixi və müqayisəli təhlil

***Tədqiqatın nəticələri*** **-** davamlı inkişafın məqsədlərinə nail olmaq üçün yeni təkliflər irəli sürülür

***Açar sözlər:*** davamlı inkişaf məqsədləri, cəmiyyət, rifah, həmkarlar təşkilatı, iqtisadiyyat, insan kapitalı, ekoloji təhlükəsizlik, məşğulluq

### Giriş

Davamlı inkişaf gələcək nəsillərin öz ehtiyaclarını qarşılamaq imkanına xələl gətirmədən, bugünkü ehtiyacların qarşılanmasına imkan verən inkişafdır. Davamlı inkişaf, eyni zamanda, bəşəriyyətin ən müasir, mütərəqqi, gələcək nəsillərin tələblərini nəzərdə tutan, onların imkanlarını məhdudlaşdırmayan, insan potensialı və kapitalını, yeni biliklərin səfərbər olunmasını əsas şərt kimi qəbul edən, ətraf mühitin mühafizəsini və yaxşılaşdırılmasını nəzərdə tutan inkişaf yoludur.

Davamlı inkişaf insanlar üçün möhkəm əsaslı gələcək qurmaq üçün birgə razılaşdırılmış səylər göstərməyə çağırır. Davamlı inkişafa nail olmaq üçün, üç təməl element bir-biri ilə uzlaşdırılmalıdır: iqtisadi artım, inklüziv cəmiyyət və ətraf mühitin mühafizəsi. Bu elementlər bir-biri ilə qarşılıqlı əlaqəlidir və hamısı fərdlərin və cəmiyyətlərin rifahı üçün vacibdir. Yoxsulluğun bütün formalarının və ölçülərinin aradan qaldırılması davamlı inkişaf üçün inkarolunmaz şərtdir (1, s.15). Buna nail olmaq üçün, hamı üçün daha böyük imkanlar yaradan, bərabərsizlikləri azaldan, ilkin yaşayış standartlarını yüksəldən, ədalətli sosial məsələlərdə və əlçatarlığa şərait yaradan, təbii ehtiyatların və ekosistemlərin davamlı şəkildə idarə olunmasına şərait yaradan və hər kəs üçün bərabər imkanlar yaradan iqtisadi artım təşviq olunmalıdır.

Müasir dünyada təbiət – cəmiyyət münasibətlərinin kəskinləşməsi artıq BMT-nin və bütün nüfuzlu beynəlxalq təşkilatların və dünya ölkələrinin narahatlığına və təşvişinə səbəb olmuşdur. Doğrudan da bu gün təbiətə göstərilən təsirlər, ona vurulan ağır zərbələr ekosistemlərin, biosferin, ətraf mühitin və onun amillərinin təbii və normal ahəngini ağlasığmaz dərəcədə pozmuş və bəşəriyyətin həyatını təhlükə qarşısında qoymuşdur. İnsan fəaliyyətinin biosferə, ekosistemlərə göstərdiyi neqativ təsirlər, təbiət – cəmiyyət

münasibətlərinin müasir vəziyyəti, sosial-iqtisadi məsələlər, cəmiyyətin hazırki problemləri və s. qlobal və planetar əhəmiyyətli məsələlərdir. Qeyd etmək lazımdır ki, XX əsr insanın təbiətə, onun sərvətlərinə qəddar münasibət bəslədiyi dövr kimi bəşəriyyətin tarixinə qara səhifə ilə həkk olunub: məsələn XX əsrdə kosmik fəzadakı tədqiqatlar və süni peyklərin buraxılması, I və II dünya müharibələri, fabrik, zavod, və s. istehsal müəssisələrinin tullantılarının çoxalması, kənd təsərrüfatında işlədilən kimyəvi preparatlar atmosferə mənfi təsiri, ekoloji tarazlığın pozulması, ətraf mühitin çirklənməsi nəticəsində müxtəlif xəstəliklərin çoxalması müşahidə edilir. Bir sözlə, təbiətə və onun sərvətlərinə çox güclü zərbələr endirilib, okean, dəniz, göl və çaylar zəhərli və zərərli kimyəvi maddələrlə çirklənib. Qeyd olunanlar Davamlı İnsan inkişafına olduqca neqativ təsir göstərən başlıca amillər hesab olunur (1, s.22-23).

Dünyəvi dövlət quruculuğunu həyata keçirən Azərbaycanın beynəlxalq nüfuzu getdikcə artır və geostrateji əhəmiyyəti yüksəlir. Hazırda dünyada gedən qloballaşma prosesində fəal iştirak edən respublikamızın Şərq və Qərb arasındakı münasibətlərin inkişafında da rolu yüksəlir. Son illərdə respublika rəhbərliyinin uğurla həyata keçirdiyi neft strategiyası və ölkəmizin beynəlxalq enerji layihələrinin reallaşmasındakı iştirakı buna sübutdur. Bu baxımdan Ümummilli liderimiz H.Əliyev hələ 2000-ci ildə Minilliyin Zirvə Görüşündəki öz çıxışında qloballaşma prosesində Azərbaycanın regionda geostrateji əhəmiyyətindən bəhs edərək demişdir: “Azərbaycan qloballaşmanın inkişafına müsbət mənada öz töhfəsini verir. Mənim ölkəm dünya miqyasında geostrateji əhəmiyyətə malik öz coğrafi mövqeyindən, ehtiyatlarından və potensialından istifadə edərək Şərq ilə Qərb arasında zəngin tarixi keçmişdən başlanan və gələcəyə istiqamətlənən körpü rolunu səmərəli surətdə həyata keçirir. Biz Böyük İpək yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılması və Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının hasilatı və dünya bazarlarına nəqli üçün çox böyük səylər göstəririk”(1,s.15).

Davamlı İnsan İnkişafı probleminin getdikcə aktuallaşdığını nəzərə alan Respublika rəhbərliyi BMT İnkişaf Proqramının tövsiyəsinə əsaslanaraq BMT-nin Rio konfransı (1992), Minilliyin Forumu (2000), Yohannesburq Sammitində (2002) qəbul edilmiş beynəlxalq sənədlərdən irəli gələn öhdəliklərin yerinə yetirilməsi məqsədi ilə bu problemi hökümət siyasətinin prioritetinə çevirmək istiqamətində ciddi tədbirlər görməyə başlamışdır. Bu tədbirlərdən biri Azərbaycan xalqının ümummilli liderinin 2 mart 2001-ci il tarixli, 636 saylı sərəncamına əsasən «Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı»nın hazırlanmasıdır. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 25 oktyabr 2002-ci il tarixdə bu proqramın təqdimatına həsr olunmuş Ümummilli konfrans keçirilmişdir.

Ulu Öndər H.Əliyevin 26 dekabr 2001-ci il tarixli 612 saylı Fərmanının 19-cu bəndinə əsasən Azərbaycanda Davamlı İnkişaf üzrə Milli Hesabat hazırlanmış və 2002-ci il 18 iyul tarixində bu hesabatın ictimaiyyətə təqdimatı keçirilmişdir. Bununla yanaşı, ölkədə təbii ehtiyatlardan səmərəli istifadə edilməsi və ətraf mühitdə ekoloji tarazlığın qorunmasını təmin etmək məqsədi ilə Ümummilli Lider «Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair Milli Proqram» və «Azərbaycan Respublikasında meşələrin bərpa edilməsinə və artırılmasına dair Milli Proqram»ın təsdiq edilməsi haqqında 19 fevral 2003-cü il tarixli sərəncam imzalamışdır(3, s.14). Nəhayət, Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Respublika Nazirlər Kabineti «Azərbaycanda Davamlı İnsan İnkişafı strategiyası»nın hazırlanması haqqında 30 oktyabr 2001-ci il tarixli, 198 saylı sərəncam imzalamışdır. Qeyd olunan bütün direktiv sənədlər Davamlı İnsan İnkişafının strateji istiqamətlərinin hazırlanmasında mühüm hüquqi və metodoloji baza rolu oynayır (1,s.19-20).

XXI əsrdə təbiətə, onun sərvətlərinə mənfi münasibət sanki özünün kulminasiya nöqtəsinə çatmışdır. İnsan fəaliyyətinin biosferə güclü negativ təsiri bioloji müxtəlifliyə çox böyük sarsıdıcı zərbə vurmuş və bəşəriyyətin ümumi inkişafına tormozlayıcı təsir göstərmişdir. Qeyd olunan negativ təsirlər məhz Davamlı İnsan İnkişafı (DİI) konsepsiyasının formalaşdırılmasına zəmin yaratmışdır. Davamlı İnsan İnkişafının başlıca məqsədi və vəzifəsi «gələcəksiz inkişafın» və «bərabərsizliklə müşayət olunan inkişafın» qarşısının alınması və onunla ciddi mübarizə aparılmasından ibarətdir.

Bəşəriyyətin XXI əsrdə ən başlıca prioriteti sayılan Davamlı İnsan İnkişafının əsas prinsipləri, hazırkı nəsillərin həyat, yaşayış mühitini və rifahını yüksək səviyyədə təmin etməklə, gələcək nəsillərin inkişaf imkanlarını məhdudlaşdırmamaq, yeraltı və yerüstü təbii resurslardan istifadə zamanı rasionallığa, effektliyə riayət etməklə onların resurs paylarına toxunmamaq və onları qoruyub saxlanmaqdan ibarətdir. Bu həyati və vacib əhəmiyyətli məsələyə Ulu Öndər Heydər Əliyev həmişə çox önəmli yer verərək onu yüksək dəyərləndirmişdir. Ümummilli lider təbii ehtiyatlardan, xüsusilə bərpa olunmayan sərvətlərdən istifadənin rasionallığına, sənayenin, kənd təsərrüfatının, sosial xidmət sferalarının diversifikasiyasını, idarəetmənin və istehsalın optimallaşmasını, yeni, müasir və elmi cəhətdən əsaslandırılmış texnologiyalardan geniş istifadə olunmasını, onlara üstünlük verilməsini Davamlı İnsan İnkişafının prioriteti kimi tövsiyə edirdi.

BMT-nin 2015-ci ilin sentyabr ayında keçirilən tarixi sammitində dünya liderləri tərəfindən qəbul edilmiş “2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik”də əks olunan Dayanıqlı İnkişaf Məqsədləri 1 yanvar 2016-cı il tarixində rəsmi şəkildə qüvvəyə minib. Hər kəsi əhatə edən və universal xarakter daşıyan bu yeni məqsədlər fonunda, qarşıdakı on beş il ərzində ölkələr “heç kəsi kənarda qoymamaq” prinsipini rəhbər tutaraq, yoxsulluğun bütün formalarına son qoymaq, bərabərsizliklərə qarşı tədbirlər görmək və iqlim dəyişikliyi ilə mübarizə aparmaq məqsədilə bütün səylərini səfərbər edəcəklər. “Qlobal Məqsədlər” kimi də tanınan Dayanıqlı İnkişaf Məqsədləri Minilliyin İnkişaf Məqsədlərinin (MİM-lər) əldə etdiyi nəticələrə əsaslanır və daha da irəli gedərək, yoxsulluğun bütün formalarının aradan qaldırılmasını hədəfləyir.

Yeni Dayanıqlı İnkişaf Məqsədlərin özünəməxsusluğu onların bütün ölkələri, o cümlədən yoxsul, zəngin və orta gəlirli ölkələri planetin mühafizəsini təmin etmək şərtilə, tərəqqini təşviq etmək üçün tədbirlər görməyə səsləməsində əks olunur. Dayanıqlı İnkişaf Məqsədləri təsdiq edir ki, yoxsulluğun aradan qaldırılması iqtisadi artımın təmin edilməsinə yönələn strategiyalarla əlaqəli şəkildə həyata keçirilməlidir. Onlar təhsil, sosial müdafiə və məşğulluq imkanları da daxil olmaqla geniş spektrli sosial ehtiyacları və bununla yanaşı, iqlim dəyişikliyi ilə mübarizə və ətraf mühitin mühafizəsini ön plana çəkir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 6 oktyabr 2016-cı il fərmanı ilə yaradılmış Dayanıqlı İnkişaf üçün Milli Əlaqələndirmə Şurası müntəzəm olaraq müvafiq istiqamətdə zəruri tədbirlər həyata keçirir. Ümumiyyətlə, dayanıqlı inkişaf məsələləri ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları inkişaf prosesində reallaşır və sosial-iqtisadi sahələri əhatə edən dövlət proqramları Dayanıqlı İnkişaf Məqsədləri ilə uzlaşdırılır. Səhiyyə, təhsil və əmək bazarlarının inkişafı ölkədə inklüziv sosial siyasətin həyata keçirilməsinə töhfə verir, icbari tibbi sığortanın tətbiqinə başlanmasının müvafiq məqsədlərin icrasının təmin olunmasına, yoxsulluğun azaldılmasına, insan kapitalının inkişafına xidmət edir(4).

2018-ci ilin may ayında Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasında “Dayanıqlı İnkişaf Məqsədlərinə doğru: davamlı inkişaf və layiqli əməyin təbliği” mövzusunda keçirilən beynəlxalq konfransda AHİK-in sədri professor Səttar Möhbalıyev ölkəmizdə aparılan iqtisadi islahatların əsasında rifah amilinin, insan kapitalının yüksək inkişaf

səviyyəsinə nail olunmasının dayandığına toxunaraq layiqli əməyin təmin edilməsi, qeyri-formal məşğulluğun aradan qaldırılması, sosial ədalətin, işçilərin əmək və sosial hüquqlarının qorunması, əhalinin yaşayış səviyyəsinin yüksəlməsi, bazar iqtisadiyyatının təşəkkül tapması, sahibkarlığın inkişafını təmin edən əlverişli mühitin yaradılması istiqamətində bir sıra uğurların əldə edildiyini bildirib. Eyni zamanda gənclər arasında işsizliyin aradan qaldırılmasını, uşaq əməyindən istifadənin bütün formalarından imtina edilməsini, qeyri-formal iqtisadiyyatın nizamlanmasını, sahibkarlığın stimullaşdırılmasını, kiçik və orta sahibkarlığın inkişafını, etibarlı, təhlükəsiz iş şəraitinin yaradılmasını, əmək miqrasiyası məsələlərini əsas prioritet kimi nəzarətdə saxlandığı qeyd olunub(5).

Dayanıqlı İnkişafın 8-ci Məqsədinin, yəni, tam və məhsuldar məşğulluğa, hər kəs üçün layiqli əməyə nail olunmasının Azərbaycanda həyata keçirilən uğurlu dövlət siyasətinin əsas məqsədlərindən biri olduğu, bu istiqamətdə ölkəmizdə mühüm addımlar atılır(6, s.125). Son illər ölkəmizdə 1,9 milyon yeni iş yeri açılıb və hər il 1,1-1,2 faiz əhali artımı qeydə alınır. Bu isə o deməkdir ki, ölkəmizin əmək bazarına hər il 100 min yeni iş qüvvəsi daxil olur (11) və onların məşğulluğunun təmin edilməsi üçün lazımi tədbirlər görülməlidir.

Hazırda dünya əhalisinin 800 milyon nəfəri yoxsulluq həddindən aşağı səviyyədə yaşayır, hər 20 uşaqdan biri layiqincə təhsil ala bilmir. Bu gün şəhərlə kənd arasında tarazlıq pozulur, qadınların iş şəraitində çətinliklər, ekoloji sahədə iqlim dəyişikliklərində baş verən kataklizmlər bir sıra problemlər yaradır. Lakin bütün bunlara baxmayaraq, ölkəmizdə Dayanıqlı İnkişaf Məqsədlərini ifadə etməklə həyata keçirilən uğurlu sosial-iqtisadi siyasət nəticəsində son illər ərzində minimum əməkhaqqı 5,2, orta aylıq əməkhaqqı isə 6,6 dəfə artıb, əhalinin maddi rifah halı yüksəlib, təhsilə diqqət daha da artırılıb. Xüsusi qeyd etmək lazımdır ki, yoxsulluğun səviyyəsi 49 faizdən 5 faizə enib, qısa müddət ərzində iqtisadiyyata 230 milyarddan artıq vəsait qoyulub və onların xeyli hissəsi xarici sərmayədarlar tərəfindən yatırılıb (7,s.34).

Azərbaycanda siyasi və iqtisadi sabitlik bərqərar edildikdən sonra bazar iqtisadi modelinin tələblərinə uyğun dayanıqlı iqtisadi inkişafa nail olmaq üçün 200-dən çox proqram xarakterli və strateji əhəmiyyətli dövlət sənədləri qəbul edilmiş və həyata keçirilmişdir. Bütün bunların nəticəsində 2000-2017-ci illər ərzində Ümumi Daxili Məhsul (ÜDM) real ifadədə 15 dəfə, sənaye məhsullarının həcmi isə 11 dəfə artmışdır. Həmin dövrdə əhalinin orta aylıq əmək haqqı 12 dəfə çoxalmışdır. Son 17 il ərzində xarici ticarətin coğrafiyası genişlənmiş, onun əmtəə strukturu əsaslı şəkildə təkmilləşdirilmiş, müsbət saldo təmin edilmişdir. Bu dövrdə Azərbaycan dünyanın 190-a yaxın ölkəsinin firmaları ilə xarici ticarət əməliyyatları aparmış, qeyri-neft ixracı 5 dəfəyə yaxın artmışdır(7, s.288).

Ölkədə aparılan sistemli iqtisadi islahatlar kontekstində ətraf mühitin mühafizəsi və təbii resurslardan səmərəli istifadə məsələlərinə diqqət əsaslı şəkildə artırılmışdır. Əgər 2000-ci ildə həmin məqsəd üçün əsas kapitala 1,7 milyon man. sərf edilmişdirsə, 2017-ci ildə həmin göstərici 117,4 milyon manata çatdırılmışdır (7, s.366).

Sahibkarlığın inkişafı, biznes mühitinin daha da yaxşılaşdırılması Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi iqtisadi inkişaf ştrategiyasının əsas və prioritet istiqamətlərindəndir. Dövlət proqramlarının qəbulundan ötən müddət ərzində ölkədə sahibkarlığın dinamik inkişaf etdirilməsi və genişləndirilməsi, sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi və onların hüquqlarının etibarlı müdafiə mexanizmlərinin yaradılması istiqamətində kompleks tədbirlər həyata keçirilmiş, ölkədə güclü özəl sektor formalaşmış, biznes və investisiya mühiti daha da yaxşılaşmış, sahibkarların sayı artaraq ölkə iqtisadiyyatının aparıcı qüvvəsinə çevrilmişdir. Görülən işlərin nəticəsində artıq 2017-

ci ildə özəl bölmənin payı ümumi daxili məhsulda 84 faiz, məşğulluqda 75,8 faiz olmuş, dövlət qeydiyyatına alınmış sahibkarlıq subyektlərinin sayı 913 mini keçmişdir ki, onların da 67,2 faizi regionların payına düşür (7, s.146).

Ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olunması məqsədilə 2004-cü ildən başlanmış tədbirlərin və üç regional inkişaf proqramının uğurlu icrası nəticəsində ölkədə makroiqtisadi göstəricilərin səviyyəsində yüksək artım əldə edilmiş, sosial-iqtisadi inkişaf sahəsində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi əhalinin həyat səviyyəsinin daha da yüksəlməsində mühüm rol oynamışdır (11).

Azərbaycan Respublikasının uzunmüddətli inkişaf strategiyası ölkənin regionlarının dayanıqlı və tarazlı inkişafının təmin olunmasını, o cümlədən yerlərdə dayanıqlı inkişaf prinsiplərinə əsaslanan rəqabətqabiliyyətli iqtisadiyyat, yüksək standartlara cavab verən sosial rifah, təbii resursların səmərəli istifadəsini və ətraf mühitin etibarlı mühafizəsini təmin edən ekoloji təhlükəsizlik sisteminin formalaşdırılmasına imkan verən əlverişli mühit yaratmağı nəzərdə tutur(8, s.78). Bütün bunlar isə - davamlı inkişafın üç təməl elementinin – makro və mikro iqtisadi artımın, sağlam cəmiyyətin və ətraf mühitin mühafizəsinin – bir biri ilə uzlaşdırılmasını tələb edir. Buna nail olmaq üçün ölkənin iqtisadi fəaliyyət sahələrində, xüsusilə sənayedə mövcud ehtiyat imkanlarından maksimum və səmərəli istifadə edilməlidir. Araşdırmalar göstərir ki, həmin ehtiyat imkanları kifayət qədərdir və onların bir qismini ümumi şəkildə aşağıdakı kimi xarakterizə etmək olar:

-Hazırda ölkədə fəaliyyət göstərən 2600-ə yaxın sənaye müəssisəsinin 60%-i kiçik, 30%-i orta və 10%-i isə iri müəssisələrdir;

-Sənayedə innovasiya məhsulunun xüsusi çəkisi 2017-ci ildə 0,004% təşkil etmişdir və astana həddindən (15%) olduqca aşağıdır;

-İstehsalçı müəssisələrin anbarlarında hazır məhsul ehtiyatı (qalığı) 2014-2017-ci illərdə 146% artaraq 534 milyon manata çatmışdır. Bütün qalıq məhsulun 60%-i emal sənayesinin payına düşür;

-Təkcə 2013-2017-ci illərdə ölkə sənayesində işçi axıcılığının səviyyəsi 5,2 punkt artaraq 18,1%-ə, emal sənayesində isə 7,8 punkt artaraq 22,4%-ə çatmışdır ki, bu da beynəlxalq təcrübədə nəzərdə tutulan astana həddindən 4-5 dəfə çoxdur;

-2017-ci ildə bütün iqtisadi fəaliyyət sahələri üzrə yaranan 27,4 milyard man. mənfəətin 22,5 mlrd. manati və ya 82,1%-i sənaye üçün xarakterik olmuş, lakin emal sənayesində onun xüsusi çəkisi 2,6% təşkil etmişdir;

-Azərbaycanda 6000 peşə vardır, lakin onların yalnız bir mini və yaxud 16,7 %-i standartla təmin edilmişdir;

-2015-2017-ci illərdə müxtəlif səbəblərdən 2133 müəssisə ləğv edilmişdir. Onlardan 1300 kiçik, 250-si isə xarici və müştərək müəssisələrdir. Ayrı-ayrı illərdə ləğv edilən xarici və müştərək müəssisələrin xüsusi çəkisi 14-17% arasında dəyişmişdir. Ləğv edilən həmin müəssisələrdə məhsul itkisi ÜDM-ə 3,2% mənfi təsir göstərmişdir(9).

Davamlı inkişafa nail olmaq üçün iqtisadiyyat möhkəm təmələ əsaslanmalı, iqtisadi göstəricilər artırılmalı, sərmayələr genişləndirilməlidir. Müasir şəraitdə iqtisadiyyatı inkişaf etdirmək üçün klasterlərdən istifadə artırılmalıdır. Professor T.Əliyev yazır ki, klaster – coğrafi əlamətlərinə görə uzlaşan və sıx kooperasiya əlaqəsində olan, istehsalın səmərəliliyinə və fasiləsizliyinə təminat yaradan, innovativ inkişafına təkan verən, rəqabət qabiliyyətli məhsul istehsal etməyə hədəflənən, kommunikasiya və qarşılıqlı dialoq imkanlarına malik olan kiçik, orta və iri sahibkarlıq subyektlərinin, dövlət (özəl, qeyri-hökumət) elmi və təhsil təşkilatlarının, maliyyə qurumlarının, standartlaşdırma

orqanlarının, logistika sisteminə daxil olan şəbəkələrin, ticarət birliklərinin təmərküzləşməsi üzrə mütərəqqi idarəetmə forması və innovasiya infrastrukturudur(9).

Respublikamızda klasterləşmə prosesinin genişləndirilməsinin vacibliyi "Azərbaycan-2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında, ölkədə sənayenin inkişafına dair Dövlət Proqramında və bir sıra Strateji Yol Xəritələrində iqtisadi inkişafın prioritet istiqaməti kimi qeyd edilmişdir(10).

"Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə qeyd olunub ki, universitet klasterlərinin yaradılması nəticəsində "təhsil-tədqiqat-innovasiya" zəncirinin səmərəliliyini artırmaq, ali təhsil sisteminin keyfiyyətinin yüksəldilməsi nəticəsində yüksək ixtisaslı insan kapitalı və intellektual və potensial formalaşacaq, əmək məhsuldarlığı artacaqdır (12). Belə klasterlərin yaradılması nəticəsində elmi nəticələrin istehsalata tətbiqi stimullaşdırılacaq, "təhsil-elm-istehsal" əlaqələrinin səmərəliliyi yüksələcəkdir.

Azərbaycan Respublikasında davamlı inkişaf məqsədlərinə nail olmaq üçün aparılan tədbirlər daha da sürətlənib, qarşıya qoyulan məqsədə nail olmaq üçün zəruri qüvvələr səfərbər olunur və bu zaman dünya praktikasından bəhrələnmələr öz müsbət nəticəsini göstərir.

**İstifadə edilmiş ədəbiyyat**


1. Hüseynov S.Y. Davamlı İnsan İnkişafının strateji istiqamətləri. Bakı, 2003
2. Əsgərov Ə, Hüseynov, E., Hüseynov S. Davamlı İnsan İnkişafı. Bakı, 2009
3. Alıyev İ., Hüseynov S., Əsədov A. Milli iqtisadiyyat modernləşmə və davamlı inkişaf. Bakı, 2012
4. www. president az.
5. www. ahik.az
6. Ələkbərov U. Davamlı İnsan İnkişafının əsasları. Bakı, 2007
7. Azərbaycanın statistik göstəriciləri, Bakı, 2018
8. Azərbaycanın sənayesi. Bakı, 2018
9. Əliyev T. Dayanıqlı iqtisadi inkişafda klasterlərin rolu//www.economics.com.az
10. "Azərbaycan -2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. Bakı, 2012
11. Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üzrə Dövlət Proqramı. Bakı, 2015
12. Milli iqtisadiyyatın perspektivi üzrə Strateji Yol Xəritəsi. Bakı, 2016


**Гусейн Гарашов**

**НА ПУТИ К ДОСТИЖЕНИЮ ЦЕЛЕЙ УСТОЙЧИВОГО РАЗВИТИЯ**

**Резюме**


В статье дается подробная информация о целях устойчивого развития, широко анализируются реформы, осуществляемые в Азербайджане для достижения этих целей. Указывается, что для реализации этих целей в нашей стране, как государством, так и на уровне неправительственных организаций ведутся основательные работы, для дальнейшего улучшения благосостояния людей обращаются к международному опыту.

**Цель -** анализ путей осуществления целей устойчивого развития.

**Методология -** исторический и сравнительный анализ

**Результат -** формулируются новые предложения для достижения целей устойчивого развития.

**Ключевые слова:** цели устойчивого развития, общество, благосостояние, организация профсоюз, экономика, человеческий капитал, экологическая безопасность, занятость

**Hussein Qarashov**

## TOWARD THE IMPLEMENTATION OF SUSTAINABLE DEVELOPMENT GOALS

### Summary

The article gives a wealth of information about the objectives of sustainable development, and the reforms implemented in Azerbaijan are widely analyzed. It is reported that in order to achieve these goals, considerable work is carried out both at the state and non-governmental organizations in our country and appeal to international experience for the betterment of people's welfare.

**Purpose -** The ways of in analysis in the implementation of sustainable development goals

**Methodology -** historical and comparative analysis

**Findings -** new proposals are being made to achieve the goal of sustainable development

**Keywords:** sustainable development goals, community, welfare, trade union, economy, human capital, environmental security, employment

**UOT 316**

**Ağasəlim Həsənov**
**AMEA Fəlsəfə İnstitutu,**
**aparıcı elmi işçi, fəl. f. d.**
**hesenov-ağa@rambler.ru**

# FƏRD - CƏMİYYƏT MÜNASİBƏTLƏRİNƏ DAİR

*Məqalədə fərd-cəmiyyət münasibətlərinin mahiyyəti açıqlanır və ona dair müxtəlif sosial-fəlsəfi, sosioloji baxışlar müqayisəli təhlil olunur. Məqalədə fərd və cəmiyyət arasındakı qarşılıqlı münasibətlər ilk öncə maraqlar əsasında formalaşan münasibətlər kimi dəyərləndirilir. İctimai və şəxsi maraqlara dair konsepsiyaların bəzilərində şəxsi maraqlara, bəzilərində ictimai maraqlara, digərlər konsepsiyalarda isə ictimai və şəxsi maraqların uzlaşdırılmasına üstünlük verilir. Qeyd olunur ki, şəxsi maraqların dominantlıq təşkil etdiyi cəmiyyətlərdə insan həyatının mənasını müəyyənləşdirən humanist dəyərlər tədricən aradan çıxır.*

***Məqsəd* -** Fərdlə cəmiyyət arasında qarşılıqlı münasibətləri maraqlar və dəyərlər baxımından araşdırmaq.

***Metodologiya* -** müqayisəli təhlil, sistem yanaşma.

***Tədqiqatın nəticələri* -** fərdlə cəmiyyət arasında qarşılıqlı münasibətlərin formalaşmasında maraqlar və tələbatlar dəyərlərə nisbətdə dominantlıq təşkil edir.

***Açar sözlər* -** fərd, cəmiyyət, münasibət, təsir, maraq, dəyər.

## Giriş

Fərd-cəmiyyət arasındakı qarşılıqlı münasibətlərin təhlili həmişə aktuallıq kəsb edən problemlərdən biri olmuşdur. Müasir qloballaşma, postmodernizm meyilləri, iqtisadi, texniki və kommunikativ yeniliklər fərd-cəmiyyət münasibətlərində yeni tendesiyalar yaratmışdır ki, bu isə tədqiq etdiyimiz mövzunun aktuallığını şərtləndirən əsas məqamlardan biridir. Belə şəraitdə müasir şəxsiyyət necə olmalı və fərd-cəmiyyət münasibətlərində hansı meyillər dominantlıq təşkil edir kimi suallar maraq doğurur. Təcrübə göstərir ki, fərd-cəmiyyət münasibətlərində cəmiyyət və onun müxtəlif institutlarının fərd üzərində təsiri böyükdür. Bu bir həqiqətdir ki, fərdlər sosial mühitin təsirinə məruz qalır və yaşadığı mühitə uyğun formalaşır. Belə ki, cəmiyyətdəki sosial faktlar (dini dəyərlər, davranış kodeksi, etik qaydalar, qanun toplusu və s.) fərdlərin düşüncəsindən, iradəsindən asılı olmayaraq hər zaman onlara müəyyən formada təsir edir. Fərd cəmiyyətdəki mövcud sosial normaları, mədəni dəyərləri və davranış nümunələrini mənimsəyərək cəmiyyətə inteqrasiya olur.

Müasir şəraitdə qloballaşma prosesləri, nəhəng informasiya axını sosial-mədəni dəyərlərə ciddi təsir göstərmiş, fərd-cəmiyyət münasibətlərində gərginlik yaratmağa səbəb olmuşdur. Belə şərait yeni tarazlıq durumunun yaradılmasını, fərd-cəmiyyət münasibətlərinin keyfiyyətcə yeni mərhələyə keçməsini tələb edir. Qloballaşma müasir cəmiyyətin inkişafını müəyyənləşdirən əsas trendlərdən biridir. E.Giddens qloballaşmanı coğrafi cəhətdən bir-birindən uzaq olan məkanları birləşdirən ümumdünya sosial münasibətlərinin intensivləşməsi prosesi ilə əlaqələndirir. Bu və ya digər bir ərazidə baş verən hadisə Yer kürəsinin digər bir hissəsində baş verən hadisə ilə şərtlənir. Giddensin fikrincə, qloballaşma modernləşmənin müasir mərhələsi kimi qəbul edilməlidir. Başqa sözlə, o, qloballaşmaya, faktiki olaraq, Qərbləşmənin yeni bir variantı kimi baxır. Onun zənnincə, “modern layihəsi” Qərb cəmiyyətinin inkişaf layihəsidir [1, s. 187-190].

Çağdaş Azərbaycan cəmiyyətində baş verən dəyişikliklər şəxsiyyətin hansı sosiomədəni təsirlərə məruz qalmasının elmi şəkildə öyrənilməsini zəruri edir. Qeyd etməliyik ki, tədqiq etdiyimiz mövzu ilə bağlı yerli və xarici tədqiqatçılar tərəfindən müəyyən elmi araşdırmalar aparılmışdır. Aparılan elmi araşdırmalar və əldə olunan nəticələr göstərir ki, vətəndaş cəmiyyətinin inkişafında, hüquqi dövlət quruculuğu prosesində, bazar iqtisadiyyatına keçid şəraitində yeni tip şəxsiyyətlərə ehtiyac artmaqdadır. Şəxsiyyətin formalaşması prosesi isə yaşadığı sosial mühitdən birbaşa asılıdır. Bir sözlə, müasir sosio-mədəni transformasiya və onun fərd-cəmiyyət münasibətlərinə təsirini araşdırmaq olduqca aktualdır.

**Fərd-cəmiyyət münasibətlərinin bəzi nəzəri-metodoloji məsələləri**

Cəmiyyət insanlar arasında davamlı qarşılıqlı münasibətlər sistemi olub fərdlərə birbaşa təsir göstərir. Əvvəlcə cəmiyyəti xarakterizə edən özəlliklərə diqqət yetirək:

- cəmiyyət insanların birgə yaşamasını həyata keçirən sosial sistemdir;
- cəmiyyət müəyyən zaman və məkan sərhədləri olan özünəməxsus orqanizmdir;
- cəmiyyət insanların birgə fəaliyyətinin tarixən yaranmış formalarının məcmusudur;
- cəmiyyət fərdlərin mexaniki toplumu deyildir;
- cəmiyyət fərdə, fərd də cəmiyyətə təsir edir;
- cəmiyyət müəyyən sosial struktura və davamlı əlaqələrə malik insan toplusudur;
- cəmiyyət mədəniyyətin ümumiliyi ilə səciyyələnir, hər bir fərdin sosiallaşmasında əvəzsiz rol oynayır.

Cəmiyyətin fərdə təsirinin iki üsulundan bəhs edə bilərik:

1. Tərbiyə, təbliğat və s. yolu ilə xüsusi təşkil olunmuş təsir.
2 . Fərdin daxili aləmini, həyat fəaliyyətini , şəraitini dəyişmək yolu ilə təsir.

Fərd və cəmiyyət arasındakı qarşılıqlı münasibət ilk öncə maraqların qarşılıqlı münasibətidir. İctimai maraqlarda cəmiyyətin bütünlükdə maraq göstərdiyi hər bir məsələ (iqtisadiyyatın, KİV-in inkişafı, ətraf mühitin mühafizəsi və s.) öz ifadəsini tapmış olur. İctimai maraqlara həmçinin hər hansı bir cəmiyyətin sosial qruplarının maraqları aiddir. Şəxsi maraqlar dedikdə bir insanın maddi və mənəvi tələbatları ilə şərtlənən maraqları nəzərdə tutulur.

İctimai və şəxsi maraqların nisbətinə dair müxtəlif konsepsiyalar mövcuddur. Bu konsepsiyalardan birində şəxsiyyətin maraqlarına üstünlük verilir. O, azad sahibkarlıq fəaliyyəti, dövlətin sahibkarların fəaliyyətinə qarışmaması prinsiplərində konkretləşmişdir. Şəxsiyyətin maraqlarının prioriteti konsepsiyası bəzən şəxsiyyətin mütləq azadlığı konsepsiyasına çevrilir. Lakin əslində insan nə sosial, nə də ki təbii mühitin təsirindən azad ola bilməz.

Digər nəzəriyyə isə əksinə, ictimai maraqların şəxsi maraqlar qarşısında prioritetini təsdiqləyir (buna misal olaraq F. Bekonun "təbii əxlaq" konsepsiyasını göstərmək olar). Nəhayət, üçüncü konsepsiya ictimai və şəxsi maraqların həmahəng vəhdətinin zəruriliyini təsbit edir. Təbii ki, şəxsi və ictimai maraqların tam vəhdətinə nail olmaq mümkünsüzdür. Burada insanların maraqlarına onların sosial mühitinin həyat tərzinin əsas xüsusiyyətlərinə nisbətində baxmaq lazımdır.

SSRİ dövründə ictimai və şəxsi maraqların həmahəng şəkildə uyğunlaşdırılması ideyası təbliğ olunur, qarşılıqlı yardım və məsuliyyət, insanların sosial-siyasi fəallığının artırılması həyat tərzi idealı kimi göstərilirdi. Əslində isə şəxsiyyətin hərtərəfli inkişaf üçün heç bir imkanı yox idi və onun fərdiliyinə şübhə ilə yanaşılırdı. Bu vaxt "individualizm" anlayışı belə burjua fərdiyyətçiliyi kimi qəbul olunurdu. Dövlətin maraqları ön plana çəkilsə də, əslində, "ümumxalq", dövlət maraqları arxasında müəyyən sosial qrupun –

partiya və dövlət bürokratiyasının maraqları gizlənirdi.

Fərd-cəmiyyət münasibətlərinə dair müxtəlif (dini, siyasi, iqtisadi və s.) yanaşmalar mövcuddur. Məsələn, Qərb cəmiyyətlərində fərd-cəmiyyət münasibətləri dini müstəvidə şəxsi etiqadı kilsənin nüfuzuna tabe etdirmiş katolisizmlə vicdan azadlığı ideyasını dəstəkləyən protestantizm arasında mübarizədə öz əksini tapmışdır.

Siyasi müstəvidə cəmiyyətlə fərd arasındakı münasibətlər təbəəni icbari şəkildə özünə tabe etdirən dövlətin mütləq hakimiyyəti ilə hər bir vətəndaşın şəxsi azadlıq prinsiplərini ön plana çəkən fərdiyyətçilik arasında mübahisəyə çevrildi.

İqtisadi sahədə həmin məsələ bir tərəfdən hər kəsin üzərinə əmək mükəlləfiyyəti qoyan sosializm, digər tərəfdənsə fərdə öz maddi mövcudluğunu özünün təmin etməsi fikrini dəstəkləyən liberalizmlə təmsil olunmuşdur.

Fərdlə cəmiyyət arasındakı qarşılıqlı münasibət məsələsi iki tərəfdən təhlil olunmalıdır: cəmiyyət fərdə necə təsir göstərir və əksinə, fərd cəmiyyətə necə təsir göstərir. Fərd-cəmiyyət münasibətlərinə yanaşmada üç fərqli sosioloji baxışı qeyd edə bilərik:

1. **Strukturalist baxış** (E.Dürkheym, K.Marks və b.). Bu baxışı dəstəkləyənlər hesab edirlər ki, fərdlər sosial mühitin (və ya strukturların) təsirinə məruz qalır və yaşadığı mühitə uyğun formalaşır. Məsələn: E.Dürkheymin fikrincə, cəmiyyətdəki sosial faktlar ( dini dəyərlər, davranış kodeksi, etik qaydalar, qanun toplusu və s.) fərdlərin düşüncəsindən və vəziyyətindən asılı olmayaraq hər zaman onlara müəyyən formada təsir edir. Göründüyü kimi strukturalistlər fərdin yaradıcı gücünü nəzərə almayaraq, onun əsasən xarici təsirlər nəticəsində formalaşdığını iddia edirlər.

2. **İnteraktionistlər (və ya mikroanalitiklər)** Alman sosioloqu M.Veber və ABŞ sosioloqu Corc Herbert Mid (1863-1931) və b. isə hesab edirlər ki, fərdlər özlərini formalaşdırmaqda azaddırlar. Belə ki, insan ağıl və məntiq kimi xüsusiyyətlərə malik varlıqdır. Bu baxımdan insan öz hərəkətlərinə məna verir, eyni zamanda ətraf mühitin ona necə reaksiya verəcəyini nəzərə alır. Əgər cəmiyyətdəki mövcud həyat tərzi və dəyərlər şəxsin düşüncəsinə görə mənasızdırsa, o zaman həmin şəxs onlara tabe olmayıb özunun doğru hesab etdiyini seçəcəkdir.

3. **Orta mövqe**. Struktur-fərd əlaqəsində üçüncü yanaşmanın nümayəndələri (Fransalı sosioloq Pyer Burdye (1930-2002) və ingilis sosioloq Entoni Giddens (1938) və b. orta mövqedədirlər. Onların fikrincə, quruluşlar fərdi tamamilə öz "əsarətinə" alaraq onu formalaşdırmır, fərdlər quruluşların təsirindən tamamilə azad deyillər [2, s.34-35].

Cəmiyyətin fərd üzərində təsiri danılmazdır. Belə ki, hər hansı bir fərdin baxışları əslində onun ailə ənənələrini, milli dəyərlərini və hətta peşə əlamətlərini əks etdirir. Fərdin ağlı, hissləri və hətta iradəsi belə ictimai mühitin təsiri altında formalaşır. Fərd, ümumilikdə, müstəqil mühakimələrdənsə daha çox xürafata meyilli olur. Hətta onun yeni fikri belə digər fərdlər tərəfindən ifadə olunmuş bir sıra fikirlər üzərində konstruksiya edilmiş olur.

İdeyalar kimi fərdin hissləri də ətraf mühitin təsiri altında formalaşır. İnsanın hissləri onun mənimsəmiş olduğu dəyərlər ilə müəyyənləşir. Bu hisslər fərdin psixi durumuna ictimai təsir formasını nəzərdə tutur. Dünyaya gəldiyi ilk gündən fərd ailənin hərtərəfli təsirini hiss etməyə başlayır. Sonra bu təsirə ailədən kənarda yerləşən ictimaiyyətin ("əhəmiyyətli başqalarının" - Ç.H.Kuli) əvvəlcə təsadüfi, sonra isə getdikcə güclənən daimi təsiri özünü göstərməyə başlayır. Nəhayət, fərd geniş ictimai mühitə daxil olur ki, burada onun hissləri cəmiyyət tərəfindən əhəmiyyətli düzəlişlərə məruz qalır.

Sosial mühit fərdin iradəsinə əhəmiyyətli təsir göstərir. Bu təsir daimi və nəzərəçarpmazdır. Ailədə, uşaqla münasibətdə olduğu kimi, cəmiyyətdə də insanların sərbəst fəaliyyətini həvəsləndirməklə onlarda təşəbbüsü, özfəaliyyəti genişləndirmək,

onların iradəsini inkişaf etdirmək və əksinə, passiv, tabe olmağa öyrətməklə bunun qarşısını almaq olar.

Fərd ictimai mühitin məhsuludur və cəmiyyətin güclü təsiri altında onun dünyagörüşü, hissləri və iradəsi formalaşır. Eyni sosial qruplara mənsub fərdlərin fərqlilikləri onunla izah olunur ki, hər bir fərd ictimai təsirin bir hissəsini özü də müəyyən dərəcədə hiss edir, yəni bura ictimai mühitin müxtəlifliyi, bu təsirlərin müxtəlif şəkildə çulğalaşması və s. daxildir [3].

Mədəni inkişaf səviyyəsinə görə cəmiyyət nə qədər aşağıda olarsa, onun üzvləri olan fərdlər bir o qədər bir-birinə bənzəyəcəkdir. Bu həm fiziki, həm də psixi nöqteyi-nəzərdən düzgündür. Əksinə, cəmiyyət yüksək mədəni nailiyyətlər əldə edib inkişaf etdikcə onun üzvləri arasında istər fiziki, istərsə də psixi fərqlər bir o qədər böyük olacaqdır. Emil Dürkheym bunu belə izah edir: “Fransızlarla ingilislər arasında məsafə indi əvvəllərdə olduğundan daha azdır. Amma bu indiki fransızlara öz aralarında əvvəlkilərdən daha çox fərqlənməyə mane olmur” [4, s.105-109]. Georq Zimmel isə bununla əlaqədar yazır: “Daha az mədəni dövrlərdə eyni qəbiləyə mənsub fərdlər çox yeknəsəq və bir-birinə mümkün qədər oxşar olmuşlar; əksinə, qəbilələr yad və düşmən kimi bütünlükdə bir-birinə qarşı durur: öz qəbiləsi daxilində sintez nə qədər sıxdırsa, digər qəbilə ilə antiteza bir o qədər kəskindir; mədəniyyətin tərəqqisi ilə fərdlər arasında differensiasiya artır və başqa tayfaya yaxınlaşma sürətlənir" [5, s. 66].

Fərd ictimai mühitin təsirini öz üzərində hiss etdikcə, özü də mühitə təsir göstərir ki, bu da məsələnin digər tərəfidir. Lakin qeyd edək ki, bir sıra alimlər bu təsiri inkar edirlər. Belə ki, L.Qumploviç fərdin cəmiyyətə təsirini qəbul etmir [6 , s. 264**]**. Öncə fərd öz sosial qrupunun təsiri altındadır.Buradan da cəmiyyət haqqında danışarkən biz fərdi deyil, onun mənsub olduğu sosial qrupu, ailəni, tayfanı, icmanı, sinfi və xalqı nəzərdə tutmalıyıq. Cəmiyyətdə qarşılıqlı təsir fərdlər deyil, yaranmış qruplar arasında baş verir. Bu qarşılıqlı təsirdə ayrılıqda götürülmüş şəxs bədən və ya orqanizmdə atom yaxud hüceyrə kimi iştirak edir.

Sosial mühitdə formalaşmaq o anlama gəlməməlidir ki, fərdin bütün hərəkətləri elə həmin mühitin nəticəsidir. Çünki fərdlərin sosial norma və dəyərləri mənimsəmə imkanları fərqlidir. Məsələn, ictimai mühit üzərində geniş təsir imkanları olan fərdin ümumi maraq naminə fəaliyyət göstərməsi ictimai dəstək qazanır. Lakin öz şəxsi maraqlarını ictimai maraqlarla uzlaşdıra bilməyən fərdlər haqqında eyni nəticəyə gələ bilmərik. Digər tərəfdən fərdin seçim imkanları da məhdudlaşmamalıdır. Belə durumda fərd irsi və tərbiyə vasitəsilə mənimsədiyi keyfiyyətlərə əsaslanaraq özünün fərdi seçimi əsasında fəaliyyət göstərəcəkdir.

Başqalarından üstün olan fərdin və ya böyük şəxsiyyətin təsiri eyni istiqamətdə fəaliyyət göstərən fərdlərlə müqayisədə müvafiq olaraq onun fəaliyyətinin təsirinin nəticələrini gücləndirir. Görkəmli şəxsiyyət çoxlu sayda fərdi halların bir nöqtədə mərkəzləşmiş müvəffəqiyyətli kombinasiyası kimi qəbul edilə bilər. Böyük insan ətrafında səpələnmiş və elə də gözə çarpmayan istək, axtarış və təşəbbüsləri özünə hopduraraq, onları aydın ideya və ya obraz formasında ifadə edir və bununla da ətrafdakı insanları geniş şəkildə özünə cəlb edir. Lakin böyük insanın bu təsiri heç də onun özünün ictimaiyyətin məhsulu olması fikrini inkar etmir. Burada biz H.Spenserin belə bir fikri ilə razılaşırıq: “Böyük şəxsiyyət cəmiyyəti dəyişənədək, bu cəmiyyətin onun özünü yaratması vacibdir” [7, s. 30 ]. Bu cür yanaşma fərdin cəmiyyətə təsirini inkar etmir, əksinə onun izahını təşkil edir.

Müasir strukturlaşdırma nəzəriyyəsi (structuration theory) tarixin “antropogen potensialını” adekvat qiymətləndirməyə imkan verir ki, bu da nəticədə irsən qazanılmış

sosial strukturlarla (iqtisadi, sosial, siyasi, institutsional, mədəni, mental və s.) iradə və azad seçim imkanlarına malik tarixi subyektlərin fəaliyyəti arasında qarşılıqlı əlaqənin tədqiqinə marağı artırır [ 8, s.233 ].

İndi isə fərdlə şəxsiyyət arasında sferaların fərqləndirilməsi məsələsinə toxunaq. Bu məsələnin mahiyyəti ondan ibarətdir ki, cəmiyyət fərdin azadlığını maksimal dərəcədə məhdudlaşdırmağa, onu özünə daha çox tabe etdirməyə çalışdığı vaxt fərd öz fərdiliyini qorumağa can atır və azadlığı uğrunda mübarizə aparır. Lakin mədəniyyətin inkişafı ilə fərdin ictimai asılılığı artmış olur, yəni ictimai mühit onun mövcudluğu üçün getdikcə daha mühüm əhəmiyyət kəsb etməyə başlayır. İlk əvvəl fərdlər arasında oxşarlıq üzrə həmrəylik başlayır. Həmin amillərin vahidliyi səbəbindən kollektiv tip formalaşır və fərd bu zaman ona təsir edəcək digər fərdlərlə münasibətdə hamı üçün ümumi olan oxşar keyfiyyətləri mənimsəmiş olur.

Beləliklə, fərd-cəmiyyət münasibətlərində cəmiyyət və onun müxtəlif institutlarının fərd üzərində təsirinin böyük olması qənaətinə gələ bilərik. Həqiqətən də fərdlər sosial mühitin təsirinə məruz qalır və yaşadığı mühitə uyğun formalaşır. Cəmiyyətdə oturuşmuş əxlaqi dəyərlərdən doğan gözləntilər, qiymətləndirmələr fərdlərarası əlaqələrə təsir edir. Fərd cəmiyyətdəki mövcud sosial normaları, mədəni dəyərləri və davranış nümunələrini mənimsəyərək şəxsiyyət kimi formalaşır.

**Nəticə**

Beləliklə, apardığımız təhlilə əsaslanaraq fərd-cəmiyyət münasibətlərinə dair bəzi nəticələri qeyd edə bilərik.

1. Fərd və cəmiyyət arasındakı qarşılıqlı münasibət ilk öncə maraqların qarşılıqlı münasibətidir. İctimai və şəxsi maraqların nisbətinə dair müxtəlif konsepsiyalar mövcuddur. Bu konsepsiyaların bəzilərində şəxsiyyətin maraqlarına, bəzilərində ictimai maraqlara, digərlərində isə ictimai və şəxsi maraqların vəhdətinə üstünlük verilir.
2. Sosial-mədəni transformasiya insan fəaliyyəti ilə müəyyənləşir. Sosial-mədəni transformasiya cəmiyyətdə qərarlaşmış olan sosial normaların, mədəni dəyərlərin və davranış nümunələrinin dəyişimini şərtləndirir.
3. Cəmiyyətdə mənəvi-estetik paradiqmaların dəyişilməsi və ya əvəzlənməsi dəyərlərin fərdi və ictimai səviyyədə yenidən dərk edilməsi ilə müşahidə olunur. Həqiqətən də bu gün dəyərlərin yenidən nəzərdən keçirilməsi və yeni dəyərlər sisteminin formalaşması göstərir ki, müasir dünya keçid dövrünü yaşamaqdadır. Hazırda bir çox dəyərlər qlobal proseslərin birtərəfli təsirinə məruz qalırlar ki, buna ayrı-ayrı şəxslər və böyük sosial qruplar adekvat şəkildə reaksiya verirlər.
4. Cəmiyyətdə baş verən keyfiyyət və kəmiyyət dəyişiklikləri prosesləri fərdləri seçim qarşısında qoyur. Fərdlər bu dəyişiklikləri ya qəbul edir, ya rədd edir, ya da ki öz şəxsi maraqlarından çıxış edərək ona uyğunlaşırlar. Çağdaş dövrünü əmtəə-bazar münasibətlərinin dominant olduğu və insan həyatının mənasını müəyyənləşdirən yüksək dəyərlərin tədricən aradan çıxdığı bir dövr kimi dəyərləndirə bilərik.

**İstifadə edilmiş ədəbiyyat**

1. Гидденс Э. Последствия современности. М.:Праксис, 2001.
2. Şahbazov İ. Sosioloji nəzəriyyələr. Bakı: Şərq-Qərb, 2015.
3. Robertson R. Globalisation or Glocalisation? //Journal of International Communication, 2014, Vol. 1, Issue 1.
4. Дюркгейм Э. О разделении общественного труда. М.,1900.
5. Зиммель Г. Социальная дифференциация. М., 1909.
6. Гумплович Н. Основы социологии. М.: Либроком, 2010.

7. Социокультурная динамика современности: трансформация коммуникационного пространства культуры. Современные проблемы науки и образования. № 4, 2014.
8. *Gerschenkron A.* The Modernization of Entrepreneurship //Modernization: The Dynamics of Growth. N.Y.; L., 1966.

**Агасалим Гасанов**

**К ВОПРОСУ ОТНОШЕНИЙ ИНДИВИДА И ОБЩЕСТВА**

**Резюме**

В статье раскрывается сущность взаимоотношений индивид-общество и проводится сравнительный анализ различных социально-философских, социологических взглядов по этому вопросу. Взаимоootношения между индивидом и обществом, в первую очередь, оцениваются как отношения формируемые на основе интересов. В одних концепциях, касающихся соотношения личных и общественных интересов, предпочтение дается личным интересам, в других – общественным интересам, а в-третьих, сочетанию общественных и личных интересов. Отмечается, что в обществах, где доминируют личные интересы, постепенно исчезают гуманистические ценности, определяющие смысл человеческой жизни.

**Цель -** исследовать взаимоотношения между индивидом и обществом с точки зрения интересов и ценностей.

**Методология -** сравнительный анализ и системный подход.

**Результат -** при формировании взаимоотношений между индивидом и обществом доминируют потребности и интересы над ценностями.

**Ключевые слова -** индивид, общество, отношения, влияние, интерес, ценность.

**Aghasalim Hasanov**

**TOWARDS THE ISSUE OF AN RELATION SHIP**

**Summary**

The article describes the essence about the relations of the individual and society relation ship and it is carried out regarding this a comparative analysis is made of various socio-philosophical and sociological views. In the article, the relations between the individual and society, primarily assessed as a relationship formed on the basis of interests. In some concepts relating to the personal and public interests are preferable to personal interests, in some to public interests, and in other concepts to reconcile of public and personal interests. It is noted that in societies where personal interests dominate, humanistic values that determine the meaning of human life is gradually disappear.

**Purpose –** to research an individual and society relation ship in terms of interests and values.

**Methodology -** comparative analysis and system approach.

**Findings -** At formation of mutual are dominated relations between individual and society the interests and demands above values

**Keywords -** individual, society, affect, relation, interest, value

**UOT 316.33**

**Zeynəddin Şabanov**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,**
**fəlsəfə f.d., dosent**
**zeynaddin.shabanov@gmail.com**

# İDARƏETMƏ CƏMİYYƏTİN MƏNAFELƏRİNİN HƏYATA KEÇIRİLMƏSİ MEXANİZMİ KİMİ

*Müasir dövrdə cəmiyyətin öyrənilməsi, onun idarə edilməsi ən vacib məsələlərdən biridir. İdarəetmə cəmiyyətin mənafelərinin həyata keçirilməsi mexanizmi, qarşıya qoyulmuş məqsədə çatmaq üçün təsiretmə vasitəsidir. İdarəetmə dedikdə, cəmiyyətin şüurlu, elmi idarə olunmasının mahiyyəti nəzərdə tutulur. Bu isə cəmiyyətin və təbiətin obyektiv qanunlarını, inkişafın mövcud cəhətlərini nəzərə almağı tələb edir.*

***Məqsəd* -** fəlsəfə və ictimai fikir tarixində idarəetmə məsələlərinin öyrənilməsi

***Metodologiya* -** tarixi, sistemli və müqayisəli yanaşma

***Tədqiqatın nəticələri* -** müasir idaretmə nəzəriyyələrində fəlsəfə və ictimai fikir tarixində irəli sürülən fikirlərdən geniş istifadə olunması sübut edilmişdir.

***Açar sözlər:*** idarəemə, filosoflar, cəmiyyət, hakimiyyət, dövlət, demokratiya, hüquq

İdarəetmə, hər hansı bir obyektə, prosesə müxtəlif vasitələrlə təsir edib, onu mövcud vəziyyətdən arzu olunan vəziyyətə gətirə bilmək fəaliyyətidir (**7, c.164**). Elmi idarəetmə bu təsir vasitələrini elmin dərindən köməyi ilə hazırlamağı və həyata keçirməyi nəzərdə tutur. Bir sıra müəlliflərin də qeyd etdiyi kimi idarəetməni menecment termininin ekvivalenti olaraq götürmək, onları eyniləşdirmək olmaz.

İdarəetmə sisteminin öz məqsədlərinə nail olmasında informasiya mübadiləsinin ayrıca, bəlkə də müstəsna rolu vardır. Burada sistemdaxili və sistemin ətraf mühitlə əlaqələrində özünü ifadə edən informasiya böyük əhəmiyyət kəsb edir. Hər iki qrup informasiya növü idarəetməyə böyük təsir göstərdiyindən onların təhlili, ümumiləşdirilməsi sosial dərketmə süzgəcindən keçirilməsi çox əhəmiyyətlidir. Yalnız bu təyinatda ictimai həyata təsir göstərən hadisə və prosesləri, amilləri düzgün müəyyənləşdirmək, eyni zamanda, onları cəmiyyətin pozitiv mənafeləri istiqamətində yönəltmək mümkündür. Bu baxımdan cəmiyyətin intellektual özünəməxsusluğu məsələsi olduqca aktualdır. Belə ki, çağdaş dövrdə sosial münasibətlərin inkişafı, onun mövcudluq mahiyyətinin öyrənilməsi mütləq müvafiq elmi prinsip, təsəvvür və normalar sisteminə əsaslanmalıdır (**4, s.192**).

İdarəetmə anlayışı altında müəyyən subyekt tərəfindən ya cəmiyyətə bütövlükdə, ya da onun ayrı-ayrı sahələrinə (sosial, siyasi, mənəvi, iqtisadi, hüquqi və s.) olan təsir başa düşülür. Bunu, həmçinin həmin üsulla insanların gündəlik həyat fəaliyyətinə şüurlu sosial-tənzimləyici təsir kimi qiymətləndirmək olar. Əlbəttə ki, sosial idarəetmənin mahiyyəti və formaları cəmiyyətin siyasi və iqtisadi təşkil olunma səviyyəsindən, dövlətin idarəetmə formalarından, qanunların aliliyinin gözlənilməsindən və s. asılıdır (**8, c.241**). Burada hüquqi dövlətin mahiyyət etibarilə önəmli əhəmiyyət daşıyan prinsiplərinə əməl olunması ayrıca vurğulanmalıdır. İdarəetmənin pozitiv nəticələri məhz bu zəmində özlərini ifadə edə bilər.

İdarəetmə münasibətləri konkret keyfiyyət müəyyənliyinə malikdir və o, real idarəetmə proseslərini əks etdirir. İdarəetmə münasibətləri idarəetmə sahəsində çalışan adamların fəaliyyəti ilə əlaqədar olduğundan bu münasibətlərin xarakteri və istiqaməti

həmin fəaliyyətin məzmunundan xeyli dərəcədə asılı olur. İdarəetmə münasibətləri strukturunda subordinasiya və koordinasiya münasibətləri mühüm yer tutur. Subordinasiya rəhbərlik-tabeçilik münasibətlərindən irəli gəlir və adamlar arasında rəsmi, xidməti münasibətlər formasında təzahür edir. Bu münasibətlərə sosioloji-psixoloji amillər mühüm təsir göstərir (**1, s.203**).

Çağdaş dövrdə cəmiyyətin siyasi idarə olunmasının təşkilində reallığın və elmi tövsiyələrin nəzərə alınması başlıca şərtdir. Elmilik, ilk növbədə, obyektiv imkanların nəzərə alınması ilə, real siyasət və cəmiyyətin inkişafındakı qüvvələr nisbətinin nəzərə alınması ilə əlaqədardır. Ona görə də elmi idarəetmə cəmiyyətin qanunlarından, insan amillərindən, maddi-texniki amillərdən optimal şəkildə istifadə olunmasını, idarəetmə qarşısında qoyulan vəzifələrə nail olmaq məqsədilə şüurlu şəkildə ardıcıl, planauyğun təsir vasitələrinin həyata keçirilməsini tələb edir. Burada ayrı-ayrı adamların məqsədi ilə ümumi məqsədlərin də təmin edilməsi mühüm şərtdir.

İdarəetmədə ən başlıca məqsəd və vəzifə cəmiyyətin obyektiv imkanlarından istifadə olunmasını təmin etməkdir. Cəmiyyətin potensialından mümkün qədər səmərəli istifadə edilməsi, müxtəlif fərdlər və qrupların fəaliyyətinin düzgün təşkil edilməsi və müvafiq məqsədə çatmaq üçün səfərbərliyə alınması kimi mühüm amillər, əslində idarəetmənin ən başlıca vəzifəsidir.

İdarəetmə nəzəriyyəsi bir elm kimi XIX əsrin sonu, XX əsrin əvvəllərində yaransa da idarəetmə anlayışının, idarəetmə münasibətlərinin meydana çıxması və inkişafı böyük bir tarixi dövrü əhatə edir. İdarəetmə insanların bir-birləri üzərində ağalıq etməsi, hökmranlıq münasibətlərindən törəmiş, özünün sadə formasından (quldarlıq idarəçiliyi) ən mürəkkəb mərhələsinə qədər (demokratik idarəçilik) inkişaf etmişdir. Şübhəsiz, əsrlər boyu idarəetmə elmi nə cür adlandırılmasından asılı olmayaraq özünəməxsusluğu ilə fərqlənmişdir (**9, c.214**). Ötən dövrlərin təcrübəsi də bizə deməyə əsas verir ki, insanlar, bəşər cəmiyyəti idarəçilik sistemi olmadan yaşaya bilməz. Hətta ibtidai insanlar belə bəsit şəkildə də olsa, idarəçiliyə ehtiyac duymuş və bunun da nəticəsində bəşər cəmiyyətinin həyatında mühüm hadisələr baş vermişdir. Buna nümunə kimi, cəmiyyətin siniflərə, kastalara, təbəqələrə bölünməsini (qullar və quldarlar və b.), dövlətin yaranmasını və s. göstərmək olar. Deməli, bəşər cəmiyyətinin təfəkkürlü təbəqəsi ən qədim dövrlərdən çağdaş zamanımızadək ədalətə, qanunun aliliyinə əsaslanan sivil cəmiyyətdə yaşamaq, daxili azadlığını təmin edə bilən, hüquqi dövlətə qovuşmaq arzusu ilə yaşamışdır. Tarixin ən müxtəlif təkamül mərhələlərində insanlar xalqın hakimiyyət üzərində dominantlığına əsaslanan idarəçilik haqqında düşünmüş, fərdi azadlıqlarının təmin olunmasına can atmışdır(**2, s.194**).

Cəmiyyət, dövlət və idarəetmə haqqında ilk fikirlər həm Qədim Şərq yazılı abidələrində, həm də mütəfəkkirlərin əsərlərində də öz əksini tapmış, gələcək nəsillər üçün ideya mənbəyi rolunu oynamışdır. Qədim Misir, Babilistan, Hind, Çin, Azərbaycan, İran, ərəb mənbələrində cəmiyyətin strukturu, onun idarə olunması haqqında kifayət qədər məlumatların olması onu sübut edir ki, sosial-siyasi fikirlər daim Şərq mütəfəkkirlərinin diqqət mərkəzində olmuşdur.

Qədim Misirin siyasi-fəlsəfi fikirlərində mərkəzi yeri fironların həyatı, onların hakimiyyətlərinin və idarəetmədə istifadə etdiyi prinsiplərin təsviri tutur. Plutarx «İsida və Osiris haqqında» əsərində (e.ə.IV minillik) göstərir ki, misirlilər Ra allahını dünyanın yaradıcısı hesab edirdilər və o uzun illər hakimlik etdikdən sonra özü hakimiyyətdən əl çəkir. İnsan cəmiyyətini Osiris və İsida idarə etməyə başlayırlar. Bu illər ərzində onlar insanlar arasında səmimi münasibətlərin bərqərar olmasına çalışır və mədəniyyəti təbliğ edirlər. Osirisin ölümündən sonra hakimiyyət insanların əlinə keçir və onlar (fironlar)

düşündükləri kimi cəmiyyəti idarə etməyə başlayırlar. Fironlar idarəetmə məsələlərində zülmkarlığı, amansız istismarı və zalımlığı ilə fərqlənirdilər. Onlar özlərini hakimi-mütləq elan edir və hamını özlərinə tabe edir, şəxsiyyətlərini müqəddəsləşdirirdilər(**14, c.254**).

Qədim Misrin yazılı abidələrindən olan «Herakleopol çarının öz oğluna nəsihətləri»ndə varlılar və yoxsullar arasında böyük fərq olduğu göstərilir. Belə ki, yoxsul kimə isə mənsubdur, o idarə olunandır, heç vaxt başqasının sərvətinə göz dikə bilməz. Yoxsulları orduya cəlb etmək də məsləhət bilinmir, çünki onlar orduda qarışıqlıq sala bilər. Varlının isə hər şeyi var, onun heç nəyə ehtiyacı yoxdur və buna görə də o öz imkanlarından istifadə edərək yoxsulları idarə edir.
«Ptaxetepin nəsihətləri» digərlərindən bir qədər fərqlənir. Onun məsləhətinə görə rəislərə tabe olmaq, onların qarşısında əllərini aşağı salmaq, belini əymək gərəkdir. Belə olarsa, "sənin evin öz qaydasında olacaq, şikayətinə baxılacaq". Rəisin əleyhinə çıxanın vəziyyəti isə ağır olacaq. Burada bugünkü totalitar şüura xas olan keyfiyyətlərin rüşeymləri özünü biruzə verir. Çünki, sadalanan hallar ancaq sərt determinasiyaya tabe etdirilmiş totalitar idarəetmədə mövcud ola bilər.

Sonralar vəziyyət bir qədər dəyişilir, siyasi fikirdə zülmlə bərabər ədalətin də ilkin rüşeymləri görünməyə başlayır. "Qırmızı nitqli kəndli" nağılında əmlakı oğurlanmış kəndlinin məhkəməyə müraciət etməsi və oğrunun bəraət qazanmasından danışılır. Məhkəmədə hüququ pozulmuş kəndli ölkədəki özbaşınalıq, fironların yanlış idarəetmə siyasəti barəsində məşhur nitqini söyləyir və bu nitq firona çatır. Fironun əmri ilə işə yenidən baxılır, kəndlinin əmlakı özünə qaytarılır, oğru cəzalandırılır.

"İpuserin nəsihətləri"nə görə, qullar qiyam etməməli, onlar ağasına itaət göstərməlidirlər. Qullar "ayağa qalxanda" ölkədə anarxiya baş verir, taxıl biçilmir, qida çatışmır, qan tökülür. İpuser ölkənin yoxsulluğunun səbəbini dövlət idarəetmə aparatının düzgün qurulmamasında görür və ümumi rifah üçün bərabərsizliyin saxlanılmasını və mərkəzləşdirilmiş güclü dövlət aparatının yaradılmasını təklif edir(**12, c.304**).

Qədim Babilistanda cəmiyyətin idarə olunması ilə bağlı ilkin mənbələr böyük maraq kəsb edir. Bunların içərisində ən mötəbəri Babil hökmdarı Hammurapinin qanunlarıdır. Həmin qanunların girişində qeyd olunur ki, bu qanunlar "ölkədə ədalətin zəfər çalması, zülmü və qanunsuzluqları məhv etmək, güclünün zəifi incitməməsi üçün dərc olunur". Hammurapi özündən sonra gələcək hökmdarlara da məsləhət görür ki, onun qanunlarından istifadə etsinlər. Bu qanunlarda bütün mübahisəli məsələlərin məhkəmələr yolu ilə həll olunmasının vacibliyi göstərilir. Məhkəmələr isə ədalətli olmalıdır. Hammurapi qanunlarında sələmçilik məhdudlaşdırılır və borclu yoxsulların vəziyyəti yüngülləşdirilir.

Babilistanda mövcud olmuş ictimai-siyasi fikri təhlil edərkən bu qənaətə gəlmək olar ki, hələ qədim dövrdə burada cəmiyyət və onun idarə olunması, ədalətli idarəetmə və hökmdarların zülmü haqqında müəyyən fikirlər formalaşmışdı. Nağıl və əfsanələrdə cəmiyyətin düzgün idarə olunması barəsində fikirlər tərənnüm edilir, idarəetmədə ədalətə əsaslanmaq tövsiyə olunurdu. Zülm, ədalətsizlik, istibdad, istismar və hüquqsuzluq kəskin tənqid olunur və bu bəlalardan qurtarmağın yolları göstərilirdi.

Y.Rüstəmov yazır ki, Qədim Hindistanda cəmiyyət 4 təbəqəyə (kasta, varna) bölünmüşdü: 1. Brəhmənlər-kahinlər. 2. Kşatrilər-döyüşçülər. 3. Vayşilər-mülkədarlar, kəndlilər və sənətkarlar. 4. Şudralar-kasıblar və tam yoxsullar. Dövlətin idarə olunması ilə ancaq brəhmənlər və kşatrilər məşğul ola bilərdi, şudralar isə digər üç təbəqəyə tabe idilər (**3, s.277**).

Qədim Hindistan dövlətçiliyinin yaranmasında ilk qaynaq rolu oynayan «Manu qanunları»nda dünyanın və cəmiyyətin meydana gəlməsi, müxtəlif cəza tədbirləri, sülh və

müharibə şəraitində ölkənin idarə olunması barəsində dəyərli fikirlər ehtiva olunub. Burada hökmdarın funksiyalarının ilahi xarakteri haqqında ideya da öz əksini tapıb. Eyni zamanda qədim hind abidələrində bildirilir ki, siyasi hakimiyyətin başçısı iki üsulla seçilə bilər: birincisi, hakim allahlar tərəfindən yaradılır və ikincisi, hakim xalq tərəfindən seçilir. Hakim və təbəələr arasında isə müqavilə bağlanır.

Qədim hind siyasi-fəlsəfi fikrində monarxiya və respublika idarəetmə forması haqqında məlumatlar da tapmaq olar. Mənbələrdə monarxiya «şahlıq» termini ilə ifadə olunur. Monarxist olmayan siyasi təşəkküllər «sanqxa», «qana», «şreni» kimi sanskrit sözləri ilə müəyyən olunur. Ancaq onların «respublika»ya adekvat olması şübhə doğurur. «Sanqxa» qeyri-monarxist birliklərin konfederasiyalarına uyğun gəlir. «Qana» isə müstəqil qeyri-monarxist dövlətdir, bununla belə, bu termin tayfa, toplantı kimi də başa düşülür (**10, c.252**).

Hindistanda idarəetmə sisteminin formalaşmasında ən mühüm rollardan birini də mütəfəkkir, filosof Siddxarta Qautama - Budda (e.ə. VI əsr) oynamışdır. Onun yaratdığı buddizm ideologiyası qədim hindlilərin idarəetmə təfəkkürünə böyük təsir göstərmiş və bu günə qədər də öz aktuallığını qoruyub saxlayır.

E.ə. VIII əsrə qədim Çin abidəsi «Şu-tszin» əsərində Səma mandatı (tyan-min) ideyasında belə bir fikir öz əksini tapmışdı ki, Səmanın mandatı dəyişdirmək və geri almaq hüququ var. Eyni zamanda Səmanın nəinki yerdəki işlərə qarışmaq hüququ var, həm də Səma yerdəki işləri tənzimləyir, layiqlilərə idarə etmək üçün mandat verir. Səma mandatı ancaq xüsusi qabiliyyəti **(de)** olan şəxslərə verir və hakimiyyət sülalə üzrə davam edir. Bu sülalədə **de** qabiliyyəti zəiflədikdə Səma yenidən işə qarışır, mandatı bu sülaləyə mənsub olan şəxsdən alaraq, daha çox **de** qabiliyyəti olan şəxsə verir.

Qədim abidədə öz əksini tapmış bu fikirlərdən məlum olur ki, çinlilər dövlətin idarəetmə işlərinə ciddi yanaşır, bu sahədə ancaq xüsusi idarəçilik qabiliyyəti olanların fəaliyyət göstərməsini məqbul hesab edirdilər. Həmin traktatın «Kan-çao» fəslində hökmdar öz kiçik qardaşına əyaləti idarə etmək qaydalarını başa salır. O bildirir ki, idarə edərkən müdrik və ehtiyatlı olmalı, xalqın qayğısına qalmalı, bilikli adamlardan öyrənməyi davam etdirməli, insanları sülhə sövq etməli, qanun-qaydalara əməl etməlidir. Əgər bir nəfər qəsdən və bilərəkdən qaydaları pozubsa, onu mütləq cəzalandırmaq lazımdır (**10, c.258**).

Beləliklə, «Şu-tszin» tarixi-siyasi konsepsiyasına görə, Çinin siyasi mənzərəsini bir neçə prinsip təşkil edir: Səma mandatına əsaslanan Yer idarəetməsi; Yerdə ancaq müdriklər və **de** qabiliyyəti olanlar idarə etməlidir; hökmdar ədalətli, səy göstərən olmalı və təbəələrin qeydinə qalmalıdır (**10, c.259**).

Qədim Çinin ən böyük mütəfəkkiri olan **Kun Fu Sinin** etik-siyasi təlimində də dövlət və cəmiyyətin idarə olunması məsələlərinə böyük yer verilmişdir. «Lun-yuy» («Söhbətlər və mülahizələr») kitabında Kpunfusi dövləti böyük ailəyə bənzədərək qeyd edirdi ki, ailəni ata idarə etdiyi kimi, dövləti də hökmdar idarə etməlidir, bununla belə idarəetmə işlərində hökmdara kömək lazımdır. O, köməkçilər kimi məmurlara xüsusi yer ayırırdı. **Kunfusiyə görə, «Hökmdar - hökmdar, təbəə - təbəə, oğul - oğul olmalıdır».** Əks halda cəmiyyətdə qarışıqlıq yarana bilər və bu dövlətin təkamülündə böyük maneəyə çevrilər. Kunfusinin fikrincə, dövlətin başında əsas vəzifəsi təbəələri şəxsi nümunəsi ilə tərbiyə edən müdrik adamlar dayanmalıdır. Kunfusi cəmiyyətdə harmoniyanın saxlanması üçün insanlar arasında qarşılıqlı hörmət və ədalətin olmasının tərəfdarı idi və o qeyd edirdi ki, məhz belə harmoniyanın olması cəmiyyətdə sabitliyin və nizamın olmasına şərait yaradar. Kunfusi aristokratik idarəetmə tərəfdarı kimi çıxış edərək sadə insanların dövlət idarəetməsində iştirakının əleyhinə idi.

**Lao-Tszı** «Dao de tszin» («Dao və de haqqında kitab») əsərində **dao**nu səma, təbiət və cəmiyyətin qanunlarının müəyyənedicisi kimi təqdim edərək göstərirdi ki, daoya münasibətdə hər şey bərabərdir. **Dao** ən ümumi qayda və hər şeyin əsasıdır. Cəmiyyətdəki çatışmazlıqlar, yoxsulluq və xalq kütlələrinin üsyana və qiyama qalxmasını Lao-tszı cəmiyyətdə dao prinsipinin pozulması ilə əlaqələndirirdi. Daoçular cəmiyyətin idarə olunmasında bacarıqlı və maariflənmiş şəxslərin iştirakını alqışlayırdılar: «Maariflənmiş şah idarə etdikdə, onun fədakarlığının təsiri bütün dünyaya yayılır, lakin sanki, bu onun özündən gəlmir, onun hakimiyyəti bütün şeylərə keçir, ancaq o adamlar bu hakimiyyətdə dayaq axtarırlar. O, şöhrətlə hökmdarlıq edir, lakin heç kim ona tərif söyləmir və hər kəsə o, öz zövqünə uyğun yaşamaq imkanı verir» (**12, c. 299**).

Cəmiyyətin idarə olunması və burada baş verən hadisələri özünəməxsusluqla təsvir edən Lao-tszı xüsusi qabiliyyəti olanları idarəetmə işinə buraxmağı lazım bilirdi. Onun fikrincə, dövləti idarə edən zaman ədalətliliyin gözlənilməsi, xalqın incidilməməsi, cəzalandırma tədbirlərində rəhmlilik əsas meyarlardan sayılır. Lao-tszı Hobbs, Lokk və Russodan demək olar ki, min il əvvəl dövlətin ictimai müqavilə əsasında yarandığını öz doktrinasında ifadə etmişdi: «Qədimlərdə insanlar yarananda və hələ qanunlar mövcud olmayanda, hər kəsin öz fərdi mülahizəsi var idi. Bir nəfərin - bir, iki nəfərin - iki, on nəfərin - on, nə qədər adam var idi, bir o qədər də mülahizələr vardı. Hər kəs öz mülahizəsinə əsaslanır və başqalarının fikrini təkzib edirdi və beləliklə, hamı hamının əleyhinə idi. Ata və oğul, kiçik və böyük qardaş bir-birinə nifrət edirdi. Aralarında razılıq olmadığına görə ailələr dağılırdı. İnsanlar bir-birinə zərər vurmaq üçün su, od və zəhərdən istifadə edirdilər. Güclülər gücsüzlərə köməkdən imtina edir, zənginlər artığının atılmasına hazır idilər, ancaq başqalarına vermirdilər, ağıllılar öz biliklərini heç kimlə bölüşmürdülər. İnsan ailəsində heyvan və quşlar aləmində olduğu kimi xaos mövcud idi». Zaman keçdikcə insanlar bu xaosu başa düşmüş, özlərinə rəhbər seçmiş, ona müəyyən hüquqlar vermişlər. Rəhbər öz hüquqlarından istifadə edərək idarəetmə zamanı məmurlardan istifadə etməyi qərara almış, onlara müxtəlif funksiyaların həyata keçirilməsini həvalə etmişdi. Beləliklə, dövlət və normal idarəetmə qaydaları formalaşmışdı. Əsərdə idarəetmə prinsipləri özünü aşağıdakı kimi tapmışdır: "Hər kəs yaxşı və pis haqqında eşidərsə rəisə məlumat verməlidir. Rəisin doğru saydığını hamı doğru, yanlış hesab etdiyini hamı yanlış hesab etməlidir. Əgər o səhv edirsə, tabeçiliyində olanlar onun səhvini düzəltməlidirlər; əgər tabeçiliyində olan müvəffəqiyyət qazanarsa, rəhbər onu irəli çəkməlidir. Aşağıların yuxarılarla həmrəy olması elə aşağıdakılar tərəfindən bəyənilir və yuxarıdakılar tərəfindən mükafatlandırılır. Əgər kimsə yaxşı və pis haqqında eşidərsə və bu barədə rəisə məlumat verməzsə, əgər rəisin doğru hesab etdiyi doğru, yanlış hesab etdiyi yanlış sayılmazsa, əgər müvəffəqiyyət qazananlar irəli çəkilməzsə, əgər kimsə aşağıdakılarla həmrəy olub yuxarıları nəzərə almazsa - hamısı yuxarılar tərəfindən cəzalandırılacaq və xalqın mühakiməsinə veriləcəkdir”. Qeyd olunan fikirlərdən bu nəticəyə gəlmək mümkündür ki, Lao-tszı cəmiyyətin idarə olunmasında ədalətin bərqərar olması ilə bərabər həm də idarə edən elitanın böyük hüquqlara malik olmasını lazım bilirdi.

**Faszya («qanunçular»)** məktəbinin fəlsəfi-siyasi traktatı sayılan "Şan Tezyun Şu («Şan vilayətinin hökmdarının kitabı») b.e.ə IV-III əsrlərdə lehizmin məşhur nəzəriyyəçisi və dövlət xadimi Qunsun Yan (Şan Yan) və onun davamçıları tərəfindən tərtib edilib. Əsərin «Xalq haqqında düşüncə» adlı beşinci fəslində deyilir: «Əgər ölkədə xaos varsa, deməli, işlərin gedişi yalnız hökmdar tərəfindən həll olunur. Ölkəni idarə edən rəiyyətin mülahizələrini dəyərləndirməlidir. O zaman ki, hər şey hökmdarın mülahizələri əsasında həll olunur, hərc-mərclik yaranır və belə hallarda deyirlər: «Nizam yaratmaqda ləngiyən ölkə parçalanacaq». Ona görə də həmin yolla gedən ölkədə məmurlar hökmdara qulaq

asmadan yaxşı idarəçilik həyata keçirərlər, xalq isə məmurlara və qanunlara riayət edər».

İlk lehistlərin təlimini üç yerə ayırmaq olar: Şan Yan qanuna, Şen Buxay hakimiyyətə, Şen Dao isə idarəetməyə üstünlük verən cərəyanların nümayəndələri kimi fikir və mülahizələrini söyləyirdilər. Onların fikirlərini ümumiləşdirən Xan Fey isə «qanun əsasında idarəetmə» ideyasını daha da inkişaf etdirdi.

**Şan Yan** qanuna üstünlük verərək qeyd edirdi ki, qanun xalqın həyatıdır və dövləti idarə etmək üçün əsasdır. Onun fikrincə, hökmdarın köməkçilərindən tutmuş sadə insanlara qədər, eyni cinayətə eyni cəza tətbiq edilməlidir. Əvvəllər yaxşı işlər görüb, sonralar isə zərərli fəaliyyətlə məşğul olanlar üçün də heç bir yumşaqlıq olmamalıdır. Şan Yan əsas diqqətini qanuna yönəltsə də, eyni zamanda idarəetmə sənəti və hakimiyyətin əhəmiyyətini yüksək qiymətləndirirdi. Filosof qeyd edirdi: «İdarəetmə metodunu bilən hər kəsin idarəetməyə və hakimiyyətə haqqı çatır».

**Xan Fey** Şan Yan tərəfindən irəli sürülmüş qanun əsasında dövlətin idarə olunması nəzəriyyəsini daha da inkişaf etdirmişdir. Ona görə, fərmanlar və qanunlar külliyyatı dövlət orqanlarında yaradılır. Cəza və cərimə qarşısındakı qorxu hissi xalqın qəlbində olmalı, qanuna əməl edənlər mükafat, qanunu pozanlar isə cəza almalıdırlar. Xan Fey mükafat və cəzanı qanunun məğzi adlandırır, ölkəni idarə etmək üçün lazım olan "iki vasitə" olduğunu söyləyirdi. Ona görə, mükafat mülki başlanğıc, cərimə isə hərbi başlanğıcdır. Lehistlərə görə, qanun nəinki kobud qüvvə, eyni zamanda "hədiyyə və mükafatdır", yəni qanun kobud qüvvə ilə "sədəqələrin" birgə nəticəsidir. Xan Fey qeyd edirdi ki, qanun hamı üçün açıqdır, lakin idarəetmə sənəti hökmdarın "daxilindədir". O, bu sənətdən ölkəni idarə etmək və təbəələri öz əlində saxlamaq üçün istifadə edir. «Əgər hökmdar idarəetmə sənətinə qabil deyilsə, onda ətrafındakılar onu aldadacaqlar». İdarəetmə sənətinin əsas vəzifəsi sadiq və «kələkbaz» məmurları bir-birindən fərqləndirmək, onların qabiliyyətini yoxlamaq, idarəetməni gücləndirmək üçün onların nailiyyət və nöqsanlarına nəzarət etməkdir (**12, c.300**).

Ümumiyyətlə, qədim Şərq fəlsəfi fikrində cəmiyyətin idarə olunması haqqındakı ideyaları təhlil edərkən ziddiyyətli məqamlarla üzləşirik. Belə ki, eyni dövrdə, lakin müxtəlif məkanlarda yaşayıb-yaratmış mütəffəkirlərin fikir və ideyaları arasında nə qədər oxşar cəhətlər olsa da, bir o qədər də fərqli cəhətlər mövcud olmuşdur. Belə ziddiyyətlərin əsas səbəbini dövrün sosial idrakının inkişaf səviyyəsi və ölkələrdəki ictimai-siyasi vəziyyətin təsirində axtarmaq lazım gəlir.

**Qədim Yunanıstan.** İdarəetmə ilə bağlı qədim dövrdə daha mükkəməl fikirlər, mühakimələr Qədim Yunanıstanda və Romada irəli sürülmüş və bir sıra nəzəriyyələr yaranmışdır. İdarəetmə ilə bağlı ilk fikirlər yeddi yunan müdriki (Fales, Solon, Pittak, Biant, Periandr, Kleobul və Hilon) tərəfindən səsləndirilmişdi. Onlara görə, cəmiyyətin idarə olunmasının əsasını ədalət və qanunlar təşkil edir. İlk dəfə afinalı Solon e.ə.594-cü ildə yeni qanunlar yaratmış və demokratiya elan etmişdir. Ona görə, xalq qanundan zalım hökmdardan qorxduğu kimi qorxmalı, dövlətin qayda və qanununa tabe olmalıdır (**4,s.45**).

**Pifaqor (e.ə.580-500)** isə demokratiyanı tənqid edərək, idarəetmənin aristokratik idealını əsaslandırmışdır. Pifaqor və pifaqorçuların idealı ədalətli dövlət qurmaq idi. **Heraklit** də demokratiyanı tənqid edərək, sosial-siyasi bərabərsizliyi ümumi mübarizənin mütləq və qanunauyğun nəticəsi kimi qiymətləndirmişdir.

**Demokrit (e.ə. 460-370**) isə demişdir: «Onun üçün (Demokritin özü üçün) azadlıq köləlikdən nə qədər yaxşıdırsa, demokratik ölkədə yoxsul yaşamaq mütləq hakimiyyət dövründə xoşbəxt yaşamaqdan bir o qədər üstündür». Ona görə, insanların tərbiyəsi dövlətin idarə olunmasında mühüm yer tutur. O deyirdi ki, dövlətin mənafeyi hər şeydən üstün olmalı, ağılsız, bacarıqsız adamlar idarəetmədən uzaq tutulmalı, bu işə ağıllı,

fərasətli insanlar cəlb olunmalıdır.

**Sokrat (e.ə.469-399)** idarəetmədə qanunları vacib, əbədi və dəyişməz saymışdır. O, ədalət və qanunu eyniləşdirirdi. Demokratiyanın əleyhdarı olan Sokrata görə, demokratiyadan istifadə edən fırıldaqçılar, anarxistlər hakimyyətə gələrək dövlətdə anarxiya yarada bilərlər. Onu düşündürən başlıca məsələ qanunlara ciddi şəkildə əməl olunması və dövlətin bacarıqla idarə olunması idi. O, aristokratiya (əsli-nəcabəti olan insanların hakimiyyəti) tərəfdarı idi.

**Platon (e.ə. 427-347)** da müəllimi Sokrat kimi demokratiyanı tənqid etmiş və ideal dövlət təlimində («Dövlət» əsərində) «ideal dövlət»in üç sosial qrupun birliyindən əmələ gəldiyini yazmışdı: 1. İdarə edənlər. 2. Ölkəni müdafiə edənlər. 3. İstehsalçılar. Ona görə ideal dövlətdə ya hökmdar bacarıqlı, qabiliyyətli, ağıllı olub dövləti qanunlarsız da idarə etməlidir, ya da hökmdar qanunlara tabe olub bu keyfiyyətlər olmadan da dövləti idarə edə bilər.

Onun fikrincə, demokratik dövlətdə hətta qabiliyyətin çatsa da, idarəetmədə iştirak etmək vacib deyildir. Ona görə, demokratik idarəetmədən tiraniya yaranır. Platona görə, demokratiya xoşagələn və cazibədar təsiri bağışlasa da, zəruri idarəçiliyə malik deyil. Platonun fikrincə, nə vaxta qədər dövlətləri filosoflar idarə etməyəcəklər, yaxud hökmdarlar nəcibliklə və ürəkdən filosofluq etməyə başlamaycaq və dövlət hakimiyyəti fəlsəfə ilə birləşib bir araya gəlməyəcək, o vaxta qədər dövlət fəlakətlərdən qurtula bilməyəcəkdir.

M.Əkbərov yazır ki, Platonun siyasət fəlsəfəsi, ideal dövləti və ya utopiyası Platonun nəhəng siyasət filosofu olmasının göstəricilərindəndir. Pelopennes savaşının (e.ə. 431-404-cü illərdə Afina və Sparta çarlığı arasında) cəmiyyətdə yaratdığı qarşıdurma, sofist təlimin rezonansının nəticəsində “dövlət siyasəti necə olmalıdır?”, “hökmdar necə olmalıdır?” kimi sualların yaranması Platonu hərtərəfli bir siyasət fəlsəfəsi və onun nəticəsi ola biləcək bir ideal dövlət nəzəriyyəsi üzərində düşünməyə vadar etmişdir. Əslində isə, bu suallar artiq o vaxt onun həyat məsələsinə çevrilmişdi (**6, s.113**).

Tək siyasi deyil, bir çox fəlsəfi, o cümlədən, əxlaqi problemlərin yer aldığı “Dövlət” əsərində, eləcə də sonradan yazdığı “Dövlət adamı”nda, fikirlərini yenidən təftiş edərək nizama saldığı “Qanunlar”da Platon öz siyasət fəlsəfəsini sistemli şəkildə inkişaf etdirmişdir. Platon “Timey” adlı qarışıq və mürəkkəb dialoqunda “Dövlət” əsərinin bir hissəsinin xülasəsini vermiş, Sokrat, Timey, Kritiy və Hermokratın iştirakçı olduğu bu hissədə öz idealizminin sistematik oçerkini hazırlamış və kosmosun mifoloji dialektikasını qurmuşdur. Daha sonra Platon elə buradaca ideal dövlət haqqında dialoqları davam etdirmiş və onu əsaslandırmağa çalışmışdır.

Platon öz siyasət fəlsəfəsində, qanunların şərhində açıq-aşkar şəkildə Sparta qanunları və onun dövlət sistemindən ilham almışdır. Ümumiyyətlə, yunanların çoxu Spartanı qayda-qanunlarla yaşayan, sabitliyin intişar tapdığı və əski zamanların dəyərlərini qoruyub saxlayan dövlət - şəhər kimi görürdü. Vətəndaşlarının əsas məşğuliyyəti savaş sayılan Sparta, aşağı - təhkimli təbəqəni (ilotları) istismar edir, bəzən onları cismani cəhətdən məhvə qədər gətirib çıxarırdı. Bu dövlətdə qızıl-gümüş qanunlarla qadağan olunmuşdu və yalnız dəmir pullardan istifadə olunurdu. Hələ aristokratlıqdan ibarət demokratik ünsürlərlə tamamlanmış dördpilləli Sparta idarəetmə sistemində də, Platon müəyyən struktura malik olan qanunların dövlətin fundamental əsasını təşkil etməsini göstərmişdir. Bu arxitektura aşağıdakı kimi təsvir edilmişdir:

1. Müxtəlif nəsillərə mənsub olan iki hökmdar;
2. Kübarlar içərisindən ömürlük seçilmiş hökmdarlarla birlikdə 30 nəfərlik Ağsaqqallar Şurası;

3. Xalq Yığıncağı (bütün vətəndaşların iştirakı!) – qanunlara səs vermə;

4. Hökmdarlara nəzarət edən çağdaş konstitusiya məhkəməsinə bənzər beş nəfərlik qurum, yəni eforlar(**6, s.101**).

Spartada uşaq və gənclərin tərbiyəsinin əsas məzmunu xüsusi məktəblərdə təhsil verməklə, əsasən sağlam əsgər yetişdirmək təşkil edirdi. Qız və qadınların vəziyyəti və hüquqları da oğlan və kişilərin vəziyyəti ilə oxşar idi; yəni, digər yunan şəhər-dövlətlərindən kəskin dərəcədə fərqlənirdi. Məşhur yunan tarixçisi Plutarx (e.ə.46-120-ci illərdə yaşamışdır) da Spartanı tərənnüm edir, onun kommuna tipli ümum-yaşayış qaydalarını təsvir edirdi. Aristotel ("Siyasət") Spartaya düşmən münasibətdə idi, Spartanın böyük qüsurlarından, görünəndən qat-qat pis olduğundan (qadınlara çox hüquq verildiyindən?!) bəhs edirdi.

Platona görə, M.Əkbərov bildirir, dövlət əməyin ictimai bölgüsünə və ixtisaslaşmaya olan ehtiyaclardan yaranmışdır ("Dövlət"). İlk cəmiyyətlər pozulmamışdı, qanunlar və dövlət isə hələ movcud deyildi, lakin bununla belə insanların istəkləri və ixtisaslaşması tədricən artmış və bütün bunlar anlaşılmazlıqların və narazılıqların yüksəlməsinə, daha sonralar isə savaşların baş qaldırmasına yol açmışdı. Bu vaxt savaş aparanlara və idarə edənlərə ehtiyac xeyli artmışdı. Cəmiyyətə kənardan hücum təhlükəsi olduğundan, təhlükəsizlik və qorunma həyati vacib məsələyə çevrilimişdi. O qeyd edirdi ki, demokratiya çoxluğun ağılsızlığıdır; belə ki, bu vaxt ata uşaqlarından, müəllim şagirdlərdən, kişilər qadınlarından qorxurdular. Beləliklə, burada yalnız ölkəni bürümüş "qorxunc demokratiya" deyil, həm də, zülm və istibdad, zənginlərin və ya hərbçilərin hakimiyyətinə əsaslanan dövlət tiplərində insanların təbii bərabərsizliklərə əsaslanmadığı səbəbləri də təbii hesab edilmirdi(**6, s. 98**).

Platonun fikrincə, ideal dövlət üç zümrədən ibarət olmalıdır: filosoflar idarə etməli, hərbçilər qorumalı, sənətkarlar və əkinçilər maddi nemətlər yaratmalıdırlar. Bu halda hərə öz işi ilə məşğul olmalı, başqasının işinə qarışmamalıdır; bu isə, Platonun təbirincə, elə ədalətin özüdür. Tanrı idarəedənlərin ruhunu qızıldan, hərbçilərin ruhunu gümüşdən, sənətkarlar və əkinçilərinkini isə mis və dəmirdən düzəltmişdir; Platon israr edirdi ki, bunları insanlara daim aşılamaq lazımdır və bu zaman onlar gec-tez bu ideyaya alışacaq və ona inanacaqlar. O, Sokratın dili ilə qeyd edirdi ki, filosoflara hörmət edilməməsi - cəmiyyətin müdriklikdən uzaq olmasıdır. Platonun təsvir etdiyi utopik dövlət incəsənət və ədəbiyyatı təftiş edirdi, pedaqoji cəhətdən ziyanlı olanların cəmiyyətdəki ictimai fəaliyyətini qadağan edirdi. O tələb edirdi ki, uşaqlara bədən tərbiyəsi və ruh təhsili (ədəbiyyat, musiqi və incəsənət – yəni geniş mənada mədəniyyət) verilməlidir. Onun zənnincə, musiqi insanları cəsurluğa səsləməli, idarəedənlərin təhsilində isə riyaziyyat və fəlsəfə əsas yer tutmalıdır.

Platona görə, tanrıları və qəhrəmanları zəif və qüsurlu göstərmək olmaz. Bu baxımdan hamını, bütün şairləri, o cümlədən, Homeri təftiş etmək, senzuradan keçirmək və ya qadağan etmək lazım gəlir; uşağın tərbiyəsini pozan, onda qorxu hissi yaradan və ya onu sentimental edən hər şey yaramazdır, hər şeydə ölçünü gözləmək lazımdır. Platona görə əgər dövlətimizi Homer muzasının (musiqisinin) öhdəsinə buraxsaq, orada qanun və loqos əvəzinə həzz və əzab meydan açardı.

Platon qanunlarına görə, dövlətdə aristokratları aşağılayan əsərləri oxumaq və ya tamaşaya qoymaq olmaz. İdarəedənlər- filosoflar və hərbçilər üçün özəl mülkiyyət yoxdur, özəl mülkiyyət həsəd və düşmənçilik hissi yaradır. Onlar bir yerdə yaşamalı və bir yerdə yeməlidirlər. Maddi nemət yaradanların mülkiyyəti ola bilər, amma onların həddindən çox zənginləşməsinə və yoxsullaşmasına yol vermək olmaz. Maraqlıdır ki, burada bəzi fikirlərin təkcə idarəedənlərəmi, yoxsa hərbçilərəmi aid olduğu qaranlıq qalmışdı. Platon

zənn edirdi ki, ailənin təşkili də daxil olmaqla, hər şey dövlətin əlində olmalıdır. Kişi-qadın əlaqələri də tənzimlənməli, yaxşılar yaxşılarla, zəiflər zəiflərlə ilişkilər qurmalıdır və bu vaxt hökumətin tövsiyəsinə etiraz etmək olmaz. Qızlar da oğlanlar kimi tərbiyə olunmalıdırlar. Qadınlar idarəetmədə kişilərlə eyni hüquqa malikdir və onlar həm idarəedən, həm də hərbçi ola bilərlər. Dövlət vətəndaşların tərbiyəsi ilə məşğul olmalı, uşaqlar isə xüsusi təhsil və tərbiyə sistemi ilə yetişdirilıməli və onlar istedadından asılı olaraq bir zümrədən digərinə (aşağı və ya yuxarı) keçməlidirlər. Qadınlar 25-40, kişilər isə 50-55 yaş arasında evlənərkən nikah qanuni sayılır və onlar uşaqları olmaq hüququ qazanırlar, əks təqdirdə, onlar azad hesab edilsələr də, uşaqlarının olaması qanuni sayılmır.

Sonralar, "Qanunlar" əsərində Platon bu "mükəmməl dövlət nümunəsini", ideal dövlət utopiyasının mütləqliyini xeyli yumşaltmışdı. Məsələn, mülkiyyət və qadın ortaqlığını aradan qaldırmış, mülkiyyətin xalqın istifadəsinə verilməsini, filosof olmayan dövlət başçısının filosof müşavirə ehtiyacını irəli sürmüş, yaxşı dövləti səciyyələndirən bir sıra kəmiyyət təhlilləri aparmış, çoxsaylı bürokratik işlərin təsvirini və təsnifatını verməyə çalışmışdır. O həm də sənət adamlarına qarşı senzuranı tövsiyələrlə əvəzləməyi mümkün saymış, xüsusi mülkiyyət və sərbəst ailə siyasəti, siyasi hüquqların zümrə üzrə deyil, əmlak dəyərinə uyğun olaraq aparılması, əkinçiliyin qullara aid edilməsi və sair kimi qanunları məqbul hesab etmişdir.

Platonun ideal dövlət quruluşu (yaxşıdan pisə doğru) dörd növdən ibarətdir: şərəf dövləti, zənginlik dövləti (oliqarxlıq və ya plutokratlıq), xalq dövləti (demokratlıq) və tiranlıq (istibdad, zorakılıq) dövləti. Şərəf dövləti savaşa, ruha deyil, bədən tərbiyəsinə, şan-şöhrətə önəm verən bir dövlətdir; o aristokratik dövlətin bir qədər pozulmuş şəklidir. İdarəedən siniflə zəhmətkeşlər arasındakı ziddiyyətlər, idarəedənlərin geniş əhali kütləsinin hesabına zənginləşməsi nəticəsində şərəf dövləti zənginlik dövlətinə çevrilir. Böyük sərvətə sahib kiçik azlığın dövlətində pozitiv qanunların rolu azalır və insanların şərəf və ləyaqəti kiçilir. Bu dövlətdə yaşayanların əksəriyyəti çox yoxsul və kölə vəziyyətinə düşür. Dilənçi vəziyyətində olan çoxluğun zənginlərə olan nifrəti inqilabla nəticələnir və hər kəsin azad olduğu xalq hakimiyyəti bərqərar olur. Lakin digər tərəfdən, hər kəs azad olduğu üçün nə istəsə danışır, qabiliyyəti olmayan da dövlət işlərində yer alır, filosoflar isə dövlət işlərindən kənarda qalırlar; deməli onlar fəlakətin astanasında dayanırlar. Tarixin zəruri hesab etdiyi qanunlara əsasən bir tiranın və ya istibdadçının "xilaskar" kimi meydana gəlməsi tiranlıq dövlətini yardır. Buradan Platon belə qənaətə gəlmişdir ki, qanunların cəmiyyətdəki dəyişmələri özündə əks etdirməsi üçün, başçı - filosofun qanunları hər zaman dəyişdirmək hüququ olmalıdır. Lakin hakimiyyət başında hər zaman yanılmaz filosof olmur, odur ki, yazılı qanunların təsbit olunması zəruriəti meydana gəlir(**6, s.29**).

Platona görə, hətta qanunlara əsaslanan pis hökumət belə qanunlara əsaslanmayan hər hansı hökumətdən daha yaxşıdır. Məsələn, bir başçı dövləti qanunlar əsasında idarə edirsə (monarxiya), bu, tək adamın qanunsuz idarə sistemindən (tiranlıqdan) yaxşıdır; eynilə, azlığın qanunlarla idarə etdiyi aristokratlıq sistemi azlığın qanunlarsız idarə etdiyi oliqarx sistemindən yaxşıdır. Qanunlara uymayan rejimlərin içində yaxşısı (nisbətən) demokratik olandır ("Dövlət adamı"). Əsl müdrikləri tapmaq və hakimiyyəti onlara vermək praktik olaraq mümkün deyildir.

B. Rassell bunu demokratiyanın digər quruluşlardan üstün olduğunun sübutu olaraq qəbul edir. Platonun "Fərd cəmiyyətin üzvi bir hissəsidir" deməsi, insanın öz hissələrinin üzvi birləşməsindən ibarət olması kimi bənzərliyə baş vurması mühafizəkar və hətta təhlükəli görünür. Əslində fərd cəmiyyətin tam üzvi parçası deyil, fərdin öz dünyası, düşüncələri, hətta var olduğu cəmiyyətdən başqa, fərqli cəmiyyətə keçmək imkanı və hüququ vardır..."

Göründüyü kimi, özünün son əsəri olan “Qanunlar”da Platon elə bir dövləti təsvir etməyə çalışmışdır ki, o, qədim Yunanıstanın dövlətçilik reallıqlarından çox, ideal dövlətin atributlarına əsaslansın. Öz məqsədlərinə görə Platonun “Qanunlar”ındakı dövlət teokratiya (“teokratiya“ - hərfi mənası allaha pərəstiş deməkdir) mahiyyəti daşıyır. Məsələn, o qeyd edir ki, “qoy bizdə bütün şeylərin meyarı əsasən allah olsun”; “dövlətdə də “ən əsas məsələ hər bir insanın allahlar haqqında olan dürüst təsəvvürüdür”, “insanın həyatda xoşbəxt və ya bədbəxt olması...”da bundan asılıdır. Çünki qanunlara görə, “allaha və onun mövcudluğuna inanan heç bir adam şərəfsiz bir iş tutmaz və qanunazidd söz deməz.” Platona görə, ideal tipli cəmiyyət odur ki, “orada insanların davranışının əsas hərəkətverici qüvvəsi maddi qayğılar və stimullar deyil, mənəvi prinsiplərdir. Dövlət azad vətəndaşlar arasında əmək bölgüsünə arxalanır. Məhz əmək bölgüsü vətəndaşların hər bir təbəqəsindən olan insanların fəaliyyətinin cəmiyyət üçün daha faydalı olmasına zəmanət verir. Ailə və xüsusi mülkiyyət bir-birinə zidd maraqların mənbəyidir və bu səbəbdən onlar cəmiyyətin vəhdətini pozurlar. Cəmiyyətin vəhdətinin ali formasına nail olmaq üçün döyüşçülər və idarəçilər arasında şəxsi mülkiyyəti ləğv etmək, arvadların və uşaqların ümumi olmasını tətbiq etmək, böyüməkdə olan nəslin tərbiyəsini dövlətə həvalə etmək lazımdır. Platonun ideal cəmiyyəti filosofların hökmranlıq etdiyi, əsgərlərin isə özlərini təkmilləşdirmək və mənəvi rəşadətin daha yüksək pilləsinə çatmaq qabiliyyətinə malik olduğu yunan dövlətidir.”

Bu baxımdan, Platonun dialoqlarından olan “Dövlət” və “Qanunları”nı ümumiyyətlə dövlət haqqında utopik fikirlərə dair Avropa tarixində mühüm yer tutan əsərlər sırasına daxil etmək olar. Bu utopik dövlətin mühüm cəhətlərindən biri - onun insan və cəmiyyət həyatınının ən kiçik hissələrini belə nəzərdən qaçırmadan və fərdi insan həyatının maksimum reqlamentləşdirilmiş unifikasiyasını tətbiq etməklə “ideal qaydalar”ın yaradılmasından ibarətdir.

Dövlət haqında Platondan sonrakı əsrlərdə dünya alimlərinin istinad kimi qəbul etdiyi bu dövlət tipi nə qədər aktual görünmüş olsa belə, onlar eyni müvəffəqiyyətlə də bu dövlət tipini öz “qeyri-demokratik” xarakterinə görə kəskin tənqid etməkdən çəkinməmişlər. Postplaton dövrünün tarixçi alim və filosofları “ciddi qanunlar”a əsaslanan və Platonun təsvir etdiyi dövlət tipini nəinki Sparta və qədim Yunanıstanın dövlət tiplərinə, Qədim Şərq (məsələn, Misir) despotiyasına bənzətmiş, onlar bu tip quruluşu hətta “katolik monastır”la və ya Paraqvayda mövcud olan “yezuitlərin dövləti” ilə də eyniləşdirmişlər. Rusiyalı alim, filosof Aleksey Fyodoroviç Losev (1893-1988) Platonun “Qanunlar”ını “müəyyən mənada “fəlsəfi intihar” adlandırır və buradakı qanunların isə utopik kazarma rejimində olan dövləti idarə etməyə lazım gəldiyini söyləyirdi. O yazırdı: “Bəşəriyyətin fikir tarixində bundan böyük kazarma utopiyasına rast gəlmək çətindir.” Lakin daha sonralar, XX əsrin birinci yarısında və ortalarında alimlərin digər bir hissəsi, məsələn: Bertran Rassel, Semyon Lüdviqoviç Frank, Karl Popper, Arnold Toynbi və başqaları Platonun bu dövlət tipinin faşist, kommunist və qeyri-demokratik tiplərdən fərqləndiyini sübut etməyə çalışmışlar. Bununla bərabər, Platonun qurmaq istədiyi, daha doğrusu ictimai-siyasi və iqtisadi strukturunun portret təsvirini verdiyi dövlətin uğursuz bir model olduğunu da düşünənlər olmuşdu. Məsələn, Vladimir Solovyev yazırdı: “Platon, ən yaxşı dövlət nümunəsi düşünürdü: lakin təəssüf ki, filosofun ruhunda siyasətə və həyata yeni həvəs yaradan Eros, öz qanadlarında onda bu həvəsdən daha dəyərli olan əvvəlki yaradıcılıq eşqını də alıb apardı. Xeyli mürəkkəb həyati məsələlər qarşısında Platon geri çəkilsə də, təslim və məğlub olmadı; o, etdiyi bütün cəhdlərə baxmayaraq, heç bir siyası və sosial dəyişikliklərə nail ola bilmədi. Bir çoxları bunu onun utopizmi ilə bağlasa da, əslində, məsələ bununla deyil, onun qurduğu dövlət tipində həqiqi və proqressiv

başlanğıcların yer almaması və bunun insanlar üçün lazımsız və maraqsız olmasında idi". Müəllif daha sonra yazır ki, "şüurlarda Sparta və Afina vətəndaşlığının mənasızlığı haqqında fikir formalaşdığı zamanlarda bu modelə uyğun dövlət yaratmaq düşüncəsi o qədər də marağa səbəb ola bilməzdi, çünki ... kollektiv həyat məzmununa Platon heç bir əxlaqi istiqamədən yanaşmırdı; odur ki, burada hər hansı bir faktiki düzəliş və həyatın təkmilləşdirilməsi yönündən və siyasi nəzəriyyələrdən söhbət gedə bilməzdi. Ümumi sosial quruluşun bəzi hissələrinin dərinliyinə nəzər salsaq, onun səthi xarakterinin və real etik prinsiplərdən uzaq olmasının şahidi olarıq" (**3, s. 135**).

Göründüyü kimi, qanunlarla idarə olunan dövlətin təbii mənzərəsi heç də birmənalı, möhkəm və real həyat şəraitində yaşamağa qadir olan bir model olmamışdır. Lakin bununla belə, Platon dövlətin qanunlarla (hətta, utopik-volyuntarist olsa belə) idarə olunması ideyasında daim israrlı olmuşdu.

Beləliklə, Platon şeylər və əldə olunanlar haqqında öz fikirlərini söyləyərkən onların yalan olduğunu bildirir, aydın olmayan şeylər haqqında isə hökm verməkdən çəkinir. "Qanunlar"da o öz fikirlərini dörd personajın - Sokrat, Timey, Afinalı qonaq və Eleyalı qonağın dili ilə ifadə edir. Timey və Sokratın simalarından çıxış edərək, Platon özünün xüsusi doqmalarını yaradır. Yalan fikirləri isə Frasimaxın, Kalliklın, Polun, eyni zamanda Qorqiy və Protaqorun, həmçinin Gippiy və Evtidemin və digərlərinn simalarda inkar edir. Adətən sübut etmək üçün o, induksiya üsulundan istifadə edirdi. Bu üsul da ikilidir. İnduksiya – mövcud həqiqətlərdən yeni həqiqətlər əmələ gətirən əsaslandırıcı düzgün təbliğatdır. İnduksiyanın iki forması vardır: biri istiqamətinə görə, ikincisi isə nəticəsinə görə. İstiqamətinə görə induksiya zamanı bütün suallara verilən cavab əkslik təşkil edir. Məsələn, "mənim atam sənin atandır, yoxsa deyildir?; əgər sənin atan mənim atam deyilsə, onda sənin atan ata deyil. Əgər sənin atan mənim atam kimi olsaydı, onda sənin atan mənim atam olardı." Yaxud, "əgər insan canlı məxluq deyilsə, onda o ya daşdır, ya da ağacdır. Lakin, o nə ağacdır nə də daşdır, çünki hər iki varlıqlar özləri tərpənməyə qadir deyil. Əgər onlar canlı olsaydılar, özləri tərpənə bilərdilər. Bu induksiya üsulu Platon tərəfindən doqmaların təqdimatı üçün deyil, mübahisələr üçün isifadə olunmuşdur."

**Aristotel (e.ə.384-322**) isə hesab edirdi ki, idarəetmə, siyasətlə məşğul olanlar etik-əxlaqi qabiliyyətə malik olmalıdır. O, «Siyasət» əsərində dövlətin yaranmasına iki əsas səbəb göstərmişdi: 1. Nikah münasibətləri. 2. Ağa-qul münasibətləri. Ona görə, insan cəmiyyəti üç sinifdən ibarət olmalıdır: 1. Zəngin varlılar. 2. Orta sinif. 3. Son dərəcə kasıblar.

Aristotel demokratiyanı idarəetmənin ən pis formaları arasında ən yaxşısı hesab etmişdir. Demokratik idarəetmədə hakimiyyət əksəriyyəti təşkil edən yoxsul və əsil-nəcabətsiz vətəndaşlara məxsus olacaqdır. O iddia edirdi ki, demokratiyanın ən yaxşı forması ən az demokratik olanıdır; belə demokratiyada insanların çoxu yoxsul deyil və yoxsulların bərabər hüquqları yoxdur. Aristotelə görə ədalət bərabərlikdir, ancaq hamı üçün yox, yalnız bərabərlər üçün bərabərlikdir. Aristotelə görə, həm idarə etməyi, həm də tabe olmağı bacarmaq alqışa layiqdir. Vətəndaş fəziləti layiqli idarə etmək və tabe olmaq bacarığıdır.

Ona görə, demokratiyanın növləri bərabərlik, əmək senzi, vəzifə tutmaq hüququ, qanunun aliliyi və sadə xalqın ali hakimiyyətidir. Xalq demokratiyada çoxluqda qaldığından və onun qərarları həlledici olduğundan, belə dövlət quruluşu demokratikdir. Aristotelə görə, qanunun aliliyi qorunmadığı demokratik quruluşda xalq qanunla idarə olunmur və özü monarx olur, monarxiya qaydaları ilə idarə edib despota çevrilir.

Deməli, idarəetmə forması kimi ilk dəfə qədim yunan şəhərlərində meydana çıxan demokratiya bəşər cəmiyyətinin aktual, mürəkkəb və ciddi məsələlərinin həll olunmasının

birgə müzakirələrinə yol açan, alternativliyə şərait yaradan idarəetmə sistemidir. Bu idarəetmə sistemi:

- xalqın hakimiyyətin mənbəyi kimi tanınmasına əsaslanmaqla, ona dövlət işlərində iştirak hüququ verir,
- vətəndaşları real hüquq və azadlıqlarla təmin edir;
- insanların dövlətin idarə edilməsində iştirak etməsi hüququnu təmin edir;
- fikrini sərbəst ifadə etmək, eşidilə bilmək imkanı yaradır;
- insanların özünü ifadəsinə, hüquqlarını və istəklərini qanuni yolla gerçəkləşdirmək arzusuna cavab verir;
- təşəbbüslərə, azad yaradıcılığa stimul yaradır.

**Orta əsrlərdə və yeni dövrdə idarəetmə təfəkkürünün inkişafı.** Orta əsrlərdə Avropa və Asiya ölkələrində əsas idarəçilik formaları uyğun olaraq xristianlıq və islam dinlərinə əsaslanırdı. Özəlliklə Avropa ölkələrində xristianlıq cəmiyyətin bütün təbəqələri arasında idarəçiliyin əsası sayılırdı. Ruhani-Tanrı (teoloji) hakimiyyəti bütün hakimiyyətlərdən üstün sayılır və onlar son qərar verən rolunda çıxış edirdilər. Ona görə də orta əsrlərdə Avropada idarəetmə təfəkküründə ciddi yeniliklər baş vermədi.

Ancaq Avropa xalqlarından fərqli olaraq orta çağda Asiyada, o cümlədən Yaxın Şərq ölkələrində idarəetmə ilə bağlı mühüm müddəalar ortaya atıldı və bir sıra nəzəriyyələr yarandı. Fikrimizcə, bu dövrdə idarəetmə təfəkkürünün inkişafı **Məhəmməd peyğəmbər** (s.ə.v.) **(570-632)** və onun təbliğ etdiyi İslam dini ilə bağlıdır. İslamın əsasını Allahın kitabı olan Qurani-Kərim və sünnə təşkil edir ki, onlar da bir yerdə şəriət adlanır. Bu dinə görə, yer üzündə öz həyatlarını idarə etmək və daim abadlaşdırmaq insanların vəzifəsidir. Peyğəmbər şəxsən özü qərar qəbul etməməlidir. O, ümumun razlığına uyğun iş görməlidir. Bunu, Quranın ayələri də təsdiq edir: «İşlərini məşvərətlə həll eləyirlər», «onlarla məsləhətləş», «Sən onlara hökm eləyən deyilsən». İslama görə, insan seçmək hüququna malikdir. İnsanın Tanrı qanununu qəbul etməməyə haqqı var, bu halda o özü Allah qarşısında cavab verməli olacaq: «De ki, Rəbbinizin dərgahından gəlmiş haqq. İnanmaq istəyən inansın, istəməyən dansın onu», «dində məcburiyyət yoxdur». Ailənin idarə olunması ilə bağlı müqəddəs kitabda deyilir: «(Ailədə) kimin gücü nəyə çatırsa onu öz boynuna götürsün», «(Ailədə kişi ilə arvad) işlərini məşvərətlə və ümumi razlıqla (etməlidirlər)» (**4, s.112**).

Hədislərin buyurduğuna görə, Peyğəmbərimiz (s.ə.v.) isə demişdir: «Heç kəs günah sayılan göstərişlərə tabe olmamalıdır», «icmadakı rəy müxtəlifliyi Rəbbimizin rəhminin nişanəsidir». Peyğəmbərin (s.) bir kəlamında isə öz hüquqlarının müdafiəsinə qalxan adamlardan bəhs olunur: «Kim şərlə üz-üzə gəlsə silahla ona qarşı vuruşsun, gücü çatmırsa qoy şərə qarşı fikrini açıq söyləsin, ona da gücü çatmırsa onda bu şəri öz ürəyində bağlasın. Amma bu, iman gətirməyin ən zəif təzahürü olacaq».

İslamın meydana gəlməsi ilə bir çox xalqların (ərəblər, türklər, farslar və b.) həyat tərzində, dövlətçilik ənənələrində, idarəetmənin müxtəlif sahələrində yeniliklər, islahatlar baş verdi. İslamla bağlı bir çox təriqətlər, məzhəblər meydana çıxdı ki, bütün bunlar cəmiyyətin həyatında, onun idarə olunmasında ziddiyyətlərə, fikir ayrılıqlarına yol açdı. Ancaq bu ziddiyyətləri yalnız mənfi yöndən dəyərləndirmək doğru olmazdı.

**Saflıq qardaşları.** X əsrdə Bəsrə şəhərində meydana gəlmiş "İxvan əs-Səfa" **("Saflıq qardaşları")** öz təlimlərində idarəetməyə də böyük diqqət verərək onu bir neçə növə bölürdülər: peyğəmbərcəsinə idarəetmə, hökmdar idarəetməsi, insanlar birliyinin idarə olunması, xüsusi idarəetmə, şəxsi idarəetmə.

Peyğəmbərcəsinə idarəetməni qardaşlar ən yaxşı idarəetmə növü kimi xarakterizə edirdilər. Onların fikrincə, belə idarəetmədə ən əsas olan hamının riayət etdiyi qanun və

xalis ənənələrdir. Burada ədalət və xeyirxahlıq üstünlük təşkil edir, zərərli fikirlər, adətlər və ədalətsiz fəaliyyət sərf-nəzər olunur.

"Hökmdar idarəetməsi"ni qardaşlar idarəetmənin başında duran şəxs ilə bağlayırdılar. Onların fikrincə bu idarəetmə ədalətli və doğrucul hökmdar tərəfindən aparılır. Belə idarəetmədə hökmdar daima xalqla razılaşır, müntəzəm olaraq onların qayğıları ilə maraqlanır, cinayətkarları cəzalandırır, xeyirxah insanları təltif edir, idarəetmə zamanı ancaq qanunlara arxalanır və həmin xüsusiyyətlərinə görə xalq öz hökmdarına hörmət edir.

Xüsusi idarəetmə dedikdə, qardaşlar insan tərəfindən öz evinin idarə olunmasını nəzərdə tuturdular və qeyd edirdilər ki, ailənin idarə olunması böyük məsuliyyət kəsb edir. Şəxsi idarəetmə insanın öz-özünü dərk etməsi, hər kəsin özünün hərəkətinə, sözünə, davranışına nəzarət etməsi kimi başa düşülürdü. Qardaşlara görə, əsl idarəetmə öz-özünü idarəetmədən başlayır.

Ümumiyyətlə, "Saflıq qardaşları" na görə, idarəetmə ədalətə əsaslanmalıdır və idarə olunanların hüquq və maraqları qorunmalıdır.

**Məhəmməd Fərabi.** Orta əsrlər İslam Şərqində idarəetmə təfəkkürünün inkişafında ilk yerlərdən birini türk filosofu **Məhəmməd Fərabi (870-950)** tutur. Fərabinin fikrincə, bir-birinə olan ehtiyac insanları birləşməyə sövq etmişdir və beləliklə də dövlət əmələ gəlmişdir. Filosof cəmiyyəti üç yerə bölürdü: böyük, orta və kiçik. Böyük cəmiyyət dünyada yaşayan bütün xalqların, insanların birliyidir. Orta cəmiyyət hər hansı xalqın yaxud millətin birliyidir. Kiçik cəmiyyət isə şəhər əhlini birləşdirir. Fərabi iki cür dövləti bir-birindən fərqləndirirdi: xeyirxah və cahil. Əgər xeyirxah dövlətin əhalisi bir-birinə kömək edir, burada ədalət və nizam hökm sürürsə, cahil dövlətdə isə nizamsızlıq, zülm və istibdad təşəkkül tapır. Fərabiyə görə, həmin dövlətlərin xeyirxah və cahil olmasının səbəbi isə burada aparılan idarəetmə siyasəti ilə sıx bağlıdır. Belə ki, məqsədindən asılı olaraq iki cür idarəetmə mövcuddur: 1) insanları həqiqətən xoşbəxtliyə aparan idarəetmə; bu zaman həm dövlət, həm də xalq xeyirxah olur. 2) insanları yanlış yollarla xoşbəxtliyə aparan idarəetmə; nəticədə xoşbəxtliyin əksi alınır və həmin dövlət və onun əhalisi cahil olur.

Ümumiyyətlə, dövlətin idarəetmə formalarına gəldikdə isə Fərabi onları dörd yerə bölürdü: monarxiya, aristokratiya, diktatura və demokratiya. Mütəfəkkirə görə demokratik idarəetmənin mövcud olduğu ölkədə hökmdarı xalq seçir. Belə dövlətdə rəhbər ilə tabe olanı fərqləndirmək mümkün olmur. Başqa sözlə, həmin ölkədə anarxiya hökm sürür. Heç kəs bir-birindən asılı olmur, hamı azaddır, hər kəs istədiyini edir. Fərabi belə dövləti cahil dövlət adlandırırdı. Mütəfəkkirə görə cəmiyyətdə ədalət və hüquq bərabərliyi zəruri olsa da hələ tam inkişaf etməmiş və mədəni səviyyəsi aşağı olan ölkələrdə demokratik idarəetmə forması mövcud ola bilməz (**12, c. 235**).

Fərabi diktaturanın da əleyhinə çıxaraq, idarəetmədə qanunlara əsaslanmağın zəruriliyi fikrini önə çəkirdi. Filosofun fikrincə, ən yaxşı idarəetmə forması monarxiyadır. O yazırdı: «Ancaq müdrik və maarifçi hökmdar xalqı xoşbəxtliyə və bərabərliyə apara bilər, belə hökmdar ədalətli və humanist olmalıdır». Fərabi çox dəqiqliklə idarəetməni xüsusi sənət növü adlandırırdı. O qeyd edirdi: «İdarəetmə sənəti özündə iki əsas hissəni ehtiva edir: idarəetmənin ümumi qanunlarının nəzəri dərki və dövlətin idarə olunmasında praktik fəaliyyət. İnsan bunlara uzunmüddətli siyasi praktika, müşahidə və təcrübə ilə nail olur. Ümumi biliyin təcrübə ilə birliyi müvafiq hadisələrdə hərəkət metodunu müəyyənləşdirməyə imkan verir».

Fərabiyə görə, idarəetmə mürəkkəb sənət olduğu üçün, hər kəs bu sənəti öyrənə bilməz və idarə edə bilməz. Belə ki, idarə edən şəxsdə müəyyən qabiliyyətlər olmalıdır. Filosof bu cür on iki qabiliyyətin olduğunu qeyd etmişdir: müdriklik, dövlət idarəetmə

qayda-qanunlarını bilmək, bu qanunları yaradıcılıqla tətbiq etmək bacarığı, hərb sənətini bilmək, ədaləti, həqiqəti sevmək, dərin mühakimə yürütmək qabiliyyəti və s. Eyni zamanda, mütəfəkkir bir nəfərdə bütün bu qabiliyyətin təşəkkül tapmasının müşkül məsələ olduğunu bildirirdi. Bu qabiliyyətlər bir neçə nəfərdə ola bilər. Ona görə də, idarəetmədə bir nəfər deyil, bir neçə nəfər, yaxud kollektiv iştirak etməlidir. Fərabinin bu fikirlərində hələ o dövrdə hakimiyyətin bölünməsi prinsipinin müxtəlif ifadələrlə irəli sürülməsi və bu bölünmənin zəruriliyini konkret dəlillərlə göstərilməsi qənaətinə gəlmək olar. Məhz, həmin qabiliyyətlərinə görə hökmdar və ona yaxın olanlar cəmiyyətin sosial stratifikasiyasında birinci pillədə dururlar. İkinci pillədəkilər birinciyə, üçüncü pillədəkilər ikinciyə tabedir və bu bölüm cəmiyyətdə öz vəzifəsini yerinə yetirən, ancaq xidmət etməyən səviyyəyədək davam edir. Xidmət edənlər axırıncı pillədə dururlar. Beləliklə, "ikinci müəllim" cəmiyyətdə tabe edən və tabe olanları göstərilən qaydada müxtəlif kateqoriyalara bölür.

Aristotel və Paltonun nəzəriyyələrindən faydalanan və bu iki dahi filosofun nəzəriyyələrini uyğunlaşdırmaq istiqamətində səy göstərən Əl-Fərabi, sivil hikmətə nail olmaq işində onlara oxşar hərəkət etmişdir. Lakin siyasi mövzulara münasibətdə o, Platonu daha çox diqqət mərkəzində saxlamışdır.

Əl-Fərabi öz fəzilətli utopiyasını qorumaq üçün sadə bir misaldan istifadə edərək piramidaya bənzər kamil və vahid bir cəmiyyətin strukturunu müəyyən etməyə çalışmışdır. Bu cəmiyyətin başında fəzilətli utopiyanın rəhbəri və hakimi dayanır. Hakimiyyət iyerarxiyasında hakimdən sonra nazirlər (mənsəb sahibləri), daha sonra ikinci təbəqə başçıları (baş valilər və direktorlar), onlardan sonra isə üçüncü təbəqə başçıları (icra hakimləri) və s. gələrək bu minvalla cəmiyyət kütlələrinə xidmət edirlər. Əl-Fərabi utopiyanın struktur quruluşunu 3 hissəyə bölür: rəhbə təbəqə (üstün təbəqəyə aid olub, rəhbərlik məqamında olanlar), xidmət edənlər təbəqəsi (yalnız xidmət edənlər və hər hansı bir formada rəhbərlik etməyənlər), orta təbəqə (məsul şəxslərin və direktorların rəhbərliyi altında çalışanlar). Əl-Fərabi arzusunda olduğu utopik cəmiyyətin məqsədlərini cəmiyyətin səadətə və rifaha çatmasında görürdü. Onun baxışlarına görə insanın səadəti mütləq xeyir anlamında başa düşülməlidir. Xeyir isə, məlum olduğu kimi, insanı xoşbəxtliyə çatdıran effektli amillərindən biridir. Əlbəttə, Əl-Fərabinin nəzərdə tutduğu səadət yalnız maddi dünyaya məxsus olmayıb, çox ehtimal ki, həyat yaşamını istənilən formada təmin edən və insanı axirət dünyasında əbədi xoşbəxtliyə çatdıran amildir. Əl-Fərabinin sosial baxışlarında diqqət çəkən məqamlardan biri də bundan ibarətdir ki, filosofun nəzərdə tutduğu utopik cəmiyyətdə insanlar arasında vəhdət, həmrəylik, birlik hökm sürür. Məsələn, insan orqanizm sistemli və xüsusi formada əlaqələnmiş vəhdətə malik olduğu kimi, onun xəyalda yaratdığı utopik cəmiyyət də vəhdət halında mövcud olmalıdır. Utopiyanın sakinləri də bir-birlərilə sıx əlaqədədirlər. Utopiyada mərhələlərin cərəyan etməsi daha çox varlıqların cərayan etməsidir. Başqa sözlə, bu mərhələlər ilk fitrətdən başlanır və ilk maddə ilə sonuclanır. Əl-Fərabi belə düşünürdü ki, cəmiyyət bir-birinə qoşulmuş əlaqəli üzvlərdən ibarət olduğu üçün onların arasında cəmiyyətdə üstün mövqe tutan liderin olması da zəruridir. Bu lider cəmiyyətin öz məqsədlərinə çatmasına şərait yaradır. Cəmiyyətin ali məqsədi kamilliyə və səadətə qovuşmaq olduğundan, utopiyanın başçısı elə bir şəxs olmalıdır ki, o, utopiyanın saədətə çatmaq yolundakı məqsədlərinin uğurla həyata keçirilməsi istiqamətində səmərəli iş görə bilsin. İnsan bədənində ürək üstün mövqe tutduğu və bədən üzvləri arasında ən kamil üzv sayıldığı kimi, utopiyanın başçısı da analoji olaraq belə bir xüsusiyyəti özündə birləşdirməli və öhdəsinə düşən bütün vəzifələrin öhdəsindən ləyaqətlə gəlməyi bacarmalıdır.

İnsan bədənində ilk öncə ürəyin yarandığı və onun bədənin digər üzvlərinin formalaşmasına səbəb olduğu kimi, utopiya başçısı da eynilə bu formada ilk öncə təyin

olunmalı və daha sonra utopiyanı formalaşdırmalıdır. Əgər cəmiyyətin hər hansı bir üzvündə xələl meydana gələrsə, başçı yaranmış problemin dərhal aradan qaldırılması istiqamətində səy göstərməlidir.

Fərabi yaradıcılığında onun siyasi və dövlət haqqında baxışları da mühüm yer tutur. Fərabinin nəzəri irsi haqqında deyilənlərə tamlıq gətirmək üçün həmin baxışlara da nəzər salmaq vacibdir. Bu böyük dahi həqiqətən müasiri olduğu elmlərin zirvəsində dayanaraq özündən sonrakı bütün mütəfəkkirlərə, nəhəng simalara örnək olmuşdur. Elə buna görə də bütün Şərq mütəfəkkirləri onu özlərinin “müəllim” saymışlar .

Məlumdur ki, siyasət anlayışı müxtəlif mənalarda – tədbir, ölkə idarəçilik, müşahidə, xalqın işlərinin sahmana salınması, millətçilik və s. mənalarda işlənməsinə baxmayaraq, terminologiya baxımından hər bir düşüncə sahibi və mütəfəkkirə görə fərqli mənalarda izah olunur. Belə ki, dindarlar, siyasətə insanın ilahilə əlaqəsi baxımından tərif vermişlər. Materialistin nöqteyi nəzərincə isə siyasət baxışların hər hansı bir fövqəl təfəkkürdən kəsilməsi deməkdir.

Əl-Fərabi siyasət anlayışında razılaşmanın olmamasının iki səbəbdən irəli gəldiyini bildirir. Onun baxışlarına görə siyasət müxtəlif cür adlandığına görə ona dolğun və əhatəli tərifin verilməsi qeyri-mümkündür. Digər tərəfdən, siyasət mövzusu digər mövzulardan asanlıqla seçilə bilmir və mənaca mövcud durumdan, proqnozlardan, müxtəlif intellektual baxış metodlarından təsirlənir. Bununla da mərifət onun həqiqi mahiyyətinə görə bəşəriyyətin iqtidarında deyil. Məhz bu səbəbdən də onun nominal şərhi ilə kifayətlənmək lazımdır.

Deyilənlərdən belə çıxır ki, Əl-Fərabi siyasətçiləri vəzifəsini işlərin ideologiyaya əsasən görülməsinə və insanların məvaciblərinə görə məsləhətlər verməsində görmürdü. Onun siyasi baxışları həm də fəlsəfi baxışlarının tərkib hissəsi olmuşdur. Onun qəti inamına görə utopiya varlıqlar sisteminin göstəricisidir. Əl-Fərabi fəlsəfəsi ilə bağlı maraqlı məqamlardan biri də bundan ibarətdir ki, onun əsərlərinin heç birində yalnız sırf siyasətdən bəhs olunmur. Onun traktatlarında siyasi məqamlar özlərinə yalnız nəzəri elmlərdən sonra yer alır və bir qayda olaraq onlara əsaslanır(**5, s.127**).

Bununla da Əl- Fərabinin utopiya fikrində onlardan bəhs edən siyasət xarakterli kitabı, müsəlman aləmində mühüm fəlsəfi və siyasi əsər kimi tanınır . Bu kitab iki bölməyə bölünür. Birinci bölmədə fəlsəfə sahəsində müxtəlif mövzular və baxışlardan bəhs olunur. İkinci bölmədə isə siyasət və cəmiyyətdən danışılır. Göründüyü kimi, Əl- Fərabinin siyasət fəlsəfəsini şərh edən zaman əvvəlcə onun nəzəri fəlsəfəsinə və varlıqdan bəhs edən elmlərə, daha sonra isə utopiya, onun mərhələri və xüsusiyyəti məsələlərinə toxunmaq lazımdır.

**İbn Həldun (1332-1406)** dövlətin meydana gəlməsi və inkişafını təbiət qanunları ilə əlaqələndirirdi. İbn Həldun dövlət başçılarının islam hüququ prinsiplərindən uzaqlaşdıqları bir vaxtda müsəlman dövlətinin əsaslarını öyrənir və idarəçilik formalarının yeni, orijinal təsnifatını hazırlamışdır. Onun fikrincə, hər bir cəmiyyətdə insanın təbiəti ucbatından «təmkinli başlanğıca» ehtiyac duyulur. Bu başlanğıc insanların təbii yolla işğalçılığına və bir-birinə qarşılıqlı surətdə çəkişmələrinə son qoymalıdır. Bu cür məcburetmə dövləti tayfadan fərqləndirir, xalqın nail olduğu sivilizasiya səviyyəsini göstərirdi. Bu hakimiyyət daxildə öz təbəələrini məcburetmə yolu ilə birləşdirir, xaricdə isə yad hakimiyyətin təsiri altına düşmək təhlükəsindən sovuşdurur. Ona görə dövlət hakimiyyəti yalnız hökmdarla başa çatmır, orada vətəndaşların iştirakı zəruridir. Dövlətdə baş verən dəyişikliklər də cəmiyyətin dəyişməsi ilə bağlıdır və dövlət 5 mərhələdən keçir və onun yaşı nəslin yaşı ilə ölçülür: 1. Əvvəlki məcburetmə hakimiyyətin əvəzində yenisi yaranır. 2. Dövlət başçısı onu hakimiyyətə gətirən silahdaşlarına, cığırdaşlarına divan

tutduqdan sonra hakimiyyət bir əldə cəmləşir. 3. Dövlət tərəqqi edir, orada sabitlik, qayda və qanun hökm sürür. 4. Müxalifəti əzmək üçün idarəetmənin güc və despotik metodlarından istifadə olunur. 5. Dövlət tənəzzül edir və məhv olur.

İbn Həldun dövlət formalarının təsnifatını hazırlayarkən dövlət başçısının hüquqi vəziyyətini deyil, dövlət hakimiyyətinin funksional cəhətini əsas götürür və bu cəhət onun üçün sosioloji təhlil obyekti kimi çıxış edir. Hər bir idarəetmə formasının əsasında müəyyən hüquq tipi durur və onun mahiyyətini təşkil edir. İdarəetmə formalarının əsasında dövlət fəaliyyətinin xarakteri və onun funksional cəhəti, siyasi rejimin tipi durur (**12, c.148**).

İbn-Həldun dövlətin idarə olunması barədə fikirlərini açıqlayaraq üç cür idarəetmə formasını qəbul edirdi: təbii monarxiya, siyasi monarxiya və xilafət. Ona görə, təbii monarxiyada bir nəfərin despotik rejimi hökm sürür və idarəetmə onun istək və maraqlarına uyğun həyata keçirilir. Siyasi monarxiyada təbəələrin mənafeləri müdafiə olunur, idarəetmədə rasional meyarlara üstünlük verilir. Xilafətdə isə müqəddəs müsəlman qayda-qanunları və prinsiplərinə əməl olunr. O, prioriteti xilafətə verərək göstərirdi ki, dini sərvətlərə əsaslanması xilafətin daha doğru idarə olunmasından xəbər verir.

M.Fərabi, İbn Rüşd, İbn Sina, İbn Həldun və başqa orta çağ şərq mütəfəkkirlərinin idarəçilik sistemində, o cümlədən dövlət idarəçiliyində irəli sürdükləri ideyalar Avropa ziyalılarına mühüm dərəcədə təsir göstərmişdi.

Belələrindən biri italiyan mütəfəkkiri **Nikkolo Makiavellidir (1469-1527).** O, yeni dövr burjua siyasi elminin banisidir və idarəetmə sahəsində müəyyən fikirlər söyləmişdir. O, idarəetmədə və siyasətdə teoloji, sxolastik baxışlara son qoyaraq, həmin sahədəki görüşü obyektiv tarixi zərurətlə əvəz etdi və onu tale ilə əlaqələndirdi.

**Tomas Hobbs (1588-1679)** özünün başlıca əsərlərində ("Vətəndaş haqqında", «Fəlsəfənin əsasları», «Leviafan», «Begemot») ictimai müqavilənin yeni nəzəriyyəsini irəli sürmüşdü. Onun fikrincə, ilk əvvəllər insanlar fiziki və əqli qabiliyyətlər baxımından bərabər yaranmış və elə buna görə də «hər şeyə sahib olmaq hüququna» malik olmuşlar. İnsanlar paxıl, xəsis, eqoist olduqlarına görə sonralar bir-birlərinin qəniminə çevriliblər: «insan insanın canvarıdır» və «hamının hamıya qarşı müharibəsi» qaçılmazdır. Hobbsun fikrincə, bu şərait təbii qanunların mahiyyətini təşkil edir. Birinci təbii qanun insanları barışa can atmaq və ona əməl etməyə çağırır. İkincisi, bütün qalan şeylərdən bu məqsədə çatmaq üçün istifadə olunmalıdır. Üçüncüsü, bu cür əlçəkmə həmin hüquqların bir hissəsini müqavilə yolu ilə bir şəxsə, yaxud bir qrup şəxsə verilməsi formasında həyata keçirilir. İnsanlar imzaladıqları sazişə əməl etməlidirlər.

Ona görə, idarəetmədə hər bir insanın öz iradəsini və fikirlərini ümumi şəxsin iradəsinə və fikirlərinə tabe etməsi lazımdır: «Bu, yekdillik və həmrəylikdən də çox şey deməkdir. Bu, saziş vasitəsilə bir vahid şəxsdə təcəssüm tapmış real vəhdətdir; hər bir insan bu sazişi başqasıyla elə tərzdə bağlamış olur ki, sanki hər kəs başqasına deyir: bu adamı, yaxud bu yığıncağı özümə vəkil edirəm və özümün idarə etmək hüququmu ona verirəm, bir şərtlə ki, sən də öz hüququnu bu qayda ilə verəsən və onun bütün hərəktlərinə icazə vermiş olasan (**12, c. 179**). Əgər bu baş veribsə, o zaman çoxlu insanın bu qaydalar ilə bir şəxsdə birləşməsi dövlət adlanır». Hobbs yazır ki, adamlar bağladıqları müqavilələrə əməl etməli, hər bir adam başqalarına uyğunlaşmağı bacarmalıdır.

**Con Lokk (1632-1704)** liberal demokratiyanın atası hesab olunur və başlıca əsəri «İdarəetmə haqqında iki traktat»dır. O, yaratdığı nəzəriyyədən cəmiyyət tərəfindən mütləqiyyətin məhdudlaşdırılmasını əsaslandırmaq üçün istifadə edib, liberal demokratiya və konstitusiyaçılığın ilkin nəzəri şərtlərini yaradıb. Lokka görə, insan xeyrin daha sərfəli olduğunu dərk etməyə qadirdir. Qorxu deyil, ağıl insanları dövlətdə birləşməyə məcbur

edir. Cəmiyyətdə insanların iradəsini ümumi razılıqla qəbul olunmuş qanunlardan başqa heç nə əngəlləmir. Dövlət insanların həyatı, azadlığı və mülkiyyətini qorumalı, cəmiyyəti xarici təcavüzdən müdafiə etməlidir.

Lokka görə, dövlət meydana gələnə qədər insanlar təbii halda olublar. Təbii hüquqları, bərabərliyi və azadlığı təmin etmək, şəxsiyyəti və mülkiyyəti qorumaq üçün insanlar dövlət yaratmaq qərarına gəliblər. Ona görə, dövlət insanların özlərinin yaratdıqları qanun altında onların tam birləşməsidir. Dövlətin vəzifəsi isə insanların mənafelərini təmin etmək, qorumaq və həyata keçirməkdir. O yazır: «Çoxlarının dünyada yeganə idarəçilik forması hesab etdiyi mütləq monarxiya əslində mülki cəmiyyətlə bir araya sığmır və mülki idarəçilik forması ola bilməz. Axı mülki cəmiyyətin məqsədi hər insanın öz şəxsi işində hakim olmasından doğan təbii vəziyyətin labüd narahatlıqlarından yaxa qurtarmaq və bunların yerini doldurmaqdan ibarətdir».

**Şarl Lüi de Monteskye (1689-1755)** Fransada mövcud olan mütləq monarxiyanı tənqid edir, respublika quruluşuna tərəfdar çıxırdı. Ona görə, cəmiyyət yaranana qədər təbii qanunlar mövcud olmuşdur. Bərabərlik, barış isə cəmiyyətdə yaşamaq arzusudur. Təbii qanunlar halından çıxan insanlar bərabərliyi itirirlər və nəticədə öz aralarında müharibələr başlanır. O idarəetmənin üç formasını göstərir: respublika (kiçik ərazidə), monarxiya (orta səviyyəli ərazidə) və despotiya (böyük ərazidə).

Monteskye dünyada ilk dəfə olaraq siyasi proseslərin inkişaf qanunauyğunluqları haqqında ümumiləşdirilmiş nəticələr almaq üçün müxtəlif ölkə hüquqlarının müqayisəli öyrənilməsindən şüurlu və sistematik şəkildə istifadə etməyə başlamışdır. Eyni zamanda o, hüquqi dövlət və hakimiyyətin bölünməsi (qanunverici, icraedici və məhkəmə) konsepsiyasını irəli sürmüşdü.

**Jan-Jak Russonu (1712-1778)** böyük Fransa inqilabının intellektual atası hesab etmək olar. «İctimai müqavilə haqqında» əsərində Russo yazır ki, insan azad doğulur, lakin hər yerdə zəncirlənmişdir. Bu vəziyyətin səbəbi ədalətsiz ictimai quruluşda, konkret olaraq isə feodal qaydalarında və insanları bir-birinə düşmən etmiş xüsusi mülkiyyətdədir. Cəmiyyətdə mövcud ziddiyyətləri aradan qaldırmaq üçün insanlar arasında tarixəqədərki harmonik münasibətlərə qayıtmaq lazımdır. İnsanlar öz mülkiyyət və azadlıqlarını müdafiə etmək üçün ictimai müqavilə bağlayırlar. İctimai müqavilənin bağlanması nəticəsində vahid ictimai və mənəvi orqanizm - dövlət meydana gəlir. Russoya görə, suveren - xalqdır, onun iradəsi mütləqdir və dəyişikliyə məruz qalacaqdır.

**Bencamin Konstanın (1767-1830)** fikrincə, qədim yunanlar və romalılar onun çağdaşı olan avropalılarla müqayisədə daha geniş siyasi hüquqlara yiyələnmişdir. Lakin onların demək olar ki, heç bir şəxsi azadlığı yox idi. Konstan çağdaşlarını monarxiyaçıların can atdıqları kimi, şəxsi azadlıqları məhdudlaşdırmaq, sabitlik naminə bu azadlığa qurban vermək, kollektiv mənafelər naminə bu azadlığı saya salmamaq kimi təhlükəli meyillərdən çəkindirmişdir. Ona görə siyiasi azadlıq şəxsi azadlığın təminatçısı olmalıdır. Şəxsi azadlığı olmayan insan bədbəxtdir, ləyaqəti alçaldılır.

**Klod Adrian Helvesi (1715-1771)** Monteskyenin coğrafi mühit nəzəriyyəsinə qarşı çıxaraq dövlət quruluşnda idarəetmənin iki formasını göstərmişdi: yaxşı və pis. O, dövləti idarəetmədə demokratiyaya üstünlük verirdi.

**Pol Anri Holbaxa (1723-1789)** görə, şəxsi mənafe insanları dövlət yaratmağa məcbur edir. Əsas məsələ dövlətin idarə edilməsi deyil, yaxşı qanunların olmasıdır. İnsanın daxilindən irəli gələn isə təbii qanunlardır və bu qanunlar insanlar arasında münasibətlərin prinsiplərini müəyyən edir. İnsanların müxtəlif sahələrdə idarəetmə üsullarını müəyyənləşdirməsi təbii qanunlardan irəli gəlir(**13, c. 76**).

**Məhəmməd Abdo** isə öz əsərlərində müsəlman ölkələrinin idarə olunmasında "əş-

şura" (məsləhət) prinsipinə əməl olunmasının tərəfdarı idi və onu demokratizmin sinonimi kimi nəzərdə tuturdu. İslami dəyərlərə yüksək qiymət verən Abdo idarəetmədə "xüsusi numayəndəli orqan"ın fəaliyyət göstərməsi və burada "maariflənmiş elita nümayəndələri"nin iştirakını təbliğ edirdi.

**Əli-Əbdəl Raziqə** görə, Quranda xəlifə və xilafət haqqında heç nə yazılmayıb. Onun fikrincə, xilafət müsəlman inamının tərkib hissəsi deyil, "islam və müsəlman üçün bədbəxtlik və şər mənbəyidir". O qeyd edirdi ki, dini vəzifələr yerinə yetirilərsə və təbəələr üçün ancaq faydalı olan tədbirlər görülərsə, onda "müsəlman idarəetməsi müxtəlif: mütləq və məhdud monarxiya, xüsusi, respublika, despotik, konstitusion, məşvərətçi, demokratik, sosialist və hətta bolşevik-formasında həyata keçirilə bilər".

**Mohandas Karamçand Qandi** hər bir dövlət tipini istismarçı adlandıraraq tənqid edirdi və öz-özünü idarə edən kənd icmaları fikrini irəli sürür, ümumi seçki hüququnun bərqərar olmasını tələb edirdi. Qandi cəmiyyəti yenidən dəyişmək yollarını seçərkən ali siniflər ilə zəhmətkeşlər arasında əmək bölgüsü və ali siniflərin anadangəlmə təşkilatçılıq qabiliyyəti haqqında özünün hazırladığı konsepsiyaya əsaslanırdı. O hesab edirdi ki, istismarı aradan götürməyin ən yaxşı yolu varlıları tərbiyə etmək və mənəvi cəhətdən saflaşdırmaqdır.

Çin dövlət xadimi və filosofu **Sun Yatsen** dövlətin normal idarə olunması üçün hakimiyyətin bölünməsinin tərəfdarı kimi çıxış edirdi, onun fikrinə görə hakimiyyət beş yerə bölünür: qanunverici, icraedici, məhkəmə, imtahan və nəzarət hakimiyyəti. Mütəfəkkiri üç prinsip-millətçilik, xalq hakimiyyəti və xalqın rifahı maraqlandırırdı.

Qədim dövrdə və orta əsrlərdə Azərbaycan türklərində idarəetmə təfəkkürünün formalaşmasında tanrılıçılıq, maqların təlimi Zərdüşt («Avesta»), Mani, Məzdək, Dədə Qorqud («Kitabi-Dədəm Qorqud»), Nizami Gəncəvi («Beşlik» poeması), Yusif Balasaqunlu («Qutadğu Bilig»), Əbülhəsən Bəhmənyar, Şihabəddin Yəhya Sührəvərdi, Siracəddin Urməvi, Bürhanəddin Qazi, Nəsirəddin Tusi («Əxlaqi-Nasir» və b.), Uzun Həsən («Qanunnamə»), Cahanşah Həqiqi, Məhəmməd Füzuli, Şah İsmayıl Xətai («Dəhnamə» və b.) və b. mühum rol oynamışdır. Məhz bu milli-mənəvi abidələrin sayəsində çağdaş Azərbaycan xalqı keçmişdəki idarəetmə təcrübəsi, mədəniyyəti ilə öyünə bilər.

**Tanrıçılıq-şamançılıq.** Qafqaz-Azərbaycan türklərinin ən qədim dini-fəlsəfi təlimi olan Tanrıçılıqda cəmiyyətin və ailənin idarəolunması ilə bağlı fikirlər öz əksini tapmışdır. Bəzi mütəxəssislər Tanrıçılıq təlimi ilə Şamançılığı bir-birindən ayırmırlar. Əslində Şamançılıq da qədim türklərin, o cümlədən Azərbaycan türklərin dini-fəlsəfi inanclarından olub. Şamançılar insanla Tanrı arasında vasitəçi rolunu oynayan ayrıca bir təbəqə idi. Tanrıçılıq təlimində isə türklər göyü, səmanı Tanrı sayırlar: «Göy Haqqı!», «Səma Haqqı!», «Göyə (Tanrıya) and olsun!» və s. Ona görə də, türklər arasında bu təlim göytanrçılıq kimi də tanınır. Tanrıçılıq təliminə görə, Göy Tanrı insanları idarə edir, insanlar arasında zülmün qarşısını alır, ədalət və bərabərliyi təmin edir. Bu təlimdə ailə ən müqəddəs təsisat sayılır və burada hərənin öz hüququ var. Tanrçılıq təliminin yayıcıları, təbliğatçıları Ozanlar idilər. B.e.ə. I minilliyin sonu, eramızın ilk əsrlərində Tanrıçılıq təlimi «Alp Ər Tonqa», «Kitabi-Dədəm Qorqud» və b. boylarda öz geniş əksini tapmışdır.

**Zərdüştlükdə idarəetmənin rüşeymləri.** Qeyd edək ki, Zərdüştün kimliyi, onun irsinin hansı xalqın (türk, fars və b.) varisliyi məsələsində konkret elmi faktlar yoxdur və bundan irəli gələrək müxtəlif mülahizələr mövcuddur. Ancaq bütün hallarda Zərdüştün və onun dini-fəlsəfi təliminin qədim Azərbaycan xalqına təsiri şübhəsizdir. Zərdüştlükdə ən yaxşı dövlət forması monarxiyadır. Burada hakimiyyət Allahın (zərdüştlükdə Ahura Məzda və b.) göndərdiyi müdrik hökmdar tərəfindən idarə olunur. Zərdüştün kitabı «Avesta»da

qanunların ciddi şəkildə yerinə yetirilməsi, sosial ədalətə zəruri şəkildə əməl edilməsi, bərabərlik, təmiz əmək, ailə və nikah, qadının cəmiyyətdəki yeri, cinayətin və cəzanın növləri və s. kimi sahələrdə idarəçiliyin formaları haqqında məlumat verilir. «Avesta»da ictimai quruluşun və hüquqi institutların tam mənzərəsi canlandırılmış, ideal cəmiyyət - sülh, səadət cəmiyyəti, düşmənçilik və zorakılığın olmadığı əmək adamları cəmiyyəti təsvir olunmuşdur.

Zərdüşt qarəti, qətli, yalanı, rüşvəti, zülmü, hiyləni, basqını, ədalətsizliyi, tamahkarlığı və s. şər qüvvə olan Əhrimənin əməli hesab edir. Yer üzərində olan bütün yaxşılıqları, paklıqları və s. hamı üçün nemətlərin yaradıcısı olan Hörümüzün əməli sayılır. Bu təlimə görə dünyanın, o cümlədən insanın idarə olunması xeyir və şər qüvvələrin əlindədir. Bu mübarizənin sonunda xeyir şərə qalib gələcəkdir. Zərdüşt cəmiyyətin yaxşı idarəçiliyi üçün qanunların olmasını vacib saymışdır. Ona görə, Tanrının (Məzdanın) ən yüksək əxlaqi prinsipi qanun və ədalətə tabeçilikdir.

Zərdüştlükdə xeyirxah fikir, xeyirxah söz, xeyirxah əməl mühüm prinsiplər kimi əxlaqın əsasını təşkil edir. Zərdüştlük təliminə görə, cəmiyyətdə dörd zümrə mövcuddur: kahinlər (atravanlar), döyüşçülər, əkinçilər və sənətkarlar (Qulların adı çəkilsə də, onlar müstəqil zümrə kimi qəbul edilmirdilər). "Avesta" Ahura Məzdanın dili ilə bu zümrəyə (kahinlərə) Zərdüşt qanunlarını təbliğ etmək və onları həyata keçirmək kimi yüksək bir vəzifə verir. Buradan, belə nəticəyə gəlmək olar ki, əgər kahinlərə qanunları həyata keçirmək imkanı verilirdisə, deməli onlar cəmiyyətin idarə olunmasında əsas mövqe tuturdular və Məzdanın ədalətli qanunları ilə cəmiyyəti idarə edirdilər (**4, s.87**).

**Manilik.** Zərdüştlüklə yanaşı qədim Azərbaycan xalqının idarəetmə təfəkkürünə təsir edənlər arasında **Manilikdə** mühüm yer tutur. Bəzi alimlər Manilik təliminin banisi Manini (eramızın 3-cü əsri) türk (hətta Azərbaycan türkü) sayaraq, onun yaratdığı təlimi dövrünün ən mühüm islahatı kimi dəyərləndirirlər. Qeyd edək ki, Maninin adı ilə bağlı yaranan dini-fəlsəif təlim ən çox türksoylu millətlər (uyğurlar, oğuzlar-Azərbaycan türkləri, türkmənlər və b.) arasında geniş yayılmışdır. Maninin sadə həyat təbliği şəxsi mülkiyyətdən imtina etmək, bərabərlik tələbi, tamahkarlıqdan, qatillikdən oğurluqdan, ailə xəyanətindən, cadugərlikdən, inama şübhə ilə yanaşan ikiüzlülükdən, hərəktlərdə süstlük və passivlikdən imtina etmək kimi tələbləri çox böyük ictimai əhəmiyyətə malik idi. Şübhəsiz, burada cəmiyyətin necə idarə olunması məsələsi ən mühüm yerlərdən birini tuturdu. Mani və onun tərəfdarları cəmiyyətdəki bütün bəlaların kökünü maddi nemətlərin ədalətsiz, qeyri bərabər bölünməsində görür və bu nemətlərdən hamının bərabər səviyyədə istifadəsini tələb edirdilər.

**Məzdəklik.** Bu təlimin banisi Məzdəki (eramızın 5-6 əsrləri) bir çox tədqiqatçılar Azərbaycan türkü sayırlar. Bu fikirdə olan alimlərin fikrincə, Məzdək Azərbaycanda anadan olmuş və ideyalarını ilk olaraq bu ölkədə yaymışdır. Məzdək Maninin sosial bərabərlik ideyasını davam etdirərək göstərirdi ki, dünyada olan var-dövləti adamlar arasında bərabər bölüşdürmək lazımdır. Onun fikrincə, təmsil olunduğu dövlətdə hamı bərabər hüquqlara malik olmalıdır, insanlar bir-birlərini zorakılıq, güc əsasında idarə etməməlidir. Məzdəkə görə, əgər hakimiyyət insanlar üzərində zor gücünə ağalıq edib, onları ədalətsiz şəkildə idarə edirsə belə hakimiyyəti devirmək lazımdır. İnsanın azad olmasını isə Məzdək insanın maddi nemətlərdən azad olmaq, mülkiyyətdən uzaqlaşmaq səyi ilə əlaqələndirirdi. Məzdəkə görə Ali varlıq (Tanrı) dünyanı 4 qüvvənin köməyi ilə idarə edir: 1. İdrakın qüdrəti. 2. Ağlın qüdrəti. 3. Sayıqlığın qüdrəti. 4. Sevincin qüdrəti. Bü qüvvələr isə insanda birləşir və fəaliyyət göstərir.

Manilik və məzdəklik ideyalarını sonralar xürrəmilər davam etdirmişdir. Xürrəmilərin başçıları da (Cavidan, Babək və b.) cəmiyyətdə bərabərlik ideyası ilə çıxış

etmiş, bir günlük azadlığı 40 illik kölləlikdən üstün saymışlar (Babək).

**Nizami Gəncəvinin (1141-1209) utopik demokratik idarəetmə görüşləri.** «Xosrov və Şirin» poemasında «Dərbənd dənizinin bir sahmanında», «Arrandan başlamış Ərmənə qədər» hökmdarlıq edən Məhin Banunun dilindən Nizami Gəncəvi türklüyümüzü və türkün hakimiyyət idarəçiliyni bu cür ifadə edir: «Əgər o aydırsa, biz afitabıq, O, Keyxosrov, bizsə Əfrasiyabıq (Alp Ər Tonqa-F.Ə.)». Deməli, Arran-Bərdə hökmdarı Məhin Banu özünü Əfrasiyabın, yəni türklərin nəsilindən sayır. Nizami Gəncəvi də Məhin Banunun dilindən bu xalqın kökünün türk olması və Əfrasiyab (Alp Ər Tonqa) kimi hökmdarlarının olması ilə fəxr edir. Eyni zamanda N.Gəncəvi bir türk hökmdarının ədalətli, cəsur, el qayğısı çəkən, doğrucul, igid və s. kimi sifətlərini göstərmişdir. Böyük ziyalımıza görə bir türk hökmdarı qarətçi, tamahkar, zalım və s. ola bilməz («Sultan Səncər və qarı»). Ona görə, dövlət və zülm bir araya sığa bilməz. Öz türklüyü ilə daim fəxr edən Nizami Gəncəvi türk hakimiyyətini ədalətin simvolik imi xarakterizə etmişdir.

Xüsusilə N.Gəncəvi «İskəndərnamə» poemasında türk xalqlarının qədimliyini, onların hakimiyyət ənənələrini böyük ustalıqla əks etdirmişdir. Bu əsərində Makedoniyalı İskəndəri Qıpçaq ellərinə aparan N.Gəncəvinin məqsədi türklərin yalnız Azərbaycanda deyil, Orta Asiya və bütün Qafqaz elərində qədim xalqlardan biri olmasını sübuta yetirməkdir: «Xəzər dağından Çin suyuna qədər Türklərlə doludur bütün bu yerlər».

Eyni zamanda bu əsərində böyük ziyalımız ideal cəmiyyəti geniş şəkildə təsvir etmiş və onu əsaslandırmağa çalışmışdır. N.Gəncəvi sonrakı yüzillikləri qabaqlayaraq demokratik idarəçilik üsullarını təsvir etmişdir. Bu əsərdə N.Gəncəvi İsgəndəri ideal cəmiyyətə, xoşbəxtlər ölkəsinə aparmaqla ədalətli, demokratik cəmiyyətin nə cür ola biləcəyini anlatmaq istəmişdir. Ona görə, ədalətli cəmiyyəti yaratmaq yalnız hökmdarların işi deyil, bunu bütövlükdə xalq etməlidir. Yəni rəhbərlərlə sadə xalq özü bir yerdə demokratik cəmiyyət qurmalı, hakimiyyət xalqı zorakılıq əsasında deyil, rasional şəkildə idarə etməlidir. Eyni zamanda cəmiyyətin öz daxilində də zorakılığa, təcavüzə, oğurluğa və başqa cinayətlərə yol verilməməlidir. Bu cəmiyyətin əsasını ədalətlilik və bərabərlik təşkil etməlidir.

Nizamiyə görə, dövlət başçısı «sürüyə cavabdeh bir çobandır». Hətta bundan da məsuliyyətli bir mövqedədir. Başdakı beyin bədənin bütün üzvlərini idarə etməkdə hansı mövqedədirsə, dövlət başçısı da onun kimidir: «Əl ayağın fəaliyyətindən razı deyilsə, cavabdeh başdır». Fərd dövlətə münasibətdə müəyyən vəzifələri icra etməyə borcludur. Amma fərd hər hansı dövlətdə yalnız vəzifə daşımağa borclu deyil, həm də bir sıra hüquqlara malikdir». Dövlət başçısı dövləti idarə edən bir şəxs kimi fərdə nisbətən daha məsuliyyətli olmalıdır. Ancaq bu o demək deyil ki, fərd məsuliyyəti dövlət başçısının, və yaxud vəzifə sahiblərinin üstünə ataraq tamamilə geri çəkilməlidir. Nizamiyə görə, iqtidar ilə təmkin bir-birini tamamlayan şeylərdir: «Güclü ol, amma təmkinini əldən vermə». Dövlətin idarə olunmasında böyük ziyalımız məsləhətləşmə tərəfdarıdır (**5, s.114**).

Nizaminin baxışlarına uyğun dövlət idarəsini reallaşdıran hökmdar İsgəndərdir. İsgəndərin şəxsində Nizami biliyə, hikmətə və sənətə bağlı olan ziyalı bir hökmdar görür. Filosoflar, alimlər və ədiblər tərəfindən əhatə olunmuş bu hökmdarın özü də xarakter (səciyyə), cəsarət və qəhrəmanlığı ilə bərabər, alim, filosof və tədbirli bir insan kimi tanınır. Ona müavinlik edən vəzir Yunanıstanın ən məşhur filosofu Ərəstundur (Aristotel). Sarayında Yunanıstanın bütün tanınmış filosof və alimlərindən təşkil olunmuş Dövlət Şurası tipli yüksək bir məclis vardır. Hər böyük və həqiqi sənətkar kimi Nizami də millilik və vətənsevərlik xüsusiyyəti daşımaqla bərabər, yaratdığı obrazlarla təlqin etdiyi fikir meydanında milli çərçivədən kənara çıxmış, bütün bəşəriyyətə şamil olan duyğularla həyacanlanmış, millətlər və ölkələrin fövqündə olduğu kimi, dövrlər və əsrləri yarıb keçən

yüksək və dünyaya şamil bir qayğıya cavab verə biləcək «söz»ü tapmağa çalışmışdır. Bizim qənaətimiz ilə bu «söz» İskəndərin möcüzəsində tapılmışdır. Bu möcüzə bugünkü bəşəriyyətlə birlikdə bizim də gerçəkləşməsini görmək istədiyimiz idealdır. Millətlərə yalnız mənəvi avtoritetlə nüfuz etmək, ruhlarını anlayaraq varlıqlarına qarşı ehtiram etmək.

M.Ə.Rəsulzadə «Azərbaycan şairi Nizami» monoqrafiyasında Nizami Gəncəvinin demokratik idarəetmə prisniplərini və ideal cəmiyyət ideyalarını ilk dəfə dolğun və elmi şəkildə göstərə bilmişdi. Nizaminin yaratdığı ideal cəmiyyətin Sovet dövründə kommunizm quruluşuna oxşadılmasına etiraz edən M.Ə.Rəsulzadə, Nizaminin ideal cəmiyyəti ilə bolşeviklərin kommunizm ideologiyası arasında heç bir oxşarlığın olmadığını ortaya qoyurdu: «Nizaminin «Cənnət şəhər»i dindardır, sovet cənnəti isə dinsizdir. Birincisi Allahı tanıyır, o birisi isə rədd edir. Birincidə yalan söylənməz, ikincidə isə yalan ən böyük təbliğat silahıdır. Birincidə sevgi əsas ikən, ikincidə sinif qovğası əsasdır. Birincidə heyvanlar belə təhlükəsiz yaşadığı halda, ikincidə insanlar daim ölüm qorxusu altındadır. Birincidə qan tökmək haram ikən, ikincidə qanlılıq əsasdır. Birinci oğurluq nədir bilmir, ikincidə isə oğurluq ən qanlı polis rejimidir. Birinci casusluq bilməz, ikincidə hamı casusdur. Birinci silahsız və dindar, ikinci, təpədən-dırnağa qədər silahlıdır. Birinci, fitnə nədir bilməz, ikinci, bütün dünyanı bürüyəcək bir fitnə yuvasıdır. Sözün qısası: dini əxlaqa və ictimai anlayışa əsaslanan «Nizami sosializmi» ilə dini rədd edən və siniflər qovğasını əsas tutan qanlı «rus sosializmin» bir-birinə bənzər heç bir tərəfi yoxdur!.. Fəqət, bizim fikrimizcə, sevgi ilə nifrət, rəhmət ilə lənət nə qədər bir araya sığa bilərsə, Nizami ilə bolşeviklər də o qədər birgə ola bilərlər!…».

M.Ə.Rəsulzadənin fikirincə, Nizaminin ideal cəmiyyəti Azərbaycan Cümhuriyyəti ilə bərabər tutula bilər ki, bu fikrində böyük ideoloqumuz, çağdaş dövlətimizin qurucusu tamamilə haqlıdır.

**Nəsirəddin Tusi (1201-1274) və onun «Əxlaqi-Nasir» əsərində siyasi və inzibati idarəetmənin qoyuluşu.** N.Tusi Azərbaycan ziyalıları arasında ilk dəfə siyasi idarəçiliyi elmi şəkildə əsaslandırmağa çalışmışdır. Tusiyə görə dövləti idarə etmək sənəti olan siyasətin başlıca məqsədi xalqı kamilləşdirmək, nəticəsi isə onun səadətə çatdırmaqdan ibarət olmuşdur. O, bu siyasəti «fəzilətli siyasət» və ya başqa deyimlə «imamət» adlandırır. Müəllifə görə bir də «naqis» və ya nösanlı siyasət var ki, buna da «zorakılıq» deyilir. Bu siyasətin məqsədi xalqı qul halına salmaq, nəticəsi isə bədbəxtlik və məzəmmətdir. Birinci siyasət camaatı ədalətə çağırar, rəiyyətə ən sədaqətli dost gözü ilə baxar, ölkəni xalqa xeyir verən işlərlə doldurar, hökmdar özü şəhvani hisslərinə hakim olar. İkinci siyasət isə bunun tam əksinədir. Hər iki halda camaat gözlərini hökmdara dikər, özlərini onlar kimi aparmağa çalışar.

Tusiyə görə hər bir ölkədə bəla iki şeydən törəyə bilər 1) ölkədə qəddar şahlıq olanda 2) ölkə özbaşına buraxılanda. Qəddar şahlıq ona görə qorxuludur ki, burada zalım adamlar təriflənər, özbaşnalıq isə ona görə qorxuludur ki, burada alçaq və şər adamlar əzizlənərlər. Tusi yazır: «Ölkə idarə etməyə məsul olan adam bir şeyi qəti bilməlidir ki, dövlətlərin bünövrəsi qarşılıqlı kömək və əmək əsasında birləşən, beləliklə, bir bədənin üzvləri yerində olan insanların ümumi ittifaqı əsasında yaradılmışdır». Bu ittifaqın əsasını isə 4 təbəqə - ziyalılar, hərbçilər, ticarətçilər və kəndlililər-sənətkarlar təşkil edir. Filosofa görə, dövlət yalnız ədalət əsasında bu göstərilən 4 təbəqənin ittifaqı və vəzifələrə ləyaqətli və istedadlı insanların təyin edilməsi ilə uzun müddət yaşaya bilər.

Tusi dövlət rəhbərlini idarəçilikdə zora deyil, rasionallığa əsaslanmağı çağırırdı. Onun fikrincə, zorakı, despotik üsullarla idarəetmənin sonu yoxdur və bu axırda üsyanlara aparıb çıxarır ki, nəticədə dövlətin əsasları sarsılır, o, məhv olur. Tusi dövlətin və dövləti idarəetmənin bütün mahiyyətini ədalət, fəzilət və hikmət qanunlarında cəmləşdirmişdir.

Mütəfəkkirə görə, dövlətin gəliri cəmiyyət üzvləri arasında elə bölüşdürülməlidir ki, heç bir kəs narazı qalmasın. Onun fikrincə, gəlirlərin düzgün bölüşdürülməməsi zülmə aparıb çıxarır. O deyirdi ki, dövlətin möhkəmliyi hökmdarın siyasi idarəetmə qabiliyyəti ilə bağlıdır.

Tusi də N.Gəncəvi kimi ideal dövlət, cəmiyyət idarəçiliyi ilə bağlı utopik fikirlər səsləndirib. O, azad cəmiyyətin tərəfdarı kimi hesab etmişdir ki, burada hamı bərabər hüquqlu olmalı, yoxsul və varlı olmamalıdır: «Azadlıq şəhəri azad xalqa məxsus olduğuna görə hamı belə şəhərdə yaşamağı sevər, hər kəs burada istədiyi kimi dolanıb öz məqsədinə çatar. Bu şəhərin sakinləri hüquq bərabərliyinə malikdirlər, onlar dövlət xadimlərinlən üstündürlər, çünki vəzifəli şəxslər xalq tərəfindən seçilirlər… Hər dövrdə, zamanda hökmdara ehtiyac yoxdur. Əhali arasında nizam-intizam olsa, bu onlara uzun müddət bəsdir. Lakin bütün dövrlərdə müdrik bir rəhbərə ehtiyac vardır. Tədbir olmasa nizam-intizam aradan qalxar, insan cəmiyyəti lazım olduğu kimi inkişaf etməz».

Tusiyə görə, cəmiyyət mürəkkəb struktur elementlərindən ibarətdir: ailə, məhəllə, şəhər icması, böyük xalqlar icması, dünyəvi icma. «Hər adam bir evin /ailənin/ tərkib hissəsi olduğu kimi, hər ev bir məhəllənin tərkib hissəsi kimi, hər məhəllə bir şəhərin tərkib hissəsi kimi, hər şəhər bir xalqın tərkib hissəsi kimi, hər xalq bütün dünya əhalisinin tərkib hissəsi olar”. Burada Tusi cəmiyyəti bir tam kimi götürür və bu tamı təşkil edən hissələr arasında özünəxas ifadələrlə sinergizm və vəhdətin olması ideyasını irəli sürür. Daha sonra Tusi belə bir fikrə gəlir ki, insan dövlətdən kənarda yaşaya bilməz. Dövlətin insanların aktiv fəaliyyətinə, insanların isə dövlət tərəfindən qorunmasına ehtiyacı var.

Tusi cəmiyyəti dörd təbəqəyə bölür: qələm əhli, qılınc əhli, müamilə əhli, ziraət əhli. Filosof bu dörd təbəqə arasında qarşılıqlı fayda verən əməkdaşlığın mövcud olmasını zəruri hesab edirdi. Məhz bu əlaqə nəticəsində dövlət uzun müddət fəaliyyət göstərir. Tusi böyük ustalıqla göstərirdi ki, əgər dövlət bir tamdırsa, təbəqələr onun hissələridir. Bu tam daxilində hər hissənin öz yeri var. Hər hissə özünəməxsus funksiya yerinə yetirir. O, buna görə də bir hissənin funksiyasının əlindən alınıb başqa birisinə verilməsinin əleyhinə çıxırdı. Onun fikrincə belə hal tamın pozulmasına gətirib çıxarar. Tusi dahiyanə şəkildə göstərirdi ki, dörd ünsür (od, su, torpaq, hava) təbiətin mövcud olması üçün nə qədər zəruridirsə, söylənilən dörd təbəqənin mövcudluğu da cəmiyyət üçün o qədər zəruridir.

Dahi mütəfəkkirin fikrincə, iki dövlət tipi mövcuddur: xeyirxah və qeyri-xeyirxah dövlət. Farabi kimi Tusi də bu iki dövlət tipini insanların könüllü və kortəbii birləşməsinə görə fərqləndirirdi. Xeyirxah dövlətə "ideal dövlət"i daxil edirdi. İdeal dövlətdə hamı çalışır ki, ancaq yaxşı işlər görsün, biri digərinə yardım edə, fayda verə bilsin. Bu dövlətdə hər şey qarşılıqlı faydalı əməkdaşlıq şəraitində həyata keçirilir.

Tusi dövlətin davamlılığı üçün müxtəlif funksiyalar həyata keçirən dayaqların arasında qarşılıqlı vəhdətin olması fikrini irəli sürərək həmin dayaqları belə xarakterizə edirdi: Birinci, qanunu tənzim edənlər - müsəlman fiqhşünaslığı, ritorika, poeziya, kalliqrafiya sahəsindəki mütəxəssislər. İkinci, qanunların ədalətliliyini mühafizə, dövlət sakinlərinin bərabərliyini təmin edən orqanlar. Üçüncü, şəhərin (dövlətin) qoruyucuları. Dördüncü, dövlətin mövcud olması vasitələrinin qayğısına qalan orqanlar. Daha sonra, Tusi, dövlətin idarə olunmasında bir-biri ilə sıx qarşılıqlı əlaqədə olan beş sistemin olması fikrini əsaslandırırdı: əfazil (dövlət işlərinə dair mühüm tədbirlər kompleksi işləyib hazırlayanlar), əhalinin savadlandırılması və maarifləndirilməsilə məşğul olan peşə sahibləri, dövlət mühafizəçiləri, mücahidlər və maliyyəçilər.

Tusi, dövləti idarə etmək, "ölkənin sahibi olmaq istəyən" şəxsdə yeddi qabiliyyətin olmasını lazım bilirdi: atalıq, alicənablıq, mətinlik, tam əzm, səbirlilik, var-dövlət, sadiq və əməlisaleh köməkçilər. Onun fikrincə, əgər bütün bu qabiliyyətlər bir şəxsdə yoxdursa,

onda ölkəni «qanun adamlarının rəyasəti» idarə etməlidir. Belə idarəetməni isə müəyyən qabiliyyətlərə malik bir neçə nəfər həyata keçirməlidir.

Tusi siyasətin dövlət, hərbi, xarici növlərini bir-birindən fərqləndirir, dövlət siyasətini «siyasətlər siyasəti» adlandırır. Mütəfəkkir hərəni öz yerində oturtmaq, hərənin öz payını verib başqasının haqqına əl uzatmağa qoymamaq, ictimai əmək prosesində ona tapşırılan işi yerinə yetirməyə məcbur etmək üçün tədbirlər görmək zərurətini siyasət adlandırır.

Tusi, bəsit siyasəti dörd qismə bölür: ölkə, qələbə, kəramət və camaat siyasəti. «Ölkə siyasəti. Camaatı elə dolandırmağa deyərlər ki, bundan onların fəziləti artsın; buna füzəla siyasəti də deyirlər. Qələbə siyasəti nakəs adamlar haqqında görülən tədbirlərə deyərlər, bunlara nakəslər siyasəti də deyərlər. Kəramət siyasəti camaatı elə idarəetməyə deyərlər ki, bunun nəticəsində onların kəramətləri inkişaf edib artsın. Camaat siyasəti ilahi namus (ədalətli vicdan) əsasında tərtib edilmiş müxtəlif qayda-qanuna deyirlər ki, bununla camaatı idarə edərlər». Tusi bu dörd siyasət növünü bir-birindən təcrid etməyərək bütöv şəkildə həyata keçirilməsini məsləhət bilirdi (**4, s.132-135**).

Azərbaycan xalıqının dünyagörüşündə çağdaş dövrün demokratik ənənələrinə, o cümlədən idarəetmə elminə yaxınlaşmaq XIX əsrdə baş vermişdir. Bu sahədə Abbasquluağa Bakıxanov, Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi, Mirzə Kazım bəy, Mirzə Şəfi Vazeh, Şeyx Cəmaləddin Əfqani, Seyid Əzim Şirvani və başqa mütəfəkkirlərimiz ilk cığır açmışdır. Onlar millətdə demokratik idarəçilik ruhunu oyatmaq, köləliklə barışmamaq və ən əsası milli kimliik, milli özünüdərk uğrunda savaşa başlamışdılar.

Maariflənmiş monarxiya tərəfdarı olan **Abbasqulu Ağa Bakıxanova** (1794-1847) görə, irsən keçən sülalə hakimiyyəti tamamilə qanunidir, ona hörmət edilməlidir. Onun fikrincə, təbəələr hökmdara itaət etməlidir, çünki hökmdar qayda və qanunların qoruyucusudur. O yazır ki, rus imperiyası yerli xalqları itaətdə saxlamaq üçün zorakılıq etməməlidir. Başqa sözlə, hökmdar xalqa əziyyət verməməli, ölkəni idarə etmək bacarığına sahib olmalıdır. Ona görə, hökmdar hakimiyyətdən sui-istifadə etməməli və ədalətsizliyə yol verməməmlidir. Hökmdar ölkənin sosial rifahına diqqət yetirməli və vaxtını boş yerə keçirməməlidir. Bakıxanov çar Rusiyası daxilində yaşayan xalqların gələcəyini isə ancaq elm və maarifdə görürdü. Ona görə xalq xurafat və cəhalətdən ancaq elm və maarif yolu ilə xilas ola bilər, biliksiz elm yoxdur.

Bakıxanova görə Şərq ölkələrində hökm sürən nadanlıq, cəhalət və elmsizliyə səbəb, müsəlmanların təhsil və ədəbdən uzaq olub, cahillikləri ilə fəxr etməsidir: «Fəxr edirdi hər kəs varla, nəsəblə, İşi yoxdu təhsil ilə, ədəblə. Bir məqsəddi dövlət yığmaq hər kəsə, O dövləti sərf etsin boş həvəsə. Axtarıb bir mənsəb tapsın özünə, Zorla xalqı tabe etsin özünə. Dəm vuraraq onlar həsəb-nəsəbdən, Kənardılar hər bir hünər ədəbdən». Açıq şəkildə müsəlman ölkələrində ədalətsizliyin, özbaşnalığın olduğunu yazan filosof deyir ki, müsəlmanlar dünya elmlərindən də xəbərsizdirlər.

Təbrizdə olarkən gördüklərindən dəhşətə gələn Bakıxanov, hələ 1830-cü illərdə bir çox xələflərini qabaqlayaraq yaşadığı cəmiyyətin idarə olunmasında çürüklüyü, eybəcərlikləri göstərmişdir. O, bəzi din xadimlərinin dövlət məmurları ilə birləşib xalqı çapıb-talamasını, cəmiyyətin də bu işin iştirakçısına çevrilməsini açıq şəkildə ifadə etmişdir. Bakıxanov şəhər əhlinə xitabən yazır: «Əya güruhu-sitəmgər, əhaliyi-Təbriz, Vəfa yerinə cəfa sizdə bu nə adətdir?! Nə elmə talib olan var, nə mənidən agah, Görüm, ilahi, dağılsın, necə vilayətdir?! Nə rahü rəsmi-nəsara, nə şiveyi-islam, Nə bütpərəst süluki, bular nə millətdir?!… Axund ilə xana hər tənə eyləsən yaraşır, Bu müftəxorların əndişəsi şərarətdir». Bakıxanov anlayır ki, ya dini əxlaqi-mənəvi bir ideya kimi qalmalı və

cəmiyyətin siyasi həyatına qarışmamalı, ya da islamın qayda-qanunlarına hamı olduğu kimi əməl etməlidir. Ancaq dövründə ruhanilərin, din başçılarının islamın qanunlarına zahiri münasibət bəsləyərək daxilən əməl etməmələrini, hər müsəlman ölkəsində ayrı-ayrı dini üsul və qaydaların mövcud olmasını görən Bakıxanov kimi dünyagörüşlü bir filosof isə təbii ki, bununla razılaşa bilmirdi (**4, s.142**). O, bu dinin əsasında yaranan qayda-qanunların cəmiyyəti necə əzdiyini görür və buna, etiraz edirdi. Bakıxanov başa düşürdü ki, yalnız islam amili bir milləti azad və xoşbəxt edə bilməz. Bu heç də bəzilərinin yazdığı kimi Bakıxanovun elmi-materialist dünyagörüşünə yaxınlaşmasının nəticəsi deyildi. Filosof sadəcə, dinlə dövləti idarəetmə ideyaları arasında yaxınlıq axtarırdı.

XIX əsrdə yaşamış Azərbaycan ziyalılarından **Mirzə Kazım bəy də (1802-1870)** əvvəllər maariflənmiş monarx ideyasını müdafiə etmişdi. O belə hesab edirdi ki, müdirik hakimlər ölkəni sənaye, texnika və elmin inkişaf yolları ilə apara bilər və gözəl bir cəmiyyət yarada bilər. Sonralar o, utopik fikirlərdən əl çəkərək burjua-maarifçi-demokrat yoluna keçmişdi. O, sosial ədalətsizliyə, siyasi zülmə etiraz etmişdir. Azadlıq, bərabərlik, qardaşlıq, bir sözlə, yer kürəsində sülh ideyasını təbliğ etmişdir.

Böyük təbiətşünas alim, publisist, milli mətbuatımızın banisi **Həsən bəy Zərdabi (1842-1907)** də cəmiyyətdə demokratik dəyişikliklərin, millətin azad şəkildə idarə olunmasının tərəfdarı olmuşdur. Bütövlükdə, Zərdabi cəmiyyətdə sosial ədalətsizlikləri, zülmü və s. haqsızlıqları tənqid etsə də,- ictimai dəyişikliklər, inqilabi hərəkatlar haqqında maraqlı fikirlər söyləsə də, bütövlükdə cəmiyyətə baxışlarında idealist mövqedə durmuşdur.

Zərdabi yazır ki, artıq dəfələrlə Avropa tayfalarının, Qərb xalqlarını Şərq əhlindən artıq dərəcədə tərəqqi etmələri ilə bağlı yazılar yazıb, səbəblərini izah ediblər. Ən əsas səbəb də ki, Qərb xalqların daha çox elm təhsil etmələri və bir də azadlıqdır. Zərdabi yazır: «Nə qədər Avropa əhli bizim təki azadlıqdan bixəbər olub ol vaxtacan bizdən çox avam olub. Amma bu halda azadlıq cəhətindən Avropa əhli çox tərəqqi edib və bir işdə bizdən irəli düşüb. Əgərçi bizim şəriətimizə görə qul azad etmək çox böyük savabdır, amma biz bu barədə həm işi gec qanmışıq. Satınalma qulu azad etməyi savab hesab edə-edə, biz öz xahişimiz ilə bir-birimizə qul olmuşuq. Rəiyyət padşaha, övrət kişiyə, uşaq ataya, nökər ağaya, şagird ustada və qeyrə məgər qul deyil».

Əslində qul azad etməyi özlərinə savab bilən müsəlmanlar, xüsusilə də islam ölkələrinin başçıları, dini rəhbərləri bununla da insanların tamamilə azad olmasına mane olublar. Şəriətin bu cür müəddəalarından çıxış edərək, müsəlmanlar bir-birlərinin qullarına çevriliblər. Ona görə də, Zərdabi yazır: «Bəli, biz hamımız quluq və buna səbəb bizim ata-baba adətləridir. Xülasə, Məşriq-zəmində azadlıq olmadığına biz Avropa əhlindən geri qalmışıq və nə qədər belə olsa, biz tərəqqi etməyəcəyik və edə bilmərik».

Zərdabi həməsrləri arasında Qərb mədəniyyətini şişirtmədən və ideallaşdırmadan millətini gerilikdən, avamlıqdan, birliksizlikdən, millət təəssübsüzlüyündən və s. qurtulmasına, inkişafına çalışan bir mütəfəkkir olmuşdur. O, soydaşlarını başa salmağa çalışırdı ki, libaslarında, davranışlarında avropalıları təqlid etməklə heç nə düzəlməyəcək. Zərdabi yazır: «Küçələrdə cavanlarımız ya papağını əyri qoyub ay balam, ay balam çağırır, ya bir-birinə yaman deyir, meydanlarda kimi dərviş nağılına qulaq asır, kimi xoruz, kimi qoç döyüşdürür. Xülasə, heç bir həvəs ilə zəhmət çəkən yoxdur, hamı ya tənbəlik edib, işdən qaçırıq, ya bikar oturub Allahdan buyuruq deyirik». Zərdabi Qərb mədəniyyətinin müsbət ideyalarını təbliğ etməklə, sadəcə millətinin gözünü açmağı qarşısına məqsəd kimi qoymuşdur. Zərdabi üçün, millətin inkişafına səbəb ola biləcək, istənilən müsbət bir ideyadan yararlanmaq lazımdır. Əgər, millətin öz adət-ənənələri, islam və Qərb mədəniyyətində belə müsbət çalarlar varsa, onlardan yalnız istifadə etmək lazımdır.

Əlbəttə, Zərdabi millətin inkişafına maneə olan amilləri - istər milli adət-ənənlərdən irəli gələn, istər islam əsasında yaranmış qaydalarda, istərsə də Qərb mədəniyyətinin ifrat ideallaşdırılmasından yaranan qüsurları görmüş və yeri gəldikcə tənqid etmişdir.

Zərdabinin 1875-1877-ci illərdə təkbaşına ərsəyə gətirdiyi «Əkinçi» qəzeti demokratik idarəetmə təfəkkürünün yayan ilk mətbu orqanımız olmuşdur. Təkcə bu qəzetin varlığı Zərdabinin demokratik idarəetmə dəyərlərin yayılmasında oynadığı rolu açıq şəkildə ortaya qoyur. Zərdabinin «Əkinçi»dən sonrakı fəaliyyəti də milləti ilə bağlı olmuş, o, həm bir çox çağdaşlarının (N.B.Vəzirov, S.Ə.Şirvani, Ə.Gorani, Ələkbər Heydəri), həm də yeni nəslin (Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə, Ə.Ağaoğul və b.) milli ruhda yetişməsində və formalaşmasında müstəsna rol oynamışdır(**4, s.149**). Təsadüfi deyil ki, həməsrləri ilə yanaşı, XX əsrin əvvəllərində yaşamış bir çox tanınmış ziyalılarımız da - Hüseynzadə, Rəsulzadə, Ağaoğlu, Topçubaşov və başqaları Zərdabini özlərinin müəllimi, ustadı saymışlar.

Azərbaycanın türk mütəfəkkiri **Şeyx Cəmaləddin Əfqani (1839-1897)** bütün elmi-fəlsəfi yaradıcılığı boyu türklərin əzmkarlağını, azadlıqsevər olmağını, soykökünə bağllığını və islama hörmətini önə çəkmişdir. C.Əfqani sübut edirdi ki, Quran tamamilə azadlıq, bərabərlik və ədalət prinsipinə əsaslanır, bütün müsəlmanları tərəqqiyə çağırır. Quranın mahiyyətini düzgün başa düşmək və ona riayət etmək İslam dünyasının nicat yoludur. C.Əfqaninin demoraktik idarəetmənin islama zidd olmadığını əsaslandırmağa çalışırdı: «Quranun həqiqi ruhu azadlıqdır və həm də müasir fikirlərə uyğundur. İndiki nizam-intizamsızlığın İslam qanunlarına qətiyyən dəxli yoxdur. Bunlar nadan və cahil təfsirçilərin İslama etdikləri əlavələrdir. Tarixi təkamül və inkişaf onların bu səhvini islah edəcək. Deməк, bir müsəlman ziyalısı və alimi Avropa demokratik məfkurəsinə tamam aşina olsa, o, Quranın təlimlərinə əsaslanaraq xalqı müasir mütərəqqi demokratik məfkurələrlə tanış edə bilər». C.Əfqani islama insanları zülmə və müstəmləkə işğalına qarşı dura bilən yeganə ideologiya kimi baxmış, onu yüksəlişin həqiqi qarantı kimi göstərmək istəmişdir. Onun fikrincə öz dininə, onun mükkəməlliyinə inam, xalqa belə bir inam aşılayır ki, o başqalarına nisbətən daha ləyaqətlidir. Əfqani hətta panislamizmi dəstəkləyən monarxlardan maliyyə yardımı almış və hesab etmişdir ki, bütün hallarda panislamizm ideyası hər bir millətin milli azadlığını əldə etməyə aparıb çıxaracaq. Əfqani üçün bu ideya əsas məqsədə - müsəlman xalqlarını milli azadlığını əldə etməyə xidmət etməyə bərabər idi(**4, s.157**). Ancaq ömrünün son illərində yalnız İslam ideyası ilə müsəlman xalqlarının azad olla bilməyəcəyini etiraf edən C.Əfqani milli və bəşəri demokratik dəyərlərin də rolunu önə çəkmişdir.

Görundüyü kimi, XIX əsdə yaşamış Azərbaycan mütəfəkkirləri Qərbə yönəlmiş demokratik idarəetmə təfəkkürünün meydana çıxmasında çox mühüm rol oynamışlar. Onların istər praktiki, istərsə fəlsəfi-ideoloji fəaliyyəti idarəetmə təfəkkürünün yaranması və inkişafında başlıca amil olmuşdur ki, bu da sonrakı mütəfəkkirlərimizin yaradıcılığında elmi-metodoloji açar rolunu oynamışdır.

**İstifadə edilmiş ədəbiyyat**:

1.Quliyev T.Q. İdarəetmənin əsasları. Bakı, Nagıl evi, 2001.
2.Əliyev T.Ə. Menecment. Bakı, 1998.
3.Rüstəmov Y.İ. Siyasi və hüquqi təlimlər tarixi. Bakı, 2000.
4.Şabanov Z.M. İdarəetmə təfəkkürü: tarix və müasirlik. Bakı. 2010.
5.Mahbub M. Əbu Nasr əl-Farabinin fəlsəfəsi. Bakı, 2018.
6.Əkbərov M. Platon fəlsəfəsində qanun ideyası. Bakı, 2018.
7.Атаманчук Г. В. Общая теория управления. М.: 1994.
8.Батчиков С. А., Глазьев Ю.С.Эффективность государственного управления. М., 1998.

9.Вейлл Питер. Искусство менеджмента. Пер. с англ. М.: Новости, 1993.
10.Гурней Б. Введение в науку управления. Прогресс, Москва, 1969.
11.Закуев А. Философия Братьев чистоты». Б., 1961.
12.История политических и правовых учений. М.: Наука, 1998.
13.Мартынов С. Д. Профессионалы в управлении. Л.: Лениздат, 1991.
14.Плутарх. Мораль об Исиде и Осирисе. ВДИ, М.: 1977.
15.Социально-утопические идеи в Средней Азии. Ташкент, 1983.
16.Хейруллаев М.М. Мировоззрение Фараби и его значение в истории философии. Ташкент, 1967.

**Зейнаддин Шабанов**

## УПРАВЛЕНИЕ КАК МЕХАНИЗМ ОСУЩЕСТВЛЕНИЯ ИНТЕРЕСОВ ОБЩЕСТВА

### Резюме

В современном этапе изучение общества, его управление является одним из существенных вопросов. Управление является механизмом осуществления интересов общества, средством воздействия для достижения поставленных целей. Под управлением подразумевается сущность сознательного, научного регулирования общества. А это требует учет объективных законов общества и природы, существующих характеристик развития.

**Цель -** изучение управленческих вопросов в философии и истории общественной мысли.

**Методология -** исторический, системный и сравнительный подход

**Результат -** доказано широкое применение идей, выдвинутых в современных управленческих теориях и истории общественной мысли

**Ключевые слова**: *управление, философы, общество, власть, государство, демократия, право*

**Zeynaddin Shabanov**

## MANAGEMENT AS A MECHANİSM FOR THE REALİZATİON OF SOCİETYS İNTERESTS

### Summary

The article presents the attitude of some thinkers, philosophers and researchers toward the issue of management and governance based on the analysis from a new standpoint of contradictory ideas set out in their works. It is noted that those thinkers through revealing the weaknesses of social structure proposed recommendations on building of a better society. All those thoughts and recommendations expressed a wish to establish a global order which would be characterized by better, more fair governance. Nowadays, these ideas to a certain extent are reflected in international instruments and basic laws of different countries. With all due respect to the opinions of famous figures in both the East and the West, the ideas are brought to light which are incompatible with today's world. The author also examines Azerbaijani philosophers-enlighteners' views concerning democratic management, gives their comparative analysis, as well as their influence upon modern managerial thinking.

**Purpose** – study of management issues in philosophy and histiry of public opinion

**Methodology** – historical, sistematic and comporative appproach

**Findings -** it has been proven wide application of ideas, put forward in modern management theories and the histiry of public opinio

**Keywords:** *management, philosopher, society, governance, state, democratic management, low*

**UOT 316**

**İlham Soltanov**
**AMEA Fəlsəfə İnstitutu,**
**kiçik elmi işçi**
**soltanovilham@rambler.ru**

# ŞƏXSİYYƏT AZADLIĞI VƏ HUMANİZM

*Məqalədə şəxsiyyət azadlığı və humanizmin qarşılıqlı əlaqələri ətraflı təhlil olunmuşdur. şəxsiyyət azadlığının humanizmlə əlaqəsinin digər elmlər tərəfindən də öyrənildiyini vurğulayan müəllif həmin məsələni sosial fəlsəfi istiqamətdə araşdırır. bu zaman iki əlaqəli məsələnin həll edilməsi diqqət mərkəzinə çəkilir: birinci, sosial gerçəkliyi əsl humanist mövqedən qiymətləndirməyin mümkünlüyünü irəli sürür və əsaslandırır; ikinci, ictimai həyata, burada gedən proseslərə insanların çoxtərəfli fəaliyyəti və onun məhsulu kimi yanaşmağın zəruriliyini vurğulayır.*

***Məqsəd*** – şəxsiyyət azadlığı və humanizmin qarşılıqlı əlaqəsini araşdırmaq

***Metodologiya*** - sistem yanaşma

***Tədqiqatın nəticələri*** - həm humanizm, həm də azadlıq şəxsiyyətin özünü tam dolğunluğu ilə reallaşdıra bilməsi, onun maddi rifahı və mənəvi inkişafının yüksəlməsi və fərdiyyətinin daim təkmilləşməsidir**.**

***Açar sözlər:*** şəxsiyyət, azadlıq, humanizm, qarşılıqlı əlaqə, insan varlığı, dəyərlər

## Giriş

Dəyərlər sistemində xüsusi yer tutan şəxsiyyət azadlığı, ümumi və mücərrəd məzmuna malik olmayıb, konkret-tarixi səciyyə daşıyır, onun mahiyyəti və məzmunu, reallaşması miqyası, mövcud ictimai quruluşun xarakteri və inkişaf səviyyəsi ilə şərtlənir. Bu mənada yanaşdıqda, müasir dövr şəxsiyyət azadlığının məzmunu və həyata keçirilməsində keyfiyyətcə yeni, daha yüksək pilləni ifadə edir. Yaşadığımız açıq, demokratik cəmiyyətə keçid dövründə bütöv bir tam kimi götürülən ictimai həyatın bütün tərəflərində baş verən əsaslı transformasiya prosesləri, totalitarizmin qətiyyətlə aradan qaldırılması, köhnə ictimai strukturların ləğv edilməsi və sosial həyatın təşkilinin yeni formalarının tətbiqi miqyasının genişlənməsi, insanların müxtəlif sahələrdə real azadlıqlarının inkişafında yeni-yeni üfüqlər açır. Müasir azərbaycan dövlətinin dünya birliyi ölkələrinə getdikcə daha möhkəm inteqrasiya olunma xətti, şəxsiyyət azadlığının reallaşmasında dünya təcrübəsindən səmərəli bəhrələnmək, onu xalqımızın və regionun tarixi, milli özünəməxsusluqları və xüsusiyyətləri ilə düzgün əlaqələndirməyi tələb edir.

Bununla yanaşı digər tərəfdən, marksist fəlsəfə uzun müddət şəxsiyyət azadlığının nəzəri mənalandırılmasında və onun praktiki reallaşmasında ciddi deformasiyalara və əyintilərə yol vermişdi ki, bu müxtəlif tarixi dövrlərdə görkəmli mütəfəkkirlərin azadlığa dair irəli sürdüyü dərin elmi müddəaları ilə ziddiyyət təşkil etməklə, insanların azadlıq haqqında təsəvvürlərinin bəsitləşməsi təhlükəsi törətmişdir. Onları aradan qaldırmaq, şəxsiyyət azadlığının elmi fəlsəfi konsepsiyasını özünün tam hüquqluluğu ilə bərpa etmək və ona müasir dövrün xarakterindən və tələblərindən irəli gələn elmi dəqiqləşmələr və konkretləşmələr etmək son dərəcə vacibdir.

Şəxsiyyət azadlığın sadəcə xeyirxah ideya, xoşniyyət və ideal olmayıb, insanların gündəlik həyatında daim əldə rəhbər tutduqları konkret fəaliyyət prinsipidir. Buna görə də onların şəxsiyyət azadlığı haqqında bilikləri nə qədər adekvat olursa, azad fəaliyyət

göstərmək əzmi, onu həyata keçirməyə yönələn fəallıq dərəcəsi də, bir o qədər yüksək olar. Şəxsiyyət azadlığının sosial-fəlsəfi təhlili zərurəti həm də müasir dövrdə gedən dəyərlərin yenidən mənalandırılması universal prosesinin tələbləri ilə bağlıdır. Söhbət ümumbəşəri dəyər kimi çox mühüm və daim diqqət mərkəzində olan azadlığın yeni tərzdə qiymətləndirilməsindən gedir. Burada aşağıdakı məqam xüsusilə nəzərə alınmalıdır: demokratiya, humanizm, ədalət və s. Universal prinsiplərin yenidən mənalandırma obyektinə çevrilməsi, eyni zamanda azadlıq problematikası baxımından yeni maraq kəsb edir, çünki azadlığın tam dolğunluğu ilə özünü reallaşdırması, yalnız yuxarıda qeyd olunan dəyərlər ilə ayrılmaz qarşılıqlı təsirdə mümkün ola bilər.

**Şəxsiyyət azadlığının humanizm ilə əlaqələri**

Şəxsiyyət azadlığının humanizm ilə əlaqələrinin təhlili mühüm elmi və praktiki maraq doğuran problemlərdəndir. Şəxsiyyətin sosial mahiyyətini əks etdirən mənəvi strukturunda azadlıq kimi, humanizm də müstəsna dərəcədə böyük rol oynayır. Bu rolu araşdırarkən, onları sıx əlaqədə və qarşılıqlı təsirdə götürmək tələb olunur. Əks halda, həmin subyektiv keyfiyyətlərin mahiyyətini, fərdi və ictimai inkişaf baxımından əhəmiyyətini hərtərəfli, obyektiv təhlil etmək qeyri-mümkündür.

Ümumilikdə humanizm problemi, o cümlədən də onun azadlıq ilə münasibətləri insanşünaslıq kompleksinə daxil olan müxtəlif elmlər tərəfindən öyrənilir. Sosial fəlsəfə bu problemin özünəməxsus mənalandırılmasının məntiqini aşkara çıxarmağı başlıca məqsəd kimi qarşıya qoyur. Bu elm, insan fəaliyyətinin bütün nəticələrinə və sosial həyatın hər bir sferasında həyata keçirilən azadlıqlara, onların miqyasından və hansı konkret tələbatları ödəməyə yönəlməsindən asılı olmayaraq, ümumilikdə insaniliyin, insanlığa münasibətin təzahürü baxımından yanaşır (1, s.132). Qeyd olunan səpki həm də çox mühüm metodoloji rol oynayır, çünki cəmiyyətin bu və ya digər tərəflərini öyrənən konkret elmlərin istifadə etdiyi çoxsaylı fikri əməliyyatları, əldə rəhbər tutduğu ideya mövqelərini nəzəri cəhətdən əsaslandırır. Bu funksiyanı həyata keçirərkən, sosial fəlsəfə aşağıdakı iki qarşılıqlı əlaqəli məsələnin həll edilməsini diqqət mərkəzinə çəkir: birinci, sosial gerçəkliyi əsl humanist mövqedən qiymətləndirməyin mümkünlüyünü irəli sürür və əsaslandırır; ikinci, ictimai həyata, burada gedən proseslərə insanların çoxtərəfli fəaliyyəti və onun məhsulu kimi yanaşmağın zəruriliyini vurğulayır (6, s.62).

Şəxsiyyət azadlığı ilə humanizmin vəhdəti belə bir ümumi əsasa arxalanır ki, onların hər ikisi şəxsiyyəti hərtərəfli inkişaf etdirmək, onun malik olduğu qabiliyyətləri və potensialı dolğun həyata keçirmək, özünüreallaşdırmaq və özünütəsdiq etmək məqsədi güdür. Bu məqsədə nail olmağın vasitələri və yolları baxımından onların aralarında müəyyən fərqlərin olmasına baxmayaraq, ümumi cəhətlər və təmas nöqtələri üstünlük təşkil edir.

Humanizmin azadlıq ilə qarşılıqlı münasibətlərini araşdırarkən, öncə bu anlayışın məzmununa qısa da olsa nəzər salmaq lazım gəlir. Ümumilikdə humanizm ümumbəşəri dəyər və əxlaq prinsipi olmaqla, insana hər cür qayğı göstərilməsini, cəmiyyətin ümumi maraqları ilə burada yaşayan hər bir fərdin maraqlarının təmin olunmasını nəzərdə tutur.

Qeyd etmək lazımdır ki, marksizm fəlsəfəsi həm azadlığı, həm də humanizmi insan varlığının maddi şəraitinə müncər edirdi. Bu təlim həmin anlayışları həddən artıq siyasiləşdirərək və sinfi mübarizə ilə əlaqələndirərək belə bir müddəa irəli sürürdü ki, onların hər ikisini real təmin edən şərait yalnız kommunizm cəmiyyətinin yüksək fazasında bərqərar olacaqdır. Guya yalnız kommunizm, fəaliyyətdə olan humanizm kimi cəmiyyətin bütün üzvlərinin tam rifahını və azad surətdə hərtərəfli inkişafını təmin edəcəkdir.

XX əsrin sonlarından başlayaraq dünyada baş verən əsaslı dəyişikliklər, Sovetlər

İttifaqının dağılması nəticəsində müstəqil milli dövlətlərin yaranması və açıq cəmiyyətə keçilməsi istiqamətində inkişafı, marksızmin bir çox digər müddəaları kimi bu fikrin də doğru olmadığını sübut etdi.

Real həyat proseslərində şəxsiyyət azadlığı ilə humanizm sıx əlaqədə çıxış edir (3, s.163). Bu onunla izah olunmalıdır ki, azadlıq ilə humanizmin dərin, daxili əlaqəliliyi bəşəri inkişafın məntiqindən irəli gəlir. Belə ki, insana hərtərəfli qayğı göstərmək, əsl humanizm olmaqla, öz məzmununa əsas tələblərdən biri kimi azadlığı da daxil edir. Başqa sözlə deyilsə, ayrıca fərdin və bütünlükdə cəmiyyətin azad olmadığı ictimai münasibətlər sistemində həqiqi humanizmdən danışmaq əbəsdir. Təsadüfi deyildir ki, fəlsəfi fikrin inkişafının bütün dövrlərində humanizm carçıları olan mütəfəkkirlər, onu azadlıqdan ayırmamış, sonuncunu humanizmin zəruri tərəfi, ən böyük dəyər hesab etmişlər. Onların nəzərində azadlıq əsl insan həyatının atributiv xassəsi, ona təbiətən bəxş edilən nemətdir. Bu məqamı J.J.Russonun «İnsan azad olmaq üçün doğulmuşdur» kəlamı ən sərrast və lakonik formada ifadə edir. Deyilənlərdən aydın olur ki, həqiqi azadlıq və humanizm, insana ən ali dəyər kimi yanaşır, onu bütün mövcudatların və tarixi tərəqqinin mərkəzinə qoyur.

**Humanizm və şəxsiyyət azadlığı bəşər fəlsəfi fikri tarixində**

Humanizm və şəxsiyyət azadlığı bəşər fəlsəfi fikri tarixində ən cəlbedici ideyalardan olmaqla, insana qayğı göstərməyi, onun həyat şəraitini yaxşılaşdırmağı, tələbatlarını daha dolğun ödəmək üçün şərait yaratmağı və istedadını inkişaf etdirməyi nəzərdə tutur. Hər iki anlayışın əsas qayəsi insana vasitə kimi deyil, əsas məqsəd kimi yanaşılması, onun bütün digər dəyərlərdən üstün olduğu fikrinin qəbul olunmasıdır. Ümumilikdə ictimai inkişafın adekvat anlaşılması özündə yüksək humanist və azadlıq məqsədlərini ehtiva edir. Buna görə də maddi istehsalın, sosial münasibətlər sisteminin və bütövlükdə mədəniyyətin, bu məqsədlərin yerinə yetirilməsinə yönəldilməsi tələb olunur (9, s.94).

Humanizm ilə şəxsiyyət azadlığının vəhdətdə götürülməsi, sosial-fəlsəfi fikirdə o qədər də yeni məsələ deyildir. Hələ XVI-XVII əsrlərdə intibah dövrünün mütəfəkkirlərinin baxışlarında, XVIII əsr maarifçilik fəlsəfəsində, XIX əsrin ikinci yarısında və XX əsrdə mütərəqqi düşüncə sahiblərinin ideya irsində humanizm idealı azadlıqdan ayrılmaz formada təsəvvür olunurdu. Müasir dövrdə həmin anlayışların vəhdətdə mənalandırılması zərurəti daha da artır. Bu aşağıdakı səbəblər ilə izah edilir. Hər şeydən əvvəl, hazırda sosial proseslərin insanilik ölçüləri baxımından mənalandırılmasının əhəmiyyəti durmadan artır. Bu, ölkənin daxili həyatında baş verən çoxtərəfli əsaslı dəyişikliklərin miqyasının genişlənməsi ilə yanaşı, onların xarakterinin də yeniləşməsi ilə izah olunur. Belə ki, indi həyata keçirilməkdə olan əsaslı iqtisadi islahatlar, sosial, siyasi və mədəni dəyişikliklər ümumi bir istiqamətə yönəlir. Bu istiqamət insanın varlığı, normal fəaliyyəti və inkişafına getdikcə daha çox əlverişli şərait yaratmaqdır (2, s.74).İctimai həyatın bütün sferalarında baş verən irəliləyişlər, insan azadlığının genişləndirilməsi üçün yeni imkanlar yaratmaqla yanaşı, onların humanist meyarlara cavab verməsi tələbini irəli sürür. Digər tərəfdən, müasir elmi-texniki inkişafın törətdiyi sosial nəticələr, bu iki tərəf arasında münasibətlərin birmənalı olmaması, yəni onların insanın əməyini yüngülləşdirmək, rahatlığını artırmaq, informasiya təminatını yaxşılaşdırmaq ilə yanaşı, törətdiyi neqativ nəticələr (emosional-psixoloji gərginlik, hərəkətsizlik ilə bağlı xəstəliklər, görmə üzvlərində yaranan nasazlıqlar və s.) də onlara humanist yanaşmağı diqqət mərkəzinə keçirir. Müasir şəraitdə humanizm və azadlığa diqqətin artırılması zəruriliyi, həm də bəşəriyyətin gələcək inkişafı taleyinə biganə qalmamaq meyli ilə sıx bağlıdır. Bu mənada «qlobal problemlərin yaranması,

dünyagörüşü, siyasi, dini və sair əlaqələrin müxtəlifliyindən asılı olmayaraq, indi mövcud olan bütün real humanizim formalarının birləşməsi üçün real əsasdır» (7, s.65).

Son dövrlərdə insan varlığının və idrakın mənəvi-əxlaqi və sosial-etik səpgiləri əsas diqqət mərkəzinə keçir. İnsan-bəşəriyyət-insanlıq sxemində baş verən əsaslı dəyişikliklər zəminində ümumbəşəri dəyərlərə meyl güclənir. Bu özünün müvafiq ifadəsini humanizimin və azadlığın rolunun artmasında tapır.Humanizmin şəxsiyyət azadlığı ilə yaxınlığı onun bütün hadisələrə, proseslərə və münasibətlərə insanlıq gözü ilə baxmasından irəli gəlir. Bu mənada fəlsəfi ədəbiyyatda irəli sürülən aşağıdakı fikir ilə razılaşmaq olar ki, «real humanizm görünür ki, müxtəlif prinsiplərin əlaqələndirilməsində razılıq, şəxsiyyətin özünümüdafiə azadlığı ilə onun davranışına mövcud cəmiyyətin mədəniyyətinin verdiyi tələblərin əlaqəlilik dərəcəsi deməkdir» (12, s.343).

Müasir dövrdə həm də şəxsiyyət azadlığı özünün bütün tərəfləri və miqyaslarında humanist ideallara və məqsədlərə xidmət etməsi ilə səciyyələnir. Bu onunla şərtlənir ki, həm humanizm, həm də azadlıq şəxsiyyətin özünü tam dolğunluğu ilə reallaşdıra bilməsi, onun maddi rifahı, halı və mənəvi inkişafının yüksəlməsi və fərdiyyətinin daim təkmilləşməsi deməkdir.

Marksist fəlsəfə şəxsiyyət azadlığı və humanizmi məhdud şəkildə anlayırdı. Bu təlim onları həddən artıq siyasiləşdirərək göstərirdi ki, həqiqi azadlığın və humanizmin təmin olunması, sinfi mübarizə və fəhlə sinfinin siyasi hakimiyyəti ələ alması ilə bağlıdır. Bu ideologiyanı əldə rəhbər tutan sosializm dövründə rəsmi bəyanatlarda şəxsiyyət azadlığının və humanizmin mövcudluğu haqqında geniş bəhs olunsa da, həyatda onun tam əksi özünü göstərirdi: totalitar rejimin bütün fəaliyyəti antihumanist xarakter daşıyırdı. Ölkədə şəxsiyyətin real azadlığı əvəzinə, onun maraqlarının ictimai maraqlara tabe olması qərarlaşmışdı. Bu, həqiqi humanizmdən və azadlıqdan uzaq olmaqla, insan fərdiliyinin məhdudlaşdırılması demək idi. Bu, münasibətdə Z.Baumanın aşağıdakı fikri ilə razılaşmaq olar ki, fərdin cəmiyyətə tabe edilməsi, onun azad olmasından daha çox, özünün düşüncəsiz fiziki qüvvələrinin mövcud olmasından azad olmaq, yəni xalis psixoloji özünü aldatma deməkdir (4, s.23). Müasir fəlsəfi-etik anlamda humanizmin aşağıdakı üç mənası mövcuddur: insanın varlığının humanist əsaslarını qoruyub saxlamağın şərti kimi, onun əsas hüquqlarına təminat verilməsi; mövcud cəmiyyətdə ədalət haqqında normal təsəvvürlərin hüdudları daxilində zəif insanların müdafiə olunması; şəxsiyyətə mövcud ictimai dəyərlər əsasında özünürellaşdırma imkanı verən sosial və əxlaqi keyfiyyətlərin formalaşması (13, s.366). Heç bir mübaliğəyə yol vermədən demək olar ki, bu istiqamətlər eynilə də şəxsiyyətin azadlığının təmin olunması baxımından səciyyəvidir. Buradan aydın olur ki, humanizm və azadlıq arasında sıx əlaqə və qarşılıqlı təsir fundamental xarakter daşımaqla, onların mənası, məzmunu və əks etdirdikləri reallıqların mahiyyət əlaqələri ilə şərtlənir.Bununla yanaşı qeyd edilməlidir ki, sözün ümumi mənasında götürülən humanizm anlayışı, azadlıqdan daha geniş olub, özündə onu da ehtiva edir. Doğrudan da belə yanaşdıqda azadlığın bütün növləri (siyasi, iqtisadi, sosial, mədəni, mənəvi və s.), hər bir forması (daxili, xarici, iradi və s.), eləcə də onu ifadə edən fazalar (azad seçim, qərar qəbuletmə, seçilmiş qərara uyğun məqsəd müəyyənləşdirilməsi və onun yerinə yetirilməsi) son nəticədə humanizmə xidmət edir. Çünki onların hər biri və bütünlükdə hamısı ictimai həyatda insanlığın və insan ölçülərinin daha dolğun reallaşmasına şərait yaradır. Burada belə bir məqamı vurğulamaq vacibdir ki, azadlıq, humanizmin ümumi strukturunda elə belə adi ünsür kimi iştirak etmir, o burada çox mühüm yer tutur. Azadlığın bu sistemdə rolu o qədər böyükdür ki, onu bütövlükdə humanizmin reallaşması səviyyəsini göstərən başlıca meyar kimi səciyyələndirmək olar.

Hər bir cəmiyyətin humanist potensialının müəyyən olunması, bir tərəfdən, onun

insana necə və hansı yolla təsir etdiyini açmağı, digər tərəfdən mövcud sosial sistemdə fərdin qiymətləndirilməsi meyarını, ölçmə miqyasını aydınlaşdırmağı nəzərdə tutur. Qeyd etmək lazımdır ki, sosial gerçəkliyin, burada gedən proseslərin humanizm mövqeyindən qiymətləndirilməsi son dərəcə vacib, eyni zamanda çətin məsələdir. Əsas çətinliklər sosial həyatın mürəkkəb və rəngarəng olması, onu qiymətləndirmənin obyektiv meyarlarının işlənib hazırlanması və bu işi həyata keçirən subyektin maraq dairəsi ilə bağlıdır. Bu halda qiymətləndirmə iki əsas qütb daxilində (insanı və ya qeyri-insanı) baş verir. Bununla əlaqədar nəzərə alınmalıdır ki, cəmiyyətdə humanizmin (eləcə də azadlığın) qiymətləndirilməsi mütləq deyil, nisbi olur. Bütün digər qiymətləndirmələr kimi, o da reallığı mütləqləşdirmir. Belə qiymətləndirmə onunla müəyyən edilir ki, insanların real həyat fəaliyyəti, onun insanlıq təbiətinə nə dərəcədə uyğun gəlir, onun inkişafı üçün necə şərait yaradır və insanın potensial imkanları ilə onun real təzahürləri arasında nə dərəcədə uyğunluq vardır.

Şəxsiyyət azadlığı ilə humanizmin sıx qarşılıqlı əlaqəliliyi, insanın aktivliyi və yaradıcılığında daha qabarıq özünü göstərir. Bütövlükdə götürdükdə aktivlik subyektin öz fəaliyyəti prosesində ətraf gerçəkliyi məqsəd və tələbatlarına uyğun surətdə dəyişdirməsidir (5, s.68). Bu prosesdə insan öz azadlıqlarının hüdudlarını əhəmiyyətli dərəcədə genişləndirir, nəticədə o getdikcə daha yüksək səviyyədə azad fərdiyyət kimi çıxış edir. Digər tərəfdən, humanizm də azadlıq kimi, insan subyektivliyinin başlıca keyfiyyəti olmaqla, onun yaradıcı aktivliyinin çox mühüm təzahürüdür. Lakin fəallığın ifadə olunması dərəcəsinə görə humanizm ilə azadlıq arasında müəyyən incə fərq vardır. Belə ki, azadlıq, fəallıq və iradənin yaradıcı surətdə reallaşması ilə daha möhkəm bağlıdır. Humanizmdə də yaradıcılıq vardır, lakin o əvvəlkində olduğu səviyyədə dolğun deyildir, çünki humanizm azadlıqdan fərqli olaraq, daha çox fəaliyyətin nəticəsi əsasında müəyyən olunur, yəni görülmüş işin insanlığa nə dərəcədə uyğun olması göstəricisi kimi çıxış edir. Həm də qeyd etmək lazımdır ki, şəxsiyyət intellektual, mənəvi və emosional cəhətdən inkişaf etdikcə, onun özünüreallaşdırması və özünüifadəsi səviyyəsi də yüksəlir. Bu məqam da onun humanizmi və azadlığının paralel surətdə yüksəlişini stimullaşdırır. Çünki insanda yuxarıda qeyd olunan keyfiyyətlər zənginləşdikcə, onun mənlik şüuru da yüksəlir, sonuncu isə humanizmə və azadlığa adekvat münasibət yaranmasının əsasında durur. İnsan öz fəaliyyətini xarici mühitin mexaniki təsirinin nəticəsi kimi deyil, daxili dünyası və tələbatları prizmasından keçirərək təşkil edir. Mahiyyət etibarilə obyektivin subyektivə çevrilərək reallaşmasını əks etdirən bu proses, şəxsiyyətin özdeterminasiyasını və azadlığını şərtləndirir. Burada insanın aktivliyi və fəaliyyəti ilə onun sövqedici qüvvələri, motivləri, stimulları, iradə azadlığı arasında əlaqələr yeni səciyyə daşıyır. Eynilə də irəli sürülmüş məqsəd ilə ona nail olmağın vasitələri və yolları arasında münasibətlər dəyişilir. Sözügedən dəyişikliklər obyektiv şəraitin tələbatlar və maraqlar baxımından dərk olunmasının artmasını, məqsədin daha dəqiq ifadə olunmasını və dəyərlər oriyentasiyasının düzgün seçilməsini təmin etməyə yönəlir və ümumilikdə fəaliyyət prosesində şüur amillərinin nisbi müstəqilliyinin güclənməsini ifadə edir. Bu proses həm də insanın amalının, insanilik ölçülərinin və bütövlükdə humanizmin reallaşmasını təcəssüm etdirir. Şəxsiyyətin aktivliyi və fəaliyyəti prosesində humanizm ilə azadlığın qarşılıqlı əlaqələrinin möhkəmlənməsinə aşağıdakı amillər mühüm təsir göstərir: şüurluluq səviyyəsinin yüksəlməsi, məqsədin adekvatlığı, təşəbbüskarlıq, motivləşmənin xarakteri, fərdi və ictimai maraqların uzlaşması dərəcəsi və sair. Yuxarıda qeyd olunan məqamlar azadlıq ilə humanizmin əlaqələrinin möhkəmlənərək, vəhdət formasına keçməsində stimullaşdırıcı rol oynayır.

Humanizm ilə şəxsiyyət azadlığının vəhdəti həm də insanın mənəviliyində ifadə

olunur. Belə ki, azadlığın əsası, insanın mənəviliyindədir, çünki azadlıq, yəni insanın öz potensialını reallaşdırması, maddi və sosial sferalar ilə müqayisədə mənəvi həyatda daha asan baş verir. Bu onunla izah olunur ki, burada azadlığa qarşı yönələn maddi–predmet xarakterli maneələr o qədər də güclü olmur, fərd özünün mənəvi–ideal aləmində sərbəst əməliyyatlar apara bilir, müxtəlif təxəyyül obrazları yaradır. İnsan mənəviliyinin bu spesifik xüsusiyyəti, təkcə azadlıqla deyil, həm də humanizmlə sıx bağlıdır. Belə ki, mənəvilik həmişə insana vasitə kimi deyil, əsas məqsəd kimi yanaşmağı, onun fərdi aləminə dərin qayğı və diqqət yetirməyi nəzərdə tutur. İnsanın mənəvi həyatı ideal xarakter daşımaqla, onun humanizmlə əlaqəli olan daxili intim aləminin ən dərin qatlarını əks etdirir. Buradan aydındır ki, fərdin sözün əsl mənasında götürülən humanist mahiyyəti, onun mənəviliyində aşkara çıxır. Şəxsiyyətin malik olduğu nəhəng yaradıcılıq və özünüreallaşdırma potensialı, özünütəsdiqi mənəviliklə ayrılmaz bağlıdır. Bu mənada A.Panarının aşağıdakı fikri ilə razılaşmaq olar ki, «dünyanın humanitar görünüşü probleminin əsasında, onun mənəvilik statusu durur» (8, s.220).

Humanizm, cəmiyyət tərəfindən insanın imkanlarının reallaşdırılmasına və tələbatlarının ödənilməsinə normal şərait yaratmağı ifadə edir. Odur ki. cəmiyyət inkişaf etdikcə, onun reallaşması dərəcəsi də yüksəlir. Humanizmin tam həyata keçirilməsi o deməkdir ki, ictimai proseslər tamamilə və bütünlükdə bilavasitə insan tələbatlarını dolğun surətdə ödəyir. Özü–özlüyündə ideal xarakter daşıyan bu səviyyəyə doğru inkişaf, insanın fərdiliyinin yüksəlməsi ilə ayrılmaz əlaqədə baş verir. Çünki, əslində insanın potensial baxımdan tükənməzliyi və universallığı, məhz onun humanist xarakterli individuallığının dərinliklərində yerləşir. Bu baxımdan E.From haqlı olaraq göstərir ki, insan özünü mücərrəd ümumi məxrəcə müncər etməklə deyil, yalnız öz individuallığını reallaşdırmaq yolu ilə bütöv, universal insani təcrübəsini əhatə edə bilir» (10, s.372).

Qeyd etmək lazımdır ki, şəxsiyyət azadlığı kimi humanizm də müasir elmi fəlsəfi sistemlərdə birmənalı izah olunmur. Məsələn, eksiztensializmin tanınmış nümayəndəsi M.Haydegger göstərir ki, guya humanizm anlayışı ümumi dünyagörüşünün universal ehkamları–metafizika ilə bağlı olduğundan, hazırda öz əhəmiyyətini itirmişdir (11, s.197). Humanizm ilə azadlığın münasibətlərinin J.Sartr tərəfindən anlaşılması da maraq doğurur. O göstərir ki, humanizm hər bir insanın müstəqil seçim etmək hüququ ilə bağlıdır. Lakin bu seçim onun fikrincə, hər hansı motivləşmədən kənar olmalıdır. Çünki motivləşmə, psixoloji cəhətdən nəyəsə üstünlük verməklə, yaxud da dəyərlər sistemi ilə bağlıdır ki, onların hər ikisini insan özü yaratmır, başqalarının məsləhəti ilə edir. Sartra görə, bütün bunlar o deməkdir ki, insan öz seçimini azad və müstəqil etmir, buna başqası tərəfindən təhrik olunur, buna görə də belə seçim qeyri-humanist xarakter daşıyır.

Bununla əlaqədar qeyd edək ki, ekzistensializm tərəfindən humanizmin azad seçim ilə əlaqəli götürülməsi özü-özlüyündə maraq doğurur. Lakin bu təlim ifrata vararaq, seçim azadlığının kənar təsirlə əlaqəliliyini bəsitləşdirdiyi üçün onunla razılaşmaq çətindir. Belə ki, insanın müəyyən konkret şəraitdə mövcud variantlar içərisində seçimi, əslində onun iradə azadlığını nümayiş etdirir. Lakin onu mütləqləşdirmək, yəni yalnız həmin şəxsin nailiyyəti hesab etmək doğru olmazdı, çünki insan bu prosesdə öz subyektiv keyfiyyətlərini əsas götürsə də, müəyyən dərəcədə mövcud mədəniyyət normalarını, dəyərlər sistemini, habelə digər amilləri nəzərə alır. Deməli, azad seçim heç vaxt yalnız onun öz aktivliyinin məhsulu ola bilməz.

**Nəticə**

Araşdırmalar sübut edir ki, Şərq və Qərb regionlarının fəlsəfə tarixində şəxsiyyət azadlığı ideyası bərabərsəviyyəli və düzxətli inkişaf yolu keçməmişdir: müəyyən dövrdə birincidə, digər dövrlərdə isə o biri regionda bu münasibətdə daha çox müsbət fikirlər irəli sürülmüşdür. Buna görə həmin müddəaları və deməli onların məkanı olan sivilizasiyaların birinin digərinə qarşı qoyulması deyil, onlardakı müsbət cəhətləri götürüb sintez edilməsi, müasir sosial fəlsəfədə şəxsiyyət azadlığı problemi haqqında formalaşmaqda olan elmi konsepsiyanın əsasında durmalıdır. Elmin və mədəniyyətin digər başlıca məsələlərində olduğu kimi, azadlığın müasir adekvat anlamını yaratmaq üçün, sivilizasiyalarının işgüzar dialoqu prinsipinə dönmədən əməl olunmalı, bunun bəşəriyyətin vəhdətinə aparan başlıca yol olduğu hamı tərəfindən birmənalı qəbul olunmalıdır. Ölkəmiz hər iki regionun qovuşuğunda yerləşdiyindən, müxtəlif dövrlərdə şəxsiyyət azadlığına dair irəli sürülmüş ideyaları müasirlik baxımından yüksək qiymətləndirməklə yanaşı, sözügedən problemin indiki anlamında həm Qərbin həm də Şərqin mütərəqqi ideyalarına söykənmək son dərəcə zəruridir.

Azadlığın sosial-fəlsəfi təhlili, onun sosial subyektlər üzrə araşdırmaqla yanaşı, sosial normalar ilə münasibətlərinin üzə çıxarılmasını da tələb edir. Sosial normalar ictimai həyatın müxtəlif sahələrində insanlar arasındakı münasibətləri, onların fəaliyyəti və davranışını tənzim etdiyindən, şəxsiyyət azadlığının reallaşdırılması mexanizminə çox mühüm təsir göstərir. Onlar həm də cəmiyyətdə əsas yer tutan dəyərləri və ümumi idealı, əsas birgəyaşayış qaydalarını qoruyub saxlayır ki, bundan kənarda azadlığı təsəvvür etmək doğru deyildir. Qeyd olunan tərəflərin ayrılmaz vəhdəti iqtisadi, sosial, siyasi və mənəvi sferalarda, həm də onların hər birini əhatə edən emosional və rasional səviyyələrdə özünü göstərir. Sosial normaların hər bir konkret növü, aid olduğu sahədə insanların davranış və hərəkətlərində mümkün olan, yol verilən variantların miqyasını göstərməklə, azad seçim və fəaliyyət üçün daha böyük imkanlar yaradır. Eynilə də sosial normalar tərəfindən insanların fəaliyyətinə qoyulan qadağalar və məhdudlaşdırmalar, şəxsiyyətin azadlığının inkişafının qarşısını almır, onu mövcud sosial zərurət ilə uyğunlaşdırır. Sosial normalarda maraqların hansı səviyyədə uzlaşdırılması, hamı üçün bərabər, azad seçim və qərar qəbul etmək imkanlarının yaradılması səviyyəsi, onun azadlığa təsiri dərəcəsini müəyyən edir.

Humanizm ilə şəxsiyyət azadlığı münasibətlərində aşağıdakı istiqamət aparıcı yer tutur: humanizm insanlara verilən azadlıqların durmadan inkişafını nəzərdə tutduğu üçün, o artdıqca, sonuncunun da təsir dairəsi genişlənir. Lakin onlar arasındakı əlaqələr heç də həmişə düz mütənasib olmur. Başqa sözlə deyilsə, humanizm ilə azadlıq arasında bəzən əks münasibət də özünü göstərə bilir. Söhbət ondan gedir ki, müəyyən hallarda təkcə azadlıqların genişləndirilməsi deyil, həm də onların məhdudlaşdırılması, nəticə etibarilə humanizmi ifadə edir. Bunu, cəmiyyətdə hüquq normalarını pozaraq, cinayət əməli törədənlərin azadlıqlarının məhdudlaşdırılması və müəyyən müddətə hətta azadlıqdan məhrum edilməsi nümunəsində görmək olar. Sözügedən hallarda humanizm bunda ifadə olunur ki, cəmiyyət cinayət işlətmiş insanların azadlığını məhdudlaşdırmaqla və müvəqqəti əlindən almaqla, onların digər insanların azadlıqları üçün yaratdıqları maneələri və mümkün olan təhlükələri vaxtında aradan qaldırır. Dövlətin və hüquq mühafizə orqanlarının qanunvericilikdə nəzərdə tutulmuş qaydada gördüyü bu qəbildən olan tədbirlər, ümumi cəmiyyətin normal fəaliyyəti, ictimai maraqların qorunması baxımından humanist məna kəsb edir. Göründüyü kimi, bu vəziyyətdə humanizm spesifik formada çıxış edir, yəni ümumi insanilik ölçülərinin qorunması naminə bir qrup insanların azadlığına xələl gətirilməsi yolu ilə həyata keçirilir.

Hazırda insanların fəaliyyətinin bütün tərəflərində humanistləşmənin və azadlığın inkişafı özünü göstərir. Bu təsadüfi olmayıb, hüquqi dövlət və vətəndaş cəmiyyəti qurmaq strateji xəttinin sosial mahiyyətindən irəli gəlir. Müstəqil dövlətimizin iqtisadi, sosial, siyasi və mədəni sahələrdə yeritdiyi siyasət, həyata keçirilməkdə olan geniş miqyaslı proqramlar bunun üçün əlverişli zəmin yaradır.

**İstifadə edilmiş ədəbiyyat**

1. Həsənov R. Şəxsiyyətin sosial məsuliyyəti və onun növləri /Fəlsəfə. Ekologiya. Mədəniyyət. 13-cü buraxılış. Bakı: 1993
2. Müasir mərhələdə Azərbaycanın sosial-iqtisadi inkişafının əsas meyilləri. Bakı: Elm, 2016
3. Nigar Cərulla qızı. Fəlsəfi-bədii fikir tarixində şəxsiyyət konsepsiyası. Bakı: Günəş, 2000
4. Бауман З. Индивидуализированное общество. М.: Фаир-Пресс, 2017, s. 23
5. Бьюкенен П.Дж. Смерть Запада. М.: АСТ, 2014
6. Крутова О.Н. Человек и история. М.: Политиздат, 2008
7. Ойзерман Т.И. Размышления о реальном гуманизме, отчуждении, утопизме и позитивизме // Вопросы философии, 1989, №10
8. Панарин А.С. Философия политики. М.: Владос, 20106
9. Фролов И.Т. О человеке и гуманизме. М.: Политиздат, 2011
10. Фромм Э. Душа человека. М.: Республика, 2008
11. Хайдеггер М. Время и бытие М.: Нота-Бене, 2014
12. Этика / Под ред. А.А.Гусейнова. М.: Гардарики, 2009
13. Явич Л.С. Сущность права. М: Наука, 2015

**Ильхам Солтанов**

## СВОБОДА ЛИЧНОСТИ И ГУМАНИЗМ

**Резюме**

В статье анализируются взаимоотношения личности и гуманизма. Автор исследует данную проблему в социально-философском направлении, подчёркивая изучение отношения свободы личности с гуманизмом другими науками. На данном этапе решение двух взаимосвязанных вопросов сфокусировано: во-первых, предлагается и обосновывается возможность оценки социальной реальности с истинной гуманистической позиции; во-вторых, подчёркивается необходимость многосторонней деятельности людей в общественной жизни и отношение происходящих процессов.

**Цель** - исследование взаимоотношения свободы личности и гуманизма.

**Методология** - системный подход

**Результат** - как гуманизм, так и свобода могут быть реализованы полнотой личности, ее материальным благосостоянием и повышением духовного развития, а также постоянным улучшением его индивидуальности.

**Ключевые слова**: личность, свобода, гуманизм, взаимодействие, человеческая сущность, ценность

**Ilham Soltanov**

## PERSONAL FREEDOM AND HUMANITY

**Summary**

In article relationship of the personality and humanity are analyzed. The author researches this problem in the social and philosophical direction, emphasizing studying of the relation of personal freedom with humanity of other sciences. At this stage the solution of two interconnected questions is focused: first, an opportunity of assessment of social reality from a true humanistic position is offered and proved; secondly, need of multilateral activity of people for public life and the relation of the happening processes is emphasized.

**Purpose -** research of relationship of personal freedom and humanity

**Methodology -** system approach

**Findings -** both humanity, and freedom can be realized by completeness of the personality, her material well-being and increase in spiritual development and also continuous improvement of his identity.

**Keywords**: the personality, freedom, humanity, interaction, human essence, value

**UOT 101.1**

**Həcər Abdallı**
**AMEA Fəlsəfə İnstitutu,**
**aparıcı elmi işçi, fəl.f.d.**
**mahru.abbas@gmail.com**

# AZƏRBAYCAN CƏMİYYƏTİNDƏ AİLƏ DƏYƏRLƏRİ

*Məqalədə Azərbaycan ailəsində uzun illər ərzində formalaşan dəyərlər sosial-fəlsəfi baxımdan təhlil olunur, nikah-ailə münasibətləri, ailədə uşaqların tərbiyəsi araşdırılır. Bildirilir ki, dəyərlərin formalaşmasına həm yerli şəraitin, həm milli mədəniyyətin, həm də islam dininin xeyli təsiri olmuşdur. Məqalədə xalqımızın yaratdığı çoxəsrlik mədəniyyətin təkamülü izlənir, ailə münasibətlərində tarixin gedişində baş verən köklü dəyişikliklər dəyərləndirilir. təklif və tövsiyələr irəli sürülür. Ailənin idarə olunmasında prinsip və metodlara diqqət yönəldilir. Məqalədə ailə-nikah münasibətləri mövzusunda araşdırmalar aparan Azərbaycan və əcnəbi tədqiqatçıların əsərlərinə müraciət olunur, fərqli fikirlər sərgilənir.*

***Məqsəd –*** Azərbaycan cəmiyyətində ailəyə təsir edən dəyərlərin öyrənilməsi

***Metodologiya –*** sistem yanaşma, müqayisəli təhlil

***Tədqiqatın nəticələri –*** uzun illər ərzində formalaşmış milli-mənəvi dəyərlərin, tərbiyə üsullarının ailələrə təsiri ətraflı tədqiq edilib, təkliflər irəli sürülüb.

***Açar sözlər:*** ailə, dəyər, cəmiyyət, xalq, norma, qayda, tərbiyə, qanun, nikah

***Giriş***

Ailə - cəmiyyətin və dövlətin ən mühüm sosial dəyəridir. Bu, insanın təşəkkülü və inkişafı proseslərinin, əsas etibarilə digər insanların həyatının asılı olduğu cəmiyyətin gələcək liderləri və vətəndaşlarının formalaşmasının baş verdiyi kiçik və böyük insan dünyasıdır. Nəsildən - nəslə ötürülən yazılmamış qanunlar, təsislər və təyinatların yaşamaq qabiliyyətini və şəxsiyyətin psixologiyası və davranışının formalaşmasına təsir gücünü təmin edərək, ailə onların "ötürülməsini" həyata keçirir. Anadangəlmə keyfiyyətlərin və əldə edilmiş biliklərin, tərbiyə və yaradıcı əməyin nəticəsi kimi, şəxsiyyətin ruhi mədəniyyətinin bünövrəsi məhz ailədə qoyulur. Dövlətin həyat qabiliyyəti bir çox cəhətdən ailə mədəniyyətindən - onun üzvlərinin təhsillik və etik mədəniyyəti, yaradıcılıq fəaliyyəti və rifah səviyyəsindən asılıdır.

Bir sistem kimi ailə, geniş münasibətlər spektri ilə bağlıdır. Bu, valideynlər arasındakı münasibətlər, övladlar arasındakı münasibətlər, valideynlər və övladlar arasındakı münasibətlər, uzunömürlülükdən asılı olaraq, ulu nənələrin və ulu babaların da daxil olduğu müxtəlif nəsil nümayəndələrinin bir ailə çərçivəsi daxilindəki münasibətlərdir. Daha geniş kontekstdə bu həm də ailənin qohumlarla olan münasibətləridir. Ailənin və onu təşkil edən şəxsiyyətlərin qarşılıqlı əlaqələri mürəkkəb sistemdən ibarətdir ki, onu dərk etmədən ailə münasibətlərini idarə etmək mümkün deyil. Ailə əlaqələrini möhkəmləndirən amillər sırasında mədəni dəyərlər sisteminin vahidliyini, ailənin mahiyyəti və məqsədləri, uşaqların tərbiyəsinə yanaşmalar, ər-arvadın rolu, məsuliyyəti və vəzifələri haqqında təsəvvürlərin uyğunluğunu, ər-arvadın emosional ümumiliyini və s. göstərmək olar. Hər bir mədəni ailə insan həyatının dəyərləri və mənası haqqında, öz əcdadlarının cəmiyyət qarşısındakı nailiyyətləri və xidmətləri, özünün tarixi missiyası, məqsədləri, imkanları və gözləmələri, şərəfli

keçmişi, övladlarının və yeni nəsillərin ləyaqətli gələcəyi haqqında aydın təsəvvürə malik olmalıdır. Müasir ailənin rifahı, əsas etibarilə ailənin yaşadığı cəmiyyətlə və onu cəmiyyətlə bağlayan çoxlu sayda görünməz tellərlə-xarici mühitlə qarşılıqlı əlaqəsindən asılıdır. Ailə beynəlxalq münasibətlərin qeyri-rəsmi subyekti də ola bilər və bununla millətin və yaşadığı dövlətin imicinə təsir göstərə bilər. Üzvlərinin səviyyəsi və sosial-siyasi fəallığından asılı olaraq o, xalqların qarşılıqlı anlaşması, həmrəyliyi və əməkdaşlığının inkişafı üçün əlverişli xarici mühitin yaranmasına imkan yaradaraq, beynəlxalq münasibətlər mədəniyyətinə də təsir göstərə bilər.

Yüksək ruhi mədəniyyətə malik şəxsiyyət üzvlərinin formalaşması və vətəndaş olmasında sosial mühit-məktəb və müəllim, ali məktəb və əmək kollektivi, cəmiyyət, dövlət siyasi rejim böyük rol oynayır.

Ailə səviyyəsində biz cəmiyyətdəki idarəetmə proseslərini, bir qədər yumşaq, spesifik formada görürük. Ailə üçün idarəetmənin hüquqi deyil, əsasən mənəvi-etik formaları xarakterikdir. Ailənin həyat fəaliyyətinin idarə edilməsi, onun tələbatlarının təmin edilməsi və onun inkişafının strateji planlaşdırılması, ailə münasibətləri mədəniyyətinin formalaşdırılması və qorunması, onun üzvlərinin mənəvi sağlamlığı, uşaqların maddi təminatı və ruhi inkişafı, onların əməyə və yüksək mənəvi dəyərlərə cəlb edilməsi, uşaqların müstəqil həyata hazırlanması - çoxlu bilik, enerji, təcrübə, dözüm, müdriklik tələb edir. Konstruktiv və sabit həyat fəlsəfəsinə malik şəxsiyyət özünün inkişafı və təkmilləşməsi prosesində həm öz davranışını və fəaliyyətini idarə edir və etməlidir, həm də öz ailəsinə, doğmalarına və yaxınlarına yaxşı təsir göstərməli, onlarla münasibətlər mədəniyyətini inkişaf etdirməlidir. U. Rocers deyirdi: "Elə yaşayın ki, ev tutuquşusunu şəhərin baş xəbərçisinə satmağa utanmayasınız" (2,s.33-34).

Ailənin idarə edilməsi mədəniyyətinin əsasını, insanların idarə edilməsi və özünüidarədə olan eyni baza qaydaları və məntiq təşkil edir. Burada həmçinin: biologiya, fiziologiya, antropologiya, psixologiya, tibb, ekologiya, fiziki mədəniyyət, düzgün qidalanma, etika, hüquq, insan münasibətləri mədəniyyəti, din və insanın həyat fəaliyyətinin digər sahələrində biliklər; məqsədin düzgün müəyyən edilməsi və mənəvi həyat prinsiplərinin seçimi; biliklərə, təcrübəyə və xoş marama əsaslanan müdrikliyin yetişdirilməsinə səy göstərmə; öz təfəkkürü, məqsədləri və davranışına şüurun nəzarəti; seçilmiş prinsiplərin həyata keçirilməsini, insanın düzgün həyat tərzi və ailədə və onun hüdudlarından kənarda yüksək davranış mədəniyyətini təmin edən möhkəm iradə lazımdır. Bununla bərabər burada xüsusi spesifika yer tutur. Ailənin hər bir üzvünün fərdi xarakter xüsusiyyətlərinin nəzərə alınması, bütöv sosial mikrosistem kimi, ailədə psixoloji uyğunluq və harmoniyaya nail olaraq, onların münasibətlərinin tənzimlənməsi bacarığı ailənin idarə edilməsində mühüm əhəmiyyət kəsb edir. Ailə idarəçiliyində strategiya və texnologiya, psixologiya, sosiologiya və dizayn kimi idarəetmə elminin ümumi prinsiplərini də müşahidə etmək olar. Burada, həmçinin müxtəlif təşkilati mədəniyyət tiplərinin birləşməsinə - hakimiyyət mədəniyyəti, rol mədəniyyəti, vəzifə mədəniyyəti, şəxsiyyət mədəniyyətinə rast gəlmək olar, "qərarların qəbul edilməsi" proseslərini, "danışıq prosesini", "innovativ fəaliyyət" elementlərini, nəhayət, despotikdən – demokratikə qədər müxtəlif ailə quruluşu növlərini aşkar etmək olar. Ailə idarəçiliyi mədəniyyətində bütövlükdə həyat fəaliyyətində olduğundan daha artıq dərəcədə, bütün müxtəlifliyi ilə həyatın özü ön plana çıxır. Ailədə və əmək kollektivində münasibətlərin xarakteri psixoloji cəhətdən ayrı-ayrı olsa da, idarəetmə üslubu eyni ola bilər ki, bu da daha çox "kiçik orkestrin dirijoru", lider rolunu icra edən ailə başçısının xarakterindən asılıdır (4, s.126).

Ailə həyatı fəlsəfəsinin və ailə idarəçiliyi məsələlərinin dərk edilməsinə görkəmli

tarixi şəxsiyyətlərin, dünya mədəniyyəti və sivilizasiyası klassiklərinin, həmçinin əsərlərində ailənın təşkil və idarə edilməsi üçün metodoloji baxımdan zəruri prinsiplərin olduğu, yaxşı tanınmış müasir mütəxəssislərin konsepsiyaları və yanaşmaları yardım edir. Məhəmməd Nəsirəddin Tusiyə görə ailənin qurulması əməklə və ictimai-iqtisadi amillərlə sıx bağlıdır. Onun strukturu beş dayaq üzərində formalaşır: ata, ana, uşaqlar, qulluqçu, ərzaq. Bu zaman Tusi ailənin başlıca mahiyyətini və əsasını onun üzvləri arasında harmonik münasibətlərin olmasını hesab edir, ailənin saxlanması və idarə edilməsini isə ailə başçısının məsuliyyət daşıdığı insan sağlamlığını təmin edən həkimliklə müqayisə edir. Ailənin idarə edilməsi ailə maraqlarının onun ayrı-ayrı üzvlərinin maraqlarından prioritetini, əməyin düzgün bölünməsini, möhkəm qaydanın, maddi rifahın, etibarlı yaşayış yerinin olmasını nəzərdə tutur. Ailənin idarə edilməsinin mühüm iqtisadi məsələləri - halal zəhmətə əsaslanan gəlir, istehsal hesabına düzgün istehlak və xərclər hesabına əmlakın toplanması və qorunmasıdır” (3, s.42).

Ailənin həyat fəaliyyətinin idarə edilməsi mədəniyyətində *Con Adairin “üç dairə“ modelinin* tətbiqi məqsədəuyğun ola bilər ki, onu belə şərh etmək olar: vəzifə, ailə və ailənin ayrı-ayrı üzvləri (fərdlər). Burada da ailə inkişafının strateji idarə edilməsi, ailə üzvlərinin ümumi məqsədlə, prinsiplərlə, ailə etikası, ideologiyası və gələcəyi görmə qabiliyyəti ilə birləşməsi, ailə üzvlərinin maraqlarını vahid mədəniyyət çərçivəsində harmonizasiya etmək bacarığı, onların inkişafı və yaradıcı fəaliyyəti üçün şərait yaratmaq kimi liderlik keyfiyyətləri lazımdır.

*Ailənin idarə edilməsi aşağıdakı həyat şəraitlərinin:* uşaqlar ın təhsili və tərbiyəsinin*; ailə rifahı; sağlamlıq;* ailə ideologiyası və ailə etikasının; ailə həmrəyliyi, məhəbbət, dostluq və sədaqət hissinin; ailə ənənələri varisliyinin; qonşular, qohumlar, dostlar, iş yoldaşları və bütövlükdə cəmiyyətlə sabit harmonik münasibətlərin qurulması və saxlanmasının *təmin edilməsini nəzərdə tutur.* Ailə başçısı öz səlahiyyətinə uyğun olaraq, ailə həyatı fəlsəfəsinə dair başlıca qərarları qəbul edir, onun həyat tərzini, əsas həyat təsisləri və davranış qaydalarını müəyyən edir. Yüksək idarəetmə mədəniyyətinə iddialı ailə lideri, ailənin məqsəd və prioritetlərini, “daxili və xarici siyasətini” düzgün müəyyən etməyi bacarmalı, strateji və taktik vəzifələr qoymalı və həll etməli, ailə üzvlərinin ruhi və maddi tələbatlarının ödənilməsini təmin etməli, onların maraq və mədəniyyətlərini harmonizasiya etməli, ailənin hər bir üzvünün tələbatları və xarakterlərini, gözləmələri və imkanlarını, onun xoşbəxtlik anlamını düzgün müəyyən etməlidir.

Ailədə davranış şəxsiyyətin daxili mədəniyyətini, onun xarakteri, temperamenti, tələbatları, istəklərini, dünyagörüşünü, etik prinsipləri, emosiyaları və hisslərini, əhval-ruhiyyəsini əks etdirir. Belə münasibətin meyarı məhəbbət, insanlıq, humanizmdir. Mədəni insan özünün pis əhval-ruhiyyəsini nümayiş etdirməməli, öz qayğıları və həyəcanları ilə ailə üzvlərinə əziyyət verməməli yaxud onları özünün gur emosiyaları ilə yormamalıdır. O yalnız öz hərəkətlərinə deyil, həm də ailə üzvlərinə və insanın özünə təsir edən sözlərinə fikir verməlidir. Xeyirxah söz və xeyirxah əməl, səmimiyyət, valideynlərini, qardaşları, bacılarını və ailənin digər üzvlərini dinləmək bacarığı - əlverişli ailə münasibətlərini formalaşdırmağın ən yaxşı üsuludur. Bu zaman etik normaları və ailədə davranış qaydalarını bilmək azdır, real həyatda onların təsadüfi xarakter daşımaması, amma ailənin bütün üzvlərinin həyatına kömək edən şəxsiyyət keyfiyyətinə çevrilməsi üçün onlara daim əməl etməyi bacarmaq lazımdır.

Ailə üzvlərində nöqsanları deyil, yaxşı cəhətləri axtarmaq və onların inkişafını stimullaşdırmaq lazımdır. Doğma insanı başa düşmək və onun haqqında düzgün mühakimə üçün onun hərəkətlərinin yaxud münasibətinin səbəbini axtarmaq, öz davranışında

əsaslandığı motivlərə nüfuz etmək lazımdır. Bu zaman kənardan özünə də baxmaq, öz xarakterini, vicdanını, dəyərlər sistemini, öz düşüncələrini, niyyətlərini və əməllərini obyektiv qiymətləndirmək çox vacibdir. Bütövlükdə cəmiyyətdə olduğu kimi, insanın ailədəki hərəkətləri həmişə yaxşı düşünülməli, nəzakətliliyi, həssaslığı və müdrikliyi ilə fərqlənməlidir, çünki onlar öz arxasınca müəyyən nəticələri çəkib gətirir. Buna görə də çalışmaq lazımdır ki, onlar həm ailə üzvləri üçün, həm də insanın özü üçün yaxşı nəticələrə malik olsunlar, yaxşı əhval-ruhiyyə, sevinc və ilham mənbəyi olsunlar. Vicdan, məhəbbət, humanizm, xeyirxahlıq, borc, ədalət, şərəf, heysiyyət kimi mənəvi kateqoriyalar aprior xarakter daşıyır, zamanla və ya şəraitdən asılı olaraq dəyişmirlər. Onlar insanın daxili əqidəsinə və keyfiyyətinə çevrilərək, böhran şəraitində və ya mürəkkəb situasiyalarda aydın şəkildə üzə çıxaraq ailənin ruhi mədəniyyətinin güclü mənəvi amili olurlar (4,s.21,24).

Beləliklə, ailənin möhkəmliyi və rifahı onun etik mədəniyyətindən, onun üzvlərinin davranış kodeksinin əsaslandığı mənəvi prinsiplər və ənənələrdən asılıdır. Yüksək mənəvi prinsiplər əsasında yaşayan Azərbaycan ailəsi mədəniyyətinin tipik göstəriciləri - böyüyə hörmət, uşaqlara məhəbbət, həmrəylik,qarşılıqlı yardım,sədaqət,səbr, məhəbbət, dostluq, qonaqpərvərlikdir.

**Ər-arvadın qarşılıqlı münasibətləri mədəniyyəti haqqında**

Uşaqların tərbiyəsi üçün ər-arvadın ailədəki davranışı başlıca əhəmiyyətə malikdir. Ailə xoşbəxtliyi və nigahın davamlılığının mühüm şərti ər-arvadın mədəni və psixoloji uyğunluğu, bir-birilərinin xarakterini bilmə, qarşılıqlı anlaşma, məhəbbət, ər-arvad arasında mənəvi münasibətləri tənzimləyən yüksək ünsiyyət mədəniyyətidir. Ailədə hər şey qarşılıqlı münasibətlər üzərində qurulur. Ailədə psixoloji mühit onlardan asılıdır. İnsan hisslərinin və münasibətlərinin harmoniyası ailə xoşbəxtliyinin əsası olduğu halda, eyni zamanda mədəni uyğunsuzluq ailədə anlaşılmazlığa, ixtilaflara, bəzən isə onun dağılmasına səbəb olur. Belə uyğunsuzluğun aradan qaldırıla biləcək səbəblərindən biri öz günahsızlığı barədə şişirdilmiş təsəvvürə malik olmaq ola bilər. Fransız yazıçısı Andre Morua qeyd edirdi ki, "hər kəs inanır ki, başqaları onu mühakimə edərkən səhv edirlər, o özü isə başqalarını mühakimə edərkən, səhv etmir". Münasibətlər bayram əhvalruhiyyəsi daşımalı, məhəbbət, qarşılıqlı hörmət, inam, dostluq üzərində qurulmalı, soyuqluqdan və əsəbiləşmədən azad olmalıdır. Pozitiv ailə etikasını nümayiş etdirən diqqət, qayğı, razılıq və qarşılıqlı yardım olmadan ər-arvad məhəbbətini və qarşılıqlı bağlılığını təsəvvür etmək çətindir. Holbax deyirdi ki, ətrafındakılar tərəfindən bağlılığı, məhəbbəti və hörməti, köməyi özünün mənəvi münasibətin, onların rifahı haqqında qayğın ilə qazanmaq lazımdır. Ər-arvadın yüksək mədəniyyəti, birmənalı qiymətləndirmənin çətin olduğu məhəbbət və qısqanclıq kimi ikili, ambivalent (nəyə qarşı isə ikili münasibət) kateqoriyaları tənzimləməyə imkan verir.

Ailə münasibətlərində daimi qarşılıqlı qiymətləndirmələr böyük rol oynayır. Ər-arvad arasındakı münasibətlər, əsas etibarilə qarşılıqlı keyfiyyətlərin qiymətləndirilmə ədalətliliyi, səmimiliyi və nəzakətindən, bir-birinin əhəmiyyətinin və nailiyyətlərinin etirafından asılıdır. Əgər ər- arvad qarşılıqlı iddiaları, bir-birinin gözləmələri, arzuları və ümidlərini başa düşmürlər yaxud qiymətləndirmirlərsə, onda onlar qarşılıqlı narazılıq, soyuqluq, uzaqlaşma və hətta əlaqələrin qırılması riskini yaradırlar.

Sübhəsiz, ər-arvad arasında şəxsiyyətlərarası harmoniyaya nail olmaq üçün şəxsiyyətin *temperament* kimi təbii xüsusiyyətini də nəzərə almaq lazımdır. Müxtəlif temperamentli insanlarda xarakter xüsusiyyətləri müxtəlif cür aşkar olunur. Temperamenti və xarakteri bilmə anlaşılmazlıqlardan və münaqişələrdən xilas olmağa imkan verir. Orqanizmin xüsusiyyətlərindən, ali sinir sisteminin fəaliyyətindən asılı olaraq, insanları şərti olaraq fleqmatiklərə, melanxoliklərə, xoleriklərə və sanqviniklərə ayırırlar. Real həyatda, bir qayda olaraq, onlardan birinin üstünlüyü ilə müxtəlif növlərin birləşməsi müşahidə edilir (2,s.62).

Möhkəm ailənin labüd şərti ər-arvad məhəbbətini və qarşılıqlı bağlılığını təsdiq edən diqqət, qayğı, razılıq, qarşılıqlı dəstək və digər amillərdir. Onlar yaxşı qarşılıqlı münasibətlərin, qarşılıqlı anlaşma və əməkdaşlığın formalaşması üçün zəmin yaradırlar. İnsanın başqa insana qarşı həqiqi münasibətini onun davranışına görə, sözlərə görə deyil, işlərə, konkret əməllərə və real nəticələrə görə təyin etmək olar. İnsanın davranışında həmişə hədd duyğusu və nəzakət olmalıdır. Ailədə yaxşı münasibətlərin saxlanılması üçün şüurlu fədakarlıqlar da olmalıdır.

**Azərbaycan ailəsində uşaqların tərbiyəsi və təhsili məsələsi**

Uşağın təhsilə və tərbiyəyə əsaslanan mədəniyyətinin tərbiyə edilməsi ailədə başlayır. Uşağın anadangəlmə mədəni keyfiyyətləri - əsasını bir neçə nəslin düzgün tərbiyə və təhsil ənənələrinin təşkil etdiyi uzunmüddətli təkamülün nəticəsidir. Bu keyfiyyətlər zamanla irsi səviyyəyə keçir və insanın müəyyən qabiliyyətləri, mədəni dəyərləri və sosial etikasında öz ifadəsini tapır.

Düzgün tərbiyə doğmalara hörmət, dürüstlük, sadəlik, qarşılıqlı yardım hissi, şərə qarşı barışmazlıq, ailənin digər üzvlərinə zərər verməklə sərbəstlikdən istifadə etməyin və şəxsi münasibətlərdə humanizm prinsiplərinin pozulmasının qəbuledilməzliyini nəzərdə tutur. Ailə uşaqlara etimad göstərməli, onların həyat fəaliyyətinə nəzarəti həyata keçirməli, uşaqlarda gözəllik hissini və insanlara məhəbbəti, yüksək etik mədəniyyəti, məntiqi təfəkkürü və hadisələri, faktları və insanları tənqidi təhlil etmə qabiliyyətini formalaşdırmalıdır.

Ailənin strateji məqsədlərindən biri, hər bir millətin insan kapitalını təşkil edən, yaxşı biliklər və pozitiv mənəviyyata malik, alicənab şəxsiyyətlər və tamdəyərli vətəndaşlar kimi, uşaqların təşəkkülünü və inkişafını təmin edən təhsili və tərbiyəsidir. Hələ XI əsrdə Təbəristan müdriki Key Kavus "Qabusnamə"də yazırdı: "Böyüklük ağılda və bilikdədir... nəsildə və əsildə deyil... şəxsi ad-san irsən keçəndən daha yaxşıdır... hörmət ağıl və təhsilə görədir, əsilə-nəsilə görə deyil (4, s.32). Uşaqlarda ruhi aristokratizmi və alicənablığı tərbiyə edərək, onları milli və bəşəri dəyərlərə cəlb edərək, onlarda müntəzəm özünü təkmilləşdirmə cəhdini formalaşdıraraq, biz onları "yüksək mədəniyyət məbədinə" aparıb çıxarırıq, onlara öz şüurunu idarə etməyi, yetərli və cəmiyyətə gərəkli, tamdəyərli və azad şəxsiyyətlər olmağa yardım edirik. Lev Tolstoy uşaqlara münasibətdə valideynlərin doğruçuluğu, düzgünlüyü və səmimiliyini - belə mənəvi mövqeyi yeganə düzgün tərbiyə kimi nəzərdən keçirərək yüksək qiymətləndirirdi.

Yaş artdıqca bu proses tədricən genişlənir, mikro və makromühit səviyyəsində, yəni ailədə, məktəbəqədər uşaq müəssisələrində və müxtəlif səviyyəli məktəblərdə təlim vasitəsilə insanı əhatə edən aləm haqqında yeni biliklərin şüurlu surətdə mənimsənilməsinə çevrilir. Bununla bərabər uşağın davranışına, insanları qiymətləndirməsinə, ətrafdakılara münasibətdə öz mövqeyini seçməsinə anadangəlmə mədəni keyfiyyətlər ciddi təsir göstərir.Uşaqların təhsili və tərbiyəsinə yalnız Qərbdə deyil, Şərqdə də həmişə böyük əhəmiyyət verilmişdir. Uşaqların nəcib tərbiyə edilməsinə böyük əhəmiyyət verən XI əsr müsəlman aristokrat mədəniyyətinin məşhur abidəsində Keykavus qeyd edir ki, "...əgər ağac əyri bitib və budaqları əyri olub və əyri boy atıbsa, onu yalnız mişarlamaq və yonmaqla düzəltmək mümkündür". Həqiqət axtarışına istiqamətlənən alimliyin və müvəffəqiyyətin nadir halda birləşdiyi orta əsr cəmiyyətində elmə kifayət qədər tələbat olmadığını dərk edən Keykavus qeyd edir: "Bəxtinin dönüklüyü ilə bizi danlayan kəsə de: məgər tale, qiyməti yüksək olandan başqa kimsə ilə çarpışırmı?.. göydə ulduzlar var, onların sayı-hesabı yoxdur, tutulma isə yalnız günəşdə və ayda olur!" Buna baxmayaraq görkəmli mütəfəkkir bilikləri "qazanılmış nəciblik adlandıraraq, onlara xüsusi əhəmiyyət verirdi (5, s.48) .

Nəsirəddin Tusi uşaqların düzgün təminatı və tərbiyəsini ailə idarəçiliyinin başlıca vəzifəsi hesab edir. Dahi humanist *uşaqlara* böyük həssaslıq və diqqət göstərməyi, pis hərəkətləri vaxtında aradan qaldırmağı və pozitivləri, onları ənənəyə çevirməyə cəhd edərək, təşviq etməyi tövsiyə edir. O hesab edir ki, insanın taleyi, onun südəmər yaşından başlayaraq, uşaqlıqda aldığı tərbiyədən daha çox asılıdır. Tusinin qənaətinə görə, uşaq təşəbbüsünü məhdudlaşdırmadan, hər şeydən əvvəl uşaqlarda xasiyyətin nəcibliyini formalaşdırmağa imkan verən həya hissini tərbiyə etmək, həmçinin uşağın istedadının erkən aşkar edilməsi və inkişafına xüsusi diqqət yetirmək lazımdır.

Körpəlik vaxtından uşağın ailədən götürdüyü keyfiyyətlər gələcək inkişafı dövründə də qorunub saxlanılır. «Kitabi-Dədə Qorqud» dastanında haqlı olaraq belə deyilir:

Qız anadan görməyincə öyüd almaz. Oğul atadan görməyincə süfrə çəkməz. Oğul atanın yetirməsi, iki gözünün biridir. Ağıllı oğul olsa, ocağının gözüdür (7,s.34-37,40).

Bəzən xalq arasında yaxşı övlada «anasının südü ona halal olsun» - deyirlər. Yəni ona anasının haqqı və çəkdiyi əziyyət haram edilmir. Yaxşı övlad yetişdirmək yalnız ailə üçün deyil, yetişdiyi el, oba üçün də böyük fəxrdir. Bu ailəyə baş ucalığı gətirir. Ana və ata yaxşı övladına sevinc və qürur hissi ilə baxır, onların başını aşağı etmədiyi üçün fərəhlənir. Yaxşı övlad böyütmək hər valideynin arzusudur. Övladlarının gələcəyi ilə bağlı xəyallar qurmaq, özlərində olmayan və ya görmədikləri ən yaxşı şeylərin uşaqları üçün mütləq həyata keçirməyi istəmək arzusu da onları özlərindən də çox sevdiklərindən doğur. Bu «Kitabi-Dədə Qorqud» dastanında da qeyd olunur(7,s.130).

Ananın ailədaxili vəhdətdə mühüm rolu danılmazdır. H.Quliyev ailə münasibətlərini tədqiq edərkən tərbiyə məsələsinə ötəri yanaşaraq bunun ailədə tamamilə ananın öhdəsinə düşdüyünü qeyd edir (9,s. 33).

Uzun əsrlər keçib, Azərbaycanda tarix boyu müxtəlif mənşəli gəlmə tayfalar yerli əhali ilə qaynayıb-qarışıb və milli zəmində heç bir fərq hiss etməyiblər. V.L.Veliçko bu barədə haqlı olaraq yazır: "Heç şübhəsiz ki, azərbaycanlıların qanı alicənab qandır; onlar təbiətən xeyirxah, ürəyigeniş, cəsarətlidirlər, əqli və mənəvi inkişafa qadirdirlər" (10,s.155).

Atasının İbrahim bəyə vəsiyyətində çox maraqlı məqam da nəzərimizi cəlb edir. Belə ki, o qeyd edir: "... az qonaq get, qoy sənin yanına çox qonaq gəlsinlər. Yəni qonaq getməyə yox, qonaq çağırmağa daha artıq rəğbətin olsun" (9,s.22, 25). Görəsən, bunu vəsiyyət etməyə atanı vadar edən səbəb nədir? Nə üçün o, başqa məsələlərlə yanaşı, məhz qonaq qəbul etməyi də vəsiyyət edir?

Kənd həyatında müşahidə olunan qonaqpərvərlik adəti özünəməxsusluğu ilə daha da fərqlənirdi. Burada dinin də müəyyən dərəkunlaşmaları münasibətilə abidə qoyan azğınlar bu gün həmin abidə üzərindən yazını yox edir, ərazilərimizi işğal altında saxlayırlar.

Azərbaycana gələn dövlət xadimlərinə, hərbçilərə, yazıçı və alimlərə göstərilən qonaqpərvərliyə dair çoxlu tarixi fakt qeydə alınmışdır. Bu barədə H.Quliyev yazır: "I Pyotrun Dərbənddə yaşayan azərbaycanlılar, knyaz Dolqorukinin Bakı və Salyan əhalisi, Şamaxı hərbi qubernatorunun Şuşa əhli tərəfindən, A.Bestujevin Quba, M.Y.Lermontovun Qusar camaatı, Kazan Universitetinin professoru İ.Beryozinin A.Bakıxanov tərəfindən mehribancasına qarşılanması və onlara göstərilən qonaqpərvərlik buna misal ola bilər" (9,s.36).

Bu fikri daha da qüvvətləndirmək üçün faktlara müraciət etmək yerinə düşərdi. A.A.Bestujev-Marlinski yazır: "Lakin burada Fətəli xanın evi boş deyildi. Əksinə, burada o qədər qonaq dolu olurdu ki, səsküydən o hətta ağlın səsini belə eşidə bilmirdi" (11,s. 35).

Müəllif Dərbənddə yaşayan İsgəndər bəyin qonaqları evə dəvət edərkən "buyurun əfəndilər, xoş gəlmisiniz" deməsini və əlini ürəyinin üstünə qoyub onlara azca baş

əyməsini, qonaqları otağa dəvət etməsini xüsusilə vurğulayır. Salamlaşan qonaqların xalça üzərində ayaqlarını qatlayaraq (bardaş qurub oturmaq nəzərdə tutulur) oturduqlarını göstərir. Bestujev-Marlinski qeyd edir ki, evdəkilərin və qohumların hal-əhvalı xəbər alınır və bundan sonra gəlişlərinin məqsədi bəyan edilir. Müəllifin məlumatlarında maraq doğuran cəhət onun qonaqpərvərliyin tərbiyə ilə bağlı məqamını düzgün sezməsidir. O göstərir ki, qonaqpərvərlik, gülərüzlülük, mədənilik - başqaları üçün; həlimlik və ayıq-sayıq diqqət - uşaqlara, bir sözlə, birgəyaşayışın və ailə məişətinin bütün dəyərləri bir yerdə. O, uşaqların da necə ağıllı olduğunu söyləyir. Belə ki, onlar analarının hər sözünü və baxışlarını başa düşüb ata qayğısını qiymətləndirirlər (11,s.58,182).

Xalqımızın görkəmli şair və mütəfəkkirlərinin mütərəqqi görüşlərini əks etdirən əsərlərində ictimai ədalət, kamil insan, qadını bir varlıq kimi səciyyələndirmək, əxlaqi dəyərlərin yer alması zamanın tərbiyəvi məsələlərinin tərənnümüdür. Bu əsərlərin ailə ilə bağlı digər məsələlərlə yanaşı, eyni zamanda xalqımızın tərbiyə məsələlərinin öyrənilməsində müstəsna rolu vardır. Nəzərə almalıyıq ki, bu tərbiyə məktəbi zamanın sərhədlərini aşaraq bu gün də qorunub saxlanılmış və əbədilik qazanmışdır. Yüksək mənəvi sifətlər, elmə və biliyə həvəs aşılamaq, övlad sevgisi, vətən məhəbbəti, valideyn qayğısı, böyüklərə hörmət, qonaqpərvərlik kimi keyfiyyətlər əsrlərdən gələn bir miras kimi gündəlik həyatda yaşadılır.

**İstifadə edilmiş ədəbiyyat**

1. Prezident İlham Əliyev və mədəniyyət. 2008-2013. B. 2013.
2. Məmmədov F.T.Kulturologiya, mədəniyyət, sivilizasiya. B.”OL”, MMC. 2016.
3. M.N.Tusi. Əxlaqi-Nasiri. B. 1980.
4. Süleymanlı M.A. Azərbaycan kulturoloji fikir tarixindən. (XX əsrin əvvəlləri). B. 2011.
5. Keykavus . “Qabusnamə”. B. 1993.
6. Cami. “Baharıstan”. B.1964.
7. “Kitabi Dədə-Qorqud”. B. Azərnəşr.1962.
8. Şeyx Mahmud Şəbustərinin “Gülşəni-Raz” məsnəvisi. Şərq (Tərcümə toplusu). B. “Nurlan”.2006.
9. Quliyev H.Azərbaycanda ailə məişətinin bəzi məsələləri.B.”Elm”.1986.
10. Türkiyə qazetesi.İslam inihalı.İstanbul,İhlas Mathaaçlik. 1990.
11. Русские писатели об Азербайджане. I выпуск. Б. АН Азерб.ССР.1949.
12. Из истории Майяфарикина ибн ал-Азрака Ал Фарики (перевод с арабского. Баку, 2009
13. Qeybullayev Q. Azərbaycanlılarda ailə və nigah (XIX əsr-XX əsrin əvvəlləri). II hissə. B. "Elm". 1994.
14. Bayramlı Z., Əzizli B. Azərbaycan Övliya Çələbinin 1654-cü il “Səyahətnamə" sində. B. "Azərbaycan". 2000.
15. Əbdürrəşid əl-Bakuvi.Təlxis əl-Asar və əcaib əl-Məlik əl-qəhhar (Abidələrin xülasəsi və qüdrətli hökmdarın möcüzələri). B. "Şur". 1992.
16. Nəvvab M.M. Vüzuhül-ərqam. B. "Elm", 1989.

**Хаджар Абдаллы**

## СЕМЕЙНЫЕ ЦЕННОСТИ В АЗЕРБАЙДЖАНСКОМ ОБЩЕСТВЕ

### Резюме

В статье анализируются ценности, формирующиеся в течение долгих лет с социально-философской точки зрения, также исследуются брачно-семейные отношения и проблема воспитания детей в семье.

Отмечается, что на формирование ценностей большое влияние оказали местные

условия, национальная культура и исламская религия. В статье также рассматривается эволюция многовековой цивилизации, созданной нашим народом, оцениваются фундаментальные изменения в семейных отношениях в процессе исторического развития, а также выдвигаются предложения и рекомендации по этому поводу. Основное внимание уделяется принципам и методам управления семьей.

В статье рассматриваются труды азербайджанских и зарубежных исследователей о брачно-семейных взаимоотношениях, представлены различные идеи.

***Цель*** – Изучение ценностей, влияющих на семьи в азербайджанском обществе

***Методология*** – системный подход, сравнительный анализ

***Результат*** – исследованы национально-духовные ценности, методы воспитания, формирующиеся в течении долгих лет, даются рекомендации.

***Ключевые слова:*** семья, ценность, общество, народ, норма, правило, воспитание, закон, брак

**Hacar Abdally**

**FAMILY VALUES IN AZERBAIJANI SOCIETY**

**Summary**

The article is devoted to values formed over the years, marriage and family issues are investigated. Author notes that local conditions, religion and national cultura influence great on the formation of values.

The centuries-old evolution of Azerbaijani culture is being considering, expressed opinion about big changes in history and made special offers and recommendations, paid attention to the principles and methods of family management.

The article uses the works of national and foreign authors and shows dissimilar views.

***Purpose***– to study values influencing families in azerbaijani society

***Methodology*** – systems approach, comparative analysis

***Findings*** – were explored national-spiritual values, methods of education formed during the many years, given the reccomendations

***Keywords:*** family, value, society, people, norm, rule, education, law, marriage

**UOT 101.1**

**Mahrux Abbas**
**AMEA Fəlsəfə İnstitutu, fəl.f.d.**
**mahru.abbas@gmail.com**

# HANNA ARENDTİN MÜASİRLİK KONSEPSİYASI

*Məqalədə Arendtin müasirlik konsepsiyası və əməl-praxis nəzəriyyəsi işıqlandırılır, başlıca ideyaları təhlil olunur. Qeyd olunur ki, Arendt siyasəti fərdi istəklərin təmini vasitəsi və ya adamları ümumi rifah konsepsiyası ətrafında birləşdirmə üsulu olaraq görmür. Bunun əvəzinə onun konsepsiyası fəal vətəndaşlıq ideyasına, yəni siyasi cəmiyyəti düşündürən bütün məsələlərin kollektiv müzakirəsi və siyasətə vətəndaş qatılımının vacibliyini əsaslandırmağa yönəlib.*

***Məqsəd*** - insanın harmonik mövcud olub inkişaf edəcəyi siyasi mühit arayışı;

***Metodologiya*** - sosiomədəni, aksioloji və mədəni-tarixi yanaşma;

***Tədqiqatın nəticələri*** - Arendtin müasirlik konsepsiyası ilə siyasi fəlsəfədə məna, identiklik və dəyərlərin yeni anlayışının üzə çıxarılması.

***Açar sözlər:*** Hanna Arendt, müasirlik konsepsiyası, əməl-praksis nəzəriyyəsi, azadlıq, plürallıq

***Giriş***

Hanna Arendt XX əsrin orijinal müəlliflərindəndir. "Totalitarizmin mənşəyi", "İnsanın vəziyyəti", "İnqilab" və "Əqlin həyatı" əsərlərində dövrün siyasi gerçəkləriylə çarpışan düşünür onları incələyərək tarixi mənasını dərk etməyə, bu gerçəklərin bizim əxlaq anlayışımıza, siyasi görüşlərimizə təsirini araşdırmağa çalışır. Onun fikrincə, XX əsrdə nasizm və stalinizm kimi iki dəhşət ilə barışmaq üçün yeni struktur yaranır.

Hannanın siyasi fəlsəfəsini ənənəvi konservatizm, liberalizm və sosializm terminlərində şərh etmək mümkün olmur. Onun təfəkkürü A.Makintayr, M.Sandel, K.Teylor, M.Uolzerin əsərlərində yenidən üzə çıxan kommunist siyasi fikri ilə də bir araya sığmır. Arendt nümayəndəli demokratiyanı bir çox istiqamətdə, o cümlədən, siyasətə vətəndaş qatılımı və siyasi müzakirə, əxlaq və siyasəti bir-birindən ayırması, inqilab ənənəsini müdafiə yönündə tənqid edir. Ancaq onu antiliberal saymaq doğru olmaz. Arendt konstitusionizm və qanunun aliliyinin, əsas insan hüquqları (Arendt bura yaşamaq, azadlıq və fikir azadlığı sırasına əməl və fikir hüquqlarını da aid edir) müdafiəçisi, ənənəvi əlaqə və adətlərə - dini, etnik və irqi identiklik də daxil olmaqla – dayanan istənilən siyasi cəmiyyətlərin əleyhdarı idi. Bu mənada Arendtin siyasi görüşləri nə liberal ənənə, nə də onun tənqidçilərinin fikirləri ilə eyniləşdirilə bilməz. Arendt siyasəti şəxsi seçimlərin ödənmə vasitəsi olaraq və adamları ümumi xeyir konsepsiyası ətrafında birləşdirmək forması olaraq görmür.

Onun siyasət konsepsiyası bunun əvəzinə fəal vətəndaşlıq ideyasına, yəni siyasi icmanın maraqlarına aid bütün məsələlərin kollektiv müzakirəsinə əsaslanır. Siyasi düşüncələrinə görə, o, Aristoteldən başlayıb Makiavelli, Monteskyö, Cefferson və Tokvil əsərlərində əksini tapan vətəndaş respublikası klassik ənənələrinə aid hesab edilə bilər. Bu ənənəyə görə, siyasət öz həqiqi ifadəsini hər dəfə vətəndaşlar eyni pablik sferada toplaşıb kollektivin məsələlərini müzakirə və həllə çalışanda tapır. Siyasi fəaliyyətin əhəmiyyəti ümumi razılığa gəlmə və ya ümumi xeyir konsepsiyası ətrafında birləşməkdə yox, hər bir vətəndaşa öz səlahiyyətlərindən istifadə edərək öz mühakimə qabiliyyətini inkişaf etdirmək və müəyyən səmərə əldə etmklə bağlıdı. Arendtin siyasi fəlsəfəsinin əsas mövzuları-müasirlik konsepsiyası, əməl nəzəriyyəsi, fikir yürütmə nəzəriyyəsi və vətəndaşlıq konsepsiyalarıdı.

**Müasirlik konsepsiyası**

“İnsanın durumu”, “Keçmiş və gələcək arasında” kitablarında toplanan esselərdə Arendt xeyli dərəcədə neqativ sayıla biləcək müasirlik konsepsiyası formalaşdırır.
Ənənə, din və avtoritetin itməsi ilə bağlı müasirliyin itkiləri ağırdı. Amma bunlara qarşılıq Arendt illüstrativ formada müasirliyin öz resursuna çevirə biləcəyi, məna, identiklik və dəyər mövzusunda təkliflər irəli sürür.

Müasirliyin əsas əlaməti dünyanı itirməmizdi. Səbəbi əməl və nitq sferası olaraq bəllədiyi pablik sahənin məhdudlaşması və ya tamamilə aradan çıxması və əvəzində özünüanalizin xüsusi dünyası və iqtisadi maraqların xüsusi yönünün güclənməsidi. Müasirlik kütləvi cəmiyyətin möhkəmlənməsi, pablik və xüsusi arasındakı əvvəlki fərqlərdən qaynaqlanan sosial mədəniyyətin yüksəlişi, heyvan-qulların homo faber üzərində qələbəsi və zoon politikon insan konsepsiyasının önə çıxmasıdı. Müasirlik bürokratik idarəetmə və anonim əməyin, elitar ağalıq və ictimai rəylə manipulyasiyanın gücləndiyi bir vaxtdı. Bu elə dövrdü ki, nasizm və stalininzm kimi totalitar idarəetmə formaları terror və zorakılığın institutlaşması nəticəsi olaraq üzə çıxır. Tarix “təbii proses” olmaqdan çıxaraq hadisə və olaylar zəncirinə çevrilib, bircinslilik və uyğunluq plürallıq və azadlığı əvəz edib. İzolyasiya və tənhalıq həmrəylik və birgə həyatın bütün spontan formalarını aradan çıxarır. Müasirlik keçmişin indini qiymətləndirmədə rol oynamadığı, insanların ənənəvi dəyər və standartlarını itirib, yeni əsaslar araması gərəkən dövrdü.

Müasirliyin bu cür dəyərləndirilməsi çox qatı və qəbulolunmaz sayıla bilər. Amma Arendtin nəzəriyyəsi onun XX əsr totalitarizmi təcrübəsinin nəticəsidi və dövrün bəzi vacib məsələlərinə işıq tuta bilər. O, öz siyasi yazıları və xüsusən, “Totalitarizmin mənşəyi” əsərində iddia edir ki, totalitarizm fenomeni tarixdə varislik prinsipini pozub və bizim bir çox əxlaqi və siyasi kateqoriyalarımızı məzmunsuzlaşdırıb. Ənənələrarası qırılma XX əsrin böyük qırğınları, Şərq və Qərbdə totalitar hərəkatların triumfunun qanunauyğun nəticəsiydi. Totalitarizm stalinizm və nasizm formasında siyasi fikrin oturuşmuş kateqoriyalarını, əxlaqi düşüncənin qəbul olunmuş normalarını alt-üst etdi və tarixdə varisliyi pozdu. Arendtin qorumağa çalışdığı ənənə yox, müasir şüurda pozulan zaman varisliyi, keçmişlə bağı qaytarmaq istəyidi. Arendt “yeni fikirlərin öldürücü təsiri ilə” **(1, s.201)** indinin mənasını bərpa etmək və müasir situasiyaya aydınlıq gətirmək istəyir. Indi məsəslə keçmişi ənənələrə(hansı olur-olsun) dayanmadan bərpa etmək olaraq durur.

Arendt keçmişlə qırılmış bağı təzələmək üçün germenevtik strategiyadan istifadə edir. Bu strategiya Benjamin və Haydegger ideyalarına əsaslanır. O, Benjamindən fraqmentar istorioqrafiya ideyasını alaraq tarixdə qırılma, yerdəyişmə və dislokasiya momentlərini identifikasiya etməyə çalışır. Bu cür fraqmentar istorioqrafiya keçmişin əldən getmiş imkanlarını geri qaytarmağa və indidə aktuallaşmasına şərait yarada bilər. Haydeggerdən isə Qərb fəlsəfə ənənəsini «dekonstruktiv oxu» ideyasını götürür. Bu cür dekonstruktiv germenevtika fəlsəfi ənənənin unudub və ya qapatdığı ilkin yaşantıları (Urphaenomene) bərpa etməklə bizim fəlsəfi konsepsiya və kateqoriyalarımızın itirilmiş mənbəyini bərpa edə bilir.

Arendt bu iki strategiyaya əsaslanaraq öz unudulmuş və ya itirilmiş “xəzinəsi”ni geri qaytarmağa çalışır. Yəni söhbət bizimçün hələ də önəmini saxlayan keçmiş fraqmentlərindən gedir. Onun fikrincə, ənənələr qırılandan sonra keşmişi bütövlükdə qaytarmaq mümkün deyil. Məsələ bizim situasiyamıza işıq tuta biləcək keçmiş elementlərini bərpa etmək şəklində durur. Keçmişlə əlaqəni bərpa etmək antikvariat çalışması deyil. Əksinə, keçmişi təkrar mənimsəmə kritik formada gerçəkləşdirilməzsə, bizim zaman üfüqlərimiz dağılar. Çünki bizim təcrübəmiz dayanıqsız, identikliyimiz isə daha tez dağılandı. Bu səbəbdən biz keçmişdən günümüz üçün aktual, dəyərli olan

fraqmentləri seçib götürməliyik.

Müasir zaman şüurunda ənənələrin itməsi nəticəsində keçmişlə bağın qırılmasının pozitiv məqamları da ola bilər. Keçmişə "hansısa ənənənin təhrif etmədiyi gözlə baxma, Roma sivilizasiyası yunan fikri hakimiyyəti altına düşəndən bəri itirilmiş kəskinliklə nəzər salma» **(2, s.28-29)** bizə "gözlənilməz təravət və qulaqlarımızın eşitmədiyi yenilik"dən **(2, s.94)** xəbər verə bilər.

Bu mənada Arendtin qədim yunan polisinin ilkin tərübəsinə müraciəti məhz bu formada baş verir- ənənə qarşımızda açılan keçmişə iddiaçı ola bilmir. Arendt ənənəyə, avtoritet olana qarşı həqiqilik kriteriyası irəli sürür. Ancaq ənənəçiliyə, ənənəvi istorioqrafiyaya "yeni fikirlərlə" nəzər salarsaq keçmişin xəzinələrini qurtara bilərik.

Arendtin müasirlik konsepsiyası bir sıra kilid anlayışlar ətrafında formalaşır: dünyadan özgələşmə, Yerdən özgələşmə, heyvan-qulların çoxalması və sosiallığın artması. Dünyadan özgələşmə öz identikliyimizi müəyyən etdiyimiz təcrübə və əməl dünyamızın və adekvat reallıq hissimizin itirilməsi formasında baş verir.Yerdən özgələşmə planetin hüdudlarından kənara çıxma, müasir elm və texnologiyanın köməyi ilə Yerdəki həyatdan qurtularaq kosmosda laborator şəraitdə yaşamı uzatma cəhdlərində görünür. Sosial sferanın yüksəlişi müasir dövrün lap əvvəllərindən bazar iqtisadiyyatının genişlənməsi ilə bağlıdı. Sosial sfera genişləndikcə hər şey istehsal və tükətim, alqı-satqı və mübadilə obyektinə çevrilir. Əmək dəyərlərinin yüksəlməsi heyvan-işçilərin homo faber üzərində qələbəsini şərtləndirir. Hər şeyin obyektə çevrildiyi, zəhmətin ən ali dəyərə çevrildiyi zamanda istehsalda stabillik, daimilik, uzunmüddətlilik, nitq və əməldə azadlıq, plüralizm, həmrəylik məhsuldarlıq və bolluğa qurban verilir.

Arendt müasirliyin formalaşmasında iki əsas mərhələni ayırd edir:

1.16-19-cu əsrlər dünyadan özgələşmə və sosial sferanın meydana çıxması ilə əlamətdardı;

2. XX əsrin əvvəllərindən başlayan ikinci dövr Yerdən özgələşmə və heyvan-qulların qələbəsi

ilə səciyyələnir.

Arendt bir sıra başqa səbəblər də üzə çıxarır: Amerikanın kəşfi və uyğun olaraq Yerin daralması, teleskopun kəşfi hisslərin adekvatlığı məsələsini şübhə altına aldı. Müasir elm və fəlsəfənin inkişafı, insan konsepsiyasının onu Təbiət və Tarixin inkişafı prosesinin hissəsinə çevirməsi, iqtisadiyyat və istehsal sferalarının genişlənməsi, ictimai sərvətin toplanması.

Arendtin müasirliyin yozumunda ardıcıl olmadığı bəzi məqamlar da var. Məsələn, təbiət və sosial olan kateqoriyalarına münasibətdə.

Arendt "təbiət" kateqoriyasını iki istiqamətdə nəzərdən keçirir. Birinci rakursda gostərir ki, müasir dövr əməyi, insanın ən təbii fəaliyyət formasını ən yüksək mövqeyə qaldırmaqla bizi təbiətə yaxınlaşdırır. Hərəkət-ozünüreallaşdırma və ictimai müzakirələr üçün ictimai məkan yaratmaq yerinə insan həyatda qalmaq üçün gündəlik tələbat malları istehsalı içində itib-batır.

İkinci rakursda məsələ başqa cür görünür. Müasir dövr insan yaradıcılığının yüksəlişi, yəni insanın yaratmadığı hər şeydən imtina ilə səciyyələnir. Təbii proseslər o cümlədən, həyat özü də elmi eksperimentlərlə yenidən yaradılıb. Təbii mühitimiz o qədər transformasiyaya uğrayıb ki, bəzi hallarda Yerlə bağlı təbii halımızdan qurtulmaq üçün kosmosu yeni yaşayış məskəni aramaq üçün öyrənirik. Nəticədə ətrafımızda təbii heç nə qalmır. İnsan bütün hadisə, obyekt, proseslərə müdaxilə edib, hər şey bizim alətlərin və dünyanı dəyişmək istəyimizin məhsuludu.

Göründüyü kimi, təbiət ikimənalı statusla yüklənmiş olur: bir tərəfdən, onu öz heyvan-

qulların qələbəsi bizim təbiətə tabe olmamız deməkdisə, digər tərəfdən, elmi bilik və texnoloji bacarıqların son dırıcə yüksəlməsi bütün təbii sərhədlərin aşılması deməkdi. Yəni müasir dünya eyni zamanda, çox təbii və çox süni (təbiətdən özgələşmiş) olaraq qarşımıza çıxır.

Arendtin "sosial" kateqoriyasında da ziddiyyətli məqamlar var. O, sosial sferanı əvvəllər xüsusi təsərrüfat sahəsi və həyati ehtiyaclarla bağlı əməllərlə məhdudlaşdırır. O iddia edir ki, 18-ci əsrin sonlarından iqtisadiyyat o qədər genişlənir ki, bütün ictimai sahəyə yayılır və bu sahəni də bizim maddi ehtiyaclarımızın ödənməsi sahəsinə çevirir. Bu şəkildə cəmiyyət ictimai məkana daxil olaraq, onu əvvəllər xüsusi problem və ehtiyac hesab olunanın funksiyası halına gətirir və ictimai, xüsusi sferalar arasında sərhədi dağıdıdr. Arendt həm də iddia edir ki, sosial sferanın genişlənməsi ilə insan fəaliyyətinin üçlü bölgüsü (əmək, yaratma və hərəkət-fəaliyyət) öz əhəmiyyətini itirmiş olur. Çünki bütün cəhdlər bizim mövcudluğumuzun maddi əsaslarını təkrar istehsala yönəlmiş olur. Məhsuldarlıq, tükədicilik məsələləri üzərində ilişib qalan bizlər yaradıcılıq və hərəkət-fəaliyyətlə bağlı dəyərlərimizi itirmiş oluruq.

Bu qısa arayışdan da göründüyü kimi, müasirliyin qiymətləndərilməsində Arendt həlledici rolu sosiallığa aid edir. Amma çox halda şübhəli nəticələrə gəlib çıxır. Bir tərəfdən o, sosial olanı əmək, həyat üçün vacib bioloji və maddi şərtlərin təkrar istehsal sahəsi ilə eyniləşdirir. Digər tərəfdən, iddia edir ki, sosial həyatın genişlənməsi 18-ci əsrin sonlarından iqtisadiyyatın yüksəlişi ilə üst-üstə düşür. Ancaq Arendt sosial olanı son iki yüzildə iqtisadi yüksəlişlə eyniləşdirərək, sadə təkrar istehsal modeli terminlərində izah edə bilmir. Sosial aktivliyi ev təsərrüfatı ilə məşğulluqla eyniləşdirməsi isə iqtisadiyyatı təhlildə başlıca çatışmazlığıdı. Arendt etiraf edə bilmir ki, müasir kapitalist iqtisadiyyatı assimmetrik sərf və mükafatlandırma bölgüsü olan hakimiyyət strukturudu. İqtisadiyyatın bütün məsələlərini evtəsərrüfatı ilə əlaqələndirərək iqtisadiyyatla bağlı bütün məsələləri siyasiyəqədərki məsələ hesab edir və iqtisadi güc və istismar məsələləri diqqətdən kənar qalmış olur. Eyni zamanda xüsusi və ictimai olanı, sosial və siyasi olanı kəskin ayırmaqla, onlar arasında əlaqəni, öz sərhədləri uğrunda onların mübarizəsini gözardı etmiş olur. Bugün bir çox xüsusi məsələ ictimai məsələyə çevrilərək ədalət və bərabər hüquqıar uğrunda mübarizəyə keçmişdir.

**Praksis (hərəkət-fəaliyyət, əməl) nəzəriyyəsi**

Arendtin hərəkət-fəaliyyət nəzəriyyəsi və qədim praksis terminini təkrar dövriyyəyə gətirməsi XX əsr siyasi-fəlsəfi fikrinə ən böyük töhfəsidi. O, hərəkət-fəaliyyəti (praxis) hazırlamaqdan (poiesis) fərqləndirərərək birincini azadlıq və çoxcalıqla-plürallıqla əlaqələndirir, nitq və yaddaşla əlaqəsini nümayiş etdirir. Arendt praksisi insan vəhdətinin şərti olaraq qəbul edərək müasir dövr üçün xarakterik bürokratikləşmiş və elitar siyasətə qarşı qatılım (iştirak) demokratiyası konsepsiyasını işləyir.

*Praksis, azadlıq, çoxcalıq*

Hərəkət- fəaliyyət, ancaq hərəkət-fəaliyyət kişilər arasında şeylər və materiya bağı olmadan baş tutan çoxrənglik vəziyyətinə uyğundu. ...bu, cəm halıdı, siyasi həyatın sadəcə mütləq şərti yox, hər kvadratının- xırda xanasının mütləq şərtidi **(3, s.7)**.

Arendt üçün praksis insan vəziyyətini ifadə edən ən fundamental kateqoriyadı və vita activia-nı ən yüksək potensialda gerçəkləşdirir. Arendt vita-activia-nı 3 kateqotiyada analiz edir: əmək, yaradıcılıq, hərəkət-fəaliyyət. Arendt inqilablara yeninin gerçəkləşmə imkanı kimi baxır.

Hərəkət-davranışın mərkəzi anlayışlarından biri çoxcalıqdı (plürallıq). Arendt onlar arasında antropoloji arqumentlər vasitəsilə əlaqə qurur.

Çoxcalıq bərabərlik və fərqləri ehtiva edir. İnsanlar bir-birilərini anlayacaq, ortaq

məxrəcə gələbiləcək qədər ümumi özəlliklərə malikdir. Hərəkətdə olmaq təşəbbüs göstərmək, dünyaya yenilik və gözlənilməz bir şey gətirməkdir. Bu, o deməkdi ki, ayrılıqda, başqalarından təcrid olunmuş vəziyyətdə mümkün olmayan fəaliyyətdən söhbət gedir. Bu mənada Arendt hərəkət-fəaliyyəti bir sənətçinin auditoriyaya duyduğu ehtiyacla müqayisə edir: səni qəbul etmirlərsə, fəaliyyətin də əhəmiyyətini itirmiş ola bilər. Hərəkət-fəaliyyət açıq (pablik) təqdimatla- söz və əməl nümayişi ilə müşayiət olunduğundan ancaq çoxcalıqla müəyyənləşmiş kontekstdə mümkün ola bilər.

Arendt hərəkət-fəaliyyət və çoxcalıq arasında antropoloji arqumentlə əlaqə qurmağa çalışır. Onun fikrincə, çoxcalıq «tək Adamın yox, adamların Yeri məskən etməsi anlamındadı» **(3, s.7-8)**. Beləliklə, onun yozumunda çoxcalıq eyni dərəcədə bərabərlik və fərqlər məsələsidi. Bütün adamlar eyni növə aid kimi yetərincə bir-birilərinə bənzərdilər və öz aralarında anlaşa bilirlər. Amma hər bir insan əvəzolunmaz sanılacaq qədər unikal və təkrarsızdı.

Məhz plürallıq-çoxcalıq sayəsində ayrılıqda hər birimiz unikal və özünəməxsus şəkildə davranıb mürəkkəb və bilinməyən perspektivlər dünyasına baş vura bilərik. Bu hərəkət-fəaliyyətlər şəbəkəsi adamların maddə-materiya, şeylərlə yox, dillə vasitələnmiş məkan-sferasıdı.

**Hərəkət-fəaliyyət və dil arasında əlaqə**

Arendt dəfələrlə qeyd edir ki, hərəkət-fəaliyyət bir insan halı olaraq simvolik xarakter daşıyır və insan münasibətləri şəbəkəsi kommunikativ qarşılıqlı təsir sayədində mümkün olur **(3, s.178-179, 199-200)**. Bu münasibəti bu şəkildə ifadə edə bilərik: biz öz davranışlarımızın mənasını dilin vasitəçiliyilə formulə edə və müxtəlif agentlərin hərəkətini koordinə edə bilərik. Və ya əksinə, nitq öz ardınca hərəkət gətirir. Tək o mənada yox ki, nitq özü də hərəkət formasıdı, bir çox hərəkət danışıq manerasında üzə çıxır. Həm də o mənada ki, biz danışanın səmimiyyətini davranışlarında müşahidə edə bilərik. Beləliklə, nitqsiz hərəkət mənasız olmaq riski daşıdığı, başqa hərəkətlərlə koordinə edilə bilməyəcəyi kimi, əməlsiz nitq də danışanın səmimiyyətini şübhə altında qoyur. Arendt nitq və əməl arasındakı bu əlaqəni hakimiyyətin əsas xüsusiyyəti olaraq görür.

**Hərəkət və nitq potensialın gerçəkləşməsi kimi**

Arendt hərəkət və nitqi hər bir şəxsin fərqli kimliklərini üzə çıxaran imkan kimi nəzərdən keçirir. Nə əmək, nə də yaradıcılıq insanın «kim» və ya «nə»dən fərqləndiyini aça bilmir. Biz əməklə məşğul olarkən ancaq öz identikliyimizi, insan növünə aid olmamızı aşkara çıxarmış oluruq. Eyni imperativlərə tabe olmamızı nümayiş etdiririk. Yaradıcılıqda individuallıq imkanı daha böyükdü. Çünki hər bir incəsənət əsəri öz yaradıcısının işarəsini daşıyır. Amma istehsalçı yenə də son məhsula tabedi. Bu məhsul yaradıcısının kimliyini açmır, sadəcə hansısa qabiliyyət və istedad sahibi olmasını nümayiş etdirir. Beləliklə, ancaq hərəkət və nitqdə adamlar başqa adamlarla qarşılqı təsirdə olaraq öz unikal identikliklərini ortaya qoya bilirlər.

**Hərəkət, nəql və yaddaş**

İnsanlar hərəkət və nitq vasitəsi ilə öz unikal kimliklərini üzə çıxarmış olurlar. Amma ancaq retrospektivdə, yəni tarixdən keçməklə onların şəxsiyyəti bütünüylə aşkar olunur. Yəni, nağılçının funksiyası aktorların söz və hərəkətlərini qoruyub saxlamaqla bitmir, aktorun tam şəxsiyyətini açmaq üçün də vacibdir. Arendt yazır: «hekayəçinin hekayəsi öz qəhrəmanı haqda hər hansı sənət əsərinin öz müəllifi haqda danışdığından daha artıq söz anlatmış olur» **(3, s.184)**. Platonun Sokrat haqda söylədikləri, Fukididin Periklin dəfn mərasimindəki nitqi olmadan biz bu böyük insanların şəxsiyyətini bütünüylə görə bilməzdik. Arendtin ən önəmli müddəalarından biridi bu- hərəkətin mənası tarixçi və

hekayəçinin retrospektiv şəkildə ona verdikləri artikulyasiyadan asılıdı. Aktorlar öz birbaşa məqsəd və hərəkətlərinin təsiri altında olaraq öz motiv və niyyətlərinin fərqində olmaya bilərlər. Ancaq hərəkət müəyyən kurs rəhbər tutulmaqla nəql edildiyi təqdirdə o, başqa hadisələrlə əlaqədə açılır. Ancaq xatırlamalar, hadisələrin tarix kimi nəql edilməsi aktyorların hərəkət və həyat tarixçələrini unudulmaqdan qoruya bilər. Bu səbəbdən yunanlar poeziya və tarixi bu qədər sevirlər. Şair və tarixçinin siyasi funksiyası keçmişdəki hərəkət-fəaliyyəti gələcəkdə öyrənmə mənbəyinə çevirməkdi. Homer «Ellada maarifçisi»ydi, Troya müharibəsinə qoşulmuş hər kəsi əbədiləşdirdi.

Fukidid özünün «Peloponnes müharibəsinin tarixi»ndə insan ambisiya və ağılsızlıqlarını, qəhrəmanlıq və nəzarətəgəlməz acgözlüyû, amansïz mübarizə və qaçılmaz məğlubiyyətləri nəql edir.

Ancaq bu cür nəqletmə də qorunub saxlanma üçün öz dinləyici auditoriyasïna gərək duyur. Başqa sözlə, aktor arxasında hekayəçi, onun da arxasında yaddaş birliyi durur.

Polisin əsas funksiyalarından biri məhz bu cür birlikdi. Məqsəd isə öz vətəndaşlarının əməl və ideyalarını unudulmaqdan qoruyub gələcək nəsillərə ötürməkdi. Yunan polisi söz və əməl mübadiləsi, onlarï qoruyub saxlamaqdan savayı insan əməllərinin zəifliklərinə düzəliş də gətirə bilərdi. O, bunu əməl və nitqin tarixə yazılıb məqsədəuyğun şəkildə biçimlənəbiləcəyi çərçivəni müəyyənləşdirməklə edirdi. Hər bir vətəndaşına şahid və potensial hekayəçi olabilmə imkanını verməklə. Yəni polis ancaq o yer ola bilərdi ki, orda nizamlï xatırlama baş verirdi və bu yolla aktorların faniliyi və insan davranışlarının səbatsızlığını aradan qaldırmaq olardı.

**Əməl, güc və görünənlik məkanı**

«Polis» metaforası Arendt əsərlərində ən çox adı keçənlərdəndi. Ona görə «metafora» ki, o, sadəcə yunan şəhər-dövlətlərinin siyasi institutu olaraq anılmır. «Polis, sözün əsl mənasında öz fiziki-coğrafi mövqeyinə görə sadəcə şəhər-dövlət deyil; bu, insanların elə nizamlanma formasıdı ki, adamların birgə danışıb hərəkət etdikləri yerdə yaranır; harda olmasından asılı olmayaraq o, bu məqsədçün birlikdə yaşayan adamlar arasında meydana çıxır» **(3, s. 198)**. Bu halda məşhur «Siz hara gedirsiz-gedin polis olacaqsınız» devizi ilkin olaraq yaradılmış siyasi assosiasiyanın istənilən məkanda təkrar istehsalı və eləcə də istənilən məkanda özünə yer tapa bilməsi mənasındadı. Yəni Arendt üçün *polis* görünənlik məkanıdı. Burda adamlar cansız əşyalar kimi mövcud olmaqdan çıxıb, özlərini ifadə etməyə başlamışlar. Tarixi olaraq müzakirə və hərəkət üçün imkan yaranan hər yerdə bərabər hüquq və ədalət uğrunda ictimai hərəkat məkanı yaranır. Ictimai-siyasi məqsədlə xəbərləşərək hərəkət etmək qabiliyyətini Arendt *güc* adlandırır. Bu, ayrıca adamın yox, hansısa siyasi məqsədlə birləşmiş çox sayda iştirakçının gücüdü. Əməyə, yaradıcılığa sərf olunan güc-enerjidən fərqli olaraq bu güc insanın yaradıcılığının məhsuludu, ona fitrətən verilmiş güc deyil.

Arendt üçün hakimiyyət *sui generis* di. Çünki o, əməlin məhsuludu və tamamilə inandırmadan asılıdı. O iddia edir ki, hakimiyyətin legitimliyi insanların ilkin birləşməsindən, yəni assosiasiya paktından irəli gəlir. «Güc o vaxt meydana gəlir ki, adamlar öz aralarında xəbərləşərək toplaşırlar.

Legitimlik də bu ilkin toplanışdandı, izlənməsi mümkün istənilən hərəkət yox» **(4, s.151)**.

Hakimiyyət keçmişə müraciətdən başqa öz legitimliyini azad və təhrif olunmamış ünsiyyətdən gələn rasional öhdəliklərlə də təmin edir. Bu səbəbdən hakimiyyət maddi faktorlardan asılı deyil: o, iqtisadi, bürokratik və ya hərbi üsullarla saxlanmır, müzakirələrin nəticəsi olaraq ümumi inanışların əsasında dayanır.

**Bir daha müasir cəmiyyətin Arendt tənqidi haqda**

Müasir cəmiyyətin arendt tənqidi belə bir iddia üzərində qurulub: siyasət pablik həyat, vətəndaşların öz aralarında diskussiya aparıb, fikir mübadiləsi apardıqları sahə kimi yox olmuşdur. «Hadisələr məkanına qatılma» 4-5 ildə bir səsverməyə və ya klubların işinə qatılmaqla olmur. *Vita activia* geri dönüşü olmadan animal laborans ərazisinə çevrildikcə, bizim özümüz haqda təsəvvürlərimiz də bənzər proses yaşayır. Bizim özümüz, qabiliyyətlərimiz haqda təsəvvürlərimiz «əməyin zirvədə qərarlaşdığı son cəmiyyət səviyyəsi» imperativlərinə uyğundur. Ona görə də bizlərin özümüzü vətəndaş hiss edib siyasi «biz» kateqoriyasînda düşünə bilməyimiz mümkünsüz görünür. Bizim siyasətə ictimai, ümumi səadət kimi yanaşmamız, demək olar ki, itib. «Sadə» həyat başqa düşüncələr üzərində qələbə çalıb. Arendtin fikirlərini öz terminlərində qısaca ifadə etsək, belə bir mənzərə əldə etmiş olarıq: Müasir dövrün əsas inancı ali dəyərin dünya yox, ayrıca adamın həyatı olmasıdır. Təşəbbüs sahibi vətəndaş olaraq söz və əməl vasitəsilə ölümsüzlük qazanmaq tədricən gözdən itən idealdır. Biz dünyadan öz içimizə çəkilib, özümüzə arxa dönüb psixoloji problemləri analiz içində itib-batmışıq. Bizi cəmiyyət, rifah, əyləncə məşğul edir, ancaq insan situasiyasını (human condition) siyasi dünyada başqalarına qatılma şəklində mövcudluq olaraq qavrama qabiliyyətimizi itiririrk. «Ayrıca adamın həyatını bütövlükdə həyat prosesilə əlaqələndirmək üçün heç bir xüsusi insan qabiliyyəti tələb olunmur. Ayrıca həyat növün həyatına əmək, özünün və ailəsinin fiziki mövcudluğunu təmin edən əmək vasitəsilə daxil olur» **(5, s. 51)**.

Arendtin bu suçlaması tək sıradan adamlara yox, filosoflara da ünvanlanıb. Siyasi azadlıq, əməl dünyasına aidliyin öz mənasını və ya əvvəlki əhəmiyyətini itirdikləri arasında o, Marks, Kirkeqor, Nitsşe və Berqsonun adını çəkir. Bu səbəbdən onlar öz əsərlərində siyasət, əməl və çoxcalığa yox, «həyat və onun məhsuldarlığı»na müraciət edirlər.

*Hanna haqqında.* Bu günədək tanıtmağa çalışdı̇ğım qadın-düşünürlərdən fərqli olaraq Onun təlimini qadın düşüncəsi olaraq təqdim etmirəm. Çünki Hanna hər cür ayrıseçiciliyə qarşı olduğu kimi, kişi/qadın düşüncəsini fərqləndirməyə də qarşı olardı. Nasizmin dəhşətini doğulub boya-başa çatdığı Almaniyadan qovularaq yaşayan, qaçqın yəhudilərə kömək edərək sionist olmayan Filosof qadının adı ən çox Haydeggerlə anılsa da, o, insan-vətəndaş olaraq müəllimi Yaspersin tələbəsidi. Onun totalitarizmi tənqidi, Müasirlik konsepsiyası və Praksis-əməl nəzəriyyəsi siyasət fəlsəfəsi rakursunda nəzərdən keçirilsə də, tarixi «yeni, başşqa rakursda» oxuma cəhdi olaraq qiymətləndirilə bilər.

**İstifadə edilmiş ədəbiyyat**

1. Hannah Arendt. Men in Dark Times. New York: Harcourt Brace Jovanovich, 1972;
2. Hannah Arendt. Between Past and Future. New York: Viking Press, 1961. Revised edition, 1965;
3. Hannah Arendt. The Human Condition. Chicago: University of Chicago Press, 1958;
4. Hannah Arendt. Crises of the Republic. New York: Harcourt Brace Jovanovich,1972

**Махрух Аббас**

**КОНЦЕПЦИЯ СОВРЕМЕННОСТИ ХАННЫ АРЕНДТ**

**Резюме**

В статье освещается концепция современности и теория действий Х. Арендт, анализируются ее главные идеи. Подчеркивается, что Арендт не рассматривала политику как средство удовлетворения индивидуальных предпочтений и как способ интегрировать людей вокруг общей концепции добра. Вместо этого ее концепция основывается на идее активного гражданства, то есть на ценности и важности гражданского участия и коллективного обсуждения всех вопросов, затрагивающих политическое сообщество.

**Цель -** поиск политической среды, где возможно гармоническое развитие человека;

**Методология -** социокультурный, аксиологический и культурно-исторический подход

**Результат -** с помощью концепции современности выявлен новое понимание таких понятий как смысл, идентичность и ценности в политической философии

**Ключевые слова:** Ханна Арендт, концепция современности, теория действий, действие, свобода, множественность

**Mahru Abbas**

**MODERNITY CONCEPTION OF HANNAH ARENDT**

**Summary**

The article explores Arendt's Coseption of Modernity and Theory of Action, analises her main ideas. It maintains, that Arendt did not conceive of politics as a means for the satisfaction of individual preferences, nor as a way to integrate individuals around a shared conseption of the good. Her conseption of politics is based instead on the idea of active citizenship, that is, on the value and importance of civic engagment and collective deliberation about all matters affecting the political community.

**Purpose** – search for a political environment where harmonious human development is possible;

**Methodology –** sociocultural, axiological, cultural historical approach;

**Findings –** By the using the concept of modernity, a new understanding of such concepts as meaning, identity and values in political philosophy has been revealed.

**Keywords:** Hannah Arendt, Conseption of Modernity, Theory of Action, action, freedom, plurality.

**UOT 165.2**

**Könül Şəkiyeva**
**AMEA Fəlsəfə İnstitutu,**
**kiçik elmi işçi**
**konulshakiyeva@gmail.com**

# ELEKTRON HÖKÜMƏTİN NƏZƏRİ ƏSASLARI

*Məqalədə elektron hökumətin yaranma səbəbləri, nəzəri əsasları və inkişaf mərhələləri araşdırılır. Göstərilir ki, e-hökumət vətəndaşlara, təşkilatlara və biznesə dövlət xidmətinin səmərəliliyinin yüksəldilməsinin vasitəsidir. Elektron hökumət dövlət siyasətinin həyata keçirilməsini asanlaşdırır. Qeyd edilir ki, e-hökumət gənc və dinamik inkişaf edən, dövlət və bələdiyyə idarəçiliyinin strateji və innovativ menecmentinin, həmçinin politologiya və informasiya texnologiyasının qovuşuğunda yerləşən tədqiqat sahəsidir. Elektron hökumət bir tərəfdən dövlətin yerinə yetirdiyi xidmətin həcmini artırmağa, digər tərəfdən xərclənən resurslara qənaət etməyə kömək edir.*

***Məqsəd*** *- elektron hökumətin yaranma səbəbləri və inkişaf mərhələlərini və e-hökumətin nəzəri əsasları haqqında tanınmış tədqiqatçıların ideyaları və fikirlərini araşdırmaq.*

***Metodologiya*** *- Məqalənin metodoloji əsasını sistem nəzəri yanaşma təşkil edir, işdə müqayisəli təhlil metodu rəhbər tutulub.*

***Tədqiqatın nəticələri*** *- E-hökumət dövlət xidmətinin yüksək keyfiyyətlə təqdim edilməsini təmin edən, dövlət idarəçiliyində ictimai iştirakın və cəmiyyətin bütövlükdə demokratikləşməsinin səviyyəsinin yüksəldilməsini təmin edən publik hakimiyyətin təşkilinin keyfiyyətcə yeni səviyyəsini təmsil edən qurumdur.*

***Açar sözlər:*** sosial tərəqqi, dövlət idarəçiliyi, e-hökumət, informasiya-kommunikasiya texnologiyaları, bir pəncərə, ictimai iştirak, publik idarəetmə.

XX əsrin 70-ci illərinin sonlarından bu günədək Qərb ölkələrində aparılan müasir inzibati islahatların çıxış nöqtəsi siyasi-inzibati modelin keçirdiyi böhran idi. Bu böhran ənənəvi bürokratik strukturda disfunksiyanın güclənməsi və dövlət idarəçiliyinə çəkilən xərclərin çoxalması gedişində publik xidmətlərin həcminin və keyfiyyətinin artmasının cəmiyyətə vergi yükünün çoxalması ilə birbaşa bağlılığı zamanı, mümkün imkanlar limitinin tükənmsi ilə şərtlənir.

Dövlət sektorunda məhsuldarlığın yüksəldilməsinin demokratiya ilə qırılmaz bağlı olduğu şəraitdə bu böhranın dərk edilməsi, publik idarəetmə sisteminin bir sıra baza prinsiplərinə yenidən baxılmasına səbəb oldu və səmərəliliyin yüksəlməsinə və dövlətin funksional qabiliyyətinin çoxalmasına yönəlmiş – inzibati islahatların həyata keçirilməsinə gətirib çıxardı.

Bəhs etdiyimiz islahatların ünsürlərindən biri dövlətin fəaliyyət göstərməsi prosesinin müasir informasiya və kommunikasiya texnologiyalarından, ilk növbədə İnternetdən, onun açıq informasiya vermək və onlayn rejimdə xidmət göstərmək imkanından, daha yaxşı idarəetməyə çatmaq üçün vasitə kimi istifadə edilməklə yenilənməsini və optimallaşmasını nəzərdə tutan elektron hökumət sisteminin hazırlanması oldu. Elektron hökumət elektron ekonomikanın, rəqəmsal ekonomikanın prinsiplərinin tələb etdiyi rəqəmsal transformasiyanın inzibati islahatının bir hissəsidir.

İnformasiya-kommunikasiya texnologiyaları dövlətin inkişafı ilə eyni vaxtda, analoji inkişaf edir. Bu prosesin mühüm tərkib hissələrindən biri, həm də siyasi proseslərdə

istifadə edilən İnternetdir. İnternet hakimiyyət strukturları ilə kommersiya sektoru və vətəndaşlarla səmərəli qarşılıqlı fəaliyyət üçün geniş imkanlar açır. Bu işin parlaq nümunələrindən biri 1990-cı illərdə inkişaf etmiş qərb ölkələrində yaranan e-hökumət (e-qovernment) oldu. “Elektron hökumət” termini ingilis dilindəki Electronic Government və ya e-government sözündən götürülüb. Electronic government hərfən tərcümədə “elektron idarəetmə” və ya “elektron dövlət idarəetməsi” deməkdir.

Bunun mahiyyəti odur ki, vətəndaşlara, qeyri-dövlət strukturu və ya dövlət strukturları olan istifadəçilərə informasiyanın və xidmətlərin ötürülməsi zamanı müasir informasiya texnologiyalarından istifadə edilir.

Elektron hökumət gənc və dinamik inkişaf edən, dövlət və bələdiyyə idarəçiliyinin, strateji və innovativ menecmentinin, həmçinin politologiya və informasiya texnologiyasının qovuşuğunda yerləşən tədqiqat sahəsidir.

Bəzi tədqiqatçılar hesab edirlər ki, elektron hökumət terminini ilk dəfə Corc Lauson özünün “Şəbəkə dövləti: Elektron hökumətin yaradılması” adlı kitabının adında işlətmişdir (1).

Elektron hökumətin funksional vəzifəsinin ən yığcam tərifi Avropa komissiyası tərəfindən verilmişdir. 2002-ci ildə komissiya elektron hökumətin gələcək Avropa üçün əhəmiyyətindən bəhs edərkən belə bir tərif vermişdir: “Elektron hökumət vətəndaşlara və biznesə dövlətin xidmətinin səmərəliliyinin yüksəldilməsinin vasitəsidir. E-hökumət dövlət siyasətinin həyata keçirilməsini asanlaşdırır və dövlət sektoruna, bir tərəfdən – xidmətin həcmini genişləndirmək və keyfiyyətini yüksəltmək, digər tərəfdən – isə resurslara qənaət etmək kimi, bir-birinə zidd tələbləri yerinə yetirməyə kömək edir. Bu iş dövlət orqanlarında informasiya və telekommunikasiya texnologiyalarının tətbiq edilməsi, əvvəlki təşkilati dəyişikliklərin və ictimai xidmətlərin və demokratik proseslərin yaxşılaşdırılmasına yönəlik yeni vərdişlərin qazanılması sayəsində həyata keçirilir”.

Tədqiqatçı A.A. Sidorova e-hökumət anlayışının müəyyən edilməsində iki yanaşma olduğunu qeyd edir: məhdud və geniş yanaşma (2). Məhdud yanaşma hökumətin səviyyələri, vətəndaşlar və işgüzar dairələr arasında elektron vasitələrin köməyi ilə hökumətin fəaliyyətini öyrənir. Geniş yanaşma elektron hökuməti, dövlətin, vətəndaşların və biznesin qarşılıqlı fəaliyyətinin keyfiyyətcə yeni səviyyədə dövlət idarəçiliyi prosesində ictimai iştirakın yüksək səviyyəsini təmin edən xüsusi sistem kimi araşdırır.

Məhdud yanaşma aşağıdakı müəyyən etməni nəzərdə tutur. Elektron hökumət dövlət orqanlarının fəaliyyətinə yardım məqsədi ilə informasiya və informasiya-kommunikasiya texnologiyasından istifadə edilməsini həyata keçirir.

Elektron hökumət anlayışına məhdud yanaşma dövlət orqanlarının funksiyalarının tərkibində prinsipial dəyişiklikləri, dövlət orqanları ilə vətəndaşlar və işgüzar dairələr arasında qarşılıqlı fəaliyyətin yeni formatını yaratmağı nəzərdə tutur. Dövlət orqanlarının fəaliyyətinin mahiyyəti əsasən dəyişmir, ancaq forma dəyişir: əgər əvvəllər dövlət xidmətləri vətəndaşlara biznesin dövlət orqanları ilə əyani qarşılıqlı fəaliyyəti zamanı təqdim edilə bilirdisə, indi, elektron hökumətin tətbiq edilməsindən asılı olaraq bir çox xidmətlər eyni vaxtda distansiyadan əlçatan olur. Məsələn, xarici pasportun yazılması və ya vergi bəyannaməsinin verilməsi. Burda qeyd etmək gərəkir ki, təqdim edilən, göstərilən xidmətlərin mahiyyəti dəyişməz olaraq qalır.

Beləliklə, məhdud yanaşmaya görə elektron hökumət idarələr daxilində və idarələrarası qarşılıqlı fəaliyyəti təmin etmək, həmçinin dövlət xidmətlərini daha ucuz və daha uyğun üsullarla göstərməyi nəzərdə tutur. Bütün bunlara baxmayaraq informasiya texnologiyalarının istifadəsi özlüyündə dövlət idarəçiliyi proseslərinin keyfiyyətini avtomatik olaraq yüksəltmir. Məhz bu səbəbdən dövlət idarəçiliyinin inkişafının müasir

mərhələsində elektron hökumət anlayışına geniş yanaşma daha aktualdır.

Elektron hökumət anlayışına geniş yanaşma aşağıdakıları tələb edir. Elektron hökumət təklif edilən xidmətləri optimallaşdırmaq, dövlət idarəçiliyi məsələlərində cəmiyyətin iştirak səviyyəsini yüksəltmək və daxili prosesləri təkmilləşdirmək məqsədi ilə, İnternetin, informasiya və telekommunikasiya texnologiyalarının imkanlarından istifadə etməklə dövlət təşkilatlarının daxili və xarici əlaqələrinin transformasiyasını həyata keçirir.

Elektron hökumət anlayışının şərh edilməsində geniş yanaşma təkcə dövlət idarəçiliyi prosesinin informasiyalaşdırmasını, dövlət xidmətinin asanlığını və əlçatanlığını, tranzaksiya problemlərinin azaldılmasını deyil, dövlət orqanlarının vətəndaşlarla və işgüzar dairələrlə qarşılıqlı fəaliyyətinin keyfiyyətcə yeni modellərini yaratmağı nəzərdə tutur. Elektron hökumət son nəticədə bürokratizmə və süründürməçiliyə qarşı mübarizə hesab edilir. Bu İKT inkişafı sayəsində mümkün olan, əsasında dövlət idarəçiliyində ictimai iştirakın inkişafı dayanan yanaşmadır. Ancaq İKT-nın dövlət orqanlarının fəaliyyətinə tətbiqi elektron hökumətin başlıca məqsədi deyil, bu, cəmiyyətin demokratikləşməsinin səviyyəsini və dövlət idarəçiliyində ictimai iştirakın səviyyəsini yüksəltməyə imkan verən vasitədir.

Elektron hökumət – fərdlərə, biznesə və müəssisələrə dövlət idarəçiliyi sayəsində xidmətin keyfiyyətini ciddi yaxşılaşdırmaq, demokratik proseslərin təkmilləşdirilməsi və dövlət siyasətinin müdafiəsini gücləndirmək; informasiya mübadiləsinin keyfiyyətini və səmərəliliyini yüksəltmək; dövlət xidmətində vətəndaşların və istehlakçıların rolunu gücləndirmək məqsədi ilə xidmətin tam spektrini təmin etməkdir.

Dediklərimizdən məlum olur ki, elektron hökumət İnternet vasitəsi ilə məktub göndərilən nazirlər və onların köməkçiləri deyil, ölkə əhalisinə dövlət xidmətinin İnternetlə ötürülməsinin yüksək texnoloji üsuludur. Nə meriyaya, nə nazirliyə, nə də digər dövlət instansiyalarına hansısa arayış və ya möhür üçün deməyə lüzum qalmır. Bunun üçün növbəyə, möhürə, imzaya, razılaşmaya və s. ehtiyac yoxdur, sadəcə olaraq İnternetdə bir neçə sadə əməliyyat həyata keçirmək kifayətdir.

Qeyd etmək gərəkir ki, tədqiqatçılar tərəfindən elektron hökumət haqlı olaraq təkcə ictimai idarəçiliyin səmərəliliyini yüksəltmək üçün bir vasitə kimi deyil, həm də informasiya cəmiyyətinin yeni demokratiya modelinin başlıca ünsürü olaraq nəzərdən keçirilir, çünki, e-government texnologiyası vətəndaşların və ictimai qrupların dövlət siyasətinin hazırlanması və reallaşmasına effektli qoşulma üçün ilkin şərtlər yaradır. Məsələn, ABŞ Kənd Təsərrüfatı departamentində elektron ödəmə sisteminin tətbiq edilməsindən sonra bir əməliyatın xərci 77 dollardan 17 dollara düşmüşdür (3).

Kanada təcrübəsinin təhlili göstərdi ki, bir vətəndaşın müraciətinin köhnə qayda ilə işlənməsi orta hesabla 44 kanada dollarına, poctla olan müraciət 38 kanada dollarına, telefonla göstərilən xidmət 8 dollara başa gəlirdisə electron ödəmə sisteminin tətbiqindən sonra bu xidmətlərin xərci cəmi 1 dollar təşkil etmişdir (4).

Bununla birlikdə, qərarların qəbul edilməsində ictimai iştirak imkanlarının genişlənməsi ilə bağlı açıq-aydın komponentin ortada olmasına baxmayaraq qeyd etməliyik ki, elektron hökumət sisteminin qurulmasının aparıcı paradiqması dövlət aparatının təşkilinin başlıca prinsiplərində araşdırma olmadan, bürokratik prosedurları olan, sadə informasiyalaşma və avtomatlaşdırma oldu. Bu gün qeyd etməliyik ki, elektron hökumət sisteminin inkişafı bu paradiqma daxilində ən yüksək həddə çatmışdır.

Qərb ölkələrində aparılan müasir inzibati islahatlar dövlət idarəçiliyi sisteminin təşkilinə, cəmiyyətin həyatında dövlətin rolunun yenidən dəyərləndirilməsi, ictimai sektorun kommersiyalaşması və menecerləşməsi, hökumət strukturunun funksional transformasiyası və s. ilə bağlı bir çox yeni yanaşmalar yaratmışdır.

Qərb ölkələrində elektron hökumətin planlaşdırılan artımı – konkret dövlət strukturlarında az saylı informasiya saytlarının yaranmasından, publik xidmətlərində hər şeyi əhatə edən vahid dövlət portallarının yaranmasınadək – ardıcıl olaraq dövlət fəaliyyətinin səmərəliliyinin yüksəlməsinə kömək etmişdir. Bununla birlikdə hazırda – e-government texnologiyasının tətbiq edilməsində lider olan ölkələrdə elektron hökumətin inkişafında yuxarıda qeyd etdiyimiz paradiqma sərhədlərində bu sistemin inkişafında müəyyən həddə çatılması ilə bağlı böhran yaşanır. Problemin mahiyyəti ondadır ki, mövcud bürokratik prosedurların sadəcə informasiyalaşdırılması və avtomatlaşdırılması heç də həmişə dövlətin funksional qabiliyyətinin səmərəliliyinin yüksəlməsinə və genişlənməsinə səbəb olmur.

Elektron hökumət sisteminin yaradılmasının belə strategiyası bir çox hallarda öz-özünə aydın idi: biz hansısa hökumət funksiyasına (lisenziya almaq, cərimə ödəmək və s.) və müəyyən informasiya-kommunikasiya texnologiyalarına (İnternet-saytlar, elektron poçt və s.) malikik, göstərilən texnologiyalardan bu funksiyanın reallaşması üçün istifadə edirik və istənilən nəticəni – konkret hökumət funksiyasının yerinə yetirilməsini e-government texnologiyasına keçirilməsini əldə edirik.

Nəticədə elektron hökumətin məhz belə inkişaf paradiqması aparıcı oldu. Məsələn, vətəndaşlara hökumət informasiyasının təqdim edilməsi funksiyası başlanğıcda heç də İnternet texnologiyaları ilə bağlı deyildi və adi rejimdə reallaşırdı, zəruri materiallar, qəzetlərdə və xüsusi nəşrlərdə çap olunurdu, vətəndaşların sorğularına yazılı cavablar verilirdi, bütün arzu edənlərin arxiv sənədlərinə çıxışı olurdu və s. e-government texnologiyasının meydana gəlməsi hökumət informasiyasına çıxış imkanlarını genişləndirmək və hökumətin işini daha açıq etməklə belə funksiyanın reallaşmasının formatını modifikasiya etdi.

Tədqiqatçı A. V. Pavroz hesab edir ki, e-government texnologiyasının tətbiqi dövlət idarəçiliyi prosesini məzmunca dəyişməsə də, hökumət ilə cəmiyyət arasında qarşılıqlı fəaliyyəti fəallaşdırmaq, ayrı-ayrı vətəndaşların və ictimai qrupların siyasətin formalaşmasına qoşulmasının səmərəli kanallarını yaratmaqla, əks əlaqənin mexanizmini möhkəmlətdi, bu isə dövlətin funksional qabiliyyətinin genişlənməsinə yardımçı oldu (5) .

Bütövlükdə, e-government texnologiyasının dövlət idarəçiliyi praktikasına inteqrasiyasının pozitiv effekti şübhəsizdir. Bunun nəticəsində getdikcə daha çox inzibati funksiyaların və prosedurların dövlət idarəçiliyi proseslərinin xarakteristikasının mahiyyətinə toxunmadan e-government texnologiyasına keçirilməsi, Qərb ölkələrində elektron hökumətin kommunikasiya qarşılıqlı fəaliyyətinin həyata keçirilməsinin geniş imkanları sisteminin formalaşmasına gətirib çıxardı.

Hazırda dövlət hakimiyyəti orqanlarının vətəndaşlara təqdim etdikləri nümunəvi xidmətlər bunlardır: - vergi orqanları ilə qarşılıqlı münasibətlər, vergi deklarasiyalarının verilməsi, deklarasiyaların yoxlanılmasının nəticələri haqda bildiriş; - yerli hakimiyyət orqanları ilə (bələdiyyələr) qarşılıqlı münasibətlər; - iş axtarışı sahəsində əmək departamentinin təqdim etdiyi xidmətlər; - sosial sığorta fondundan ödəmələr; - sənədlərin verilməsi (pasport və sürücülük vəsiqəsi); - avtomobillərin qeydiyyatı; - tikintiyə icazə almaq üçün verilən müraciətlər; - hüquq-mühafizə orqanlarına müraciətlər ( məsələn, oğurluq, qaçırılma); - publik kitabxanalar (kataloqlara çıxış, axtarış alətləri); - vətəndaşların vəziyyəti, qeydiyyat aktları (doğum, nikah, ölüm): sorğu və cavab; - orta və ali məktəblərə daxil olma haqda müraciətlərin verilməsi; - yaşayış yeri üzrə qeydiyyat; - səhiyyə xidmətləri (məsələn, müxtəlif xəstəxanalarda xidmət göstərilməsi haqda interaktiv məlumatlandırma; xəstəxanalara göndərişlər).

Hakimiyyət orqanlarının biznesə etdiyi xidmətlərə bunlar daxildir: - sosial sığorta

fondlara ödəməsi, əməkdaşlar üçün ödənişlər; - ƏDV: e-bəyannamə, e-vergi hesab fakturası; bəyannamənin yoxlanılmasının nəticələri haqda xəbərdarlıq; - yeni kampaniyaların, şirkətlərin qeydiyyatı; - gömrük bəyannamələrinin verilməsi; - E-lisenziya; - E-satınalma, e-kotirovka; - E-hərrac; - arayışların verilməsi; - ətraf mühitin qorunması ilə bağlı, hesabat daxil icazə; - dövlət ehtiyacları üçün mal və xidmətlərin təminidir.

Elektron hökumətin inkişafına mane olan əsas texniki səbəblərdən biri elektron kommunikasiya iştirakçılarının identifikasiya edilməsidir. İnternetin açıq olması, elektron sənədin məzmununun dəyişmək imkanı məlumatların ilkin məzmununun təhrif edilməsi təhlükəsini yaradır.

Elektron hökumət quruculuğunda rast gəlinən uğursuzluqların səbəblərini öyrənmək və uğura kömək edən amilləri daha yaxşı başa düşmək üçün e-hökumətin həyata keçirilməsindəki çətinlikləri araşdıraq. Qeyd etmək lazımdır ki, elektron hökumətin praktikada həyata keçirilməsi heç də asan deyil. Əslində, bütün e-hökumət layihələrinin 60% -dən çoxu uğursuz olmuşdur. Bunun səbəblərindən biri hər hansı bir dəyişməyə qarşı ümumi müqavimətdir.

Bundan əlavə, e-hökumət layihələrinin uğursuzluğunun bir çox səbəbləri idarəetmə üsulları ilə bağlıdır. E-hökumətin həyata keçirilməsində baş verən uğursuzluqdan, e-hökumətin dəyişikliyin etibarlılığı, təşkilatda əməkdaşlıqda zəiflik və səy göstərmək üçün təşkilatın yeni istiqamətini aydınlaşdırmaq, görmə qeyri-müəyyənliyi kimi məlumatlılığın olmaması ilə əlaqədar bir çox səbəbləri və zəif ünsiyyət kanallarını təsbit etdi. Tədqiqatçılar bu səbəbləri üç qrupa ayırmışlar. Səbəblərin ilk paradiqması "idarəetmə səbəbləridir”. Bu səbəblər təklif olunan e-hökumət layihəsi, müvafiq strategiya, yuxarı rəhbərliyin dəstəklənməsi, güclü liderlik və e-hökumət təşəbbüslərinin həyata keçirilməsi üçün maliyyələşdirmə ilə bağlı ümumi fikir formalaşdırır. Səbəblərin ikinci paradiqması "texniki səbəblərdir". Bu səbəblər, informasiya texnologiyaları (İT) infrastrukturunu və standartlarını, agentliklər və vətəndaşlar arasında əlaqələrin idarə edilməsi arasında əməkdaşlığı əhatə edir. Səbəblərin üçüncü paradiqması "təşkilati səbəblərdir”. Bu səbəblərə siyasət və hüquqi məsələlər, xidmət keyfiyyəti, mükafat sistemi və təlim daxildir.

E-hökumət dövlət, ölkə, özəl sektor, dövlət işi və dövlət qurumlarında vaxt, əmək və maliyyə qənaəti səmərəliliyi və effektivliyini artıran bir təşkilati sistemdir. Bu tərifdən belə qənaətə gəlirik ki, bu sistem bu günkü texnologiyadan bizə əvəzsiz avantajdır. Qloballaşma ilə texnoloji vasitələrin inkişafı, cəmiyyətin bu texnologiyadan, iqtisadi sosial dəyişiklikdə ictimai xidmətlərə olan tələbatını artırdı. Bununla dövlət, tələbatı qarşılamaq üçün daha səmərəli və məhsuldar bir iş görmək məcburiyyətində qaldı. Dövlətin bütün hərəkətləri, vətəndaşlara bürokratik maneələrlə rastlaşmadan asanlıqla bunu etməyə imkan verəcəkdir. Bununla e-hökümətin strukturları vətəndaşların vəzifələrini və xidmətlərini yerinə yetirmək məcburiyyətindədirlər.

E-hökümət elektron kommunikasiya və emal mühitlərində fasiləsiz və təhlükəsizdir. Elektron hökumətin informasiya texnologiyaları konsepsiyası istifadədə olan məhdudiyyət başa düşülmür. E-hökumət eyni zamanda davamlıdır. Xidmət bölgüsü, vətəndaşların idarə edilməsi və nəzarət proseslərinin yeniləşdirilməsidir. Elektron hökumət virtual bir dövlət deyil, həyatda dövlətin, texnologiyanın imkanlarından istifadə edərək əhalinin tələblərini qarşılayan konfiqurasiya vəziyyətidir. E-hökumətin xidməti dövlətin vəzifələrini yerinə yetirməkdir, vətəndaşlar və dövlət qarşısında məsuliyyət daşıyır. Bu proses təhlükəsiz və etibarlı bir iş olaraq yerinə yetirilir. İndi coğrafi olaraq harada yerləməsindən asılı olmayaraq dövlət öz vətəndaşlarına 24/7/365 xidmət etməlidir.

Daxil olan informasiya və kommunikasiya texnologiyaları nəticəsində Qərb ölkələrinin

elektron hökumət strukturuna keçidi inkişaf etməkdə olan ölkələrdən daha sürətli və asan olmuşdur. Burada elektron hökumətə keçid üçün zəruri resurslar, hazırlıqlı işçi qüvvəsi və düzgün strategiya olduqca vacibdir. E-hökumət dövlətin gündəlik idarəetməsini asanlaşdırmaq üçün ünsiyyət və informasiya texnikasıdır. Elektron hökumət, informasiya texnologiyalarının dövlət idarə strukturları ilə vətəndaşlar, müəssisələr və digər dövlət vahidləri arasındakı əlaqədir.

Elektron hökumətə keçid prosesində qiymətləndirmə aparmaq üçün kritik uğur faktorlarının təyin edilməsi lazımdır. E-hökumət quruculuğunda hüquqi, texniki və inzibati sahələrdə keçid zamanı yaşanan problemləri nəzərdən keçirək.

Hüquqi məsələlər sahəsində buraya aşağıdakılar daxildir: - elektron sənədlərin dövlət tərəfindən qəbul edilməsi və identifikasiyası, - virtual korporativ şəxsiyyətin müəyyən edilməsi, - şəxsi məlumatların məxfiliyinin təmin edilməsi,- elektron imzanı qəbul etmə,- İnternetdə törədilmiş cinayətlərin araşdırılması, - istehlakçının qorunması, - müqavilə hüququ və dövlət satınalmaları haqqında qanunvericilik. Bunlardan başqa təşkilatlar arasında informasiya mübadiləsində qaydalar və standartların aşkarlanması, sahibkarlığı dəstəkləmək, ümumi dövlət siyasətinin və strategiyasının olmaması, yeni sistemə görə ictimaiyyətin hazırlanması, resursların itməməsi də var.

Texniki problemlərə bölgələr, şəhərlər və məhəllələr arasında xidmətlərə çıxış üçün lazım olan infrastruktur xidmətdən bərabər faydalana bilməmək, investisiya xərclərinin yüksək olması, məxfilik və təhlükəsizliyin təmin edilməsi, informasiya paylaşımında müəyyən standartların yaradılması, kommunikasiya infrastrukturunun olmaması daxildir.

İdarəetmə problemləri içərisində adoptasiya, ixtisaslı kadrlara ehtiyac olması, informasiya mərkəzlərinin aktiv işi, koordinasiya işinin yoxluğu da var. Elektron hökumət quruculuğunu effektiv həyata keçirmək üçün ümumi siyasət və strategiya, həmçinin maliyyə resursları olmalıdır.

İnternet vasitəsilə təmin edilən informasiya xidmətlərinin məxfiliyi və təhlükəsizliyini iki səviyyədə araşdıraq. Birincisi, rəhbərlik tərəfindən vətəndaşlara və təşkilatlara xidmət göstərən vahidlərin istifadəsi zamanı, zərərli üçüncü şəxslər tərəfindən əldə edilən məlumatların qarşısı alınmalıdır. Gizlilik və təhlükəsizliyin digər bir aspekti ictimai məlumatın milli təhlükəsizliyə təhlükə yarada biləcəyi ehtimalının olmasıdır. Bu və e-hökumət xidmətlərinin istifadəçilərinin məlumatları oxşar səbəblərdən təhlükəlidir. İstifadəçilər məxfilik siyasəti olmasına əmin olmalıdırlar. Təhlükəsizlik məsələsi üçün ümumi tətbiq sahəsi elektron imza və rəqəmsal imza vasitəsilə həyata keçirilir. E-imza, istifadəçinin real şəxsiyyətidir, rəqəmsal imza da virtual bir möhürdür. Bu işlər təhlükəsizlik üçün əhəmiyyətli vasitələr olaraq istifadə edilir.

Altqat infrastrukturunun qeyri-kafi olması quruculuğun səviyyəsinin ən əhəmiyyətli çatışmazlıqlarından biridir. Buna görə də vaxt və keçid prosesi dəqiq müəyyənləşdirilməlidir. Bu zaman İnternet və informasiya texnologiyaları xidməti müasir üsullar ilə həyata keçirilir. Bu işdə vətəndaş, müştəri razılığı birinci sırada olmalıdır. Bu çərçivədə vətəndaşın tələbləri qiymətləndirilməlidir. Elektron hökumət informasiya texnologiyaları istənilən hədəfə, dövlət rəhbərliyinə çatmaq üçün vasitə olaraq görülməməlidir. Bu inkişafın məqsədi tələblərə tez və keyfiyyətli cavab verməkdir. Bu gün dövlət qurumlarının elektron hökumət strukturuna təqdim etdiyi xidmətlərə uyğunlaşma işləri davam etdirilməlidir. Təhlükəsizlik, səhiyyə, təhsil, ödənişlər, sosial təminat, bələdiyyə xidmətləri əsasən e-hökumət tərəfindən yerinə yetirilir. Mövcud proqram və kommunikasiya infrastrukturunun inventarlaşdırılması təşkilatlararası əməkdaşlığın qurulması barədə məlumatlar verilməsi, təcrübə mübadiləsi, parallel proqram və tətbiqlərin qarşısının alınması təmin edilməlidir.

Yuxarıda dediklərimizdən belə bir nəticəyə gələ bilərik ki, e-hökumətin əsas məqsədi vətəndaşlara daha yaxşı və səmərəli xidmət göstərmək, hökumətin etibarını artırmaq və bu sahədə demokratik prosesi gücləndirməkdir.

Hər hansı bir e-hökumətin əsasını dövlət qurumları kommunikasiya sisteminin kompüter texnologiyasından və telekommunikasiyadan (İnternetdən) istifadə etməklə informasiya texnologiyasına köçürülməsi təşkil edir. Elektron hökumətin konkret reallaşmasının funksional məzmunu çox sayda parametrlərdən - dövlət quruluşundan, dövlətin daxilində ictimai-siyasi münasibətlərdən, dövlət strukturları arasında vəzifələrin bölünməsindən və nəhayət gələnəklərdən asılıdır.

Beləliklə, müasir dövrdə elektron hökumət, İnformasiya Kommunikasiya Texnologiyalarının tətbiq edilməsi sayəsində dövlətin, biznesin və vətəndaşın qarşılıqı fəaliyyətinin yeni modelinin formalaşmasına kömək edən, dövlət idarəçiliyinin keyfiyyətinin daxili və müəssisələr arası qarşılıqlı fəaliyyətin optimallaşdırılması vasitəsi ilə yüksəltməyə yönəlmişdir. E- hökumət dövlət xidmətinin yüksək keyfiyyətlə təqdim edilməsini təmin edən, dövlət idarəçiliyində ictimai iştirakın və cəmiyyətin bütövlükdə demokratikləşməsinin səviyyəsinin yüksəldilməsini təmin edən publik hakimiyyətin təşkilinin keyfiyyətcə yeni səviyyəsini təmsil edən qurumdur.

**İstifadə edilmiş ədəbiyyat**

1. Lawson G. NetState: Creatinq electronic government. – L.: Demos, 1998.
2. Сидорова А.А. Электронное правительство. М.Издательство. Юрайт. 2017. 165 с.
3.Холмс Д. eGov. Стратегии электронного бизнеса для государства/Д. Холмс: пер. с англ. А.В. Короткова. – М.: Астрел. 2004.
4. Сурин А.В. Стратегии развития электронного правительства// Вестник Московского Университета. Серия 21. Управление (государство и общество). – М., 2006. – №2.
5. Павроз А.В. «Электронное правителство» и современные административные реформы / А.В. Павроз // Политич. Наука. – 2008.
6. Сморгунов Л.В. От электронного государства к электронному правлению: смена парадигм // Политическая наука: сб. науч. тр./ РАН. ИНИОН. – М., 2007. – №4.
7. Малитиков Е. М. Электронное правительство – цивилизационная неизбежность // Федеральная газета. 2009. №1. с.4-5.
8. Heeks R., Bailur S. Analysing e-government research: Perspectives, philosophies, theories, methods and practice // Governmentinfomation quarterly. – Amsterdam, 2007. – Vol. 24, №2.
9. Riley Th. E-government vs, e-govermance: Examining the differences in a changing public sector climate // İnternational tracking survey report. – L., Ottawa, 2003. – №4.
10. Стырин Е.М. Электронное правительство: стратегии формирования и развития: дис. канд. социол. наук. М., 2006.

**Кенюль Шекиева**

## ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ ЭЛЕКТРОННОГО ПРАВИТЕЛЬСТВА

### Резюме

В статье рассматриваются причины, теоретические основы и этапы развития электронного правительства. Показано, что электронное правительство является инструментом повышения эффективности предоставления государственных услуг гражданам, организациям и предприятиям. Электронное правительство облегчает реализацию государственной политики.

Отмечено, что электронное правительство - это сфера молодого и динамичного развития, стратегического и инновационного управления государственным и

муниципальным управлением, а также политологии и информационных технологий. Электронное правительство, с одной стороны, помогает увеличить объем предоставляемых государством услуг и с другой стороны сэкономить затрачиваемые ресурсы.

**Цель -** изучить идеи и мнения известных исследователей о причинах и этапах развития электронного правительства и теоретических основах электронного правительства.

**Методология -** методологической основой статьи является теоретический подход к системе, и в работе используется методология сравнительного анализа.

**Результат -** Электронное правительство - это организация, которая обеспечивает высокое качество государственных услуг и обеспечивает высокий уровень участия общественности в государственном управлении и общую демократизацию общества, представляя качественно новый уровень управления.

**Ключевые слова**: социальный прогресс, государственное управление, электронное правительство, информационно-коммуникационные технологии, одно окно, участие общественности, государственное управление.

**Konul Shakiyeva**

**THEORETICAL BASES OF ELECTRONIC GOVERNMENT**

**Resume**

The article examines the causes, theoretical basis and development stages of e-government. As you can see, the e-government is a means of improving the efficiency of government services to citizens, organizations and businesses. The e-government simplifies state policy.

It is noted that e-government is a young and dynamically developing, strategic and innovative management of state and urban governance, as well as research in the field of policy and information technology. The electronic government, on the one hand, increases the amount of government-supported service, on the other hand, the resources it uses.

**Purpose** - is to explore the ideas and opinions of well-known researchers about the causes and stages of e-government development and the theoretical foundations of e-government.

**Methodology -** The methodological basis of the article is a theoretical approach to the system, and the methodology of comparative analysis is used in the work.

**Findings -** E-government is an organization that provides high quality public services and provides a high level of public participation in government and overall democratization of society, representing a qualitatively new level of government.

**Keywords:** social process, government administration, e-government, information and communication technologies, one-stop shop, public participation, public administratio

# İQTİSADİYYAT VƏ İDARƏETMƏ

**UOT 330**

**Fəhrad Möhbalıyev**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**i.ü.f.d., dosent**
**ferhad.mehbaliyev@mail.ru**

## BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ İQTİSADİ ARTIMIN TƏMİN EDİLMƏSİNDƏ DAYANIQLI İNKİŞAFIN SOSİAL-İQTİSADİ AMİLLƏRİNİN ROLU

*Məqalədə milli iqtisadiyyatın inkişaf etdirilməsində iqtisadi artım və dayanıqlı inkişafın rolu müəyyənləşdirilir.*

*Eyni zamanda iqtisadi artıma nail olunmağın yolları, dövlətin iqtisadi artım siyasəti nəticəsində dayanıqlı inkişafın sosial-iqtisadi aspektlərinin iqtisadi artıma təsiri və bir-biri ilə qarşılıqlı əlaqəsi qeyd edilir.*

*Araşdırma zamanı iqtisadi-statistik təhlil metodundan istifadə edilmişdir.*

***Məqsəd –*** Milli iqtisadiyyatın inkişaf etdirilməsində iqtisadi artımın təmin edilməsində dayanıqlı inkişafın sosial-iqtisadi amillərinin rolunun müəyyənləşdirilməsi.

***Metodologiya –*** Araşdırma zamanı iqtisadi-statistik təhlil metodundan istifadə edilmişdir.

***Tədqiqatın nəticələri –*** Bazar iqtisadiyyatı şəraitində iqtisadi artıma nail olunmağın yolları açıqlanmış, dövlətin iqtisadi artım siyasəti nəticəsində dayanıqlı inkişafın sosial-iqtisadi amillərinin iqtisadi artıma təsiri və bir-biri ilə qarşılıqlı əlaqəsi müəyyən edilmişdir.

***Açar sözlər:*** iqtisadi artım, dayanıqlı inkişaf, sosial amillər, iqtisadi amillər, ekoloji amillər, ÜDM, ÜMM, Milli gəlir (MG).

### Giriş

Bazar iqtisadiyyatı şəraitində ölkələrin iqtisadi siyasətinin önəmli məqsədlərindən biri iqtisadi inkişafın artım surətinin sabit, dayanıqlı və optimal səviyyədə saxlanılmasını stimullaşdırmaqdan ibarətdir.

Dayanıqlı iqtisadi inkişaf, bilavasitə cəmiyyətdə başverən məhsuldar qüvvələrin və istehsal münasibətlərinin dəyişməsini əks etdirir. Bu dəyişmələr həm təbii, iqtisadi, həm də sosial resurslardan səmərəli istifadə edilməsi ilə sıx bağlıdır. Odur ki, qloballaşma prosesinin davam etdiyi bir şəraitdə dünya istehsal həcminin kəskin şəkildə artması nəticəsində iqtisadi proseslərə daha çox maddi və təbii resursların artım tələbatının cəlb edilməsi, elmi-texniki tərəqqinin təsiri nəticəsində ətraf mühitin-ekoloji məsələlərinin kəskinləşməsi, dünya ölkələrinin qarşılıqlı şəkildə bir-birindən asılılığının artması demoqrafik, iqtisadi, ekoloji, sosial və s. məsələlərin beynəlxalq xarakter almasına gətirib çıxarmışdır. Belə ki, tələbatın müntəzəm olaraq artdığı, lakin resursların qıtlığı, çatışmamazlığı şəraitində dayanıqlı iqtisadi inkişafın təmin edilməsi mühüm əhəmiyyət kəsb edir. Odur ki, indiki və gələcək nəsillərin maraq və mənafelərinin qiymətləndirilməsi baxımındam iqtisadi artımın keyfiyyətcə yeni növünün yaranması istiqamətinin müəyyənləşdirilməsi zəruri şərtlərdən biridir.

Azərbaycan Respublikası 1991-ci ildə müstəqilliyini bərpa edərək özünün bütün

yeraltı, yerüstü təbii sərvətlərinə sahib oldu. Belə olan halda indiki və gələcək nəsillərin maraq və mənafeləri naminə ətraf mühitin, ekoloji sistemin tarazlığına zərər vurmadan ölkənin sahib olduğu bütün resurslardan təbii ətraf mühiti qorumaqla və ondan səmərəli istifadə etməklə, təbii resursların hər bir vahidi hesabına maksimum nəticə əldə etməklə dayanıqlı inkişafa nail olunması respublikamızın gələcək inkişafı üçün müəyyən sosial-iqtisadi strategiyasını müəyyən edir. Bu baxımdan, dayanıqlı iqtisadi inkişaf milli iqtisadiyyatın elə inkişaf səviyyəsinə əsaslanır ki, onun nəticəsində cəmiyyətin mövcud tələbatının ödənilməsi zamanı gələcək nəsillərin durmadan artan tələbatının da daha yaxşı ödənilməsi qabiliyyətini azaltmasın.

**Tədqiqatın məzmunu**

Dayanıqlı iqtisadi inkişaf nəzəriyyəsi bir problem şəklində ilk dəfə olaraq XX əsrin II-yarısında irəli sürülmüşdür. Bu nəzəriyyənin yaranması və hazırlanmasına olan tələb və zərurət hər şeydən öncə cəmiyyətdə sosial-iqtisadi inkişafın, təbii-ətraf mühitin mühafizəsi, o cümlədən, təbii ehtiyatlardan səmərəli istifadə olunması və idarə edilməsinin tarazlaşdırılmış şəkildə aparılması zərurətindən yaranmışdır.

Bu problemin əhəmiyyətinin qiymətləndirilməsi ilə BMT, o cümlədən YUNESCO davamlı və dayanıqlı iqtisadi inkişafa keçidi XXI əsrin əsas prioriteti kimi qeyd etmişdir.

Azərbaycan, dayanıqlı inkişaf proqramının qəbul edilməsi və həyata keçirilməsi ilə bağlı, BMT-nin Minilliyin Bəyannaməsinə qoşulmuşdur. Bu bəyannamə özündə yoxsulluğun və aclığın aradan qaldırılmasını, sağlamlıq və təhsilin vəziyyətinin yaxşılaşdırılmasını, gender bərabərliyinin təmin olunmasını, yaxşı iş mühitinin və buna uyğun iqtisadi inkişafın təmin edilməsini, sülhün, ədalətin təmin edilməsinin, kütləvi qırğın silahlarının məhdudlaşdırılmasını və bütün bunlar üzrə ölkələrin məqsədlərinin çatması üçün qarşılıqlı əməkdaşlığını dəstəkləyən sənəddir.

Azərbaycan Minilliyin Bəyannaməsinə qoşularaq iqtisadiyyatını dayanıqlı iqtisadi inkişaf prinsipləri əsasında qurmağı qəbul etmişdir [1]. Bu baxımdan Azərbaycanda dayanıqlı iqtisadi inkişaf prinsipləri müəyyənləşdikdən sonra yoxsulluğun və işsizliyin azaldılması üçün "2003-2005-ci və 2008-2015-ci illərdə dövlət Proqramları"nın qəbul etmişdir.

Dövlət proqramında təbii ehtiyatların mövcud vəziyyəti və dayanıqlı inkişaf proqramının tələblərinə uyğun olaraq səmərəli şəkildə istifadə edilməsi, gələcək nəsillərə çatdırılması istiqamətində görüləcək işlər öz əksini tapmışdır [2].

25-27 sentyabr 2015-ci ildə BMT-yə üzv olan dövlətlərin iştirak etdiyi Dayanıqlı İnkişaf Sammitində 2016-2030-cu illər üçün təsdiqlənmiş Dayanıqlı İnkişaf Məqsədlərinə Azərbaycan da qoşulmuşdur. Dayanıqlı iqtisadi inkişafın təmin edilməsini sürətləndirmək və prosesə nəzarət etmək məqsədilə "Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında" AR Prezidentinin 2016-cı il 06 oktyabr tarixli fərman imzalamışdır. Dayanıqlı inkişaf üzrə Milli Əlaqələndirmə Şurasının başlıca vəzifəsi "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" sənədi ilə bağlı Azərbaycanın öhdəliyinə götürmüş olduğu məsələlərin icrasının əlaqələndirilməsidir. Dayanıqlı inkişaf üzrə Milli Əlaqələndirmə Şurası Azərbaycanın qəbul etdiyi inkişaf proqramı və planlarının, strateji sosial-iqtisadi hədəflərinin və həyata keçirilən ekoloji layihələrin Azərbaycan Respublikasının tərəfdaş çıxdığı dayanıqlı inkişafla bağlı beynəlxalq sənədlərlə uzlaşmasına nəzarət etməlidir [3].

İqtisadi inkişafın dayanıqlığını təmin etmək üçün ona bir sıra istiqamətlərdən, o cümlədən sosial, iqtisadi və ətraf mühitlə-ekologiya ilə bağlı həm ayrı-ayrılıqda, həm də kompleks şəkildə yanaşaraq bu faktorların inkişafını tarazlaşdırılmış şəkildə həyata

keçirmək daha məqsədə uyğundur. Çünki bu amillər arasında qarşılıqlı əlaqə, tarazlıq pozularsa, nəzərdə tutulan iqtisadi, sosial və ətraf mühitlə bağlı olan istiqamətlərin bərabər səviyyədə inkişaf etməsini təmin etmək qeyri-mümkün olar. Bu amillərin hansının daha çox əhəmiyyət kəsb etməsi iqtisadçılar, sosioloqlar arasında mübahisə doğurur.

Belə ki, 1987-ci il Bruntland Komissiyasının bu istiqamətlərlə bağlı hesabatından sonra diskusiyalar nəticəsində iki fərqli yanaşma meydana çıxmışdır.

Birinci yanaşmaya görə iqtisadi amillər sosial amillərin, sosial amillər ekoloji amillərin nüvəsində qərar tutur. Bu yanaşmanı üç dairə kimi nəzərdən keçirsək, onda iqtisadi amillər dairənin mərkəzində, ekoloji mühitlə bağlı olan amillər dairənin kənarında, sosial amillər isə ortada mövqe tutmuş olacaqdır. Yanaşmada daha çox iqtisadi amillərin onu əhatə edən sosial amillərin, sosial amillərin isə ətraf-ekoloji mühitlə bağlı olan məsələlərin tərkib hissəsini təşkil etməsi ön plana çəkilir və bu yolla da hər üç istiqamətin birini digərindən ayırmadan əlaqəli olduğu göstərilir. Buradan ortaya çıxan nəticəyə görə iqtisadi və sosial amillər bir-biri ilə bağlı olsada, ekoloji mühitlə bağlı olan amillər ən ümumi xarakter daşıdığı üçün digərlərindən asılı olmadan da öz mövcudluğunu davam etdirə bilər[4].

İkinci yanaşmaya görə isə dayanıqlı inkişafa bağlı olan üç amildən hansısa biri digərindən asılı deyildir və onların hər üçünün bir-biri ilə əlaqəli olub kəsişdiyi hissə dayanıqlı vəziyyətdədir. Bu anlayış “Üç sütun modeli”adlandırılır[5]. Bu model əsasında dayanıqlı inkişafla bağlı dörd mühüm prinsip qəbul edilmişdir. Bu prinsiplərə ekoloji mühit, gələcək yönümlü olmaq, bərabərlik və iştirak prinsipləri daxildir. 1-ci prinsip insan fəaliyyətinin son nəticəsinin ekoloji mühitdə əks olunması və son nəticədə ekoloji balansa təsiri ilə bağlı ortaya çıxan nəticələrlə bağlıdır. 2-ci prinsip isə iqtisadi resursların istifadəsində gələcək nəsillərin də bizimlə bərabər eyni dərəcədə pay sahibi olması və onların istifadəsi üçün resursların qorunması ilə bağlıdır. 3-cü prinsip resursların əldə olunmasında inkişaf fərqindən, coğrafi yerləşməsindən asılı olmadan cəmiyyətlərin bərabər hüquqlara sahib olmasının gərəkliyi ilə xarakterizə olunur. 4-cü prinsip isə dayanıqlı inkişafla bağlı qəbul edilən qərar və qanunların tətbiqində xalqın iştirakını təmin etmək və bu tətbiqin gedişində cəmiyyətin şəffaf şəkildə müşahidəsini təmin etməyi nəzərdə tutur.

Dayanıqlığın iqtisadi baxımdan təmin olunmasına iqtisadi inkişaf sisteminin dayanıqlığının təmin olunması, məhsul və xidmətlərin dayanıqlığının təyin olunması şəklində istehsalın həyata keçirilməsi, xarici borcların idarə edilməsində dayanıqlığın təmin olunması, kənd təsərrüfatı və sənayenin inkişafına əngəl törədən strukturlardakı tarazlığın-balansın pozulmasının qarşısının alınması baxımından da yanaşmaq vacibdir. Klassik iqtisadi yanaşmaya görə dayanıqlı iqtisadi inkişaf dedikdə rifah həddinin maksimallaşdırılmasını başa düşmək lazımdır.

Dayanıqlı inkişafın iqtisadi aspektlərini ümumiləşdirməklə aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1. Millətlər və nəsillər arasındakı ədalət və bərabərliyin stimullaşdırılması.
2. Bərabərliyin pozulduğu mübadilədən qaçırılması.
3. Bir qrupun və ya cəmiyyətin varlanmasının, digər qrup və cəmiyyətin kasıblaması hesabına olmaması.
4. Dayanıqlığın təmin edilməsi üçün resursların səmərəli və düzgün qiymətləndirilməsinin həyata keçirilməsi.
5. Dayanıqlıq baxımından etik olan prinsipləri nəzərə alan istehlak və investisiya siyasətinin tətbiq edilməsi.
6. Xərclər və faydaların bərabər bölgüsünün dəstəklənməsi.
7. Yerli səviyyədə iqtisadiyyatın dəstəklənməsi.

Dayanıqlığın təmin edilməsinə sosial yönümdən yanaşdıqda isə sosial olaraq davamlı sistemin olması, sosial imkanlarla təmin olunmada bərabərliyin təmin edilməsi, təhsil və səhiyyə imkanlarına bərabər çıxışın və gender bərabərliyinin təmin olunması, cəmiyyətin siyasi məsuliyyətini dərk etməsi və s. problemlər ortaya çıxır. Dayanıqlığın sosial baxımdan təmin edilməsi ilə bağlı olan hüquq sistemi, dini-əxlaqi yanaşmalar, adət-ənənələr kimi iqtisadiyyatla bağlı olmayan digər amilləri də əlavə etmək olar.

Dayanıqlı inkişafın təmin edilməsində təhsil amilinin inkişafı sosial dayanıqlıqda mühüm amil sayılan insan kapitalının səmərəli inkişafının təmin olunmasında önəmli rol oynayır.

Gender bərabərliyinin təmin olunması məsələsi cəmiyyətdə qadınların rolunun kişilərlə bərabərləşdirilməsi, bərabər şəkildə iş, sosial həyatda təmsil olunma və hüquqi bərabərlik kimi anlayışlarla xarakterizə olunur. İnkişaf etmiş ölkələrdə gender bərabərliyi göstəricisi adətən yüksək olur və qadınlar cəmiyyət həyatında kişilər qədər inkişaf edərək söz sahibi olurlar.

2017-ci ilin statistikasına görə gender bərabərliyində ilk üç pillədə İslandiya, Norveç və Finlandiya qərarlaşmışdır[6].

Bütün bunlarla yanaşı, insanların təhsil və səhiyyə imkanlarına bərabər çıxışının təmin olunması, gender bərabərliyinin olması kimi imkanlar birləşdiyində insan kapitalının səmərəli formalaşması sürətlənir. İnsan kapitalının keyfiyyətinin artması isə dayanıqlı inkişafı təmin etmək üçün tələb olunan digər sosial aspektləri aşağıdakı kimi ümumiləşdirməyə şərait yaradır:

1. İnsanların həyat keyfiyyətlərinin artırılmasına imkanların yaradılması.
2. Xalqlar arasında sosial ədalətin dəstəklənməsi.
3. Mədəni və sosial birliyin nəzərə alınması.
4. Özünə inam və azad iradənin gücləndirilməsi.
5. Cəmiyyətin təkmilləşdirilməsi və potensialın artması üçün imkanların yaradılması.

Sosial-iqtisadi amillərin səmərəliliyinin təmin olunması məsələsinə diqqət yetirmək ekoloji-ətraf mühitlə bağlı amilləri arxa plana keçirməklə edilməməlidir. Çünki ekoloji mühitlə bağlı olan amillər də iqtisadi və sosial məsələlərlə sıx əlaqədədir.

Belə ki, ekoloji mühitdə dayanıqlığın təmin olunması üçün zəruri olan resurslardan gələcək nəsillərin istifadə imkanlarını təmin etmək, ekoloji mühitin istismarı zamanı tarazlığın pozulmasının qarşısını almaq kimi amillər birbaşa insanların sosial həyatına, iqtisadi vəziyyətinə, sağlamlıq, düşüncə fəaliyyətini davam etdirə bilməsi kimi amillərlə birbaşa və dolatı yollarla güclü təsir göstərir.

Beləliklə, qısa şəkildə ümumiləşdirmə aparsaq, ekoloji-ətraf mühitlə bağlı olan amillərə aşağıdakıları aid etmək olar:

1. Yerdə canlılığın və növ müxtəlifliyinin qorunması.
2. Ekoloji-ətraf mühitə dəstək sistemlərinin qurulması
3. Bərpa oluna bilən resurslardan dayanıqlı istifadə imkanlarının təmin edilməsi
4. Bərpa oluna bilməyən resursların istismarının minimallaşdırılması
5. Ekoloji mühitə və bütün canlıların həyatına zərərli olan mühitin çirklənməsi amillərinin minimuma endirilməsi
6. Mədəni və tarixi irsin qorunması

Yuxarıda qeyd olunan bütün iqtisadi, sosial və ekoloji ətraf mühitlə bağlı olan amillərin bir-biri ilə qarşılıqlı şəkildə inkişaf etməsi üçün yerinə yetirəcək prinsiplərini ümumi şəkildə aşağıdakı kimi qruplaşdırmaq olar:

1. İqtisadi dayanıqlığın təmin edilməsi üçün resursların səmərəli istifadə olunaraq istehsalın təşkil edilməsi ilə yanaşı, istehsal prosesi ekoloji mühitə minimum zərər vurmalı,

sosial baxımdan yanaşdıqda, etik istehlak mədəniyyəti formalaşdırılmalıdır.

2. Dayanıqlı inkişaf anlayışı iqtisadi baxımdan əsas mənasını qorunması ilə yanaşı, sosial bərabərsizlik və ekoloji tarazlığın pozulması problemlərinin də həlli yollarını yaratmalıdır.

3. Təbii kapitalın qorunması dayanıqlı iqtisadi istehsal və nəsillərarası bərabərliyin təmin olunması üçün önəmlidir. Bazar mexanizmləri ilə tənzimlənən iqtisadiyyat təbii kapitalın qorumasına meyilli olmadığı üçün sosial amillərin müdaxiləsi ilə tarazlıq qorunmalıdır.

4. Ekoloji perspektivdən baxıldlqda əhalinin istismarçı istehlakı və məcmu resurs tələblərinin hər ikisi məhdudlaşdırılmalı və ekosistemin tamlığı qorunmalıdır.

5. Sosial bərabərlik, səhiyə və təhsil tələblərinin qarşılanması və siyasi məsuliyyətlərinin dərk edilməsi iqtisadi və ekoloji mühitlə bağlı olan amillərlə sıx əlaqəlidir və sistemin dayanıqlı bütövlüyü təmin edilməlidir.

Beləliklə, dayanıqlı inkişafın bütün istiqamətlərinin tarazlı şəkildə həyata keçirilməsi resursların istismarçı şəkildə istehlak olunmasının qarşısını alacaq və orta səviyyəli dayanıqlı hədd gözlənilmiş olacaq, eyni zamanda üç istiqamətin nəzərə alınması dayanıqlı iqtisadi inkişafı təmin etmiş olacaqdır.

Aparılan tədqiqat nəticəsində qeyd edə bilərik ki, dayanıqlı iqtisadi inkişafı təmin edən əsas ənənəvi amillər: əmək, təbii resurslar və kapital olmaqla yanaşı, müasir qloballaşma, yeni amilləri: elm, bilik, informasiya, yeni texnika və innovativ texnologiyaları, yeni idarəetmə amillərini ön plana çıxartmışdır.

Hər bir dövlətin apardığı iqtisadi siyasətin əsas məqsədi ölkə əhalisinin maddi və mənəvi rifahını yüksəltməkdən ibarətdir. Buna nail olmağın yolu isə iqtisadi artımdan keçir. Təbii ki, iqtisadi artıma nail olmağın yolları və vasitələri çox və genişdir. Ona görə də iqtisadi artım mənbələrinin müəyyən edilməsi və modelləşdirilməsi ilə bağlı tədqiqatlar aparılır, dövlətin iqtisadi artım siyasəti formalaşdırılır, davamlı inkişafın sosial-iqtisadi istiqamətlərinin iqtisadi artıma təsiri müəyyən edilir.

Qloballaşan dünyada əhali ehtiyaclarının günü-gündən davamlı olaraq artması, ənənəvi mənbələrin-qaynaqların getdikcə tükənməsi, demoqrafik proseslərin, o cümlədən, əhalinin sayının durmadan artması iki mühüm problemin həllini tələb edir: iqtisadi artım və iqtisadi səmərəlilik.

İqtisadi artım dayanıqlı iqtisadi inkişafın nəticəsi olaraq bir-biri ilə qarşılıqlı əlaqədə olan iki göstərici ilə müəyyən edilir.

Müəyyən dövr ərzində birincisi, real ümummilli və ya xalis milli məhsulun artması hesabına; ikincisi-bir nəfərə düşən real ümummilli və ya xalis milli məhsulun artması hesabına.

Bu göstəricilərdən hər hansı birindən istifadə olunması nəzərdən keçirilən sosial-iqtisadi hadisənin xarakterindən asılıdır. Belə ki, ölkənin hərbi-siyasi potensialı problemi diqqət mərkəzində olduqda birinci göstəricidən, ayrı-ayrı regionlarda və ölkələrdə əhalinin həyat səviyəsi müqayisə olunduqda isə ikinci göstəricidən istifadə etmək daha məqsədəuyğundur. Məsələn, Hindistanın ümummilli məhsulu İsveçrənin ümummilli məhsulundan çox olmasına baxmayaraq, əhalinin həyat səviyyəsinə görə Hindistan İsveçrədən dəfələrlə geri qalır.

İqtisadi artım hər bir ölkənin iqtisadi inkişafının səviyyəsini ifadə edir. Ona görə də hər bir ölkə dayanıqlı iqtisadi inkişafı təmin etmək üçün iqtisadi artım göstəricilərinin yüksəlməsində maraqlıdır və çalışır ki, onun müsbət dinamikasına nail olsun.

İqtisadi artım ölkədə aparılan iqtisadi siyasətin məqsədini ifadə edir. Odur ki, iqtisadi artıma sosial həyat səviyyəsinin yüksəldilməsi vasitəsi kimi də baxmaq olar və onu adam

başına düşən ÜDM artımı, ümumi milli gəlirin (ÜMG) və milli sərəncamda qalan gəlirin (MSQG) artım göstəriciləri kimi də istifadə etmək olar.

ÜDM iqtisadiyyatın inkişaf səviyyəsini xarakterizə edən makroiqtisadi göstəricilərdən biri kimi ölkə ərazisində istehsal edilən məhsulların və xidmətlərin dəyərini özündə əks etdirir və iqtisadi artımı öz dinamikası ilə xarakterizə edir. İqtisadi artım nə qədər yüksək olarsa, əhalinin həyat səviyyəsi yüksək olar və əhalinin artmaqda olan tələbatı da bir o qədər tam ödənilər[7].

İqtisadi artım bir qayda olaraq faizlə ifadə olunan illik artım sürəti ilə ölçülür. Bütün bunları ümumiləşdirsək makroiqtisadi səviyədə iqtisadi artım göstəricilərinə aşağıdakıları aid etmək olar:

1. ÜMM-in və ya Milli gəlirin (MG) artması;
2. Bir nəfərə düşən ÜMM və Milli gəlirin (MG) artması;
3. Bütövlükdə sahələr üzrə və bir nəfərə düşən sənaye məhsulları istehsalının artım sürəti.

İqtisadi artımla bağlı qarşıya çıxan problemlərdən biri və əsası iqtisadi artım amillərinin müəyən edilməsi və onların təhlilidir.

İqtisadi artım amilləri dedikdə istehsal və xidmət sahələrinin inkişaf həcmini artıran iqtisadi və texnoloji proseslər nəzərdə tutulur. İqtisadi artım amilləri mahiyyətinə görə birbaşa və dolayı, ekstensiv və intensiv, iqtisadi və qeyri-iqtisadi, idarəolunan və idarəolunmayan, daxili və xarici, ölçülə bilən və ölçülə bilməyən və s. qruplara bölünür.

Funksional baxımdan iqtisadi artım amillərini təklif, tələb və bölgü amillərinə bölmək olar. Təklif amilləri istehsalın həcmini xarakterizə edirsə, tələb amilləri onun keyfiyyət göstəricisi sayılır. Başqa sözlə desək, birinci qrup amillər istehsalın genişləndirilməsinin əsasını təşkil edirsə, ikinci qrup amillər onun səmərəliliyini göstərir.

İqtisadi artım amillərinin bir qismi əməklə bir qismi kapitalla, digər qismi isə texniki tərəqqi ilə bağlıdır. Bu amillərin hər birinin təsir dərəcəsi müxtəlif dövrlərdə müxtəlif olmuş və dövlətin apardığı iqtisadi siyasətdən asılı olmuşdur.

Əsas məsələ isə iqtisadi artımı formalaşdıran amillərdən necə və nə cür istifadə edilməsidir.

İqtisadi artım amilləri içərisində təbii resursların varlığı və bol olması əsas şərtlərdən biridir. Ölkə nə qədər təbii resurslarla zəngin olarsa onun davamlı, iqtisadi inkişafı üçün də bir o qədər imkan yaranmış olur. Təbii resurslar dedikdə münbit torpaqlar, yeraltı sərvətlər, şirin su ehtiyatları, meşələr, balıqçılıq və s. başa düşülür. Ümumiyyətlə hər bir ölkənin inkişafının maddi bazasını aşağıdakı şərtlər təşkil edir[8].

1. Statistik rəqabət üstünlükləri (ölkədə mövcud resursların mövcudluğu);
2. Dinamik rəqabət üstünlükləri (inkişaf etmiş infrastrukturun mövcudluğu, istehsal olunan məhsul və xidmətlərin dünya standartlarına uyğunluğu və rəqabət qabiliyyətli olması).

Odur ki, təbii resurslar ölkənin inkişafında dünya bazarına çıxması və rəqabətə qoşulmasında vacib şərtlərdən biri hesab edilir.

İstehsalı müasir innovativ texnologiyalar əsasında qura bilməyən ölkələr köhnəlmiş texnologiyadan istifadə etmək məcburiyyətində qalır. Belə ölkələr inkişaf etmiş ölkələrlə rəqabət apara bilmir və iqtisadi inkişafı dayanıqlı edə bilmədiyindən bunu, təbii resurslar hesabına təmin etməyə çalışır. Burada əsas cəhət hər bir ölkənin öz təbii resurslarından düzgün və səmərəli istifadə etməsi və onu insan kapitalına yönəldə bilməsidir. Bu, Azərbaycan Respublikasının apardığı neft strategiyasından daha aydın bəllidir. Ölkədə yeni yolların çəkilişi, nəqliyat infrastrukturunun yaradılması, melorasiya işlərinin aparılması, səhiyə sistemində aparılan islahatlar, təhsilin Avropa “Boloniya sisteminə”

keçilməsi, idman və turizm bazarlarının yaradılması, rabitə sisteminin inkişafı və s. Neftdən gələn gəlirdən digər iqtisadi sahələrin inkişaf etdirilməsi məqsədi ilə səmərəli istifadə edilməsi bu siyasətin doğru və düzgün olduğunu bir daha sübut edir. Müstəqilliyimizin bərpası ölkə qarşısında iki vəzifəni müəyyənləşdirmişdir: ölkə iqtisadiyyatının sabit vəziyyətə gətirilməsi; iqtisadiyatda dayanıqlı iqtisadi artımın əldə edilməsini təmin edən şərtlərin formalaşdırılması.

**Nəticə**

Dayanıqlı iqtisadi artımın əldə edilməsi istiqaməti dedikdə, sənayeləşmə siyasətinin yeni istehsal sahələrinin inkişafına marağı artırmaq məqsədilə dövlətin iqtisadiyyatın sahə strukturuna təsiri başa düşülür. Müstəqilliyimizin ilk illərində ölkə iqtisadiyyatında baş verən iqtisadi yüksəlişi iqtisadi artım kimi qəbul etmək olmazdı. Lakin dayanıqlı iqtisadi artım formalaşana qədər bu aparılanlar düzgün iqtisadi siyasətin əsasını təşkil etmişdir. 2007-ci ildən başlayaraq ölkəmiz yeni inkişaf mərhələsinə daxil oldu. Bu vaxtında və düzgün müəyən edilmiş iqtisadi siyasət idi. Çünki, ölkə prezidenti İlham Əliyevin dediyi kimi "modernləşmə siyasətinin xarakterik xüsusiyyətini ölkənin uzunmüddətli iqtisadi inkişafının təmin edilməsi bilik iqtisadiyyatının formalaşdırılması, elmtutumlu texnologiyaların tətbiqinin sürətləndirilməsi, innovasiya fəallığının yüksəldilməsi yolu ilə rəqabət qabiliyətli məhsulların istehsalının stimullaşdırılması təşkil edir[9].

İqtisadi artımı dayanıqlı edən amillərdən biri iqtisadi inkişafın əldə edilməsi prosesində dövlətin iştirakı, onun yürütdüyü iqtisadi siyasət və apardığı iqtisadi islahatlardır.

Ölkə prezidenti İlham Əliyevin dediyi kimi, ölkəmizin qarşısında duran başlıca vəzifə iqtisadiyatın bundan sonrada sürətli inkişaf etdirilməsi, siyasi islahatların keçirilməsi, ölkənin modernləşdirilməsidir. Bizim əsas məqsədimiz güclü, dayanıqlı, uzunmüddətli iqtisadi inkişafı təmin etmək, insanların halını yaxşılaşdırmaq, Azərbaycanda sosial məsələlərin həlli üçün bütün tədbirləri görməkdir.

**İstifadə edilmiş ədəbiyyat:**


1. A.Ş.Şəkərəliyev. Dövlətin iqtisadi siyasəti: Dayanıqlı və davamlı inkişafın təntənəsi. Bakı: "İqtisad Universiteti", 2011, 542 s.
2. Rudiqer Dornbus, Stelni Fişer, Riçard Stars. "Makroiqtisadiyyat", Bakı, 2015., s.52-57.
3. Аббасов А.М., Кулиев. Экономика в условиях неопределенности. Баку., 2002.
4. Стиглиц Дж. Куда ведут реформы? Вопросы экономики, 1999, №7.
5. Абалкин Л.И. Логика экономического роста. М.ИЭФАН, 2002. с.47.
6. Rydin Y.(2003a). İn Pursuit of Sustainable Development-Rethinking the Planning System, London: Royal Institute of Charted Surveyors Foundation.
7. During A. How much is enough? (New York: W.W.Norton and Company, 1992).The Consumer Society and the future of Earth. Worldwatch Environmental Alert Series.
8. http:www.az.undp.org/content/Azerbaijan/az/home/library/mdg/2013 MDG Report.htm/
9. http:www.eco.gov.az/az/370-azerbaycan-respublikasında-ekoloji-cehetden-dayanıqlı-sosial-iqtisadi-inkişafa-dair-milli-proqram

**Фахрад Мохбалиев**

## СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИЕ ФАКТОРЫ УСТОЙЧИВОГО РАЗВИТИЯ В ОБЕСПЕЧЕНИИ ЭКОНОМИЧЕСКОГО РОСТА

**Резюме**

В статье определена роль экономического роста и устойчивого развития в развитии национальной экономики.

Одновременно отмечены пути достижения экономического роста, воздействие социально-экономических аспектов устойчивого развития на экономический рост вследствие политики государства экономического роста, а также их взаимодействие.

В ходе исследования использовался метод экономико-статистического анализа.

**Цель** - выявить роль социально-экономических факторов устойчивого развития в экономическом росте национальной экономики.

**Методология** - В ходе исследования использовался метод экономико-статистического анализа.

**Результат** - Объясняет пути достижения экономического роста в рыночной экономике. В результате проводимой государством политики экономического роста определено влияние социально-экономических тенденций устойчивого развития на экономический рост и взаимодействие друг с другом.

**Ключевые слова:** экономический рост, устойчивое развитие, экономические аспекты, социальные, экономические, экологические факторы, ВВП, национальный доход (НД).

**Fahrad Mohbalıyev**

## SOCIO-ECONOMIC FACTORS OF SUSTAINABLE DEVELOPMENT IN ECONOMIC GROWTH PROVISION

**Summary**

The article identifies the role of economic growth and sustainable development in the development of the national economy.

At the same time, the ways to achieve economic growth, as well as the economic growth policy of the state, highlight the impact of socio-economic factors of sustainable development on the economic growth and interrelations.

During the research, the method of economic-statistical analysis was used.

**Purpose** - The goal is to identify the role of socio-economic aspects of sustainable development in the economic growth of the national economy.

**Methodology** - The study used the method of economic and statistical analysis.

**Findings** - Explains ways to achieve economic growth in a market economy. As a result of the state policy of economic growth, the influence of socio-economic trends of sustainable development on economic growth and interaction with each other has been determined.

**Keywords:** economic growth, sustainable development, economic aspects, social, economic, environmental factors, GDP, national income

**UOT 331.5**

**Vilayət İsmayılov**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, i.e.d.**
**ismaylov1953@mail.ru**

# AZƏRBAYCANDA BEYNƏLXALQ TURİZMİN REYTİNQİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

*Məqalədə beynəlxalq turizm kontekstində reytinqin iqtisadi mənası açıqlanır, dünya ölkərinin reytinqini müəyyənləşdirən göstəricilər əsasında keçmiş sovetlər ittifaqı və qonşu ölkələrin reytinqi sıralanır, ölkəmizə beynəlxalq turizm axını dinamikası təhlil edilir.*

*Eyni zamanda müəyyənləşdirilir ki, ölkəmizdə beynəlxalq turistlərin qəbulu üzrə artım dinamikası olmuş, hətta son ildə bu artım 2003 nəfər təşkil etmişdir. Beynəlxalq turizm xərcləri əsasında bəzi dünya ölkələrinin reytinqi müəyyən edilmişdir. Bu göstərici üzrə bir nəfərə çəkilən xərclərin ölkəmizdə 1268,6 ABŞ dolları və ya 2156,6 man olduğu müəyyənləşdirilmişdir.*

*Tədqiqat işində beynəlxalq turist axınının təmin edilməsi istiqamətində tədbirlər təklif edilmişdir.*

***Məqsəd* -** Azərbaycanda beynəlxalq turizmin reytinqinin və inkişaf perspektivlərinin müəyyənləşdirilməsi.

***Metodologiya* -** Tədqiqat işi kəmiyyət və müqayisəli təhlil metodlarına əsaslanmış və hesablamalarda iqtisadi-statistik təhlil metodundan istifadə edilmişdir.

***Tədqiqatın nəticələri* -** Məlumat əhatə matrisinin göstəriciləri əsasında keçmiş sovetlər iitifaqı və qonşu ölkələrin beynəlxalq turizm reytinqi hesablanmış və inkişaf perspektivləri müəyyən edilmişdir.

***Açar sözlər:*** reytinq, beynəlxalq turizm, göstəricilər, inkişaf perspektivləri

## Giriş

Reytinq ingilis dilindən götürülmüş, rus dilində bu söz XX əsrin ortalarından ilk əvvəllər idmanda olan fərdi göstəricilər üzrə nailiyyətlərin əhəmiyyətində, sonradan isə digər idman növlərində aktiv istifadə olunmağa başlamışdır. XX əsrin ikinci yarısından hər hansı bir təşkilatın, televiziya və ya radio verilişlərinin, tanınmış şəxslərin geniş populyarlıq göstəricisi kimi şərh edilməyə başlanılmışdır.

Dominant iqtisadi dəyərlərdə reytinq sözünün istifadəsinə keçən əsrin 90-cı illərindən, yəni rusiyada bazar iqtisadiyyatı formalaşan dövrdən başlanılmışdır. Lakin bu dəyərlər ingilis dilinin maliyyə-iqtisadi leksionunda olan fikirlər spektrini əks etdirir.

Reytinq-qiymətli kağızların keyfiyyətinin və ya potensial borclarının ödəməqabiliyyəti səviyyəsinin qiymətləndirilməsidir. Bunun üçün nisbətən daha konkret şəkildə dəyər dəsti aşağıdakı kimi göstərilə bilər: dərəcə, qiymətləndirmə; maliyyə vəziyyətinin qiymətləndiril-məsi; dəyərin müəyyən edilməsi; təsnifat (dərəcə, kateqoriya); dərinlik; vergitutma; vergilərin cəmi; nominal güc, nominal xarakteristika; məhsuldarlıq.

Qeyd edilən bi göstəricilər əsasında reytinq agentlikləri və ya kredir reytinqləri agentliyi borc qiymətli kagızların və ya borcalanların keyfiyyəti və riskini qiymətləndirir. Bu zaman agentliklər investorları və kreditorları məlumatlandırmaq üçün onları etibarlılıq dərəcəsi üzrə sıralayır bu və ya digər reytinq təyin edirlər.

**Əhatə matrisi göstəriciləri əsasında reytinqin sıralanması.** Dünya ölkələrinin reytinqi bir sıra müəyyənləşdirilmiş göstəricilər əsasında hesablanır. Bu göstəricilərə ölkələrin

iqtisadiyyatı, demoqrafiya, energetika, torpaq resursları, kənd təsərrüfatı, nəqliyyat, səhiyyə, telekommunikasiyalar, müdafiə, xarici ticarət, təhsil, turizm, cinayətkarlıq, ətraf mühit, kasıblıq, dünya üzrə reytinq, ərzaq təhlükəsizliyi, su ehtiyatları, tədqiqatlar və işlənilməsi və s. aid edilir. Qeyd edilmiş bu 19 sayda göstəricilər əsasında bəzi ölkələrin müqayisəli təhlil əsasında reytinqini müəyyənləşdirmək olar.

Reytinqin müəyyənləşdirilməsi üzrə iqtisadi göstəricilər sırasına sabit qiymətlərdə ÜDM-in artım tempi, ÜDM, alıcılıq qabiliyyəti paritetində (AQP) ÜDM, adambaşına ÜDM, adambaşına AQP-də ÜDM, istehlak qiymətləri indeksi (İQİ), işsizlik səviyyəsi, cari əməliyyatların hesabı balansı, ÜDM-ə faizlə cari əməliyyatların hesabı balansı, cəmi dövlət borcu, kasıblıq səviyyəsi, beynəlxalq ehtiyatlar daxildir.

Keçmiş sovetlər ittifaqı və bir neçə qonşu ölkələrin yuxarıda qeyd edilən 19 göstərici əsasında reytinqi ölkələr üzrə hesablanmış məlumatlara əsasən sıralanır [6]. Reytinqin dəqiq müəyyənləşdirilməsi zamanı ölkələr üzrə daha ətraflı təhlil aparmaq üçün məlumatlar əhatə matrisindən istifadə göstəricisindən əldə edilmişdir (cədvəl 1) [4,5].

**Cədvəl 1. Keçmiş sovetlər ittifaqı ölkələri və bəzi qonşu ölkələrin məlumat əhatə matrisinin göstəriciləri**

| Ölkələr | Göstəricilər | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Kasıblıq | Xarici ticarət | Su ehtiyatları | Demoqrafiya | Səhiyyə | Torpaq resursları | Tədqiqatlar və işləmələr | Dünya reytinqləri | Müdafiə | Təhsil | Ətraf mühit | Cinayətkarlıq | Ərzaq təhlükəsizliyi | Kənd təsərrüfatı | Telekommunikasiyalar | Nəqliyyat | Turizm | İqtisadiyyat | Energetika | Cəmi |
| 0 | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 |
| Estoniya | 259 | 189 | 58 | 397 | 463 | 42 | 64 | 64 | 7 | 799 | 187 | 39 | 9 | 513 | 190 | 96 | 139 | 520 | 140 | 4175 |
| Latviya | 258 | 189 | 57 | 390 | 465 | 43 | 43 | 61 | 7 | 801 | 176 | 43 | 8 | 536 | 186 | 100 | 136 | 511 | 140 | 4150 |
| Litva | 255 | 192 | 59 | 383 | 443 | 43 | 46 | 60 | 7 | 787 | 181 | 45 | 8 | 529 | 188 | 101 | 137 | 509 | 149 | 4122 |
| Türkiyə | 226 | 144 | 49 | 260 | 347 | 16 | 63 | 78 | 7 | 52 | 135 | 41 | 8 | 203 | 166 | 72 | 58 | 304 | 131 | 2828 |
| Rusiya | 10 | 66 | 23 | 103 | 92 | 9 | 53 | 77 | 7 | 79 | 45 | 23 | 8 | 106 | 13 | 27 | 34 | 61 | 55 | 891 |
| 0 | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 |
| Ukrayna | 10 | 68 | 22 | 93 | 60 | 6 | 12 | 64 | 5 | 40 | 32 | 15 | 7 | 101 | 9 | 24 | 18 | 45 | 73 | 704 |

| | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Gürcüstan | 10 | 61 | 22 | 96 | 59 | 6 | 10 | 56 | 4 | 39 | 29 | 12 | 6 | 78 | 9 | 19 | 12 | 43 | 57 | 628 |
| Moldova | 10 | 59 | 22 | 93 | 58 | 3 | 9 | 52 | 4 | 41 | 29 | 13 | 6 | 67 | 8 | 21 | 10 | 44 | 62 | 611 |
| Azərbaycan | 9 | 50 | 22 | 106 | 61 | 3 | 10 | 49 | 4 | 35 | 25 | 11 | 7 | 67 | 9 | 20 | 11 | 43 | 29 | 571 |
| Ermənistan | 11 | 49 | 22 | 96 | 59 | 3 | 9 | 52 | 4 | 43 | 25 | 13 | 6 | 64 | 9 | 15 | 10 | 43 | 22 | 555 |
| Belorus | 8 | 49 | 22 | 91 | 57 | 5 | 10 | 45 | 4 | 29 | 27 | 12 | 7 | 80 | 7 | 17 | 14 | 42 | 27 | 553 |
| Qazaxstan | 11 | 46 | 22 | 45 | 56 | 3 | 8 | 62 | 4 | 32 | 27 | 14 | 7 | 72 | 11 | 18 | 12 | 32 | 41 | 523 |
| Qırğızıstan | 11 | 42 | 22 | 47 | 59 | 3 | 6 | 52 | 4 | 33 | 23 | 15 | 6 | 60 | 8 | 9 | 9 | 31 | 21 | 461 |
| İran | 6 | 49 | 20 | 23 | 43 | 3 | 7 | 52 | 4 | 25 | 23 | 10 | 7 | 77 | 8 | 15 | 13 | 27 | 41 | 453 |
| Tacikistan | 9 | 40 | 21 | 46 | 55 | 3 | 6 | 48 | 3 | 31 | 22 | 11 | 5 | 59 | 7 | 7 | 9 | 28 | 17 | 427 |
| Özbəkistan | 9 | 40 | 20 | 43 | 55 | 3 | 6 | 37 | 4 | 28 | 23 | 6 | 6 | 58 | 6 | 9 | 9 | 25 | 19 | 406 |
| Türkmənistan | 9 | 37 | 20 | 32 | 51 | 3 | 4 | 30 | 3 | 24 | 21 | 8 | 6 | 55 | 6 | 8 | 8 | 24 | 24 | 373 |

Qeyd: [4-6] məlumatları əsasında müəllif tərəfinfdən hazırlanmışdır

Məlumatların təhlilindən göründüyü kimi, yuxarıdakı göstəricilərin cəmi üzrə ən yüksək pillədə Estoniya (4175 q.vahidi), növbəti pillərdə isə Latviya, Litva və Türkiyə yerləşmişdir. Rusiya, Ukrayna, Gürcüstan və Moldovadan sonra Azərbaycan 9-cu sıradadır. Müqayisə edilən ölkələr içərisində son üç pillədə Tacikistan, Özbəkistan və Türkmənistan yerləşmişdir. Qeyd etmək lazımdır ki, öndə yerləşmiş ölkələrdə əsas yüksək qiymətləndirilmə kasıblıq,

xarici ticarət, səhiyyə, təhsil, ətraf mühit, kənd təsərrüfatı, telekommunikasiyalar, turizm, iqtisadiyyat və energetika sahələrində nəzərə çarpır. Azərbaycanda reytinq göstəricilərinin yüksək səviyyəyə çatdırılması məqsədilə dövlət və müvafiq təşkilatlar xüsusi tədbirlər planı hazırlamalı və xarici təcrübəyə bəhrələnməklə onun həyata keçirilməsinə çalışmalıdır.

**Azərbaycanda beynəlxalq turizm dinamikasının təhlili.** Turizm sferasında reytinqin müəyyənləşdirilməsi üzrə göstəricilərə gələn və gedən turistlərin sayı, turizmin xərcləri, idxalın cəmində faizlə turizm xərcləri, sərnişin nəqliyyatı xərcləri, səyahət üçün əmtəələrin xərci, beynəlxalq turizmdən daxiollmalar, ixracın cəmində faizlə beynəlxalq turizmdən daxiollmalar, sərnişin nəqliyyatından daxilolmalar, səyahət üçün əmtəələrdən daxilolmalar aiddir.

Daha geniş mənada turizm sferası üzrə reytinqin müəyyənləşdirilməsində əsasən aşagıda qeyd edilən göstəricilər mühüm hesab edilir:

- turizmin açar göstəriciləri: gələn və gedən turistlərin sayı, ABŞ dolları ilə cari qiymətlərdə cəmi xərclər, ümumi idxalda faizlə beynəlxalq turizmin xərcləri, sərnişin daşınmasına xərclər, səfərlər və alış veriş xərcləri, ABŞ dolları ilə cəmi gəlirlər, ümumi ixracda faizlə beynəlxalq turizmin gəlirləri, sərnişin daşınmasından gəlirlər, səfərlər və alış verişdən gəlirlər;
- səyahət və turizmin ÜDM-də həcmi: milli valyuta ilə səyahət və turizmin ÜDM-də həcmi,
  səyahət və turizmin ÜDM-də real həcmi, səyahət və turizmin ÜDM-in artımında birbaşa həcmi, ÜDM-də faizlə səyahət və turizmin ÜDM-in artımında birbaşa həcmi;
- ÜDM-də turizmin ümumi həcmi: milyard ABŞ dolları ilə ÜDM-də ümumi həcmi, milyard vahid milli valyuta ilə ÜDM-də ümumi həcmi, milyard ABŞ dolları ilə 2011-ci ilin sabit qiymətlərində ÜDM-də ümumi həcmi, real ÜDM-in artım tempi üzrə ÜDM-də ümumi həcmi, faiz nisbətində ÜDM-də ümumi həcmi;
- ölkə daxilində beynəlxalq turistlərin xərcləri: milyard vahid milli valyuta ilə ölkə daxilində beynəlxalq turistlərin xərcləri, milyard ABŞ dolları ilə ölkə daxilində beynəlxalq turistlərin xərcləri, milyard ABŞ dolları ilə 2011-ci ilin sabit qiymətlərində ölkə daxilində beynəlxalq turistlərin xərcləri, faizlə real artım tempində ölkə daxilində beynəlxalq turistlərin xərcləri, faiz nisbətində ölkə daxilində beynəlxalq turistlərin xərcləri;
- məşğulluqda turizmin birbaşa həcmi: faizlə real artım tempində məşğulluqda turizmin birbaşa həcmi, faizlə məşğulluqda turizmin birbaşa həcmi, min nəfər üzrə məşğulluqda turizmin birbaşa həcmi;
- məşğulluqda turizmin ümumi həcmi: faizlə real artım tempində məşğulluqda turizmin ümumi həcmi, faizlə məşğulluqda turizmin ümumi həcmi, min nəfər üzrə məşğulluqda turizmin ümumi həcmi;
- ölkə daxilində ümumi turiz tələbatı: milyard vahid milli valyuta ilə ölkə daxilində ümumi turiz tələbatı, milyard ABŞ dolları ilə ölkə daxilində ümumi turiz tələbatı, milyard ABŞ dolları ilə 2011-ci ilin sabit qiymətlərində ölkə daxilində ümumi turiz tələbatı, faizlə real artım tempində ölkə daxilində ümumi turiz tələbatı, faiz nisbətində ölkə daxilində ümumi turiz tələbatı;
- şəxsi səyahət xərcləri: milyard vahid milli valyuta ilə şəxsi səyahətə xərclər, milyard ABŞ dolları ilə şəxsi səyahətə xərclər, milyard ABŞ dolları ilə 2011-ci ilin sabit qiymətlərində şəxsi səyahətə xərclər, faizlə real artım tempində şəxsi səyahətə xərclər, faiz nisbətində şəxsi səyahətə xərclər;
- ölkə daxili sakinlərin turizm xərcləri: milyard vahid milli valyuta ilə ölkə daxili sakinlərin turizm xərcləri, milyard ABŞ dolları ilə ölkə daxili sakinlərin turizm xərcləri, milyard ABŞ dolları ilə 2011-ci ilin sabit qiymətlərində ölkə daxili sakinlərin turizm

xərcləri, faizlə real artım tempində ölkə daxili sakinlərin turizm xərcləri, faiz nisbətində ölkə daxili sakinlərin turizm xərcləri;

- işgüzar səfərlərə xərclər: milyard vahid milli valyuta ilə işgüzar səfərlərə xərclər, milyard ABŞ dolları ilə işgüzar səfərlərə xərclər, milyard ABŞ dolları ilə 2011-ci ilin sabit qiymətlərində işgüzar səfərlərə xərclər, faizlə real artım tempində işgüzar səfərlərə xərclər, faiz nisbətində işgüzar səfərlərə xərclər;
- turizmə dövlət xərcləri: milyard vahid milli valyuta ilə turizmə dövlət xərcləri, milyard ABŞ dolları ilə turizmə dövlət xərcləri, milyard ABŞ dolları ilə 2011-ci ilin sabit qiymətlərində turizmə dövlət xərcləri, faizlə real artım tempində turizmə dövlət xərcləri, faiz nisbətində turizmə dövlət xərcləri;
- kapital qoyuluşu: milyard vahid milli valyuta ilə kapital qoyuluşu, milyard ABŞ dolları ilə kapital qoyuluşu, milyard ABŞ dolları ilə 2011-ci ilin kapital qoyuluşu, faizlə real artım tempində kapital qoyuluşu, faiz nisbətində kapital qoyuluşu;
- gəbul edilmə turizminin göstəriciləri: qəbul edilmələr, sərnişin daşımaları, qəbul edilən turistlər, ölkə daxilində gəbul edilmə üzrə turizm xərcləri;
- göndərilmə turizminin göstəriciləri: göndərilən turistlər, sərnişin daşımaları, göndərilən turistlər, ölkə daxilində göndərilmə üzrə turizm xərcləri.

Beynəlxalq gəlmə turizmi (gecələyən ziyarətçilər)-12 aydan artıq olmamaqla onların adi yaşayış yerləri və səfər etdikləri ölkənin mənbəyindən ödənilən fəaliyyətin əsas məqsədi olmayan ölkəyə gələn turistlərin sayıdır [1]. Bu göstərici olmadıqda turistlər, səyahətçilər, gəmi səyahətində olan sərnişinlər və gəmi heyətinin üzvlərinin sayı üzrə məlumatlar əsas götürülür. Göstəricinin yığım mənbələri və metodları müxtəlif ölkələrdə bir-birindən fərqlənir. Bəzi hallarda məlumatlar sərhəd xidmətləri statistikasından (polis, immiqrasiya xidməti və s.) götürülür və kadastr sorgusu ilə tamamlanır. Digər hallarda isə turistləri yerləşdirməklə məşğul olan təşkilatlardan götürülür. Bəzi ölkələr üçün gəlmə turizmində hava xətti vasitəsi ilə turistlərin gəlməsinə görə, digərlərində isə turistlərin gəlmə payı üzrə mehmanxanalarda yerləşdirilməsinə görə məhdudiyyətlər qoyulur. Hətta, bir sıra ölkələr xaricdə yaşayan öz həmvətənlərinin gəlməsini də bu göstəriciyə aid edirlər. Müxtəlif ölkələrin gəlmə turizmi göstəricisi çox diqqətlə müqayisə edilməlidir, belə ki, göndərilən turistlərinin məlumatı ümumi səfərlərin sayına aid edilir, lakin səyahət edən insanların siyahısına aid edilmir. Beləliklə, müəyyən müddət ərzində bir neçə səyahət etmiş turist olduqda, bu halda o yeni gələn turist kimi hesablanmalıdır [3].

Azərbaycan Respublikası üzrə 2005-2017ci illərdə qəbul edilən beynəlxalq turistlərin sayı dinamikası şəkil 1-də verilir [2].




**Şəkil 1.Azərbaycanda beynəlxalq turistlərin qəbulu dinamikası**

Qeyd: [6] məlumatları əsasında müəllif tərəfinfdən hazırlanmışdır

Məlumatların təhlili göstərir ki, müqayisə edilən illər ərzində ölkə üzrə qəbul edilən beynəlxalq turistlərin sayı 2007-2014-cü illərdə artım tendensiyasına malik olmuşdur. Lakin, 2006 və 2015-2016-cı illər ərzində bu tendensiya azalma meylində olmuşdur. 2015-2016-cı ildə azalma tendensiyası bilavasitə turizm sektorunda əmək haqqı göstəricisinin bütün il boyu bərabər olmaması ilə izahlandırıla bilər. Eyni zamanda qeyd etmək lazımdır ki, 2017-ci ildə dövlətin qeyri neft sektorunun ümumi iqtisadiyyatda xüsusi çəkisinin artırılması istiqamətində qəbul etdiyi düzgün qərarlar turizm sektoruna da şamil olmuş və beynəlxalq turistlərin sayı hətta 2013-2014-cü illərdən də yüksək olmuş və bu illər ilə müqayisədə 1,25-1,26 dəfə çox olmuşdur.

2005-ci illə müqayisədə ən yüksək artım 2013, 2014 və 2017-ci illərdə olmuş və bu artım müvafiq olaraq 1,437 min nəfər, 1,467 min nəfər və 2,003 min nəfər təşkil etmişdir. Azərbaycan respublikasında beynəlxalq turistlərin qəbulu və yerləşdirilməsində digər ölkələrlə müqayisədə heç bir problem olmamış, hətta mehmanxana və mehmanxana tipli yerləşdirmə müəssisələrində müvafiq dövrdə boş yerlərin də qaldığı müşahidə edilmişdir.

**Beynəlxalq turizm xərclərinin reytinq sıralanması.** Dünya ölkələrinin turizm sferasının inkişafında önəmli göstəricilərdən biri beynəlxalq turist axını hesab edilir. 2017-ci ildə cəmi 1,1 mlyrd. beynəlxalq turist səyahət etmişdir və BMT-nin ÜTT-ı məlumatına əsasən bu göstərici ötən ilə nisbətən 7% çox olmaqla 70 mlyn nəfər təşkil edir. UNWTO-nun qiymətləndirməsinə görə dünya turizminin bu artımı iqtisadiyyatın yüksəlməsini xarakterizə edir. Dünyada sürətlə inkişaf edən regionlar orta artım göstəricisi 8% olan Avropa və Afrika hesab edilir. Sürətlə inkişaf edən region göstəricisi Şimali Afrikada ötən illə müqayisədə turist axınının 13% artması ilə izahlandırıla bilər [8].

Qəbul edilən və göndərilən beynəlxalq turistlərin sayı əsasən Avropanın ərazisində yerləşmiş bir sıra ölkələrdə Avstriya, İsveçrə, Finlandiya, Danimarka, Almaniya, Türkiyə, Çexiya və s. konsentrasiya edilir ki, bu ölkələrdə də Şimali Amerika ölkələrinin çox sakinləri normal səyahət edir. Bu, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında müəyyən tarazlıq yaradır. Aşagı və orta gəlir səviyyəli ölkələr təxminən beynəlxalq turizm xərclərinin 30%-ni özündə cəmləşdirir [7].

Turizm xidmətlərinin iri ixracatçılarına İspaniya, Fransa, İtaliya, ABŞ, Meksika, Tayland, Böyük Britaniya, idxalçılarına isə Türkiyə, Yaponiya, Sinqapur, Qonkonq, Çin və s. aiddir. Beynəlxalq turizm sferasında aktiv balansa malik olan ölkələr (Almaniya, ABŞ), nisbətən özlərinin daxili bazarlarında turizm xidməti səviyyəsi və dəyəri yüksək olduğuna görə, səyahətçiləri digər ölkələrə göndərirlər. 2017-ci ildə beynəlxalq turizm xərclərinin həcminə görə Çin (261,129 mlyrd. ABŞ dolları), ABŞ (160,818 mlyrd.ABŞ dolları), Almaniya (87,423 mlyrd.ABŞ dolları), Böyük Britaniya (79,321 mlyrd.ABŞ dolları) və Fransa (49,024 mlyrd.ABŞ dolları) ilk pillələri ardıcıl olaraq bölüşürlər. Keçmiş sovetlər ittifaqı ölkələrində bu göstərici Rusiya Federasiyasında (27,652 mlyrd. ABŞ dolları), Ukraynada (5,323 mlyrd. ABŞ dolları), Azərbaycanda (2,593 mlyrd. ABŞ dolları), Qazaxıstanda (1,769 mlyrd.ABŞ dolları) və Estoniyada (1,297 mlyrd. ABŞ dolları) həcmində olmaqla müvafiq olaraq 9; 38; 58; 63 və 72-ci pillələrdə yerləşmişdir.

Müxtəlif ölkələrdə bir beynəlxalq turistə çəkilmiş xərclər şəkil 2-də verilmişdir.

Məlumatların təhlilinə əsasən beynəlxalq turizm xərclərinin çoxluğuna görə Moldava, Azərbaycan, Rusiya Federasiyası, Ermənistan və Fransa müvafiq ilk pillələrdə durur. Bu ölkələr sırasında ən az beynəlxalq turizm xərcinə Gürcüstan, Türkiyə, Belorus, Qırgızıstan, Tacikstan, Qazaxstan və Ukrayna yerləşir. Gürcüstan və Türkiyəyə nisbətən ölkəmizdə beynəlxalq turizm xərcləri müvafiq olaraq 11,4 və 7,6 dəfə çoxdur. Bu göstərici Belarus, Qırğızıstan və Ukraynaya nisbətən 6,7; 6,3 və 3,2 dəfə çoxdur.




**Şəkil 2. Beynəlxalq turizm xərcləri, ABŞ dolları / nəfər**
Qeyd: [6] məlumatları əsasında müəllif tərəfinfdən hazırlanmışdır

Beləliklə, ölkəmizdə son dövrlərdə turizmin inkişaf etdirilməsi istiqamətində göstərilən cəhdlərə baxmayaraq hələlik turizm məhsulları və xidmətlərinin xərcləri olduqca yüksək səviyyədədir. Hətta, turizm sferası normal inkişaf edən İtaliya, Meksika (3,4 dəfə), İspaniya (4,9 dəfə), Malayziya (3,2 dəfə), Tayland (3,7 dəfə) olkələrilə müqayisədə ölkəmizdə bu göstəricinin xərcləri çoxdur. Azərbaycana bütünlükdə turist axınını, o cümlədən beynəlxalq turist axınını sürətləndirmək məqsədilə Dövlət Proqramlarında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini vacib şərtlərdən hesab edirik.

Aparılan tədqiqatın nəticəsi olaraq qeyd edə bilərik ki, Azərbaycana beynəlxalq turist axınını sürətləndirmək məqsədilə dövlət və turizm sferası müəssisələri birgə fəaliyyət çərçivəsində işlərini aşagıda qeyd edilən məsələlərin həllinə yönəltməlidirlər:

- iqtisadiyyatın mühüm və əlverişli sahələrindən biri olan turizmə xarici və daxili investisiya qoyuluşunun sürətləndirilməsində investorlara stimul yaradıcı şərtlərin təmin edilməsi;
- ölkəmizdə müxtəlif turizm növlərinin inkişafını şərtləndirən xarıcı təcrübənin tətbiqi yolu ilə yüksək ixtisaslı mütəxəssislərin cəlb edilməsi, bu sahədə normativ-hüquqi aktların hazırlanması və onlardan səmərəli istifadə şərtlərinin əlçatan olması;
- Dövlət proqramları çərçivəsində turizm sferasının inkişafını təmin edən yeni layihələrin hazırlanması və tətbiq edilməsi üçün xüsusi kreditlərin ayrılması;
- beynəlxalq turizm xərcləri aşağı olan ölkələrin təctübəsinə əsaslanan iqtisadi inteqrasiya aktivlərinin ölkəmizdə bu sferanın formalaşması və inkişafına cəlb edilməsi və s.

**İstifadə edilmiş ədəbiyyat**

1.”Turizm haqqında” Azərbaycan respublikasının qanunu. Bakı.1999
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycan Statistik göstəriciləri. Bakı.2018, 814 s.
3. İsmayılov V. İ. Azərbaycanda turist rekreasiya klasterinin formalaşmasının aktual problemləri. Əmək Sosial Münasibətlər jurnalı. Bakı. 2018. №9, səh.85-91
4. http://www.mfa.gov.az/files/file/44.pdf
5. https://knoema.ru/atlas/matrix
6. https://knoema.ru/atlas/topics/
7. http://uchebnikirus.com/turizm/mizhnarodniy_turizm_i_sfera_poslug_malska_mp/geografiya_svitovih_turistskih_potokiv.htm
8. http://internationalinvestment.biz/tourism/70-v-2017-godu-chislo-turistov-sovershivshih-mezhdunarodnye-poezdki-vyroslo-na-70-millionov.html

**д.э.н. Исмайлов В.И.**

## РЕЙТИНГ МЕЖДУНАРОДНОГО ТУРИЗМА В АЗЕРБАЙДЖАНЕ И ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ

**Р е з ю м е**

В статье раскрывается экономическое значение слова рейтинга в контексте международного туризма. На основе показателей, определяющих рейтинг мировых стран, ранжирован рейтинг СНГ и стран, в т. ч. Турция и Иран. Анализирована динамика потока международных туристов в Азербайджан.

В то же время установлено, что в нашей стране наблюдалась динамика роста числа международных туристов, даже в прошлом году это увеличение было 2003 человек. На основе расходов международного туризма определены рейтинг в некоторых мировых государствах. По этому показателю рассчитан расход на одного международного туриста в Азербайджане, который составляет 1268,6 долл. США или 2156,6 манат.

В исследовании предложено мероприятия перспективы развития потока международного туризма.

**Цель -** Определение международного туристического рейтинга и перспективы развития в Азербайджане.

**Методология -** Исследования проводились на основе методов количественного и сравнительного анализа, а в расчетах использовался метод экономико-статистического анализа.

**Результат -** Были проанализированы показатели, отражающие деятельности стран в сфере международного туризма и определены перспективы их развития.

**Ключевые слова:** рейтинги, международный туризм, показатели, перспективы развития.

**Ismailov V.I.**

## RATING OF INTERNATIONAL TOURISM IN AZERBAIJAN AND PROSPECTS DEVELOPMENT

**Summary**

The article reveals the economic meaning of the word rating in the context of international tourism. Based on the indicators that determine the ranking of world countries, ranked ratings of the CIS and countries, including Turkey and Iran. The dynamics of the flow of international tourists to Azerbaijan is analyzed.

At the same time, it was established that in our country there was a dynamic growth in the number of international tourists, even last year this increase was 2003 people. Based on the costs of international tourism, a rating has been determined in some world states. According to this indicator, consumption is calculated for one international tourist in Azerbaijan, which is 1,268.6 US dollars or 2,156.6 manat.

The study suggested activities prospects for the development of the flow of international tourism.

**Purpose -** Determination of the international tourist rating and development prospects in Azerbaijan.

**Methodology -** Studies were conducted on the basis of quantitative and comparative analysis methods, and the method of economic and statistical analysis was used in the calculations.

**Findings -** The indicators reflecting the activities of countries in the field of international tourism were analyzed and the prospects for their development were determined.

**Keywords:** ratings, international tourism, indicators, development prospects.

**UOT 330.567**

**Zakir Əlizadə**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**i.ü.f.d., dosent**
**zakiralizada@yahoo.com**

# KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ İSTEHSALININ ŞAXƏLƏNDİRİLMƏSİ PROBLEMLƏRİ

*Məqalədə Azərbaycanın müstəqillik əldə etdiyi dövrdən başlayaraq sonrakı illər ərzində kənd təsərrifatı sahəsində vəziyyət nəzərdən keçirilmiş, bu dövrdə aparılmış islahatlarınnəticələri təhlil edilərək onların zəif cəhətləri qeyd edilmişdir.Ölkə iqtisadiyyatının aqrar sektorunun perspektiv inkişafında diversifikasıyanın və strateji yol xəritəsinin əhəmiyyəti qeyd olunaraq, bu sahədə aparılan islahatların sürətləndirilməsi üçün əməli təkliflər verilmişdir.*

***Məqsəd*** **-** Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalının diversifikasiyasındakı problemləri araşdırmaq,bu problemlərin qiymətləndirilməsinə yeni metodoloji yanaşmasının işlənilməsi.

***Metodologiya*** **-** Məqalədə iqtisadi-statistik təhlil metodundani stifadə edilmişdir.

***Tədqiqatın nəticələri*** **-** Kənd təsərrüfatı məhsullarının istehsalının şaxələndirilməsində mövcud problemlərin qiymətləndirilməsinə fərqli metodoloji yanaşma verilmişdir.

***Açar sözlər:*** kənd təsərrüfatı,rəqabətqabiliyyətlik,islahatlar,iqtisadi inkişaf, şaxələnmə.

## Giriş

İqtisadi artım yükünün neft sektorundan qeyri-neft sektoruna keçdiyi bir vaxtda aqrar siyasət iqtisadiyyatın şaxələndirilməsini dəstəkləməlidir. Kənd təsərrüfatının inkişafı sahəsində mövcud imkanların tədricən reallaşdırılması bu sektoru yaxın perspektivdə iqtisadiyyatın aparıcı sahəsinə çevirəcəkdir.

Müasir dövrdə dünya əhalisinin sayının getdikcə artmasına, habelə inkişaf etməkdə olan ölkələrdə həyat səviyyəsinin tədricən yaxşılaşmasına görə qlobal miqyasda ərzaq məhsullarına artacaq tələbatın ödənilməsində aşağıdakı bir sıra problemlər mövcuddur:

- Dünya miqyasında torpaqların deqradasiyası çox təhlükəli şəkildə artır və dünyanın çox hissəsini əhatə edir. Araşdırmalar göstərir ki, torpaqların deqradasiyası, əsas etibarilə, zəif torpaq idarəçiliyi səbəbindən baş verir.
- Kənd təsərrüfatı sahəsindəki fəaliyyətlər qlobal iqlim dəyişikliklərinə adaptasiya olunmalıdır.
- Qlobal miqyasda mövcud olan ədalətsiz ticarət şərtləri inkişaf etməkdə olan, o cümlədən də zəif inkişaf etmiş ölkələrdə ərzaq məhsulları istehsalına mənfi təsir göstərən daha bir ciddi faktor kimi çıxış edir
- Kənd təsərrüfatı və ərzaq məhsulları qiymətlərinin qlobal səviyyədə müşahidə olunan qeyri-sabitliyi, xüsusilə inkişaf etməkdə olan, o cümlədən zəif inkişaf etmiş ölkələrdə əhalinin ərzağa əlyetərliyini çətinləşdirir, habelə istehsalçıların fəaliyyətinin səmərəliliyini azaldır.
- İnkişaf etməkdə olan, o cümlədən də zəif inkişaf etmiş ölkələr kənd təsərrüfatı və ərzaq məhsulları istehsalının həcminin artırılması çağırışını reallaşdırmaq üçün kənd təsərrüfatına, bundan daha çox isə bu sahə ilə bağlı istiqamətlərə investisiya qoyuluşunun həcmini artırmalıdırlar.

Qlobal səviyyədə innovativ istehsal və idarəetmə texnologiyalarının tətbiqinin geniş yayıldığı bir vaxtda aqrar sahə üzrə modernləşdirilmiş elm, təhsil və informasiya məsləhət xidmətləri sisteminin mövcudluğu bu sahədə rəqabətqabiliyyətliliyin təmin edilməsi üçün zəruri resurslardan biri kimi çıxış edir. Lakin inkişaf etməkdə olan ölkələrdə ümumi innovasiya potensialı kifayət qədər yüksək olmadığı üçün, həmçinin bu sahələr islahatların aparılması baxımından daha "konservativ" olduğuna görə, burada köklü dəyişikliklərin edilməsi müəyyən zaman və ardıcıl fəaliyyət tələb edir.

Azərbaycanda kənd təsərrüfatı üçün istifadə edilən torpaq sahələri 4227 min hektardır. Bundan əlavə, kənd təsərrüfatına yararlı olmayan bedlend ərazilər, meşəliklər, bataqlıqlar, dağ ətəkləri və s. kimi sahələr də var ki, bütün bunlar ölkəmizin topaq fondunu əmələ gətirir. Azərbaycanın ümumi torpaq fondu 8641.5 min hektardır. Kənd təsərrüfatına yararlı torpaqların 44%-i əkin sahələrindən və şumlardan, 4%-i çoxillik əkinlərdən, 26%-i biçənək və otlaqlardan ibarətdir. Ölkədə əkin sahələri 1454 min ha sahə tutur. Kənd təsərrüfatında istifadə edilməyən sahələr isə torpaq fondunun 40%-i qədərdir. Bu torpaqların 13%-ni şəxsi həyətyanı torpaqlar, 12,1%-ni meşələr, 2,7%-ni kolluqlar, 0,8%-ni bataqlıqlar, 3,6%-ni su hövzələri, 31,6%-ni digər torpaqlar (yollar, kəndlər, şəhərlər, sənaye obyektləri) təşkil edir. Azərbaycanda adambaşına 1,08 ha torpaq fondu, 0,2 ha əkin sahəsi, 0,6 ha yararlı torpaq sahəsi düşür.[5]. Qeyd etmək lazımdır ki,

Azərbaycanın torpaq fondunun 40%-nin əkinə yararsız olduğu ilə bağlı irəli sürülən iddialar nisbidir. Əvvəla, ona görə ki, torpaq sahələrinin yalnız əkinə yararlı hissəsinin kənd təsərrüfatı üçün əhəmiyyətli olduğu fikri həqiqəti ifadə etmir. Çünki bir çox əkinə yararsız torpaqlar maldarlığın əsas yem sahəsidir və Azərbaycanın kənd təsərrüfatının mühüm hissəsini də elə maldarlıq tutur.İkinci, ona görə ki, elə yararsız torpaq sahələri var ki, xüsusi meliorasiya tədbirləri nəticəsində onları münbitləşdirmək olar. Ölkəmizdə vaxtilə düzgün istifadə edilmədiyindən şoranlaşmış torpaqlar məhz bu kateqoriyaya aiddir və Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi şoranlaşmış ərazilərin meliorasiyası istiqamətində müəyyən strategiyalar hazırlayıb həyata keçirməyə çalışır. Bu istiqamətdə başlıca strategiyamız olduqca məhdud su ehtiyatlarımızdan səmərəli istifadədir. Məlum olduğu kimi, ümumi torpaq fondumuzun 50%-ə yaxını əkinə yararlı sahələr olsa da, bu ərazilərin böyük hissəsi rütubətsiz yerlərdə becərilir. Belə vəziyyətdə məhsuldarlığı artırmaq üçün həmin ərazilərin suvarılmasına ehtiyac var. Çətinlik isə ondadır ki, yerüstü su ehtiyatlarımızın 70%-i respublika hüdudlarından kənarda formalaşır. Nəticədə quraqlıq illərində qonşularımız bizə axan çayların suyundan daha çox istifadə etdiklərindən Azərbaycan kəndlisi ciddi əziyyətlər çəkir.

Respublikamızın daxilində əsasən yağış sularından və qardan əmələ gələn 30%-lik su ehtiyatımızın da böyük əksəriyyəti aqrar sahələrdə istifadə olunmadan Xəzərə axır. Bir çox torpaq sahələrinin əkinə yararsızlığı da məhz bundan qaynaqlanır. Amma bu problemi həll etmək mümkündür. Bunun üçün əkin sahələrinə su qaynağı olacaq böyük su anbarları tikilməli, yeraltı su qaynaqlarından və suvarmada damcılama metodundan istifadə olunmalıdır. Onu da qeyd edim ki, kənd təsərrüfatı sahələrində artıq bu metoddan uğurla istifadə edilir. Sözsüz ki, digər meliorasiya tədbirlərinə ehtiyac duyan torpaq sahələrimiz də var. Yararsız torpaqların meliorasiyası üçün dünya təcrübəsində 3 metoddan istifadə edilir və hansı metodun tətbiq olunması münbitləşdiriləcək sahənin xarakterindən asılıdır. Bu metodlar aşağıdakılardır:

1) **Su rejimi əlverişli olmayan torpaqların meliorasiyası:** Bataqlıq, su basmış torpaqların, həmçinin quru bozqırların, susuz səhra və yarımsəhra sahələrinin meliorasiyası. Bu metod suyun əraziyə verilməsilə həyata keçirilir.

2) **Əlverişli olmayan fiziki-kimyəvi xassələrə malik (şorakətli, şor, ağır gilli, lilli)**

**torpaqların meliorasiyası:** Bu qrupa şor torpaqların duzsuzlaşdırılması və şorakətli torpaqların kimyəvi meliorasiyası daxildir.

3) **Suyun və küləyin mexaniki təsirindən eroziyaya uğramış torpaqların meliorasiyası:** Su ilə səthi yuyulmuş, həmçinin suyun yarğanlar əmələ gətirdiyi, sürüşmələr törətdiyi, küləyin qum yaratdığı sahələrin bərpası bu qrupa aiddir.

Ölkəmizin iqtisadiyyatının tənəzzül dövründə (1991-1995) və sonrakı illərdə kənd təsərrüfatının idarə olunması və maliyyələşdirilməsi arzu olunmaz vəziyyətə salınmışdı:kənd təsərrüfatında köklü dəyişiliklər baş vermiş,sənaye təyinatlı tenxiki bitkilərin əkin sahələri 86% azalmış kapital qoyuluşlarının ümumi investisiyalarda payı xeyli azalmış, subsidiyalar başqa ölkələrlə müqayisədə zəruri səviyyədən xeyli aşağı olmuşdur. Əgər 1991-ci ildə milli iqtisadiyyata qoyulan investisiyaların 15%-i kənd təssərrüfatına yönəldilirdisə, 2017-ci ildə bu rəqəm 3.5%-ə enmişdir[5]. Dünya miqyasında kənd təsərrüfatının normal fəaliyyəti dövlət dəstəyi olmadan həyata keçirilə bilməz. Əgər əksəriyyət ölkələrdə dövlət dəstəyinin payı kənd təsərrüfatının ümumi gəlirlərindən 30-75% təşkil edirsə, Azərbaycanda bu rəqəm 3-7% ətrafında cərəyan edir ki, bu səviyyədə dövlət dəstəyi tam yetərsiz sayılır. Ümumi milli iqtisadiyyatda olduğu kimi kənd təsərrüfatının maliyyələşməsində də əsas payı (50%-dən yuxarı) tətbiqi elm xərcləri tutmalıdır ki, bu sahə intensiv əsaslarla inkişaf etdirilə bilsin.Ölkə iqtisadiyyatının bərpası və dinamik inkişaf dövrlərində görülən genişmiqyaslı tədbirlərə baxmayaraq Sovet dövrü ilə müqayisədə kənd təsərrüfatının əksəriyyət sahələrində ciddi geriləmə müşahidə olunmuşdur. Onsuz da geridə qalan kənd təsərrüfatı istehsalı başqa ölkələrlə və bütövlükdə dünya miqyasında müqayisədə daha da geriləmiş, kənarlaşma xeyli yüksəlmişdir. Əsas istehsalat sahələri olan pambıqçılıq, üzümçülük, barama, tütün və s. istehsal sahələrində 2-10 dəfə geriləmə olmuşdur.Belə ki,1990-2015-ci illər ərzində pambıgın istehsal həcmi 787,8 min tondan 35,2 min tona,üzüm 1789,6 min tondan 157,1 min tona,tütün 60 min tondan 3.5 min tona,çay yarpagı 31.7 min tondan 0.58 min tona,barama istehsalı 5,5 min tondan 0,236 min tona enmişdir.[2]Demək olar ki, bütün sahələr üzrə məhsuldarlıq əhəmiyyətli dərəcədə aşağı düşmüşdür. KT-da inkişaf əsasən ekstensiv yolla, elm və texnoloji inkişafın tələbləri nəzərə alınmadan həyata keçirilmişdir, ölkə miqyasında kənd təsərrüfatı sahəsində heç bir elmi məhsul, yeni məhsul növü ortaya qoyulmamışdır. Texnika ilə təminat səviyyəsi texniki tərəqqinin prinsiplərinin əksinə xeyli zəifləmişdi. Əgər 1990-cı ildə ölkənin kənd təsərrüfatı sahəsində 40 min traktor var idisə, onların sayı 2015-ci ildə cəmi 12 min və 2018-ci ilin əvvəlinə 22 min olmuşdur, uyğun rəqəmlər kombaynlar üzrə 4.5, 0.7 və 1.6 min təşkil etmişdir. Eyni meyl bütün başqa texnika növləri üzrə müşahidə olmuşdur. [5]

2016-cı ildə qəbul olunmuş strateji yol xəritəsinə uygun olaraq ölkə iqtisadiyyatının əsas sektorlarında, o cümlədən onun vacib sahələrdən biri olan kənd təsərrüfatını sürətlə inkişaf etdirmək üçün geniş miqyaslı islahatların aparılmasına başlanmışdır. Kənd təsərrüfatında diversifikasiyanın sürətləndirilməsi və əsas islahat tədbirlərinin ugurla reallaşdırılması üçün aşagıdakıların nəzərə alınması məqsədə uygun olardı:

- Dünyada kənd təsərrüfatının elmi texniki nailiyyətlər əsasında qurulması təcrübəsində ilk yüksək yerlərdə duran İsrail, Hollandiya və Cənubi Koreyanın təcrübəsindən istifadə edərək Azərbaycan şəraitinə daha yaxın olan kombinə olunmuş bütöv bir sistem qurulmalı, islahatların tam elmiləşdirilməsi, inkişafın elmi-texniki tərəqqi relsinə salınması, texniki təminatın bu ölkələr səviyyəsinə çatdırılmalı.
- Kənd təsərrüfatında dövlət dəstəyinin (subsidiya və dotasiyaların) keyfiyyət etibari ilə tamamilə yeni metodlarının tətbiqi, kənd təsərrfatının maliyyələşdirilməsi

sisteminin yenidən qurulması və kəmiyyət etibarı ilə dəfələrlə artırılması; kənd təsərrüfatının bazar, təbii və siyasi risqlərdən qorunması mexanizminin tətbiqi,kənd təsərrüfatı məhsullarının satış sisteminin qurulması, ixrac və idxal əməliyyatlarının liberallaşdırılması,kənd yerlərində əhalinin gəlirlərinin artırılması və şəhərlə eyniləşdirilməsi məqsədilə "kəndlərdə emal" proqramının yerinə yetirilməsi və məhsuldar qüvvələrin yerləşdirilməsində bərabər inkişaf prinsipinin bərpası.

- Kənd təsərrüfatında elmin maliyyələşdirilməsi və idarəedilməsi mexanizmi yenidən qurulmalı, bu sahədə dövlət qurumları bir mərkəzdə cəmləşdirməlidir. Belə mərkəzin İsraildə fəaliyyət göstərən "Agriculutural Research Organization (ARO) Volcani Center" elm mərkəzinin prinsipləri əsasında qurulması məqsədəuyğundur. Bütün kənd təsərrüfatı elmi tədqiqat institutlarının və təcrübə bazalarının bu mərkəzə verilməsi işə daha müsbət təsir göstərə bilər. Elmi tədqiqat institutlarının maliyyələşmə mexanizmini olduğu kimi saxlamaqla təbii seçmə prosesini yerinə yetirmək üçün əlavə və böyük maliyyələşməni həmin institutların iştirakı ilə yaradılan Startap elmi tədqiqat və təcrübə şirkətlərinin vasitəsilə həyata keçirmək olar.
- Startaplar ilk mərhələdə dövlət vəsaiti hesabına formalaşmalı, nəticə hasil olduqdan sonra səhmləşdirilərək açıq satışa çıxarılmalıdır.Burada ilk mərhələdə müxtəlif xarici və daxili şirkətlərin iştirakı və investisiyalarının cəlbi də mümkündür. Startap şirkətlərinin maliyyə mexanizmi tam sərbəstləşdirilməli, alim və mütəxəssislərin əməyinin ödəniş və mükafatlandırılması sistemi İsrail və Hollandiya sisteminə uyğunlaşdırılmalıdır.
- Startapların əsas tədqiqat istiqamətləri: bitkiçilikdə məhsuldarlığın artırılması, yeni bitkilərin Azərbaycan şəraitinə uyğunlaşdırılması, heyvandarlıqda yeni cins heyvanların yetişdirilməsi, soyuq şəraitə dözümlü heyvan cinslərinin yetişdirilməsi, süni mayalanma, yeni heyvan cinslərinin yaradılması, gen mühəndisliyinin tədqiqinin genişləndirilməsi, kənd təsərrüfatı maşınlarınn və robotların hazırlanması, immunitet problemləri, başqa iqlim zonalarının faydalı bitki növlərinin (məsələn, banan, zəncəfir, amartan və s.) Azərbaycan şəraitinə uyğunlaşdırılması, kənd təsərrüfatı tullantılarının səmərli istifadəsi problemləri və s. olmalıdır.
- Kənd təsərrüfatına dövlət dəstəyinin (subsidiya və dotasiyaların) təşkili və istifadəsinin Avropa İttifaqı prinsiplərinə uyğunlaşdırılmalı,subsidiya və dotasiyalar əsasən elmin inkişafına, bazar, təbiət və siyasi risklərdən qorumağa və daha zəruri sahələrin və regionların sürətli inkişafının stimullaşdırılmasına yönəldilməlidir. Hər il kənd təsərrüfatı ilinə yaxın bütün əsas məhsullara dövlət satınalma qiyməti müəyyən olunur (bazar riskindən qorumaq üçün), əgər fermer öz məhsulunu sata bilmirsə, dövlət bu məhsullar həmin qiymətlərlə alır və bunun məsuliyyətini öz üzərinə götütür. Kənd təsərrüfatı müəssisələri əkin sahələri, səpin, becərmə, məhsuldarlıq haqqında gündəlik məlumatlandırılır ki, ayrı-ayrı sahələr üzrə artıq istehsal olmasın, zəruri hallarda Kənd Təsərrüfatı Nazirliyi iri istehsalçılar üzrə ayrı-ayrı məhsullar üzrə məhdudlaşdırıcı kvota müəyyən edir. Bütün ölkə boyu bitkilərin, torpaq sahələrinin, əkin, səpin miqdarının, heyvanların gündəlik üçotunu aparmaq və bu infonu ictimaiyyətə çatdırmaq üçün soft proqram işləmək və istifadə etmək zəruridi.
- Kənd təsərrüfatı istehalını təbii risklərdən qorumaq üçün kənd təsərrüfatı istehsalı hər sahədə sığortalanmalıdı və həm də risklər təkrar sığorta vasitəsilə böyük

beynəlxalq sığorta təşkilatlarında yenidən sığortalanır. Mülkiyyət mənsubiyyətindən asılı olmayaraq bütün təssərüfatlarda sığorta tədiyyələrinin 70%-i dövlət və 30%-i istehsalat sahibləri tərəfindən ödənilir.

- Kənd təsərrüfatı məhsullarının siyasi və regional risklərdən qorumaq üçün kənd təsərrüfatı məhsullarının idxal-ixrac əməliyyatları olan bütün ölkələrlə qarşılıqlı anlaşmalar, yaxın ölkələrlə, məsələn, İsrail, Cənubi Koreya, Avropa İttifaqı, ABŞ və s. ölkələrlə azad ticarət anlaşmaları (FTA) imzalanmalı, həmin ölkələrlə sərbəst ticarət şəraiti yaradılmalıdır. Üç regionda – Qirmizi körpüdə (Azərbaycan-Gürcüstan sərhəddi), Biləsuvar (Azərbaycan-İran sərhəddi) və Yalamada (Azərbaycan-Rusiya sərhəddi) sərbəst iqtisadi zonaların və uyğun olaraq soyuducu-anbar sisteminin qurulması, bu zonalarda kənd təsərrüfatı məhsullarının xüsusi imtiyazlı və sadələşdirilmiş keçid mexanizminin qurulması.
- Dövlət büdcəsi hesabına: fermerlərin hazırlanması və ixtisasının artırılması məktəblərinin qurulması (tədrisdə yüksək ixtisaslı xarici alim və mütəxəssislərin iştirakının təmin olunması ilə), ölkədə İsrailin MAŞAV kurslarının tədris mərkəzinin yaradılması və geniş miqyaslı tədris proqramlarının həyata keçirilməsi. Bütün regionları əhatə edə biləcək online kənd təsərrüfatı məktəbinin yaradılması və müxtəlif ölkələrdən dünya şöhrətli alim və mütəxəssislərin tədrisə dəvət olunması. FAO, Aİ xətti ilə inkişaf etməkdə olan ölkələrdə kənd təsərrüfatına dəstək proqramlarından yararlanaraq müxtəlif əməkdaşlıq proqramına qoşulmaq. Tədris xarakterli video fondunun, məlumat və məsləhət mərkəzinin yaradılması, bütün fermerləri gündəlik informasiya bazası ilə təmin etmək.
- .Kənd təsərrüfatı məhsullarının satış sisteminin qurulması, ixrac və idxal əməliyyatlarının liberallaşdırılması. Kənd təsərrüfatı islahatlarının müvəffiqiyyətlə həyata keçirilməsi üçün bütün mallar üzrə ixrac və idxalın köklü islahatı zəruridi. Bu ən azından Doing buziness indeksində ilk yeri tutan Aİ ölkələri standartına uyğunlaşdırılmalıdı. İxrac və idxal üçün lazım olan sənədlər maksimum 4-ə qədər azaldılmalı. Kənd təsərrüfatı mallarının ixracı bütün vergi, rüsum, qeydiyyat və s. ödəmələrdən azad olmalı, ixrac-idxal əməliyyatlarının rəsmiləşdirilməsi müddəti bir günə qədər qısaldılmalı, ixrac bütün iqtisadi, siyasi və mənəvi metodlarla stimullaşdırılmalıdır. İxracata dəstək fondu və qurumu yaradılır ki, bu yalnız ixracatçılara kömək vəzifəsini yerinə yetirir: gömrük rəsmiləşdirilməsi, bürokratizmə qarşı mübarizə, nəqliyyat işinin təşkili, informasiya və bazar araşdırılması və s. İxrac məhsullarının istehlakçıya çatdırılması üçün nəqliyyat məsrəflərinin yarısı dövlət büdcəsi hesabına ödənilir.
- Meşə təsərrüfatının idarə olunması, planlaşdırılması və meşasalma işləri elektronlaşmalı, meşə örtüyünün uçotu və bərpası üzrə soft proqram hazırlanmalı, boş qalan bütün torpaqlarda yeni meşə salınmalıdır. Startap şirkətlər qurulması vasitəsi ilə yeni salınan meşə örtükləri regionların torpaq xüsusiyyətlərinə uyğunlaşdırılmalı, tibb, sənaye, dekorativ və başqa təyinatlı ağacların yerləşmə prinsipləri müəyyən edilməlidir. Təcrübəsinə istinad olunan C. Koreyanın meşə örtüyünün 92%-i islahatlardan sonra salınan süni meşə örtüyündən ibarətdir.
- Balıqçılıq təsərrüfatı böyük istehsal gücünə malikdir. Dünyanın unikal və qiymətli balıqlarının ən çoxu, hətta ən faydalısı Azərbaycanda yerləşir, lakin, lazımi səviyyədə istifadə olunmur. Nərə balıqlarının və qara ikra məhsulunun həm süni istehsal şəbəkəsinin qurulması və həm də emalının genişləndirilməsi sisteminin stimullaşdırılması, bu balıqların və həmçinin digər ölkələrdən gətirilmiş yeni balıq növlərinin yetişdirilməsi bazasının yaradılması üçün dövlətdən dəstək

mexanizminin müəyyənləşdirilməsi, nərə balıqlarının mayalanmış kürü satışı hesabına gəlirlilik səviyyəsinin artırılması, ixracat potensialının yüksəldilməsi.

**Nəticə**

Kənd təsərrüfatında aparılmış islahatlar bütün sahələri əhatə etməli və kənd təssərrüfatının idarə edilməsi, dövlətin dəstəyi mexanizmi və maliyyələşdirilməsi sistemi köklü şəkildə yenidən qurulmalıdır. Təklif edilən tədbirlər bir neçə rayon bazasında pilot layihə formasında hazırlanaraq sürətli təcrübədən keçməklə ölkə boyu bütün kəndlər üzrə həyata keçirilməlidir. Ölkəmizdə kənd təsərrüfatının inkişafı üzrə ciddi islahatlara başlanılmasına baxmayaraq bu islahatlar maliyyə vəsaitləri ilə dünya ölkələri səviyyəsində təmin olunsa səmərə tez və geniş miqyaslı olacaq, kənd təsərrüfatının diversifikasiyasının sürətləndirilməsi təmin ediləcəkdir.

**İstifadə edilmiş ədəbiyyat**

1. İlham Əliyev "İnkişaf – məqsədimizdir", çoxcildlik , Azərnəşr, Bakı 2018
2."Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri".2016
3.Ramiz Mehdiyev."Prezident İlham Əliyevin iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri". Azərbaycan nəşriyyatı.Bakı 2018
4.Azərbaycanın statistika göstəriciləri.Bakı."Səda nəşriyyatı " .2018
5.Azərbaycan-faktlar və rəqəmlər.AR DSK.2018
6.www.stat.gov.az

**Закир Ализаде**

**ПРОБЛЕМЫ УСКОРЕНИЯ ДИВЕРСИФИКАЦИИ СЕЛЬСКОГО ХОЗЯЙСТВА**

**Резюме**

В статье рассмотрена ситуация в сфере сельского хозяйства за годы, прошедшие после обретения Азербайджаном независимости, анализированы результаты реформ за этот период и выделены их слабые стороны. Отмечая важность диверсификации и стратегической дорожной карты для перспективного развития аграрного сектора экономики страны, даны дельные предложения по ускорению проводимых реформ в этой области.

**Цель -** Исследованы проблемы диверсификации сельскохозяйственного производства в Азербайджане, разработан новый методологический подход к оценке этих проблем.

**Методология -** В статье использован метод экономико-статистического анализа.

**Результат -** Предоставлен иной методологический подход к оценке существующих проблем диверсификации производства сельскохозяйственной продукции.

**Ключевые слова**: сельское хозяйство, конкурентоспособность, реформы, экономическое развитие, диверсификация

**Zakir Alizade**

**THE PROBLEMS OF ACCELERATION DIVERSIFICATIONOF AGRICULTURAL PRODUCTION**

**Summary**

The article considers the situation in the field of agriculture in the years since Azerbaijan gained independence, analyzes the results of the reforms over this period, and highlights their weaknesses. Noting the importance ofdiversification and the strategic roadmap for the long-term development of the agricultural sector of the country’s economy, there were made specific proposals to accelerate the ongoing reforms in this area.

**Purpose -** To explore the problems of diversification of agricultural production in Azerbaijan, to develop a new methodological approach to the assessment of these problems.

**Methodology -** The article uses the method of economic and statistical analysis.

**Findings -** A different methodological approach to assessing the existing problems of diversification of agricultural production has been provided.

**Key words**: agriculture, competitiveness, reforms, economic development, diversification

**UOT 368**

**Tahir Baxşəliyev**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**tahirMM99@mail.ru**

# SIĞORTA MÜƏSSİSƏSİNDƏ AUDİTİN SPESİFİK XÜSUSİYYƏTLƏRİ

*Məqalədə respublikamızda milli sığorta bazarının yaranması, sığorta müəssisələrinin normativ-hüquqi bazası və auditor tərəfindən yoxlama-ekspertiza işlərinin aparılması qaydaları verilir.*

*Eyni zamanda, sığorta müəssisəsində aparılan auditin spesifik xüsusiyyətləri araşdırılır və sığorta faiz dərəcələrinin hesablanması, sığorta müəssisəsinin maliyyə sabitliyinin qiymətləndirilməsi, sığorta ehtiyatlarının yaradılması, sığorta müəssisəsində auditin spesifik xüsusiyyətlərinin təkmilləşdirilməsi üzrə təkliflər qeyd edilir.*

***Məqsəd* -** Azərbaycanın sığorta müəssisələrində auditin vacibliyi və onun spesifik xüsusiyyətlərinin aşkar edilməsi.

***Metodologiya* -** Hesablamalarda iqtisadi-staristik metoddan istifadə edilmişdir.

***Tədqiqatın nəticələri* -** Azərbaycanın sığorta sferasında auditin spesifik xüsusiyyətləri araşdırılmış və təkmilləşdirilməsi üzrə təkliflər verilmişdir.

***Açar sözlər*:** sığorta işi, sığortaçı, sığorta olunan, sığorta riski, sığorta ehtiyatlılığı, audit.

Bazar iqtisadiyyatı şəraitində bütün sahələrdə olduğu kimi sığorta sistemində yeni münasibətlərə uyğunlaşdırılaraq, sığorta şirkətləri ilə sığorta olunanlar arasında mənafeələr nisbəti bazar qanunlarına müvafiq olaraq beynəlxalq standartlar səviyyəsində qurulmağa başlamışdır.

İctimai inkişafın obyektiv məntiqi müstəqil respublikamızda sığorta işində inhisarçılığın aradan qaldırılması, sığorta bazarının formalaşması, habelə hər şeydən əvvəl iqtisadi qanunların, o cümlədən dəyər qanunlarının tələb və təklif qanununun tələbləri səviyyəsində nizama salması zərurətini ortaya qoymuşdur.

Özlüyündə bu proses sığortanın iqtisadi münasibətlər sistemi içərisində özünəməxsus layiqli yer tutmasına və inkişafına şərait yaratmışdır.

Sığorta işi – iqtisadi fəaliyyətin xüsusi növü olmaqla ixtisaslaşmış təşkilatlar tərəfindən sığorta iştirakçılarının iqtisadi maraqlarına dəyə biləcək zərərlər üzrə risklərin yenidən bölgüsünü xarakterizə edir. Sığorta olunanlar arasında risklərin bölgüsü, faktiki olaraq sığorta fondunun yaradılması yolu ilə dəymiş zərərlərin ödənilməsində birgə iştirakını ifadə edir. Bu bölgüdə həlledici şərt kimi sığorta etdirən tərəfindən sığortaçıya vaxtında sığorta haqlarının köçürülməsi olmalıdır.

Sığorta işi iqtisadi fəaliyyət sahəsi olmaqla əmlak maraqları daşıyıcılarının – sığorta olunanların – onların fəaliyyəti ilə bağlı olan sığorta risklərinin bölüşdürülməsi yolu ilə sığorta müdafiəsinin təşkilatçısı vəzifəsini yerinə yetirir. Belə risklər həm təsadüfi həm də ehtimallı hadisələri əhatə edir.

Suveren tərəfdaşların əmlak maraqlarının müxtəlifliyi ilə əlaqədar beynəlxalq iqtisadi münasibətlər sahəsində də xarici ticarət obyektlərinin və digər təsərrüfat əməliyyatlarının sığorta müdafiəsini təmin etmək yalnız sığortalama vasitəsi ilə mümkündür.

İctimai istehsalın fasiləsizliyinin, müntəzəmliliyinin və tarazlığının təmin olunmasında sığortanın rolu onun həyata keçirilməsi nəticəsində, sığortanın tətbiqi sahəsinin

optimallaşdırılmasında, sığorta əməliyyatlarının inkişaf göstəricilərində, gəlirlə zərər və itkilərin tam olaraq ödənilməsində, ölkənin dövlət büdcəsinin gəlirlərinin sığorta gəliri və digər təsərrüfat əməliyyatlarından alınan gəlir hesabına tamamlanmasında özünü göstərir. Müasir dövrdə işçilərin xəstələnməsi, əmək qabiliyyətinin itirilməsi, ailə başçısını itirməsi və vəfat etməsi zamanı onların sosial sığorta müdafiəsini təmin etmək üçün sosial sığorta fondu və pensiya fondlarının formalaşması və istifadəsi metodunu daha məqsədəuyğun edir.

Respublikamızda milli sığorta sisteminin tam formalaşması müstəqillik dövründə başlasa da, sığortanın yaranma dövrü XIX əsrin axırlarına təsadüf edir. Belə ki, Azərbaycanın neft sənayesinə xarici investorların cəlb edilməsi nəticəsində sığorta işi inkişaf etmiş, sənayeçılərin qarşılıqlı sığortası, yanğından sığorta, vətəndaşların şəxsi əmlaklarının sığortası geniş yayılmağa başlamışdır. Həmin dövrün məlumatlarına əsasən Bakıda 30 sığorta cəmiyyəti və agentliyi, o cümlədən İngilis, Alman və Rusiya sığorta təşkilatları fəaliyyət göstərmişdir. Azərbaycanda sığorta işinin yaranmasında milli burjuaziyanın tanınmış sənayeçilərinin mühüm rolu olmuşdur.

Sovet hakimiyyəti illərində respublikada sığorta işi sığorta təşkilatının, Azərbaycan Respublikasının Sığorta Şirkətinin və SSRİ-nin xarici dövlət sığorta təşkilatının Bakı şəhərindəki şöbəsinin inhisarında fəaliyyət göstərmişdir.

Azərbaycanda Milli Sığorta Bazarı 1992-ci ilin əvvəlindən formalaşmağa başlamış və ilk dəfə olaraq Azərbaycan Respublikası Milli Məclisi 1993-cü ildə “Sığorta haqqında” Azərbaycan Respublikasının Qanununu qəbul etmişdir [1]. Bu qanunun tələblərinin icra edilməsi üçün sığorta işinin inkişafına təkan verən müxtəlif normativ hüquqi sənədlər hazırlanmışdır. Ümumilikdə sığorta işi ilə bağlı Müstəqillik dövründə Azərbaycan Respublikasının Prezdentinin 9 Fərmanı, Azərbaycan Respublikası Milli Məclisinin 10 Qanunu, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 Qərarı, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 38 normativ sənədi qəbul etdilmişdir. Bunlardan başqa Respublika Maliyyə Nazirliyinin “Sığorta fəaliyyətinin lisenziyalaşdırılması”, “Sığorta fəaliyyətinə müddətsiz lisenziyanın verilməsi” haqqında təlimatlar işlənib hazırlanmışdır. 1999-cu ildə “Sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu ikinci dəfə yenidən işlənmiş, 2007-ci ildə qəbul edilmiş və hal-hazırda qüvvədədir [2].

Ölkəmizdə bazar iqtisadiyyatı münasibətlərinin inkişafı digər sahələrdə olduğu kimi, sığorta bazarının inkişafına da güclü təkan vermişdir. Yeni mülkiyyət formalarının yaranması sığorta xidmətinin özündə də yeni forma və növlərinin əmələ gəlməsini zəruri etmiş və respublikada sığorta bazarı formalaşmışdır.

Məlumdur ki, hər bir fəaliyyət növü, o cümlədən sığorta fəaliyyəti də Azərbaycan Respublikasının qanunverici normativ aktları ilə tənzimlənir. Lakin bir sıra xüsusi fəaliyyət sahələri Azərbaycan Respublikasının Prezdentinin 2 sentyabr 2002-ci il tarixli “Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında” Fərmanına əsasən tənzimlənir [3]. Sığorta xidməti (fəaliyyəti) xüsusi razılıq tələb edən sahələrin tərkibinə daxildir. Ona görə də Azərbaycan Respublikasında sığorta şirkətlərinin fəaliyyəti üçün xüsusi razılıq (lisenziya) almaq üçün aşağıdakı sənədlər təqdim edilməlidir:

- Hüquqi şəxsin adı, təşkilatı-hüquqi forması, hüquqi və fəaliyyət göstərdiyi ünvanı, filiallar barədə məlumat, hesablaşma hesabının (hesablarının) nömrəsi, bankın adı, fəaliyyət aparılacaq sığorta növləri;
- müəssisənin əsas təsis sənədlərinin notariusdan təsdiq edilmiş surətləri;
- dövlət qeydiyyatı haqqında şəhadətnamənin notariusda təsdiq edilmiş surəti;
- müəssisənin vergi orqanlarında uçota alınması haqqında müvafiq sənədin surəti;
- ərizəçinin fəaliyyət aparacağı ünvan, o cümlədən ərizədə göstərilən obyektlərdən (filiallardan) hər biri üçün ərizəçinin istifadə hüququnu (mülkiyyət hüququnu, icarə hüququnu

və s.) təsdiq edən sənədin surəti;

- lisenziya almaq üçün dövlət rüsumunun ödənildiyini təsdiq edən sənədin əsli;
- sığortaçının nizamnamə kapitalının minimum məbləğinin qanunvericiliklə müəyyən olunmuş qaydada ödənilməsini təsdiq edən sənədin əsli;
- sığortanın fəaliyyətinə dair nəzərdə tutulan könüllü növləri üzrə qaydalar.

Azərbaycan respublikasında sığorta fəaliyyəti ilə məşğul olan müəssisələrin sayı 2018-ci il yanvarın əvvəlinə olan məlumata görə 24 ədəddir ki, bundan da həyat sığortası üzrə-3; qeyri-həyat sığortası üzrə-20; təkrar sığorta üzrə-1 və broker kontorları üzrə-13 ədəd təşkil edir [4,səh.409].

Respublikada fəaliyyət göstərən bu tip müəssisə və birliklərin bağladıqları sığorta müqavilələrinin sayı, sığorta müqavilələri üzrə daxil olmuş sığorta haqları və sığorta ödənişlərinin dinamikası şəkil 1-də verilir (şəkil 1).

Məlumatların təhlilindən görünür ki, sığorta müqavilələrinin ümumi sayında 2013-cü illə müqayisədə 2017-ci ildə 1,224 dəfə və ya 446,9 min ədəd; sığorta müqavilələri üzrə daxil olmuş sığorta haqlarında müqayisə edilən dövrdə 1,49 dəfə və ya 202,9546 milyon manat; sığorta ödənişlərində isə 2,04 dəfə və ya 141,3162 milyon manat artım müşahidə olunmuşdur.

Eyni zamanda müqayisə edilən dövrdə icbari tipli sığorta müqavilələrinin sayında 291 min ədəd; könüllüdə-155,9 min ədəd artım qeyd edilir. Söğorta müqavilələri üzrə daxil olmuş sığorta haqlarında isə icbaridə-32,790 milyon manat azalma, könüllü sığortada isə-235,744 milyon manat artım olmuşdur. Bununla bərabər, müqayisə edilən müddətdə sığorta ödənişlərinin icbari növündə 1,74 dəfə və könüllü növündə isə 2,33 dəfə artım olmuşdur [4,səh.413].




**Şəkil 1. Söğorta müqavillələrinin sayı, sığorta müqavilələri üzrə daxil olmuş sığorta haqları və sığorta ödənişlərinin dinamikası**

Qeyd: [4,səh.409-413; 5] əsasında müəllif tərəfindən hazırlanmışdır

Sığorta müəssisələrində audit yoxlama-ekspertiza işləri aparılan zaman bir sıra məsələlər, digər sahələrdə olduğu kimi ümumi prinsiplər əsasında qiymətləndirilir. Eyni zamanda, audit yoxlama-ekspertizası üçün tərtib olunan proqramda bu sahənin spesifik xüsusiyyətləri olaraq aşağıdakılar nəzərə alınır:

- sığorta müəssisəsinin normativ hüquqi bazası və ona əməl olunması;
- təsərrüfat-maliyyə fəaliyyətinin qiymətləndirilməsinin ümumi metodikası;
- sığorta müəssisəsinin uçot-hesabat işlərinin təşkilinin səviyyəsi;
- sığorta müəssisəsinin fəaliyyətində spesifik xüsusiyyətlərin qiymətləndirilməsi.

Sığorta müəssisələrinin normativ hüquqi bazasına daxildir: Azərbaycan Respublikasının Vergi Məcəlləsi, qanun və məcəllənin icra mexanizmlərini müəyyənləş-dirən Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları. Sığorta fəaliyyəti xüsusi sahə olduğu üçün sığorta müəssisələrinin hüquqi bazasının tərkibində onların lisenziyalaşdırılması da yoxlama-ekspertiza işləri aparan zaman auditorun diqqət mərkəzində olmalıdır. Daha doğrusu auditor sığorta müəssisəsinin təsərrüfat-maliyyə fəaliyyətini ekspertiza edən zaman müəssisənin təsis sənədlərinə qiymət verməli, onun fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarına düzgün əməl olunmasını da qiymətləndirməlidir.

Digər sahələrdən fərqli olaraq, sığorta müəssisələri bir sıra spesifik xüsusiyyətlərə malikdir ki, həmin məsələlərin araşdırılması və qiymətləndirilməsi üçün audit yoxlama-ekspertiza işlərində spesifik yanaşma tələb olunur. Bununla əlaqədar olaraq auditor aşağıdakı məsələlərə diqqət yetirməlidir: sığorta müəssisələrində maliyyə risklərinin qarşısını almaq üçün müəssisənin maliyyə potensialı, sığorta tariflərinin düzgün tətbiq olunması, sığorta ehtiyatlarının yaradılması, sığortaçının maliyyə sabitliyi və ödəmə qabiliyyəti, sığorta müəssisəsinin investisiya fəaliyyəti, müəyyən tarixə risklərdən qaçmaq və sığorta vəsatinin təhlükəsizliyini təmin etmək məqsədi ilə təkrar sığortanın vəziyyəti, sığorta müəssisəsinin nizamnamə kapitalı və s.

Auditor sığorta müəssisələrində yoxlama-ekspertiza aparan zaman ilk növbədə ekspertiza olunan müəssisənin maliyyə imkanlarına xüsusi diqqət verməlidir. Çünki sığorta müəssisələrinin maliyyə potensialı, malik olduğu nizamnamə kapitalı onun maliyyə bazarında fəaliyyət imicinin qarantı və təminatçılarından biri hesab olunur. Bu onunla izah olunur ki, hər bir istiqamət üzrə sığorta işi quran hüquqi və fiziki şəxs sığorta təşkilatının bütün maliyyə imkanları ilə maraqlanır, bu və ya digər məqsədlər üçün bağlanmış müqavilənin riskini müəyyən edir.

Bəzi hallarda sığorta şirkətinin bağladığı sığorta müqaviləsi onun maliyyə imkanları potensialını və nizamnamə kapitalını bir neçə dəfə ötüb keçir. Bu halda sığorta şirkəti baş verə biləcək təbii, texnogen və sair hadisələrin qarşısını ala bilməzdiyindən ümumi sığorta işini müəyyən qədər şübhə altına salan hal kimi qiymətləndirilir. Beynəlxalq təcrübədə iri həcmli sığorta müqavilələrinə rast gəlinir. Bir çox hallarda bu müqavilələrin özünündə sığortalanmasına ehtiyac duyulur. Çünki, iri həcmli sığorta müqaviləsi üzrə öhdəliklərin yerinə yetirilməsi böyük maliyyə vəsaiti tələb edir və bir sığorta şirkəti üçün çətinlik yaradır. Ona görə də, belə hallarda adətən təkrar sığorta aparan şirkət daha böyük maliyyə imkanlarına malik olan sığorta şirkətləri ilə həmin məsələ üzrə müqavilə bağlayır. Nəticədə həm özünü, həm də sığortalanan hüquqi və fiziki şəxsi müəyyən təhlükədən qoruyur.

Auditor yoxlama zamanı sığorta şirkətində təkrar sığorta hallarına öz münasibətini bildirməlidir. Bununla əlaqədar təkrar sığortaın növlərinə, sığorta şərtlərinə və təkrar sığortanın rəsmiləşdirilməsinə dair hüquqi və texniki sənədlərə auditor qiyməti verilməlidir.

Sığorta müəssisələrinin auditinin spesifik xüsusiyyətlərindən biri də bu və ya digər sığorta növü üzrə tərif dərəcələrinin düzgün müəyyənləşdirilməsi və tətbiqindən irəli gələn məsələlərin qiymətləndirilməsidir. Sığorta tariflərinin tətbiqi və hesablanmasında sığorta statistikasının byük əhəmiyyəti vardır.

Sığorta tariflərinin hesablanması ilə əlaqədar iqtisadi ədəbiyyatlarda bir sıra yanaşmalar-hesablama metodikaları təklif edilir. Audit, yoxlama-ekspertizası zamanı baş verən hadisələrin növündən və sığorta formalarından asılı olaraq sığorta tariflərinin hesablanması və metodikalarından istifadə edə bilər. Auditor yoxlama-ekspertiza işləri aparan zaman sığortaların qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsi təminatını qiymətləndirməlidir. Auditor, həmçinin bu münasibətlə sığorta şirkətinin maliyyə sabitliyinə və müəssisənin ödəmə qabiliyyətinə də qiymət verməlidir. Çünki, sığorta ehtiyatlarının yaradılması eyni zamanda sığorta şirkəttinin maliyyə sabitliyi deməkdir. Bu göstərici həmçinin sığorta şirkətinin maliyyə daşıyıcılığını və onun ödəmə qabiliyyətini də xarakterizə edir. Digər sahələrdə olduğu kimi, sığorta fəaliyyətində də müəssisənin ödəmə qabiliyyətinin auditi qiymətləndirilməsində ümumi metodikadan istifadə etmək mümkündür.

Qeyd etmək lazımdır ki, sığorta xidmətindən əldə edilən vəsait milli iqtisadiyyatın digər sahələrinə investisiya qoyuluşunun mənbəələrindən biri hesab edilir. Ona görə də, sığorta şirkətlərinin sərbəst maliyyə vəsaitlərinin daha da artırılması və şirkətin daha böyük mənfəət əldə etməsi üçün həmin vəsaitlərin investisiya qoyuluşuna yönləndirilməsi qiymətləndirilməlidir. Bu zaman auditor "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununun müvafiq prinsiplərinə əməl edilməlidir.

Sığorta şirkətinin fəaliyyətini özündə əks etdirən uçot-hesabat işləri audit yoxlama-ekspertizasının tədqiqat obyektlərindən biri olmalıdır. Auditor yoxlama-ekspertiza işi aparan zaman uçot-hesabat işlərinin ümumi göstəriciləri ilə yanaşı, başqa keyfiyyət göstərcilərinə, o cümlədən gəlirləri, aktivləri, öhdəlikləri, kapitalı və s. xarakterizə edən göstəriciləri də təhlil edib, qiymətləndirməlidir.

Beləliklə, aparılmış tədqiqat nəticəsində respublikada fəaliyyət göstərən sığorta müəssisələrinin əhatə dairəsinin genişləndirilməsi, Avropa və digər dünya ölkələrində tətbiq edilən müxtəlif sığorta formaılarının ölkəmizdə tətbiq edilməsi və bu baxımdan bir sıra tədbirlərin həyata keçirilməsi vacib şərtlərdəndir:

- ✓ sığorta xidməti bazarında innovasiyaların rolunun artırılması;
- ✓ sığorta bazarında qeyri adi sığorta xidmətlərinin təşkil edilməsi, o cümlədən kiber sığorta, qiymətli texnilkaların sığortalanması;
- ✓ xidmət heyətinin sığortalanması və s.

**İstifadə edilmiş ədəbiyyat**


1. "Sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı.1993
2. "Sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı.2007
3. "Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin 2 sentyabr 2002-ci il tarixli Fərmanı.
4. Azərbaycanın statistik göstəriciləri. Bakı. 2018, 807 s.
5. http://www.stat/gov/az
6. https://www.trend.az/business/finance/2991789.html

**Тахир Бахшалиев**

**СПЕЦИФИЧЕСКИЕ ОСОБЕННОСТИ АУДИТА В СТРАХОВЫХ КОМПАНИЯХ**

**Резюме**

В статье предусматривается создание национального страхового рынка в нашей республике, нормативно-правовая база страховых компаний и проведение аудиторских проверок .

В то же время исследуются специфические особенности аудита, проводимого в страховой компании, и отмечаются предложения по расчету страховых процентных ставок, оценке финансовой устойчивости страховой компании, созданию страховых резервов и улучшению специфических характеристик аудита в страховой компании.

**Цель -** необходимость аудита в страховых учреждениях Азербайджана и выявление его специфических особенностей

**Методология -** в расчетах использован экономически-статистический метод

**Результат -** анализированы специфические особенности аудита в страховой сфере Азербайджана и поданы предложения по ее совершенствованию

**Ключевые слова:** страховое дело, страховщик, застрахованный, страховой риск, страховая предосторожность, аудит.

**Tahir Bakhshaliyev**

**SPECIFIC FEATURES OF AUDIT IN INSURANCE COMPANIES**

**Summary**

The article provides for the creation of a national insurance market in our country, the regulatory and legal framework of insurance companies and auditing.

At the same time, the specific features of the audit carried out in the insurance company are investigated, and proposals for calculating insurance interest rates, assessing the financial stability of the insurance company, creating insurance reserves and improving the specific audit characteristics in the insurance company are noted.

**Purpose –** the importance of audit in the insuarance companies of Azerbaijan

**Methodology -** in the calculations were used economic-statistical methods

**Findings -** specific of audit have been investigated in Azerbaijan insuarance sector and mode suggestions

**Keywords:** insuarance business, insurer, insured, insuarance risk, insuarance precaution, audit

**UOT 338.012**

**Təranə Vəliyeva**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**veliyevatarana055@mail.ru**

# İKT-nin RƏQƏMSAL İQTİSADİYYATA TƏTBİQİ

*Bu məqalədə rəqəmsal iqtisadiyyatda İKT-nin rolu, onun təsir gücü təhlil edilmişdir. Göstərilmişdir ki, rəqəmsal iqtisadiyyat -rəqəmsal mühit olmaqla rəqəmsal texnologiyanın malik olduğu üstünlüklərə əsaslanır, dövlət orqanlarına və vətəndaşlara xidmətlərin online formada təqdim edilməsini, biznes qurumları arasında səmərəli münasibətlərin formalaşdırılmasını, sosial təminat xidmətlərinin təşkilini təmin edir. Belə ki, xüsusi kodlaşdırma və mübadilə informasiya proseslərinin yerinə yetirilməsi zamanı yüksək sürətin, operativliyin və yaddaşa qənaət etmənin əldə olunmasına imkan verir.*

***Məqsəd* -** rəqəmsal iqtisadiyyatda İKT-nin təsir gücünün xüsusi kodlaşdırmada və mübadilə informasiya proseslərinin üstünlüklərinin müəyyən edilməsi.

***Metodologiya*** - dünya üzrə elektron ticarətinin satış həcminin müəəyən edilməsində müqayisəli təhlil metodundan istifadə edilmişdir.

***Nəticə*** - rəqəmsal iqtisadiyyat ***e-identifikasiya*** proseslərində maneələri aradan qaldırır, texnoloji və informasiya inqilabı nəticəsində doğan yeni iqtisadiyyat modeli qurur və məsrəflərin azaldılmasına imkan yaradır.

***Açar sözlər*:** elektron və rəqəmsal mühit, rəqəmsal iqtisadiyyat, məlumatların elektron mübadiləsi, elektron xidmət və ticarət, elektron idarəetmə, elektron hökumət, imza.

## Giriş

İnformasiya texnologiyalarının və internetin sürətlə inkişaf etdiyi bir dövrdə böyük həcmli informasiya materiallarının, rəsmlərin, videoların, müxtəlif animasiya tipli məlumatların, filmlərin və s. ötürülməsi üçün multimediya vasitələri iqtisadiyyata təsir göstərmişdir. İqtisadi əlaqələrin qurulması, müəssisələrdə şəbəkə və sistemlərin yaranması, iqtisadi mühitdə ciddi dəyişikliklərin baş verməsi elektron və rəqəmsal mühitin yaranmasına səbəb olmuşdur. Rəqəmsal mühit də ənənəvi iqtisadiyyatda bir çox yeniliklərin- e-kommersiya, e-ticarət, e-idarəetmə və e-hökumət kimi anlayışların yaranmasına gətirib çıxarmışdır. Rəqəmsal mühitdə dövlət orqanları, vətəndaşlar, o cümlədən biznes qurumları arasında səmərəli münasibətlər formalaşır, şəxsi sənədlər, sertifikatlar, gəlir vergisi və əməklə bağlı xidmətlər, şirkətlərin qeydiyyatdan keçirilməsi, sosial təminat, korporativ vergi, ƏDV-lə əlaqədar olan xidmətlər vətəndaşlara online formada təqdim edilir.

İnformasiya cəmiyyətinin əsasında duran rəqəmsal iqtisadiyyatın üstünlükləri rəqəmsal texnologiyanın malik olduğu xüsusi kodlaşdırma, mübadilə və istifadə qaydalarına əsaslanaraq informasiya proseslərinin(informasiyanın saxlanması, daşınması və ötürülməsi) yerinə yetirilməsi zamanı yüksək sürətin, operativliyin və yaddaşa qənaət etməklə daha çox məlumatın əldə olunmasını təmin edir, informasiya emalı prosesində dəqiq riyazi üsulların tətbiqinə(*informasiya ilə müxtəlif manipulyasiyaların həyata keçirilməsi*) imkan yaranır.

Rəqəmsal iqtisadiyyat məişət proseslərinin və müxtəlif xidmətlərin həyata keçirilməsində mühüm amildir. Buna iri market və ticarət mərkəzlərindən malların alınması, onların sifarişçiyə çatdırılması, ödənişlərin həyata keçirilməsi, müxtəlif kommunal xidmətlərin, tibbi, səhiyyə xidmətlərinin göstərilməsi, təhsil və tədrisdə, iş

axtarışında, müxtəlif məlumatların əldə olunmasını və s. aid etmək olar.
Rəqəmsal iqtisadiyyat istehsalda proqnozların verilməsi, gələcək planlaşdırma, tələb və təklif arasındakı asılılıq və münasibətlərin araşdırılması prosesində müxtəlif şirkətlərin, institutların, fərdlərin birbaşa iştirakını təmin edir. Kino sənayesində, müxtəlif festivalların, toplantıların, konfransların, beynəlxalq görüşlərin keçirilməsində, böyük idman yarışlarının təşkilində, dünyəvi problemlərin həllində, ümümdünya məlumatlarının çatdırılmasında böyük rola malikdir. İstifadə olunan texnologiyalar idman, incəsənət, turizm və s. sahələrdə yeni gəlir gətirən sahələrin açılmasına, böyük həcmdə investisiya qoyuluşlarına, dünya miqyasında reklamların təşkilinə və bu işlərdən külli miqdarda gəlir əldə olunmasına şərait yaradır.

Rəqəmsal iqtisadiyyatın meydana gəlməsində rəqəm informasiyası əsas rol oynayır və 3 komponentlə müəyyən edilir:

• İnfrastruktur(*kompüter avadanlığı, proqram təminatı, telekommunikasiya, şəbəkə və s.*);
• E-biznes (*prosesin kompüter şəbəkələri üzərindən aparılması*);
• E-kommersiya (*malların transferi*).

**İnfrastruktur** - xidməti proseslər üçün yardımçı xarakter daşıyan istehsal və qeyri-istehsal sahələri kompleksi olub, iqtisadiyyatın inkişaf səviyyəsini artırır, əhalinin həyat şəraitinin yaxşılaşmasını təmin edir. İnfrastruktur iki qrupa bölünür:

a) istehsal infrastrukturu (maddi istehsal sahələrinə xidmət göstərir);
b) sosial infrastruktur (ümumi, peşə təhsili və səhiyyəyə xidmət göstərir).

Hər iki infrastruktur rəqəmsal gələcəyin formalaşdırılması istiqamətində elektronlaşdırılmışdır. Bu həm də ictimai qərarvermənin ölkə idarəçiliyinə tətbiq ediləcəyi və sosial rifahı sürətləndirəcək innovativ metodların bərqərar olacağı bir cəmiyyəti formalaşdırır.

**E-biznes** yerləşmə məkanından asılı olmayaraq mal və xidmətlərin reklamını, sifarişin qəbulunu, malın daşınması və çatdırılmasını, istehsalçı və istehlakçı arasında hesablaşmaların həyata keçirilməsini İnternet şəbəkəsi vasitəsilə həyata keçirir. İnternetdə veb-sayta, virtual mağazaya, təşkilatın idarıetmə sisteminə, elektron reklamdan istifadəyə, marketinqə malikdir.

İnformasiya texnologiyaları və sistemlərinin sürətlə inkişafı, şəbəkə texnologiyalarının geniş tətbiqi e-biznes sahəsinin yaranmasına səbəb olub, bütün sahələri əhatə edir. Bu baxımdan informasiya məhsullarının satışı, bank, maliyyə, kredit əməliyyatlarının geniş spektrdə elektronlaşdırılması həyata keçirilir.

E-biznes elektron biznes-prosesləri dəstəkləyir və elektron ticarət əməliyyatları idarə edir. Kompüter avadanlıqları, proqramlaşdırma dilləri, telekommunikasiya şəbəkələri, dəstək xidmətləri e-biznesin infrastrukturudur.

E- biznes hər bir biznesin *kompüter-vasitəli-şəbəkə* ilə həyata keçirilən hər hansı bir prosesidir. Bu proseslərə satınalma, sifariş, avtomatik səhmdar təchizatı, ödəniş emalı və təchizatçılar vasitəsilə elektron keçidlər, istehsal nəzarəti və s. aiddir.

**E-kommersiya** - maliyyə, ticarət əməliyyatlarını və bu əməliyyatlarla bağlı olan biznes proseslərini kompüter şəbəkələri vasitəsilə həyata keçirən iqtisadiyyat sahəsidir. O, əsasən aşağıdakı əməliyyatları xarakterizə edir:

• Elektron məlumat mübadiləsi;
• Elektron kapitalın hərəkəti;
• Elektron ticarət;
• Elektron pul;
• Elektron marketinq;
• Elektron bankinq;

• Elektron sığorta xidmətləri.

**E-kommersiya** ilk növbədə malların və xidmətlərin qlobal informasiya şəbəkəsi vasitəsilə təqdim olunması, biznes-proseslərin elektron formada ötürülmə yolu ilə tezləşdirilməsi və alıcıya çatdırılması prosesi olub, özündə çoxlu saylı texnologiyaları (yəni, məlumatların elektron mübadiləsi, elektron poçt, İnternet, İntranet (şirkətdaxili informasiya mübadiləsi), Ekstranet(xarici aləmlə informasiya mübadiləsi) birləşdirir.

Keçən əsrin 90-cı illərin ortalarından başlayaraq e-kommersiya, əsasən, biznesin İnternet vasitəsilə aparılması, eyni zamanda WWW xidməti ilə əldə olunan informasiyanı həyata keçirən satış prosedurаları anlamını verir. Məsələn, malın ölçülərinin dəqiqləşdirilməsi, sifarişin rəsmiləşdirilməsi üçün satıcıya göndərilən sorğuların elektron poçt vasitəsilə göndərilməsi, mətn faylları, elektron cədvəlləri, məlumat bazaları, şəkillər, sifarişlər, hesablar, ödənişlər, informasiya sorğuları, qiymətlər haqqında məlumatlar, multimedia göstəriciləri və s. satış prosedurlarına aiddir.

E-kommersiya üçün lazım olan şərait sifarişlərin tam avtomatik işlənilməsini təmin edir. Bu da **online** rejimində xərclərin aşağı düşməsinə gətirib çıxarır.

Rəqəmsal gələcəyin əsasını ***e-hökumət*** quruculuğu təşkil edir. Bu infrastruktur bəşər cəmiyyətinin yeni idarəetmə üsullarının təqdim edicisi, elektronlaşmış xidmətlər, cəmiyyətin qərarvermədə müstəqil iştirakının təmin edicisi hesab edilir. Elektron hökumət İKT-dən fəal istifadə etməklə xidmətlərin səmərəliliyinin artırılması məqsədi ilə yaradılan yeni qarşılıqlı dövlət-vətəndaş, vətəndaş-dövlət münasibətlərinin təkmilləşməsində və demokratik cəmiyyət quruculuğunun formalaşmasında böyük əhəmiyyətə malikdir.

Azərbaycanda sosial yönümlü idarəetmə sisteminin bərqərar olması və bütün idarəetmə orqanlarında elektron hökumət prinsiplərinin geniş tətbiqi e-imza, e-xidmət, və e- müraciətləri təşkil edir, İKT-nin tətbiqi ilə sosial yönümlü müasir idarəetmə sistemi bərqərar olur, yüksək səviyyəli informasiya cəmiyyəti quruculuğu inkişaf edir, dövlət orqanlarının işinin səmərəliliyi artırılır, vətəndaş məmnunluğu təmin edilir. Bünövrəsi Ümummilli lider Heydər Əliyevin 2003-cü il 17 fevral tarixli müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" ilə qoyulmuş **www.e-gov.az** portalı Respublika ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə informasiya və elektron xidmətlərin göstərilməsinə şərait yaradır. Portalı bütün sutka ərzində zaman və məkan məhdudiyyəti tanımadan internet olan hər yerdən vətəndaşlara xidmət edir, insan təxəyyülü və innovativ yeniliklərlə daim təkmilləşir.

Müasir dövrdə ölkəmizdə "elektron hökumət"in inkişaf perspektivləri genişləndirilərək təkmilləşdirilməsi istiqamətində tədbirlər davam etdirilir. Belə ki, müvafiq dövlət qurumları müəyyən etdikləri xidmətlər üzrə informasiya sistemləri yaradılır, servislər hazırlanır və bunlar portala inteqrasiya edilir.

Rəqəmsal iqtisadiyyatın yaranması nəticəsində əsas təyinedici rol informasiyaya verilmişdir və informasiya kapitalı meydana gəlmişdir. İnformasiya kapitalının yaranması, dövriyyəsi, istifadəsi, qiymətləndirilməsi və təhlili proseslərini rəqəmsal texnologiyalar olmadan təmin etmək mümkün deyil. Onların tətbiqi bu kapitaldan istifadənin səmərəliliyini artırır.

Rəqəmsal iqtisadiyyatda yeni layihələrin hazırlanmasını, istehlakçı ilə birbaşa əlaqələrin yaradılmasını, məhsulun kəmiyyət və keyfiyyət göstəricilərinin sifarişçinin istəklərinə uyğun olmasını operativ şəkildə həyata keçirmək mümkündür.

Rəqəmsal iqtisadiyyat məişət proseslərinin həyata keçirilməsində, *məsələn,* məhsul-ların satışı və xidmətlərin göstərilməsi, iri market və ticarət mərkəzlərindən malların

alınması, onların sifarişçiyə çatdırılması, ödənişlərin həyata keçirilməsi, müxtəlif kommunal xidmətlərin, tibbi, səhiyyə xidmətlərinin göstərilməsi, təhsil və tədrisdə, iş axtarışında, müxtəlif məlumatların əldə olunması, istehsalda proqnozların verilməsi, gələcək planlaşdırma, tələb və təklif arasındakı asılılıq və münasibətlərin araşdırılmasına şərait yaradır.

Rəqəmsal iqtisadiyyatın malik olduğu üstünlüklər bunlardır:

- fəaliyyət dairəsinin geniş olması;
- daha çox dünya ölkələrini əhatə etməsi:
- rəqəmsal fəzanın qorunması;
- geniş kontekstlər çevrəsində ehtiyatlara malik olması;
- istifadəsinin tələbata uyğunluğu;
- istifadə baxımından yararlılığı və şəraitə uyğunluğu.

Rəqəmsal iqtisadiyyat iqtisadiyyatın informasiya texnologiyalarının köməyi ilə elektronlaşan hissəsi olduğundan elektron informasiya mübadiləsini həyata keçirir və onun ən geniş yayılmış növlərindən biri də ***e- ticarətdir***.

Elektron ticarət- iqtisadi fəaliyyətin yüksək templə dəyişdiyi bir mühit olmaqla standart şəbəkələrdən istifadə edərək informasiya texnologiyalarının tətbiqi ilə informasiyanın, məhsul və xidmətlərin alqı-satqısı və marketinqi sistemi kimi müəyyən edilərək münasibətlərin daha da təkmilləşdirilməsini təmin edir. Bunun nəticəsində əlavə dəyər yaranır. Elektron ticarət təkcə mal və xidmətlərin elektron satışı deyil, elektron şəkildə informasiyanın ötürülməsi, müəssisələr arasında əlaqələrin yaradılması, bank və maliyyə institutlarının əlaqələndirilməsini də özündə birləşdirir.




Son illər Azərbaycanın İKT sahəsində əldə etdiyi uğurlar ölkə sərhədini keçir və müasir texnologiyaların tətbiqi ilə bağlı irəliləyişlər əldə edilib. Belə ki, "X-Road" texnologiyası əsasında Elektron hökumət platforması və Rəqəmsal Ticarət Qovşağı qurulub. Bu qovşaq vasitəsilə asan və elektron imza əldə olunaraq, qeydiyyat aparılır, , ödənişlər həyata keçirilir və digər elektron xidmətlərdən yararlanılır. Prezidentin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilən "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"ndə göstərildiyi kimi, iqtisadiyyatın rəqəmsallaşdırılması üçün İKT infrastrukturunun inkişafı və təkmilləşdirilməsi, ölkənin İKT sənayesinin potensialının artırılması istiqamətində mühüm işlər aparılaraq İKT-nin inkişafı ilə bağlı 2020-ci ilədək olan dövr üçün strateji hədəfə nail olunması nəzərdə tutulub.

2012-2018-ci illər üçün dünya üzrə elektron ticarətin satış həcmi ***(milyard $)*** aşağıdakı cədvəldə olduğu kimidir.




Hazırda iqtisadiyyatın bütün sahələrində verilənlərin elektron emalı və ötürülməsi geniş yayılmışdır. Buna misal olaraq pul vəsaitlərinin köçürülməsi, valyuta və qiymətli kağızlarla sövdələşməni göstərmək olar. Dünyanın inkişaf etmiş ölkələrində elektron pul bank əskinazlarını əvəz edən şifrələnmiş rəqəmlər yığımı seriyasıdır. Onlar nağd pulları və çekləri əvəz edərək istənilən alqı-satqının və digər xərclərin ödənilməsinin başlıca vasitəsidir. Eyni zamanda elektron pullar bank depozitlərinin ekvivalenti olub, ya kompüter və şəbəkələrdə, ya da daxilində mikroprosessor olan kartlarda yazılmış şifrələnmiş rəqəmlər seriyasıdır. Bu gün ödəmənin elektron sistemi tətbiq olunur. Kredit kartı hesabının və ya çekin rəqəmsal ekvivalentinin kriptoqrafiya ilə mühafizəsi təmin edilmişdir. Bu cür prinsiplə yaradılmış "ağıllı" kredit katrlarının yayılması alıcıların şəxsi həyatına daxil olmaqla onlar haqqında informasiyanın əldə olunmasına şərait yaratmışdır.

Adi pullardan fərqli olaraq elektron pullardan istifadə olunması onların dövriyyəsinin daha sürətlə həyata keçirilməsinə imkan verir. Elektron pullar banklarla bərabər qeyri-bank təşkilatlarına da təklif olunur. Pul mübadilə və yığım funksiyalarını yerinə yetirməklə maliyyə əməliyyatlarının ani yerinə yetirilməsini sürətləndirir. Elektron pullar dünya miqyasında həyata keçirilən ticarət əməliyyatlarında iştirak edə bilən müəyyən məhsulla bağlı təminat verir.

Elektron kredit, bank və maliyyə əməliyyatları daha çox ABŞ-da, Böyük Britaniyada, Yaponiyada, Almaniyada tətbiq edilir və bu ölkələrdə həmin əməliyyatların daha təkmil sistemi mövcuddur. ABŞ-da depozit müəssisələri və onların korporativ müştəriləri üçün qısa müddətdə böyük məbləğdə köçürmələrlə ödənişlər həyata keçirilir. Hal-hazırda elektron bank, kredit maliyyə əməliyyatlarının müvəffəqiyyətlə tətbiqi daha çox bu sahədə təcrübəyə malik ölkələrin köməyinə və mövcud sistemlərinin istifadəsinə əsaslanır.

Beynəlxalq kredit kartlarından istifadənin yüksək sürətlə inkişafı yüksək gəlir gətirən sahələrdən olan turizmin, digər iqtisadi sahələrin inkişafı VİSA, Mastercard, American Express kimi beynəlxalq şirkətlərin kredit kartlarının dünyanın müxtəlif cöğrafi məkanlarında istifadəsinə və yekunda elektron bank, kredit və maliyyə əməliyyatlarının mövqeyini möhkəmlənməsinə səbəb olmuşdur. Bütün bunlarla bərabər respublikamız da daxil olmaqla hazırda əksər dünya ölkələrində əmək haqqlarının, təqaüdlərin, sosial təyinatlı ödənişlərin elektron kart sisteminə keçidi geniş vüsət almışdır. Bu isə rəqəmsal əməliyyatların bərqərar olmasına öz töhfəsini verir.

Hazırkı dövrdə İnternet vasitəsi ilə hər hansı məhsulun əldə olunmasında elektron kredit və elektron maliyyə əməliyyatları geniş tətbiq olunur. Alıcı xüsusi İnternet

səhifəsində İnternet-mağazalardan məhsulu seçir. Daha sonra onu qane edən ödəniş formasını seçərək elektron əməliyyatlarla ödənişləri edir və seçilmiş məhsulun və ya malın ona çatdırılmasını gözləyir. Bu prosesdə adətən satıcı və alıcının hər ikisinin tələblərini ödəyən xüsusi elektron forma doldurularaq öhdəliklər götürülür. Alınmış mala görə ödəniləcək məbləğ üzrə hesab alıcının ünvanına göndərilir.

Alıcı İnternet mağazanın hesabına bank vasitəsilə aldığı mala görə tələb olunan məbləği keçirir və həmin mal ya mağaza tərəfindən çatdırılır, ya da alıcının özü tərəfindən mağazanın anbarından götürülür. Bu hesablaşma tətbiq edilərkən adətən alıcıya satıcı müəssisə tərəfindən xüsusi kod verilir. Bu kod həmin alıcının İnternet-mağazaya yenidən müraciət etdiyi vaxt istifadə edilir. Belə ki, bu cür kodun olması alıcı haqqında hər dəfə məlumatların təkrar tələb edilməsi ehtiyacını aradan qaldırır. Bu hesablaşmalarda İnternet vasitəsilə ödəmə sistemi kimi elektron bank kartlarından istifadə edilir və hesablaşmaların mövcudluğu bank kartlarından istifadənin hüquqi əsası olan ölkələrdə yerinə yetirilir. Bir sözlə e- hökumət quruculuğu informasiya cəmiyyətinin davamlı inkişafı üçün bazis rolunu oynayan mühüm amildir və hər bir vətəndaş bu prosesdə yaxından iştirak edərək öz əməli töhfəsini verməyə çalışmalıdır.

## Nəticə

Rəqəmsal iqtisadiyyat ***e-identifikasiya*** proseslərini xarakterizə etməklə maneələri aradan qaldırır, texnoloji və informasiya inqilabı nəticəsində doğan yeni iqtisadiyyat modeli qurur, real iqtisadi səmərə verməklə məsrəflərin azaldılmasına imkan yaradır. Rrəqəmsal prosesdən ölkəmizin bütün sahələrində istifadə dövlət idarəçiliyi, təhsil, səhiyyə, biznes və digər sahələrdə yeni dəyərlər yaratmaqla respublikanın davamlı və dayanıqlı inkişafının təmin edir, intellektual potensialının gücləndirilməsi, biznesin irəliləməsi, cəmiyyətdə şəffaflığın inkişaf etdirilməsində əlverişli şərait yaradır.

**İstifadə edilmiş ədəbiyyat**

1. Əkbərov M.Q. Elektron kommersiya. Ali məktəb tələbələri üçün dərs vəsaiti. Bakı, "İqtisad Universiteti" Nəşriyyatı, 2011
2. Mahmudov R.Ş. İnformasiya cəmiyyətinin əsasları. Mühazirə. Bakı, 2013
3. Quliyev R. A., Quliyeva A. A. "İqtisadiyyatda informasiya sistemləri" fənni üzrə metodik vəsait. Azərbaycan Dövlət İqtisad Universiteti. Bakı, 2011
4. Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi informasiya cəmiyyətinin 100 əsas anlayışı. Bakı, 2007
5. N.Umarova "İKT" fənnindən dərs vəsaiti. Bakı, 2016
6. http:// ik-tex.com/
7. www.e-gov.az
8. http://az.wikipedia.orq

**Тарана Велиева**

## ВНЕДРЕНИЕ ИКТ В ЦИФРОВУЮ ЭКОНОМИКУ

**Резюме**

В этой статье анализируется роль ИКТ в цифровой экономике и ее влияние. Показано, что цифровая экономика - это цифровая среда, основанная на преимуществах цифровых технологий, предоставляющих онлайновые услуги государственным органам и

гражданам, формирование эффективных взаимоотношений между предприятиями и предоставление услуг социального обеспечения.

Таким образом, он обеспечивает высокую скорость, эффективность работы и экономию памяти при выполнении определенных процессов кодирования и обмена информацией.

**Цель -** выявление преимуществ специальных процессов кодирования и обмена информацией в возможностях ИКТ в цифровой экономике.

**Методология** - для определения объема торговли по всему миру использовался метод сравнительного анализа.

**Результат -** цифровая экономика устраняет барьеры для процессов электронной идентификации, в результате технологической и экономической революции строит новую экономическую модель и создает условия для сокращения затрат.

**Ключевые слова -** электронная и цифровая среда, цифровая экономика, электронный обмен информации, электронная услуга и торговля, электронное управление, электронное правительство, электронная подпись.

**Tarana Valiyeva**

## IMPLEMENTATİON ICT TO DİGİTAL ECONOMY

### Summary

In this article was analysed power of influence and role of ICT on digital economy. It has been demonstrated that digital economy as digital environment based on advantages of digital technology, provide government bodies and citizens on online form, forms an effective partneship among buziness orqanizations and provides social secruty services. In carryinq out information processes special coding and exchange provide a high speed, promptness and saving memory.

**Purpose –** the importance of audit in the insuarance companies of Azerbaijan

**Methodology -** to determine the volume of trade worldwide, the method was used comparative analysis.

**Findings -** The digital economy removes barriers to e-identification processes, as a result of a technological and economic revolution, builds a new economic model and creates the conditions for cost reduction.

**Keywords:** electronic and digital environment, digital economy, electronic information exchange, e-service and trade, e-government, e-government, e-signature

**UOT 331.5**

**Nicat Musayev**
**Azərbaycan Texniki Universiteti**
**nicat.musayev@gmail.com**

# MÜALİCƏ-SAĞLAMLIQ TURİZMİNİN İNKİŞAF ETDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

*Məqalədə müalicə-saglamlıq turizminin fərqli xüsusiyyətləri göstərilməklə ənnənəvi sanatoriya kurortların müasir tipli kurort mərkəzlərinə çevrilməsinin səbəbləri verilmişdir. Dünya miqyasında fəaliyyət göstərən kurortların balneoloji (müalicəvi sular), palçıq və iqlim müalicəsi istiqamətində fəaliyyəti qeyd edilmiş və müxtəlif xarici ölkələrdəki sanatoriyaların fərqli müalicə üsulları haqqında məlumatlar elmi cəhətdən əsaslandırılmışdır.*

*Eyni zamanda Azərbaycanda fəaliyyət göstərən sanatoriyalarla xarici ölkələrdəki müalicə ocaqlarının 2018-ci ildə olan mövcud qiymətlərinin müqayisəli təhlili aparılmış və ölkəmizdə sanatoriya kurort müəssislərinin tam gücü ilə fəaliyyətinin təmin edilməsi istiqamətində müvafiq tədbirlərin həyata keçiriilməsinin məqsədəuyğunluğu qeyd edilmişdir.*

***Məqsəd*** - Azərbaycanda müalicə-sağlamlıq turizminin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi və qiymətləndirilməsi.

***Metodologiya*** - Tədqiqat işinin hesablamalarında iqtisadi-statistik təhlil metodundan istifadə edilmişdir.

***Tədqiqatın nəticələri*** - Müəssislərin tam gücü ilə fəaliyyətinin təmin edilməsi və səmərəliliyinin yüksəldilməsi üzrə müvafiq təkilflər verilmişdir.

***Açar sözlər:*** müalicə-saglamlıq, fərqli müalicə, kurort resursları, müalicənin dəyəri, səmərəliliyin yüksəldilməsi

## Giriş

Müalicə məqsədi ilə insanların səyahəti uzun bir tarixə malikdir. Hələ qədim yunanlar və romalılar şəfa mənbələrindən və əlverişli iqlimə malik olan yerlərdən özlərinin sağlamlığının bərpa edilməsi məqsədi ilə istifadə edirdilər. Bu zaman kurortlara yalnız xəstələr deyil, həm də kifayət qədər vəsaitə malik olan sağlam insanlar istirahət etmək arzusu ilə gəlirdilər. Yunanıstanda bu sahə üzrə Epidavr və Kos, Romada isə Bayi dənizkənarı kurortları məşhur hesab edilirdi. Zamanın dəyişməsinə baxmayaraq səyahət etmənin motivi olduğu kimi qalmışdır. Təbiət amillərinin şəfalı xüsusiyyətləri, keçmişdə olduğu kimi, xəstə insanları kurort yerlərinə cəlb edirlər [1]. Şəfa almaq məqsədi ilə turist axını istirahət və əyləncə xarakterli turizm növü ilə müqayisədə hələlik çox sayda olmasa da, onların coğrafiyası genişləndirilir.

Müalicə-sağlamlıq turizminin bir sıra fərqli xüsusiyyətləri vardır:

- Xəstəliyin növündən asılı olmayaraq kurortda qalma, üç həftədən az olmamaqla, uzun müddətli olmalıdır, yalnız belə olan halda arzuolunan səmərəli müalicə əldə etmək mümkündür.
- Kurortlarda müalicə baha başa gəlir. Lakin, son dövrlərdə standart tibbi xidmətlərin göstərilməsinə istiqamətlənmiş nisbətən müqayisəli ucuz turların deyil, fərdi proqramlı müalicə turlarının işlənilməsinə başlanılmışdır.
- İstirahət məqsədi ilə kurortlara gələnlərin çox hissəsini yaşli qrup əhali təşkil edir ki,

onlarda da xəstəliklər kəskinləşmiş olur və ya zəif orqanizmləri işdə baş verən gündəlik stres və məişət hadisələrinin öhdəsindən gələ bilmir. Bu tip turistlər konkret xəstəliklərin müalicəsi üzrə ixtisaslaşmış kurortlarla, onların orqanizminə ümumi möhkəmləndirmə təsiri yaradan və güclərini bərpa edə bilən, qarışıq tipli kurortlar arsında seçim etməli olurlar.

Ənənəvi sanatoriya kurortları nisbətən yaşlı şəxslərin müalicə və istirahət yeri kimi fəaliyyət göstərməkdən əl çəkərək geniş əhali dairəsinin əhatə edilməsinə hesablanan yarım funksional sağlamlıq mərkəzləri formasında qurulurlar.

Ənənəvi sanatoriya kurortların müasir tipli kurort mərkəzlərinə çevrilməsi iki səbəbdən şərtləndirilir:

1. Müalicə-sağlamlıq xidmətlərinin tələb xarakterinin dəyişməsi.
2. Kurortların istiqamətlərinin yeniləşdirilməsi ona görə vacib hesab edilir ki, dövlət tərəfindən onların ənənəvi olaraq saxlanılması, o cümlədən maliyyələşdirilməsi tədricən azaldılır. Bu sağlamlıq müəssisələri istehlak bazarının yeni seqmentlərinə çıxmaqla, əlavə müştərilərin cəlb edilməsi məqsədilə, özlərinin məhsullarını diversifikasiya etmək məcburiyyətindədirlər.

## Materialların təhlili və metodologiya

Kurortlar müalicə funksiyalarını saxlamaqla digər müalicə və istirahət məqsədli turistlər üçün nisbətən müxtəlif formalı proqramlar hazırlayır, mədəni və idman tədbirləri həyata keçirirlər. Onlar turistlər üçün sağlamlıq və güc bərpa edici kompleks xidmətlərini genişləndirməklə böyük seçim proqramları təklif edirlər. Bu təkliflər içərisində dənizkənarı otellərdə dənizdə üzmək və dəniz iqlimi ilə müalicə (talassoterapiya), yüksək tələbə malik olan "Fito-Gözəllik-Cavanlaşma" və s. proqramlar üstünlük təşkil edir ki, bu da uzun müddətli müalicə və sağlamlıq kurslarından ibarətdir. Odur ki, istirahət və müalicə bazarında geniş miqyaslı tədqiqatların aparılması, kurort xidməti standartlarının işlənilməsi və tətbiqi mövcud şərait üçün əlverişli hesab edilən bu növ turizmin inkişaf etdirilməsini şərtləndirir [3].

Dünya miqyasında fəaliyyət göstərən kurortları üç əsas növə ayırmaq olar: balneoloji (müalicəvi sular), palçıq və iqlim müalicəsi.

Balneoloji (müalicəvi sular) tipli kurortlarda əsas müalicə amili təbii mineral sular hesab edilir ki, bunlardan istifadə xarici (vannalar) və daxili (içmək,inqalyasiy etmək və s.) tələbat kimi təklif edilir. Sanatoriya kurortlarda istifadə edilən mineral sular çoxlu sayda xəstəliklərin müalicəsinə koməklik göstərir. Tibbi sahədə aparılmış tədqiqatlar göstərir ki, təbii mineral sularından istifadə edilməklə həyata keçirilən sanatoriya xidmətləri bir sıra xəstəliklərin səmərəli müalicəsini təmin edir. Belə ki, digər müalicə növü olan dərman müalicəsinin tətbiqindəki yan təsirlər bu müalicədə aradan qaldırılır, xəstəliyin sürətlənməsinə və intensivliyinin çoxalmasına şərait yaranmır.

Palçıqla müalicə forması oynaqlarda, sinir sistemində, travmatoloji zədələnmələrdə, eyni zamanda qadın xəstəliklərinin və digər bir çox xəstəliklərin müalicəsində faydalı müalicə üsulu hesab edilir. Müasir metod və qabaqcıl texnologiyaya əsasən palçıq müalicəsi bu tip xəstəliklərin qarşısının alınmasında əhəmiyyətli dərəcədə rol oynayır və yüksək tibbi nəticələrə malikdir.

İqlimlə müalicə kurortlarının müxtəlif növləri fərqləndirilir və onlar meşə, dağ, dəniz kənarı, iqlim-qımız-müalicə, iqlim-təbii və digər amillərin unikal kombinasiyasına uyğun gələn özünəməxsus müalicələri həyata keçirir. Bu amillərin birləşməsindən kurortun profilini seçmək mümkündür. Məsələn, meşə ətrafı kurortlar əsasən kontinental iqlimə

xarakterik olduğundan onlarda yuxarı tənəffüs yolları, astma və sinir sisteminin pozulması kimi xəstəliklərin müalicəsində istifadə edilir.

Dəniz iqlimi ilə müalicə əsasən qan, sümük hüceyrələri, limfa vəziləri və s. kimi xəstəliklərin müalicəsində xüsusilə əhəmiyyətlidir və öz xeyirli təsirini qısa müddətdə göstərə bilir.

Yuxarıda qeyd edilən üç əsas kurort tipi ilə yanaşı aralıq mövqe tutan keçici kurortlar da fərqləndirilir. Bu tip kurortlar eyni vaxtda bir neçə təbii müalicə amillərindən, məsələn, mineral sular və palçıqdan və ya iqlim və mineral sulardan istifadə edirlər ki, bunlar da həmin üç tip kurorta aid edilmirlər. Bu tip turizm Avropada nisbətən geniş yayılmışdır və turist sayının artımını cəlb edə bilir.

Sanatoriya kurort müalicəsi üzrə gələn turistlərin sayına görə Avropada Çexiya liderlik edir. Çexiyanın ən böyük və məşhur sağlamlıq ocağı **Karlovi-Vardır** ki, burada da termal, inci və karbohidrogenli müalicəvi vannalarından istifadə edilir. Çexiyanın milli turizm agentliyinin məlumatına əsasən hər il bu müalicə ocaqlarında 70 ölkədən 50 min nəfər və 2 milyona yaxın səyahətçi iştirak edir. Kimyəvi tərkibinə görə karlovar mineral suları bikarbonat-sodiumnatriumxloridlidir. Karlovi-Vara bu gün beş qitənin hər birindən insanlar gəlir. Bu müalicə ocağına rusiya turistləri böyük məhəbbət bəsləyir, eyni zamanda alman turistləri müalicənin nisbətən əlverişli qiymətə və keyfiyyətli aparılmasına görə üstünlük verirlər.

Müalicə-sağlamlıq turizminin Avropa bazarında Çexiyanın ən böyük rəqibi Macarıstan hesab edilir. Bura termal hamamlar zonası adlanır. Həmin təbii mənbələrdən və quyulardan sutkada 0,5 milyon $m^3$ termal müalicə suyu çıxarılır ki, bunun da bir hissəsi tibbdə istifadə edilir. Ümumiyyətlə, Macarıstanın 22 şəhər və 62 kəndində rəsmi olaraq tanınmış müalicə mənbələri vardır ki, bunlardan da **“Xeviz”** sanatoriyası ən şox tanınmışdır. Statsitik məlumatlar göstərir ki, termal müalicə suyunda müalicə məqsədilə Almaniya, ABŞ, Avstriya və ölkənin özündən gələn turistlər ümumi ölkəyə gələn turistlərin yarıdan çoxunu təşkil edir. Turist axını əsas iki: hələ XIX əsrdən müalicəvi su şəhəri statusunu almış Budapeşt şəhəri və Balaton gölu istiqamətdə daha çox özünü göstərir ki, bunların da əsas cəlb ediciliyi türkiyənin hökmranlığı dövründən qalmış və hal-hazırda fəaliyyətini davam etdirən Şərq vannalarına xasdır. Ölkəyə gələn turistlər içərisində müalicəni suda istirahət etməklə birgə arzu edənlər, Avropanın ən böyük və isti göllərindən biri olan Balaton gölünü seçirlər. Bu ideal yerlər balıq tutmaq, üzmək, yelkənli idmanla məşğul olmaq, qayıqla kürək çəkmək və suda xizəkçilik üçün çox yararlı hesab edilir. Hər il gölə bu və digər məqsədlə müxtəlif ölkələrdən gələn turistlər 100 min nəfərə qədər təşkil edir.

Polşa ölkəsi də müalicə-sağlamlıq turizminin Avropa bazarında balneoloji (müalicəvi sular) və iqlim kurortu növünü təbliğ edənlər sırasındadır. Ölkənin **Kamen-Pomorski, Kolobjek** və s. kimi əsas müalicə ocaqları Baltik dənizinin sahilində yerləşir. Lakin bu müalicə ocaqları Çexiya və Macarıstanda turist qəbul edən kurortlara nisbətən az tanındıqları üçün onlara rəqib ola bilmirlər və reklamın olmaması, tibbi xidmətin yüksək səviyyədə aparılmaması, eyni zamanda dəniz suyunun soyuq olması kimi səbəblər polşa kurortlarının imkanlarını məhdudlaşdırır. Eyni ilə Polşada olan kurortların əlverişli iqlimə və digər qeyd edilən şərtlərə malik olmaması üç pribaltika dövləti: Estoniya, Latviya və Litvanın müalicə ocaqlarının inkişafına mənfi təsir göstərən amillər hesab edilir.

Çexiya, Macarıstan və Polşa ilə yanaşı, müalicə-sağlamlıq turizmi, Bolqariya, Rumıniya, Xorvatiya və Sloveniyada da inkişaf edir. Bu ölkələr suyu isti olan dənizlərə çıxışa malikdirlər və iqlim tipli dəniz kənarı kurortlar üzrə əsas sağlamlıq proqramlarını təklif edirlər. Bundan əlavə, Xorvatiyada Avropada yeganə naftalan müalicə mənbəyi –

tibbdə tətbiq edilən müxtəlif neftlərdən istifadə etməklə müalicə növündən də istifadə edilir ki, bunun da bazasında **İvaniç-Qrad** kurortu yaradılmış və dəri xəstəliklərindən, dayaq-hərəkət verici orqanlardan əziyyət çəkən xəstələrin müalicəsini həyata keçirir [4] .

Xarici ölkələrdə, xüsusilə Avropa ölkələrində fəaliyyət göstərən müxtəlif müalicəvi məqsədli kurort sanatoriyaların fəaliyyətinin təhlilindən belə bir qənaətə gəmək olar ki, innovativ xarakterli xidmətlərin tətbiqi Azərbaycanda fəaliyyət göstərən kurort sanatoriya turizminin inkişaf etdirilməsində mühüm rol oynaya bilər. Odur ki, bu növ turizmin ölkəmizdə genişləndirilməsi məqsədi ilə müalicə-sağlamlıq turizmi ilə məşğul olan kurort sanatoriyaların mövcud vəziyyətini təhlil edərək onun inkişafına maneçilik göstərən amillər araçdırılaraq müəyyən edilməli və onların aradan qaldırılması istiqamətində müəyyən təkliflər verilməlidir [1].

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) **"Kurort" QSC**-nin tabeliyində əhalinin sağlamlığının yaxşılaşdırılması məqsədi ilə müxtəlif təyinatlı sanatoriyalar fəaliyyət göstərir. Azərbaycanda kurort mövsümü bütün il boyu davam edir. Respublika zəngin və nadir rekreasiya və kurort resurslarına malikdir. Dağlıq və dağətəyi rayonların gözəl təbiəti, şəfalı balneoloji mənbələri və müalicəvi palçıqları, göz oxşayan dağ gölləri və şəlalələri, Apşeronun üzüm və əncirlikləri, Xəzərin qumlu çimərliklərini gün ərzində qızdıran günəş işığının bolluğu il ərzində dolğun istirahətin və sanatoriya kurort müalicəsinin yüksək səviyyədə təşkilinə şəraiti formalaşdırır.

Azərbaycanda fəaliyyət göstərən 8 sanatoriya, o cümlədən **"Bilgəh"** kardioloji, **"Abşeron"** mədə-bağırsaq, **"Günəşli"** sinir sistemi, **"Qaranquş"** böyrək, **"Şıx"** sümük-əzələ sistemi xəstəliklərinin müalicəsi üzrə, **"Naftalan"**, **"Xəzər"** və **"Şəfa" (Qax)** sanatoriya və müalicə pansionatları isə ümumi xəstəliklər üzrə ixtisaslaşaraq il ərzində həm yerli, həm də xarici turistlərin sağlamlıq turizm növünün tətbiqi formasında müalicə-istirahətinin təşkilini həyata keçirir [2].

**"Bilgəh"** kardioloji sanatoriyası Bakı şəhərindən 40 km. aralıda Apşeron yarımadasının ən mənzərəli Bilgəh qəsəbəsində Xəzər dənizinin ətrafında yerləşir və ürək-damar sistemi xəstəliklərinin təbii müalicəvi mineral yod-bromlu su ilə müalicəsini həyata keçirir. sanatoriyada turistlər asudə vaxtını əyləncəli idman oyunları, parkda tennis oynları, ekskursiyalar, rəqslər və konsertlərin təşkilində iştirak , kitabxanadan və dəniz vannalarından səmərəli istifadə kimi fərqli proqramlardan istifadə etməklə təşkil edə bilirlər.

**"Abşeron"** mədə-bağırsaq sanatoriyası Bakı şəhərindən 35 km. məsafədə Mərdəkan qəsəbəsində yerləşir və həzm yolu xəstəliklərinin müalicəsini həyata keçirir, su və palçıq müalicəsini tətbiq etməklə xəstələr təbii şəfalı palçıqla müalicə edilirlər. Sanatoriyada müalicə-diaqnostik kabinet və laboratoriyalar, təbii yod-brom vannaları daxil olmaqla balneoloji müalicəxana, elektroişıq müalicəsi, naftalan terapiyası, palçıqla müalicə və masaj, müalicəvi bədən tərbiyəsi və iqlim terapiyası üsulları ilə xəstələrin müalicəsi yerinə yetirilir.

**"Günəşli"** sinir sistemi sanatoriyası Bakı şəhərindən 35 km. məsafədə Mərdəkan qəsəbəsində yerləşir. Burada təbii yod-brom vannaları daxil olmaqla, balneoloji müalicə,elektroişıq müalicəsi, palçıqla müalicə və masaj, müalicəvi bədən tərbiyəsi, sualtı duş-masaj və iqlim terapiyası ilə müalicələr həyata keçirilir.

**"Qaranquş"** uroloji sanatoriyası Bakı şəhərindən 35 km. aralıqda, Abşeron yarımadasının sahilində, Mərdəkan qəsəbəsində yerləşir. Sanatoriya 1979-cu ildən fəaliyyət göstərir və ümumi sahəsi 2,4 hektardır. Müalicəvi ionlar və oksigen ilə zəngin olan Xəzər dənizinin havası, şəfəqli cənub günəşi, qumlu çimərliklər və ən əsası, Çıraqqala təbii mənbəyinin müalicəvi mineral suyu "Qaranquş" sanatoriyasında sidik-tənasül sistemi

xəstəliklərinin müvəffəqiyyətli müalicəsinə zəmin yaradır. Həmçinin, "Qaranquş" sanatoriyasında xəstələr təbii müalicəvi palçıq və mineral yod-bromlu su ilə müalicə olunur, burada (Naftusiya tipli) Qalaaltı mineral su qalereyası da pasientlərə xidmət göstərir.

**"Şix"** sanatoriyanın ərazisində yerin 2 min metr dərinliyindən hidrogen-sulfidli termal isti su çıxır ki, onun da hərarəti 80 dərəcəyə yaxındır. Mendeleyev cədvəlindəki kimyəvi elementlərdən 50-yə qədəri bu suyun tərkibində cəmləşmişdir. Bu müalicəvi sudan əsasən oynaq xəstəliklərində, osteoartrozlarda, osteoxandrozlarda, radikulitin xroniki formalarında istifadə olunur. Bundan əlavə sanatoriyada istifadə edilən zəngin kimyəvi elementləri olan müalicəvi su artridlərdə, əsəb sistemi və ginekoloji xəstəliklərin müalicəsində də tətbiq edilir və müsbət tibbi nəticələr əldə edilir.

**"Naftalan" SM** sanatoriyası Gəncə-Qazax iqtisadi rayonunun Naftalan şəhərində yerləşir və sümük-əzələ, periferik sinir, periferik damar xəstəlikləri, dəri xəstəlikləri, ginekoloji xəstəliklərin müalicəsini təşkil edir. Müalicədə istifadə edilən, kimyəvi tərkibinə görə çox əhəmiyyətli müalicəyə malik olan Naftalan nefti əlavə olaraq əsəb, qaraciyər xəstəliklərinin, oynaqların və dayaq-hərəkət aparatına aid oynaqdan kənar yumşaq toxumaların müalicəsi üçün müstəsna vasitə kimi bütün dünyada məşhurdur.

Bəllidir ki, duz mədənlərində natrium və xlor ionları üstünlük təşkil etdiyindən orada yerləşən duz şaxtaları spleoterapiya-ağciyər bronx xəstəliklərinin müalicəsinə olduqca müsbət təsir göstərir. 1979-cu ildən fəaliyyət göstərən **Naxçıvan Fizioterapiya** xəstəxanasında mikroklimatı natrium ($Na+$) və xlor ($Cl+$) ionları üstünlük təşkil edən duz şaxtalarından bu xəstəliklərin müalicəsində istifadə edilir və müalicələrin də yüksək nəticəsi olmuşdur.

**"Şəfa"** istirahət və müalicə pansionatı də turistlərə xidmət göstərir. Şəki-Zaqatala iqtisadi rayonunda kənd yaşıl, müalicə, istirahət turizmi daha geniş yayılmışdır. Bunlardan daha çox inkişaf etmiş kənd yaşıl turizmi əsasən yerli turistlərin istifadə etdiyi turizm növüdür. Eyni zamanda burada mövsümi ovçuluq, atçılıq, dağ, qış və digər turizm növlərinin inkişaf etdirilməsi üçün də münbit şərait vardır. Qax rayonunda turizmin bu növü - kənd yaşıl turizmi artıq öz təsdiqini tapmışdır. Sadə kənd evlərində istirahət etmək istəyənlərin sayı ildən-ilə artır. Bu turizm növünün inkişafı həm də ailənin sosial-iqtisadi həyat tərzinin güclənməsinə gətirib çıxarır. İlisu, Ağçay, Qaşqaçay, Çinarlı, Qum kəndlərində hazırda bu turizm növündən onlarla ailə yararlanır. Rayonun təbii sərvətləri, zəngin fauna və florası burada ekoturizmin inkişafına da böyük təkan vermişdir. Qaxda xüsusilə dağ, qış və piyada turizmi inkişaf etməkdədir. Bundan əlavə, Qax rayonu kurort sərvətləri cəhətdən də çox zəngindir. Lakin bu imkanlardan o qədər də geniş istifadə olunmur. Bol mineral su ehtiyatlarının varlığı rayonda iqlim-balneoloji kurort zonalarının yaradılmasını zəruri edir. İlisu və Sarıbaş kəndlərində yer üzünə çıxan termal bulaqlar qədimdən xalq təbabətində yel xəstəliyinə qarşı istifadə olunur. İlisu kəndindən xeyli aralıda, Hamam çayı sahilindəki Oğlan bulaq, Qız bulaq və hamam adlanan hovuzlar oraya gedən yüzlərlə xəstəyə şəfa bəxş edir. Son zamanda bu bulaqların suyunun hədər yerə axıb getməsinin qarşısını almaq üçün bulaqların suyu borularla "Ulu dağ" istirahət mərkəzinə gətirilmişdir ki, bu da müalicə zamanı sudan istifadə edilməsini asanlaşdırmışdır. Xəstələr hər cür şəraiti olan rahat otaqlarda bu müalicəvi sudan istifadə edirlər.

AHİK-in məlumatına əsasən 2018-ci il ərzində "Sanatoriyalara və istirahət mərkəzlərinə yollayışların ("putyovka") qiyməti 450-750 manat arasında dəyişir. Lakin, bəzi sanatoriyalarda yaşayış günlərinin sayından, otaqların komfortlu avadanlıqlarla təchizatından (lüks), istirahət edənlərin digər növ komfortlu avadanlıqlara tələbindən asılı olaraq qiymətlərin maksimum səviyyəsi 2100 manata qədər təşkil edə bilir. Onu da qeyd

etmək yerinə düşərdi ki, ötən illə müqayisədə yollayışların qiymətində çox da dəyişiklik baş verməmişdir. Sanatoriya və istirahət evlərinə yollayışlar məcburi dövlət sosial sığortasına cəlb olunan və digər yollayış almaq hüququ olan şəxslərə verilir. Həmin şəxslər yollayışın dəyərinin 15%-ni ödəməklə əldə edirlər. Yollayışların ümumi sayının 10 faizi isə işçilərə (aztəminatlı ailələrə, müharibə iştirakçılarına, əlil, şəhid ailələrinə və s.) ümumiyyətlə tam güzəştlə pulsuz verilir. Qeyd etmək lazımdır ki, yollayışlarda yüksək qiymətlərin yaranması bir qayda olaraq yataq otaqlarının şəraitindən asılı olaraq fərqləndirilir. Sanatoriya kurortlara göndərislərin əvvəlcədən müəssisələr arasında düzgün bölüşdürülməsi məqsıədi ilə müəssisələrin həmkarlar ittifaqı komitələri, onların xüsusi komissiyaları yollayışlara daha çox ehtiyacı olan işçiləri müəyyən edir, onların təqdim etdikləri tibbi arayışa uyğun olaraq, müvafiq müalicə xidməti göstərən sanatoriya kurort müəssisələrinə yollayışlar verilir. Məcburi dövlət sosial sığorta haqqı ödəyən şəxs ailə üzvü üçün də yollayış almaq istədikdə, əgər ailə üzvü məcburi sosial sığorta haqqı ödəyirsə, bu zaman əlavə olaraq onun üçün də yollayışın dəyərinin 15%-ni ödəyir. Vətəndaş işləmirsə, yəni məcburi dövlət sosial sığorta ayırmaları ödəmirsə, bu zaman o, yollayışın ümumi dəyərinin 50%-ni ödəməklə həmin yollayışı əldə edə bilər. Eyni zamanda həmkarlar ittifaqı təşkilatları yollayışı onun tam dəyəri ödənildiyi halda dəa verə bilər. Qeyd etmək yerinə düşər ki, hər il mütəmadi olaraq Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin nəzdində olan Sosial Müdafiə Fondunun vəsaiti hesabına 20-21 min nəfərə yaxın şəxs, həmkarlar ittifaqı üzvü yollayışlardan istifadə edir. Bundan əlavə, həmkarlar ittifaqı təşkilatlarının daxili imkanları hesabına 27-28 min nəfərdən artıq həmkarlar ittifaqı üzvü də yollayışlardan istifadə edir. 2017-ci ildə 48 min nəfərdən artıq vətəndaş sanatoriya kurort müəssisələrində istirahət etmək və sağlamlığını bərpa etmək məqsədi ilə yollayışlardan istifadə etmişdir [5].

AHİK-in üzv təşkilatları da öz vəsaitləri hesabına inşa etdirdikləri müasir tipli pansionatlarda işçilərinin istirahətlərini təşkil edirlər. Məsələn, Rabitə İşçiləri Müstəqil Həmkarlar İttifaqının **Nabran zonasındakı istirahət** mərkəzində, Dəmiryolçuların Müstəqil Həmkarlar İttifaqının Nabrandakı **“Lokomotiv”** istirahət mərkəzində, Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqının Nabrandakı **“Ülfət”** istirahət zonasında, **“Təhsil”** istirahət mərkəzində, Səhiyyə İşçiləri Həmkarlar İttifaqının Qusar rayonu ərazisində istirahət bazasında, Mədəniyyət İşçiləri Həmkarlar İttifaqının **sağlamlıq-istirahət** mərkəzində, Metropoliten İşçiləri

Cədvəl 1

Müxtəlif sanatoriyalarda yerləşmə gününə görə qiymətlər

| Sanatoriyanın adı | Yerləşmənin növünə görə qiymətlər (3 dəfə yemək daxil olmaqla), man | | Sanatoriyanın adı | Yerləşmənin növünə görə qiymətlər (3 dəfə yemək daxil olmaqla), dollar | |
|---|---|---|---|---|---|
| | standart | lüks | | standart | lüks |
| “Naftalan”SM (7 gün) | 450 | 750 | “Xeviz”(10gün), Macarıstan | 879 | 1050 |
| “Bilgəh ” kardioloji (20 gün) | 960 | 1290 | “Müalicəvi Narzan” (10 gün),Kislovodsk | 879 | 950 |
| “Abşeron” (20 gün) | 980 | 1320 | “Orconokidze” (10 gün), Kislovodsk | 749 | 895 |
| “Günəşli” (20 gün) | 980 | 1340 | “Yesentuki” (10 gün), Yesentuki | 600 | 720 |
| “Qaranquş” (20 gün) | 990 | 1500 | “Karpat” (10 gün), Ukrayna | 775 | 880 |

| | | | | | |
|---|---|---|---|---|---|
| “Şıx” (20 gün) | 1240 | 1400 | “Şaxtyor” (10 gün), Ukrayna | 625 | 740 |
| “Şəfa” müalicə pansionatı (15 gün) | 740 | 970 | “Raduqa” (10 gün), Belorus | 980 | 1150 |
| “Qalaltı” (7gün) | 735 | 910 | “Karlovi Var” (15 gün),Çexiya | 1100 | 1350 |
| “İlisu” pansi-onatı (7 gün) | 225 | 420 | "Grand SPA Litva” (15 gün), Litva | 1050 | 1300 |
| “Xəzər ” turist bazası (7 gün) | 280 | 490 | “Çxaltubo” (15 gün), Gürcüstan | 900 | 1100 |




**Şəkil 1. Sanatoriyalarda yerləşmə, müalicə və xidmət səviyyəsinin qiymətləri**
Qeyd: Xarici ölkələrdəki sanatoriyalarda müalicə qiymətləri dolların manat ekvivalentində verilmişdir.

Həmkarlar İttifaqı Birliyinin nəzdindəki **sanatoriya-profilaktoriya tipli sağlamlıq** ocağında müvafiq təşkilatlarda çalışan insanlar müalicə alaraq, sağlamlığını bərpa edirlər. Aşağıdakı cədvəldə Azərbaycanda fəaliyyət göstərən sanatoriyalarla bəzi ölkələrdəki bu tip müalicə ocaqlarının 2018-ci ildə olan mövcud qiymətləri verilmişdir (cədvəl 1.).

Eyni zamanda, məlumatlara əsasən qeyd edə bilərik ki, ölkəmizdə fəaliyyət göstərən sanatoriyalarda gündəlik xərclər xarici ölkələrə nisbətən standart yerləşdirmədə 1,9-2,9 dəfə, lüks yerləşdirmədə 1,6-2,1 dəfə azdır.

Bu məqsədlə ölkəmizdə sanatoriya kurort müəssislərinin tam gücü ilə fəaliyyətinin təmin edilməsi və səmərəliliyinin yüksəldilməsi məqsədi ilə aşagıdakı istiqamətdə tədbirlərin həyata keçiriilməsini vacib hesab edirik:

- fəaliyyət göstərən sanatoriyalara yerli və xarici turist axınının çoxaldılmasına təkan verə biləcək beynəlxalq əhəmiyyətli tədbirlərin həmin ərazilərdə keçirilməsi və onların xidmət səviyyəsi ilə tanış olmaq üçün turistlərin səyahətlərinin təşkil edilməsi;
- innovativ xarakterli xidmətlərin tətbiqi ölkəmizdə kurort sanatoriya turizm növünün inkişafında mühüm rol oynaya bilər;
- müalicə ocaqlarının yeni avadanlıqlarla təchiz edilməsinə dövlət, AHİK və

müxtəlif fondlar vasitəsilə maliyyə yardımının göstərilməsi;

- xarici ölkələrdə və respublikanın ərazisində müalicə ocaqlarının xidmət səviyyəsi haqqında reklam xarakterli çarxların hazırlanması və mütəmadi olaraq kütləvi informasiya vasitələrində işıqlandırılması yollarının müəyyənləşdirilməsi;
- müalicə ocaqlarında kadr hazırlığı səviyyəsinin yüksəldilməsi üçün xarici ölkələrin iş təcrübəsinin öyrənilməsi mübadiləsinin təşkili;
- sanatoriya-profilaktoriya tipli sağlamlıq ocaqlarında və sanatoriyalarda müalicə üçün qəbul edilən pasientlərə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi baxımından əlverişli imkanların yaradılması;
- müalicə ocaqlarının fasiləsiz fəaliyyətini təmin edən iş şəraitinin yaradılması məqsədi ilə onlara kreditlərin uzunmüddətə və az faizlə verilməsinin sürətləndirilməsi.

## Nəticə

Azərbaycan Respublikaının ərazisində fəaliyyət göstərən sanatoriyalarda müalicə məqsədli pasientlərin qəbulu və onlara göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi və xarici ölkələrdən bu məqsədlə turistlər axının sürətləndirilməsi üçün maliyyə xərcləri baxımından əlverişli imkanlar vardır ki, bunun da düzgün təkili ölkə iqtisadiyytatının yüksəldilməsində mühüm rol oynaya bilər. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, ölkəmizdə fəaliyyət göstərən sanatoriyalarda gündəlik xərclər xarici ölkələrlərdəkinə nisbətən standart yerləşdirmədə 1,9-2,9 dəfə, lüks yerləşdirmədə 1,6-2,1 dəfə azdır.

Azərbaycan Respublikaının müalicə ocaqlarının il ərzində fəaliyyətini həyata keçirə biləcək iş şəraitinin yaradılması məqsədi ilə onlara müvafiq kredit təşkilatları tərəfindən kreditlərin uzunmüddətə verilməsinin təmin edilməsini sürətləndirmək vacib şərtlərdəndir. Bütüb yuxarıda qeyd edilənlər ölkəmizin müalicə ocaqlarında kadr ehtiyatlarının ixtisas-peşə hazırlığı səviyyəsinin yüksəldilməsi məqsədi ilə mütəmadi olaraq xarici ölkələrin iş təcrübəsinin öyrənilməsi istiqamətində uzun və qısa müddətli təcrübə mübadiləsinin təşkilini şərtləndirir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Воропаева О.В., Аллахвердиева Э.А. Пути повышения эффективности управления деятельностью предприятия // Вестник Казахстанско-Американского свободного университета. 2006. №4.
2.İsmayılov V.İ. Development prospects of agrotourism in Azerbaijan. Journal Kasmera. 2018, №11
3.https://studopedia.ru/3_159256_geografiya-lechebno-ozdorovitelnogo-turizma.html
4.https://ru.wikipedia.org/wiki /Оздоровительный_туризм
5. http://modern.az/az/news/5762#gsc.tab=0

**Ниджат Мусаев**

## ТРАНСМИССИЯ РАЗВИТИЯ ЛЕЧЕБНО-ОЗДОРОВИТЕЛЬНОГО ТУРИЗМА

**Резюме**

Лечебно-оздоровительный туризм имеет ряд отличительных преимуществ, в т. ч. пребывание на курортах, который характеризуется наличием лечебно-оздоровительных факторов и условиями для их использования.

Современные трансформации курортных предприятий обусловлены изменением характера спроса на лечебно-оздоровительные услуги, что вынуждает эти учреждения диверсифицировать свой продукт, тем самым выйти на новые сегменты потребительского рынка.

В статье показан сравнительный анализ финансовых услуг в республиканских и в зарубежных санаториях, указаны пути повышения потока зарубежных и местных туристов в отечественные санатории.

**Цель -** Определение направлений развития лечебно-оздоровительного туризма в Азербайджане и оценка.

**Методология -** В расчетах научно-исследовательской работы был использован метод экономико-статистического анализа.

**Результат -** Определены показатели, оказывающие положительное влияние на деятельность лечебно-оздоровительных туристических учреждений, и выделены тенденции развития туристического сектора.

**Ключевые слова:** лечебно-оздоровительный, различное лечение, курортные ресурсы, стоимость лечения, повышение эффективности

**Nijat Musayev**

## TRANSMISSION DEVELOPMENT OF MEDICAL AND HEALTH TOURISM

**Summary**

Medical and health tourism has a number of distinctive advantages, including staying at resorts, which is characterized by the presence of therapeutic and health factors and conditions for their use.

Modern transformations of resort enterprises are due to the changing nature of the demand for medical and health services, which forces these institutions to diversify their product, thereby entering new segments of the consumer market.

The article provides a comparative analysis of financial services in republican and foreign sanatoriums and shows ways to increase the flow of foreign and local tourists to domestic sanatoriums.

**Purpose-** Determination of directions for the development of health tourism in Azerbaijan and evaluation.

**Methodology -** In the calculations of research work was used the method of economic and statistical analysis.

**Findings -** Identified indicators that have a positive impact on the activities of health and tourism facilities, and highlighted the development trends of the tourism sector.

**Keywords:** medical - wellness, various treatment, resort resources,cost of treatment, increase efficiency

**UOT 336**

**Təranə Əhmədova**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
**a.tarana1962@gmail.com**

# KOMMERSİYA BANKLARINDA MALİYYƏ NƏTİCƏLƏRİNİN TƏHLİLİ

*Bu işin əsas subyekti kommersiya bankları üçün pul siyasətinin əməli olan gəlir mənbəyidir. Törəmə bankların rentabelliyinin müxtəlif üsulları müəllif tərəfindən də müzakirə olunur.*

***Məqsəd*** – bank əməliyyatlarının gəlirliliyinin müəyyən edilməsi, baş verən dəyişikliklərin səbəblərinin müəyyən edilməsi və mənfəətə təsir edən amillərin öyrənilməsi.

***Metodologiya*** – statistik-təhlil metodu.

***Elmi yenilik*** – bank mənfəəti təhlil edilərkən inflyasiya tempi nəzərə alınmaqla onun məbləği korrektə edilməlidir. Növbəti mərhələdə isə maddələrin və ayrı-ayrı növ fəaliyyətin gəlirliliyinin detallaşdırılmış təhlili aparılmalıdır. Hər mərhələdə nəzərə çarpacaq kənarlaşmalar əlavə olaraq tətbiq edilməlidir.

***Açar sözlər*:** kombinasiya, leveric, marja, likvidlik, qlobal komponentlər, saldo, əmsal metodu, depozit.

***Giriş***

Məqalənin əsas istiqaməti gəlir və xərclərin dəyişməsinin səbəbləri, bankın mənfəətinin artması, ehtiyyatların müəyyən edilməsi kimi aktual məsələlərə yönəlmişdir.

Kommersiya bankının mənfəfti gəlirlərin xərclərdən artıq olması formasında fəaliyyətinin maliyyə nəticəsidir.Ümumi mənfəət məbləği bankın ümumi gəliri ilə ümumi xərclərin fərqi kimi müəyyən olunur.Bankın ümumi mənfəətinin tərkib elementlərini nəzərdən keçirək.

1. Əməliyyat fəaliyyətindən mənfəət
2. Köməkçi fəaliyyətdən mənfəət
3. Digər mənfəət, o cümlədən alınmış və ödənilmiş cərimələrin saldosu, eləcə də ötən illərin faiz və yığımları.

Ümumiyyətlə, bankın sərəncamında olan mənfəət üç qlobal komponenetdən asılıdır: gəlirlər, xərclər və büdcəyə ödənilən vergilər. Həmin komponentlərin artım templərinin müqayisəsi amillərdən bəzilərinin mənfəətə pozitiv, bəzilərinin isə neqativ təsir göstərdiyini qiymətləndirir.

Mənfəətin illik artımını qiymətləndirərkən nəzərə almaq lazımdır ki, həmin artım inflyasiya tempindən aşağı olmamalıdır. Əks halda real gəlirlər azalacaq və bank kapitalı qiymətdən düşəcəkdir. Bank mənfəətini təhlil edərkən inflyasiya tempi nəzərə alinmaqla onun məbləği korrektə edilməlidir. Bunun üçün bankın mənfəətinin nisbi göstəricilərlə qiymətləndirilməsi metodundan istifadə etmək olar. Bu metod əmsal metodu adlandırılır və rentabelik anlayışışı ilə bağlıdır. Kommersiya bankının gəlirliliyinin təhlili aşağıdakı göstəricilər üzrə aparılır:

1. Alınmış faizlər
2. Ödənilmiş faizlər
3. Faiz siyasətindən gəlirlər
4. Ümidsiz kreditlərdən itkilər
5. Digər gəlirlər

6. Digər xərclər
7. Gəlirlərin hesablanmasına qədər mənfəət
8. Vergi tutulan mənfəətin məbləği
9. Vergi tutulan mənfəətdən ödənilən vergilərin məbləği
10. Bankın sərəncamında qalan xalis mənfəət

Balansın nəticə hesablarının təhlili minimal gəlir marjasını, daha doğrusu aktiv və passiv əməliyyatları üzrə dərəcələrdəki fərqi hesablamağa imkan verir. Bu da banka zəruri xərcləri örtməyə imkan verir eyni zamanda mənfəət də əldə edilir. Bankin minimal gəlir əmsalını (Ə min.marj) hesablamaq üçün aşağıdakı düsturdan istifadə olunur:

Əmin marj = inzibzti xərclər-təsərrüfat xərcləri- digər xərclər gəlir gətirən aktivlər üzrə orta qalıq məbləği

Qeyd etmək lazımdır ki, Amerika kommersiya banklarında da minimal faiz marjı göstəricisi eyni qaydada hesablanır. Bu zaman nəzərə alınır ki, əgər əmsal (marj) 3 % səviyyəsindədirsə, onda bank müxtəlif sahələrin şirkətlərinə xidmət edir, 6 % həddində olarsa, onda bank istehlak kreditinə xüsusi diqqət yetirir.

Bank mənfəətinin təhlilinin növbəti göstəricisi faiz "səpələməsi" göstəricisidir.(Fs) Bu göstərici aktiv əməliyyatlar üzrə alinmış faizlərlə passiv əməliyyatlar üzrə ödənilmiş faizlər arasımda fərqi əks etdirir:

Fs= Faiz gəlirləri- Faiz xərcləri

Faiz formasında gəlir gətirən aktivlər – ödənilən passivlər

Stabil işləyən bank üçün bu göstəricinin kəmiyyəti müsbət olmalıdır. Bank təcrübəsində faizsiz xərclərin faizsiz gəlirlərlə örtülməsi hesablanması mühüm əhəmiyyət kəsb edir (faizsiz gəlirlərin faizsiz xərclərə nisbəti). Bu göstəricinin səviyyəsi Amerika təcrübəsində 50% götürülür. Bu o deməkdir ki, faizsiz gəlirlər faizsiz xərclərin 50%-dən az olmamalıdır.

Bank mənfəətinin bölüşdürülməsini təhlil etmək üçün aşağıdakı göstəricilərdən istifadə edilir:

1. Balans mənfəətinin cəmi: o cümlədən

1.1 Vergiyə cəlb olunmayan mənfəət

1.2 Vergi tutulan mənfəət

1.3 Büdcəyə ödəmələr

1.4 Xalis mənfəət

1.5 Kapital və fondlarda kapitallaşdırılmamış mənfəət:

– nizamnamə kapitalı
– ehtiyat kapitalı
– xüsusi təyinatlı fondlar
– dividentlərin ödənilməsi üçün nəzərdə tutulmuş mənfəət
– bir səhmə düşən mənfəət
– bir nəfər bank işçisinə düşən mənfəət

Kommersiya bankının rentabelliyi (gəlirliliyi) bank fəaliyyətinin səmərəliliyinin asas keyfiyyət göstəricilərindən biridir. Bankın rentabellik səviyyəsi rentabellik əmsalı ilə xarakterizə olunur.

Bankın rentabelliyinin ümumi səviyyəsi ($R_{ü}$) bankın ümumi gəlirliliyini, eləcə də gəlirin bir manatına düşən mənfəəti (mənfəətin gəlirlərdə payı) qiymətləndirməyə imkan verir:

$$R_{ü} = \frac{\text{mənfəət}}{\text{bankın gəlirləri}} \times 100\%$$

Bu göstərici aktiv və passiv əməliyyatların gəlirlilik dərəcəsini xarakterizə edən bir sıra əmsalların köməkliyi ilə dəqiqləşdirilə bilər.

Bankın gəlirliliyini əks etdirən əsas göstərici xüsusi kapitalın səmərəlilik göstəricisidir:

$$Ə_1 = \frac{\text{mənfəət}}{\text{Səhm kapitalı (nizamnamə fondu)}} \times 100\%$$

Bu göstərici səhm kapitalının bir manatına düşən mənfəəti xrakterızə edir. Müasir şəraitdə kapitalın kifayətliliyi göstəricisinin azalması hesabına $Ə_1$ artım imkanı məhduddur, çünki aktivlərin artımı resurs bazasının genişlənməsi ilə təmin edilməlidir. Lakin rəqabət şəraitində əksər banklar kapitalın aktivlərə nisbətini optimal səviyyəyə çatdıra bilmir Bu zaman passivlərin strukturunda bankın xüsusi resurslarının böyük xüsusi çəkiyə malik olması bankın resurslarının ümumi dəyərini azaldır, nəticədə gəlirlilik artır. Belə banklar aşağı gəlir marjında yüksək mənfəət əldə edirlər.

Ümumi gəlirdə mənfəətin payının azalmasına faiz və qeyri-faiz xərclər böyük təsir göstərir.Kredit resursları üçün ödənilən faizlərin səviyyəsinin aşağı salınması xərclərin real azalmasını təmin edir. Həmin amillər bank rəhbərliyinin daima diqqət mərkəzində olmalıdır. Çünki, onlar bank fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi imkanlarını göstərir.

Aktivlərin rentabelliyi bankın fəaliyyətini tam adekvat xarakterizə etmir, çünki bütün aktivlər heç də gəlir gətirmir. Gəlir gətirməyən aktivlər hesablamaya daxil edilmədikdə aktiv əməliyyatların gəlirliliyi özünün daha real qiymətini tapmış olur.

$$Ə_6 = \frac{\text{mənfəət}}{\text{Gəlir gətirən aktivlər}}$$

Həmin əmsal gəlir gətirən aktivlərin 1 manatına düşən mənfəət məbləğini göstərir. Kredit resursları kimi cəlb edilmiş vəsaitlərdən istifadə edən banklar üçün bu göstəricilərin mütləq bərabərliyi mümkün deyil, çünki banklar cəlb edilmış depozitlərin müəyyən hissəsini likvid saxlamağa borcludur. Qərb təcrübəsində $Ə_2$ əmsalı investisiyanın rentabelliyi, Ə6 isə aktivlərin rentabelliyi adlanır. Bank xərclərinin səmərəliliyinin qiymətləndirilməsi üçün əksər hallarda mənfəətin ümumi bank məsrəflərinə nisbəti göstəricisindən istifadə olunur ki, həmin göstərici xərclərin 1 manatına düşən mənfəəti əks etdirir. Rentabellik göstəricilərini təhlil etməklə bank fəaliyyyətinin səmərəliliyinin yüksəldilməsi ehtiyatlarını aşkar etmək olar. Bu balans maddələrinin aktivdə əməliyyatların gəlirlilik səviyyəsini və passivdə rasursların dəyəri üzrə qruplaşdırmağa imkan verir.

Bankın xüsusi resursları əsasən gəlir gətirməyən aktivlərə yönəldilməlidir. Xüsusi vəsaitlərin kreditləşmə məqsədləri üçün istifadə olunması resursların dəyərini azaldır və beləliklə bank əməliyyatlarının mənfəətliliyi artır. Buna görə də xüsusi vəsaitləri böyük həcmdə olan banklar aşağı gəlir marjına malik olsalar da yüksək rentabelli ola bilər.

Mənfəət məbləğinin artırılması və xərclərin azaldılması üzrə aşkar edilmiş ehtiyatlar nəzərə alınmaqla ümumi rentabellik səviyyəsi aşağıdakı kimi müəyyən edilir:

$$R_ü = \frac{\text{balans mənfəəti + mənfəətin artırılması}}{\text{faktiki xərclər – xərclər üzrə qənaət}}$$

Mənfəət və rentabelliyin yüksəldilməsi üzrə aşkar edilmiş ehtiyatları mobilə edilməsi

üçün kredit qoyuluşu planının icrasına nəzarət gücləndirilməli, onların artırılması imkanları axtarılmalı, eləcə də bank xərclərinin smetası yerinə yetirilməlidir. Bankın fəaliyyətinin səmərəliliyinin düzgün qiymətləndirilməsi üçün inflyasiya tempi nəzərə alinmalıdır. Bankın nominal rentabelliyi aşağıdakı qaydada hesablanır:

$$Rm = dxb$$

Burada: d – levirinq (aktivlərin kapitala nisbəti), b - isə aktivlərin nominal mənfəətliliyini göstərir.

Bankın real rentabelliyini aşağıdakı kimi hesablamaq olar:

$$R = dxa,$$

Burada: a - aktivlərin real mənfəətliliyinin göstərir

Belə nəticəyə gəlmək olar ki, bankın xərc maddələrinin həcmi nə qədər çox olarsa ( yəni mənfəətin gəlirlərdə payı) bank bir o qədər çox gəlir qazanar və aktivlərin zəruri nominal mənfəətliyini təmin etmiş olar. Rentabelliyin nəzərdə tutulmuş real səviyyəsini əldə etmək üçün bank aktivlərinin gəlirliliyi yüksək olmalıdır.

**Nəticə**

Bankın xərc maddələrinin həcmi nə qədər çox olarsa (yəni mənfəətin gəlirlərdə payı), bir o qədər gəlirli olar. Buna inflyasiyanın yüksək səviyyəsi, aşağı leveric və bankın gəlirlərində mənfəətin payının kombinasiyası ilə nail olmaq olar.

**İstifadə edilmiş ədəbiyyat**


1. Панова Г.С. Анализ надежности ванка, Москва РДЛ 1996 год;
2. Садвакасов К.К. Коммерческие ванки. Управленческий анализ деятелности. Москва: Издательство «Ось - 89», 2000 год;
3. Черкасов В.Е. Финансовый анализ в коммерческом банке. Москва: ИНФРА – М, 2000 год;
4. Пономарев В.Е. Анализ балансов капиталистических банков. Москва: МФИ, 1994 год;
5. Економический анализ деятельности банка. Учебное пособие. Москва: ИНФРА – М, 1999 год;
6. Киселев В.В. Управление коммерчесским банком в переходный период. Москва. ЛОГОС, 2000 год;
7. Основы банкского менеджмента. Москва: ИНФРА – М, 2000 год;
8. Усоскин В.М. Современный коммерческий банк. Управление в операции. Москва; Все для вас, 2000 год.


**Тарана Ахмедова**

## АНАЛИЗ ФИНАНСОВЫХ РЕЗУЛЬТАТОВ В КОММЕРЧЕСКИХ БАНКАХ

### Резюме


Основным предметом данной работы являются источники доходов коммерческих банков, составляющие денежно-кредитную политику. Автором также обсуждаются варианты методов анализа прибыльности коммерческих банков.

**Цель** - определение прибыльности банковских операций, выявление причин изменений и изучение факторов, влияющих на прибыльность.

**Методология** - метод статистического анализа.

**Результат** - при анализе прибыльности банка его сумма должна корректироваться с учетом уровня инфляции. На следующем этапе следует провести подробный анализ

прибыльности статей и отдельных видов деятельности. Смещение на любом этапе должно дополнительно применяться.

**Ключевые слова:** комбинация, леверинг, маржа, ликвидность, глобальные компоненты, сальдо, коэффициентный метод, депозит.

**Tarana Ahmedova**

## ANALYSIS OF FINANCIAL RESULTS IN COMMERCIAL BANKS

### Summary

Main subjekt of this work is the commercial banks sources who make the compoment of monetary policy. Commercial banks varios methods of analysis of profitability commercial banks are also discussed by the author.

**Purpose** - determining the profitability of banking operations, identifying the causes of changes and studying the factors affecting profitability.

**Methodology** - statistical analysis method

**Findings** - when analyzing the profitability of the bank, its amount should be adjusted for inflation. The next step is to conduct a detailed analysis of the profitability of the articles and individual activities. Offset at any stage should additionally be applied.

**Keywords:** combination, leverage, margin, liquidity, global components, balance, coefficient method, deposit

**ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR**

**Elmi-praktik jurnal**

**№ 1 (11), 2019**

**Redaktorlar:**
*Xanımbacı Cəfərli, Aygün Bağırzadə*

**Kompüter tərtibatı:**
*İradə Əkbərova*

Nəşriyyatın direktoru: M.Şəfiyev
Texniki redaktor: S.Mamoyeva

“Müəllim” nəşriyyatında çap olunmuşdur.
Tel.: (+99412) 555 15 60
E-mail: muallim.mmc@gmail.com

Yığılmağa verilib: 03.07.2019
Çapa imzalanıb: 10.07.2019
Format: $70x100^{1/8.}$ 15,0 ç.v. Tiraj: 200